**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FOLKLOR İNSTİTUTU**

# GÜNEY AZƏRBAYCAN FOLKLORU

# XVII KİTAB

**"Elm və təhsil"**
**Bakı -2024**

**AMEA Folklor İnstitutunun Elmi Şurasının**
**qərarı ilə çap olunur**

**Tərtibçi**
**və ön sözün müəllifi**: **fil. e. d., dos. Mətanət MAŞALLAHQIZI (ABBASOVA)**

**Mətnləri toplayanlar:** **Aşıq Səlcuq ŞƏHBAZİ**
**Aşıq Hüseyn SAİ**
**Həbib SASANİAN (YAKAMOZ)**

**REDAKTORU:** **fil.ü.f.d. Qiymət MƏHƏRRƏMLİ**

**Güney Azərbaycan folkloru, XVII kitab,** Bakı, Elm və təhsil, 2024, 374 səh.

*Kitabda Güney Azərbaycanın zəngin şifahi xalq yaradıcılığına aid dastan nümunələri və deyişmələri toplanmışdır.*

4603000000 / N-98-2024 qrifli nəşr

**© Folklor İnstitutu, 2024**

## ÖN SÖZ

"Güney Azərbaycan folkloru" seriyasından təqdim olunan növbəti XVII kitaba Güney folklorundan aşıq dastanları və deyişmələri daxil edilmişdir. Məlumdur ki, xalq dastanlarının yaranması, tarixi təkamülü daha çox Güney folklor mühiti ilə bağlı olmuş və bu ənənə müasir dövrdə də çoxsaylı aşıqlar tərəfindən davam etdirilməkdədir. Güney folklorunda aşıq mühitləri fərqli yanaşmada müxtəlif istiqamətlərdə qeydə alınmışdır. Tanınmış alim Əli Qafqasiyalı təqdim etdiyi bölgüsündə aşıq mühitlərini 7 (1. Təbriz – Qaradağ aşıq mühiti; 2. Urmiya aşıq mühiti; 3. Sulduz – Qarapapaq aşıq mühiti; 4. Zəncan aşıq mühiti; 5. Qum – Savə aşıq mühiti; 6. Xorasan – Türkmənistan aşıq mühiti; 7. Qaşqay aşıq mühiti),[1] Təbriz aşıq ədəbiyyatı üzərində xüsusi araşdırma aparan Nəbi Kobotarian (Azəroğlu) isə 3 qrupda cəmləşdirilməsini irəli sürmüşdür (1. Türkmən bölgəsi aşıq mühiti (Xorasan sahəsi). 2. Qaşqay bölgəsi. 3. Azərbaycan və Təbriz bölgəsi).

İran Aşıqlar Birliyindən Aşıq Səlcuq Şahbazinin "Aşıq ədəbiyyatı" (2013, Tehran) kitabında da bu bölgü 6 qrupda qeydə alınmışdır:

1. Urmiya aşıq mühiti;
2. Təbriz aşıq musiqi məktəbi;
3. Qaradağ aşıq musiqi məktəbi;
4. Həmədan aşıq musiqi məktəbi;
5. Xorasan – Türkmənsəhra aşıq musiqi məktəbi;
6. Qaşqay aşıq musiqi məktəbi.

Aşıq Səlcuq Şahbazi hətta hər bir aşıq məktəbinin öz daxilində bir neçə aşıq mühitlərinin olduğunu, bu mühitlər arasında ləhcə, hava və s. bir-birlərindən fərqləndiyini də nəzər-

---

[1] Əli Qafqasiyalı. İran türkləri aşıq mühitləri, Ərzurum, 2006. https://turuz.com/az/book/title/iran-turkleri-ashiq-muhitleri

də saxlamışdır. İran Aşıqlar Birliyi Şərqi Azərbaycan (Təbriz) şöbəsinin rəhbəri aşıq Məhəmməd İbadinin (Alışıq) araşdırmalarında Güneydə ayrıca böyük və kiçik aşıq mühitləri haqqında məlumat verilir. Böyük aşıq mühitləri adlanan qrupa – Təbriz – Qaradağ, Urmiya (Urmiyə), Zəncan, Qum – Savə, Həmədan, Qaşqay, Xorasan – Türkmənsəhra, kiçik aşıq mühitlərinə isə Heştəri (Çüstəri) – Marağa, Xalxal – Tarum, Güney – Şəbistər (Tufarqan), Sulduz – Qarapapaq[1] mühitləri daxil edilmişdir. Göründüyü kimi, Güney Azərbaycanda aşıq mühitlərinin zənginliyi, bu sənətin xalq məişətində qorunub, saxlanılmasına maraq nəticə etibarilə "Güney Azərbaycan folkloru" seriyasından kitablarımızın hazırlanmasında da ayrıca tədqiqat obyektinə çevrilmişdir . Bu baxımdan kitaba "Əhməd və İbrahim", "Gərgərli Məhəmməd", "Əhməd və Sərvinaz" dastanları, "Koroğlu" dastanından "Koroğlunun Ərzurum səfəri", "Koroğlunun İstanbul səfəri", "Koroğlunun Toqat səfəri" qolları və aşıq deyişmələrinin həm klassik, həm də müasir dövrdə yaranan nümunələri daxil edilmişdir.

Kitabda təqdim edilən ilk dastan – "Əhməd və İbrahim" dastanı Aşıq Səlcuq Şahbazinin toplamasında "İran aşıqlarının dastanları" kitabından götürülmüşdür. Yeri gəlmişkən qeyd edək ki, Aşıq Səlcuq Şahbazi Folklor İnstitutunun Güney Azərbaycan folkloru ilə bağlı araşdırmalarında bizimlə illərdir əməkdaşlıq edir və aşığın söylədiyi dastanlar, topladığı dastan mətnləri tərəfimizdən səsli fayllarda qorunub saxlanmaqdadır. "Əhməd və İbrahim" dastanı Güney aşıqlarından Aşıq Hidayət Mehrinin repertuarından götürülmüş və yazıya alınmışdır. Urmuya aşıq məktəbinin tanınmış nümayəndələrindən olan Aşıq Hidayət Mehri Musa oğlu 1957-ci ildə Qoşaçayın Yazdan kəndində anadan olmuş, gənc yaşlarında Aşıq Dehqan və Aşıq

---

[1] Məhəmməd İbadinin (Alışıq) yazıya alınmayan məruzə – çıxışlarından götürülmüşdür.

Muxtardan aşıqlıq sənətinin sirrlərini öyrənmişdir. Aşıq Hidayət Mehri müxtəlif aşıq havaları, xalq dastanlarının mükəmməl ifaçısı olaraq xalq tərəfindən sevilməkdədir. Aşığın söylədiyi "Əhməd və İbrahim" dastanı xalq nağıl və dastanlarının motivləri əsasında yaradılmışdır. İki qardaş motivi, onların şah sarayında dünyaya gəlməsi, xəyanət və namərdlik nəticəsində saraydan uzaqlaşdırılması, zamanla qardaşların ayrı-ayrı şəhərlərdə böyüməsi, sonda rastlaşaraq bir-birlərini tanıması bir çox xalq nağılları və dastanlarımızda geniş yayılmışdır. "Əhməd və İbrahim" dastanının qəhrəmanları olan iki qardaş Zülal şahın övladlarıdır, şahın ölümündən sonra vəzir Zülal şaha verdiyi sözləri unudur, şahın arvadı ilə evlənib, qardaşları saraydan uzaqlaşdırmağa çalışır. Bir çox dastanlarımızda olduğu kimi, "Əhməd və İbrahim" dastanında da şah oğullarının öldürülməsi üçün onların şikar, ova göndərilməsi, uşaqların ardınca düşən cəlladların onları öldürməyib, sağ buraxması, yaxud quş uçurdub, başına qonan kimsənin şah elan edilməsi – yeni şahın seçilməsi dastanda süjet xəttlərinin ayrılmasında başlıca yer tutur. Dastanda dayənin köməkliyi ilə saraydan uzaqlaşdırılan Əhməd və İbrahim Çinə üz tutur, gecəni kimsəsiz bir yerdə gecələməyə məcbur qalan uşaqlardan İbrahimi bir dərviş sahibsiz bilib, övladlığa götürür. Əhmədsə tanımadığı bir şəhərdə camaatın quş uçurdub, yeni şah seçmələrinin şahidi olur. Uçurulan quş hər dəfə gəlib Əhmədin başına qonur ki, sonda camaat bu gənci özlərinə şah seçirlər. Dastanda bundan sonrakı hadisələrdə yalançı, həddən artıq hiyləgər olan Cüvüd tacir İbrahimi oğurlayır, təhdid edir, uzun macəralardan sonra İbrahim qardaşı Əhməd şahın hüzuruna çıxır, qardaşlar bir-birini tanıyır, nəticədə Cüvüd tacir əməllərinə görə cəzalandırılır. "Əhməd və İbrahim" dastanı da xalq hekayə, rəvayətlərinin məzmununa uyğun olaraq xeyrin şər üzərində qələbəsi ilə bitir.

"Əhməd və İbrahim" dastanı aşıq tərəfindən söylənilən 3 ustadnamə ilə başlayır, vəzir-şah oğulları, İbrahim – Səkinə

Pəri, İbrahim – Cüvüd tacir, İbrahim – Bəyim xanım və s. süjet xəttləri üzərindən inkişaf etdirilir, sonda aşıq dastanı nağıl dililə sonlandırır: "Dedilər, güldülər, bir yüz il bu fani dünyada yaşadılar, özlərindən oğullar-qızlar qoyub, bu dünyadan köçüb getdilər. Və dastanımız da burda başa çatdı. Bu zaman göydən iki alma düşdü. Biri dastan danışan aşığın, biri də bu dastanı dinliyənlərin. Xoşbəxt olun..."

"Əhməd və İbrahim" dastanında aşıq şeirinin müxtəlif şəkillərindən istifadə olunmuş, qoşma, gəraylı, ayrı-ayrı deyişmələr əsasən Səkinə Pərinin anası, Rəhim dərvişlə, Bəyim xanımın anası, İbrahim, vəzir və s. ilə qarşılaşdığı səhnələrdə xüsusilə geniş istifadə edilmişdir.

Kitabda qeydə alınan ikinci dastan – "Gərgərli Məhəmməd" dastanıdır. Dastan Aşıq Mahmud Mərdəfkən tərəfindən söylənilmişdir. Dastanın qəhrəmanı Məhəmməd Gərgərli tacir Xacə Əzizin oğludur. Xacə Əziz bir gün İstanbula səfər edir, dükanları gəzərkən şəhərdə camaatın qaçaqaça düşdüyünü görür. Tacir çaxnaşmanın səbəbini soruşur, məlum olur ki, Əziz xanın qızı Şahzadə xanım saz-sözü ilə 39 aşığı bağlayıb, indi 40-cı aşığı meydanına çağırır. Şahzadə xanımın meydanına gələn Xacə Əziz qızın şəklini alıb, özü ilə bərabər Gərgərə – evinə gətirir. Tacir Xacə Əzizin oğlu Məhəmməd həmin gün yuxuda yatıb Şahzadə xanımı görür. Əksər məhəbbət dastanlarında olduğu kimi, Həzrət Əli Məhəmmədə yuxuda öz əli ilə badə içirdir və nəticədə İstanbullu Əziz xanın qızı Şahzadə xanım ona buta verilir. Həzrət Əlidən "Verdim, səni ona aşıq verdim, onu sənə məşuq. Cəfasın çox çəkərsən, səfası sənindir" – buyruğunu alan qəhrəman sazlı-sözlü aşıq sirrli haqq yolunun yolçusuna çevrilir. Yuxudan ayılan oğlunun birdən-birə saz istəməyinə təəccüblənən Xacə Əziz Məhəmmədi Təbrizli aşıq Teymurun yanına gətirir. Aşıq Teymur Məhəmmədi dinləyib, onun istedadına təəccüb edir. Məhəbbət dastanlarının məzmun və poetikasına uyğun olaraq das-

tanda qəhrəmanın buta aldıqdan sonra xüsusi istedad qazanması, el içində sayılıb-seçilən aşıqlarla deyişmədə onlara qalib gəlməsi dastanda Məhəmmədlə Aşıq Teymurun qarşılaşmasında qeydə alınır. Aşıq Teymur Məhəmmədlə saz-söz deyişməsinə çıxır, lakin sonda aşıq Məhəmmədin soruşduğu din və təriqətdən keçən suallar qarşısında aciz qalır:

Gəl-gəl, arif, səndən xəbər alayım,
Bir şəcər qurulub, yolu nədəndi?
Yeddi yolayrıcı ərkan içində,
Qurğusun kim qurub, yolu nədəndi?

Kim idi əyləşib qırxlar cəmində?
Biri qulluğunda, biri kəmində[1].
Ənkəbut[2] tor çəkib ruhi-zəmində[3],
Onun bə torunun bağı nədəndi?

Nəhayət Şahzadə xanımın arxasınca İstanbula yola düşən Məhəmməd şah sarayına yollanan aşıq, şahzadənin 12 şagirdi ilə görüşür ki, burada da aşıq təhkiyəsi bilavasitə deyişmələr üzərində qurulmuşdur. Dastanın sonunda Gərgərli Məhəmməd Şahzadə xanımla evlənir və aşıq oxuduğu bir xalq mahnısı ilə dastanı yekunlaşdırır.

Qeyd edək ki, "Güney Azərbaycan folkloru" seriyasından VI kitabımızda biz bu dastanın başqa bir variantını oxuculara təqdim etmişdik.[4] "Gərgərli Məhəmməd və Məhparə xanım" adlanan bu dastanda Məhparə xanım İstanbullu xotkarın qızıdır və o, sazda onu bağlayacaq adlı-sanlı aşıqları meydanına çağırır. 39 aşığı bağlayan Məhparə xanım zindana saldırdığı aşıqlardan onun qarşısına çıxa biləcək bir aşıq gətirmələrini istəyir və şərt qoyur ki, əgər belə bir aşıq onun mey-

---

[1] Pusquda
[2] Hörümçək
[3] Yer üzündə
[4] Güney Azərbaycan folkloru, VI kitab. Bakı, Elm və təhsil, 2017, 416 s.

danına gələrsə, sazda bağladığı bütün aşıqları azad edəcəkdir. Zindandakı aşıqlardan biri Təbrizin ustad aşıqlarından Aşıq Baba və Aşıq Məsumun adını Məhparə xanıma söyləyirlər. Məhparə xanımın hüzuruna gələn Aşıq Məsum qocalığından şikayət edir, əgər Məhparə xanıma qalib gələrsə belə bir gözələ layiq olmadığını bildirir. Məhparə xanım aşığı geri qaytarır və ona tapşırır ki, ona layiq gənc bir aşığı hüzuruna göndərsin. El-el gəzib aşıq axtaran Aşıq Məsum sonda Gərgərli Məhəmmədi tapıb Məhparə xanımın sarayına göndərir və hadisələr buradan qaldığı yerdən davam edir. Hər iki variantda yenə də qəhrəmana yuxuda buta verilir, saz-sözdən uzaq düşən Məhəmməd haqq sözünü deyib, saz çalan aşığa çevrilir.

Kitaba daxil edilən ən maraqlı dastanlardan biri "Əmrah və Sərvinaz" dastanıdır. Dastan Aşıq Bahar Amusinin dilindən səsli fayllardan qeydə alınmış, yazıya köçürülmüşdür. Aşıq Bahar Amusi Həsən oğlu 1338-ci ildə (65 yaş) Miyandabın (Qöşaçayın) Təpərəc kəndində anadan olmuş, aşıqlıq sənətinin sirrlərini ustadı Aşıq Dehqandan almışdır. Aşıq hal-hazırda Binabda yaşayır və 45 ildən artıqdır ki, aşıqlıq sənəti ilə məşğul olur, 7 aşığa ustadlıq etdiyini bildirir.

"Əmrah və Sərvinaz" dastanı məhəbbət dastanlarının ənənəvi məzmun və forması əsasında yaradılmış xalq dastanıdır. Bu dastanda da iki qardaş arasında əhd-peymanın pozulması, əmioğlu, əmiqızının sevgisi, onların uzun sınaqlardan keçməsi və sonda qovuşması ənənəvi süjetlərin kontaminasiyasında maraq doğurur. Dastandan məlum olur ki, Ərzədində yaşayan iki qardaş Məhəmməd xan Tühmarın qızı Sərvinaz və Əhməd Lələnin oğlu Əmrah doğulandan göbək kəsdidirlər. Uşaqlar böyüyür, məktəbə gedir, yeniyetməlik çağına yetişəndə onlar bir-birlərini sevirlər. Ancaq Məhəmməd xan Tühmar qardaşının yoxsul olduğunu bildiyi üçün qızını Əmraha vermək istəmir. Bir gün Təbriz valisi Zinharxan məclisinə bir aşıq istəyir ki, Məhəmməd xan Tühmar da Əhməd Lələni onun məclisinə dəvət edir. Zinharxanın qarşısında qəmgin oxuyan Əhməd Lələnin dərdini bilən vali Əmrahı yanına çağırtdırır, onun saz-

sözünü dinləyib, oğlanı çox bəyənir və Məhəmməd xan Tühmarı qızını Əmraha verməyə razı salır. Təbriz valisi Əmrahı üzünə dost, qardaş qəbul edib, onu Sərvinazla nişanlayır və növbəti ildə onlara toy edəcəyini də boynuna götürür. Dastanın bu hissəsində aşıq yeni bir süjeti – Əmrah – Səyyad Pəri süjetini dastana daxil edir. Belə ki, Sərvinazla yenicə nişanlanan Əmraha yuxuda Səyyad Pəri buta verilir və Əmrah öz butasının arxasınca yenidən yollara düşür. Oğluna qoşulan Əhməd Lələ günlərlə yol gedib, sonda Səyyad Pərinin sarayına çatırlar. Butasının yolunu gözləyən Səyyad Pəri Əmrahı imtahandan keçirir və onlar birlikdə Ərzədinə qayıdırlar.

Dastanın süjeti digər dastan mətnlərindən fərqli olaraq iki müstəqil dastandan ibarətdir. İki ayrı-ayrı süjetin üzərində qurulan dastanda hadisələr nəticə etibarilə bir qəhrəman – Əmrahın üzərində cəmləşdirilir. Dastanın mürəkkəb süjeti və hadisələrin əlaqəliliyi belə bir fikri söyləməyə əsas verir ki, aşıq məqsədli şəkildə müxtəlif dastan süjetləri, eləcə də motivlərini bir araya gətirmişdir.

Aşıq sənətində qızla gəlinin deyişməsi, yaxud iki sevgilinin deyişməsi geniş yayılmış üsullardandır. "Əmrah və Sərvinaz" dastanında da aşıq yatıb, yuxuda olan Əmrahın başı üzərində qızla gəlinin deyişməsini xüsusi şəkildə dastan mətninə daxil etmişdir:

Bir qızınan, bir gəlinin bəhsi var,
Gəlin diyər, yaşın üsdən alınmır.
Ağzım içi abi-kövsər bulağı,
Yanağımda dənə-dənə xalım var.

Qız deyir, mən bənzərəm anama,
İnci, sədəf, dürr düzərəm tanama.
Əl dəysə, qoynumda sınar şamama,
Yanağımda dəsdə-dəsdə gülüm var.

"Əmrah və Sərvinaz" dastanı qeyd etdiyimiz kimi, məclis əsnasında aşığın dilindən yazıya alınmışdır. Məhz bu səbəbdən dastanda "Aşıq Binablı ilə ustadının oxuduğu hissə" yarımbaşlığı da aşığın söyləməsində olduğu kimi saxlanılmışdır.

Dastanda aşıq şeirinin qoşma, gəraylı, divani janrlarından istifadə edilmiş, yalnız bir bayatı mətni qeydə alınmışdır. El aşıqlarından Hüseyn Cavan, Mikayıl Azaflı, Əziz Şəhnazi, Aşıq Həşim kimi aşıqların yaradıcılığından müstəqil şəkildə şeirlər səsləndirilmişdir.

Dastanın ayrı-ayrı süjet xətti, sevgililərin keçirdiyi ruhi iztirablar, dialoqların kəskinləşdiyi mətnlərdə müxtəlif aşıq havaları ifa edilmişdir. "Gözəlləmə", "Cəmşidi", "Sima", "Gülşanı", "Xoy Əmrahısı", "Zil Əmrahı", "Şah Xətai divanı", "Qürbəti", "Siyastapur" və s. havaları burada dastan yaradıcılığının əsasında dayanır.

"Əmrah və Sərvinaz" dastanının dil xüsusiyyətlərinə gəldikdə isə qeyd edək ki, dastan sadə xalq dili əsasında səsləndirilmiş, ərəb-fars sözlərinin çoxluğu, cümlə mürəkkəbliyinə geniş yer verilməmişdir. Aşıq təhkiyəsi bilavasitə xalq məişətinin ibarə, frazeoloji vahidləri ilə zəngindir. ("Axı, öyün yıxılmasın, bala sənin, mən nə qədəh sənə söz andırım. Axı, halı olmursan, mənim bağrım çatdıyır", "Qırılıb töküləndə yerə, dedi, vay, Əmrah, dədənin öyü yıxılsın, öyümü yıxdın", "Lələnin gözündə dünya tiri-tar oldu. Bir qazan suyu başdan töhdüm, dırnağınacan isdandı elesə", "Bəs, qardaş, bellə oldı? İndi elə də, qadam dəysin sənin malua da, pulua da, qızuya da", "Deyipdilər, nənəsinə bax, qızını al, qırağına bax, bezin al", "Aşıx, Allah ciyərivi yandırsın. Bə sən mənə bu sözü niyə dedin?", "Axı, Əmrah, Allah dədənin tifağın dağıtmasın", "Xanım, ya Xudanı isdə, ya xurmanı isdə. Bax görüm, qadan alım, ya gə mənimnən gedəh, məni isdə, ya qal burda, kənizdəri isdə" və s. ifadə, cümlələr xalq dilinin zənginliyində aşıq təhkiyəsini daha da emosionallaşdırmışdır).

Qeyd edək ki, Azərbaycan xalq dastanlarından olan “Koroğlu” türk xalqlarının dastan yaradıcılığında ayrıca yer tutmaqla məzmunu, sənətkarlıq xüsusiyyətləri və s. baxımından geniş coğrafi ərazidə yayılmışdır. Dastan Cənubi Azərbaycanda xüsusilə sevilmiş, zaman-zaman aşıqların repertuarından düşməmişdir. Məlumdur ki, dastanın Cənubi Azərbaycan variantının toplanılması ilk dəfə Aleksandr Xodzko tərəfindən həyata keçirilmiş, 1842-ci ildə tərcümə olunmuş və Parisin Milli kitabxanasında saxlanılmaqdadır. “Koroğlu” dastanının Əli Kəmali arxivində saxlanılan variantında “Dastani-Koroğlu və Nigar xanım”, “Eyvazın durna gətirməyə getməsi”, “Koroğlunun Şilat səfəri” qolları tam, “Koroğlunun Sərdar paşa dastanı” natamam şəkildə yazıya alınmışdır. “Koroğlu” dastanının yaranması ilə bağlı folklorşünaslıqda müxtəlif fikirlər mövcuddur ki, rus alimi İ.N.Berezin başda olmaqla mütəxəssislərin bir çoxu dastanda baş verən hadisələrin bilavasitə Cənubi Azərbaycanla bağlı olduğunu qeyd etmişdilər. Bu və ya digər faktlar dastanının Güney Azərbaycan ərazisində xüsusilə geniş yayıldığını bildirməkdədir. Dastan yarandığı dövrdən müasir günümüzə qədər yenə də aşıqların sazında müxtəlif variant, motivlərdə qorunub saxlanmaqdadır. Kitabda təqdim edilən dastanın iki qolu – “Koroğlunun İstanbul səfəri”, “Koroğlunun Ərzurum dastanı” Aşıq Səlcuq Şahbazinin yuxarıda qeyd etdiyimiz “İran aşıqlarının dastanları” kitabında toplanan materiallardan seçilmişdir. “Koroğlunun Ərzurum dastanı” ayrıca Aşıq Yədulla Eyvazpurdan yazıya alınmışdır.

Kitabda təqdim edilən “Koroğlunun Toqat səfəri” qolu həm üslub, həm də dil baxımından əvvəlki dastanlardan fərqlənir. Dastanın dili ərəb-fars sözləri ilə daha çox yüklənmiş və mürəkkəb, bəzənsə anlaşılmaz cümlələrlə ağırlaşdırılmışdır. Dastan Aşıq Məsihullah Rizayi tərəfindən söylənilmiş və tərəfimizdən yazıya alınmışdır. Qeyd edək ki, Aşıq Məsihullah Rizayinin “Kəlbi” dastanı Güney Azərbaycan folkloru seriya-

sından XV kitabımızda[1] qeydə alınmış və kitabın əvvəlində aşığın həyat və yaradıcılığı haqqında qısa da olsa məlumat verilmişdir. Təkrarçılığa yol verməmək üçün aşıq haqqında yalnız bu məlumatları qeyd edirik ki, Aşıq Məsihullah Rizayi (1939-2016) Savə, Qum, Ərak, Həmədan, Qəzvin, Şahsevən aşıqlarının yaradıcılığına yaxından bələd olmuş, aşıq havalarını mükəmməl ifa etmiş, "Şah İsmayıl", "Qərib-Şahsənəm", "Tilimxan", "Abbas Tufarqanlı", "Məsum-Diləfruz" və s. başda olmaqla ustadlardan dinləyib, öyrəndiyi 40-dan çox aşıq dastanını öz repertuarında qoruyub saxlamışdır.

Kitaba son olaraq aşıq deyişmələrindən çoxsaylı nümunələr daxil edilmişdir. Aşıqların qarşı-qarşıya gəlməklə söz, sənət üzərindən şeirləşməsi türk xalqları folklorunda geniş yayılmış üsullardandır. Sənət, bilik və bacarıqların qiymətləndirilməsində meyar rolunu oynayan aşıq deyişmələri onların mifoloji, dini görüşləri, müxtəlif tarixi hadisə və şəxsiyyət haqqında məlumatları, şairlik istedadı, bütövlükdə sənət sirrlərinə yiyələnməsi və s. əhatə edir. Qədim şamanların sınaq mərasimləri, çoban nəğmələrindən qaynaqlanan müasir aşıq deyişmələri Güney aşıq mühitlərində xüsusilə zəngin məzmun, motiv, poetik xüsusiyyətləri ilə seçilir. Aşıq Abbas Tufarqanlı (XVII yüzillik), Xəstə Qasım Tikmədaşlı (XVIII yüzillik) kimi ustad aşıq sənətindən yol alan aşıq deyişmələri müasir dövrdə Aşıq Əziz Şəhnazi, Aşıq Yədulla, Aşıq Sulduz, Aşıq Qəşəm, Aşıq Mərəndli Məhəmməd, Aşıq Hüseyn Sai və s. tərəfindən qorunub saxlanmaqdadır. Güney folklorunda aşıq deyişmələrinin qaynaqları ayrı-ayrı dastanlar, xalq məclislərində (toy mərasimləri, qəhvəxanalarda təşkil edilən saz-söz yarışmaları) sənətkarların qarşılaşması və konkret deyişmə üzərində qurulan müxtəlif folklor mətnlərində qeydə alınmışdır. Məlumdur ki, dastan yaradıcılığında deyişən aşıqlar

---

Güney Azərbaycan folkloru, XV kiktab, Bakı, Elm və təhsil, 2022, 296 s.

ustad, elm, hikmətdən xəbərdar olan, sevilən el sənətkarlarıdır. Bir çox dastanlarımızda bu aşıqlar haqq aşığı olmaqla 7 yerin sirrini bilən ustadlardır. Lakin bu sirr onlara qeybdən verilmiş, izinsiz sirr açmaq aşıqlara yasaq edilmişdir.

Kitaba daxil etdiyimiz aşıq deyişmələri bizə Aşıq Hüseyn Sai tərəfindən təqdim edilmişdir. Burada həm klassik aşıq şerinin ustadları, həm də sonrakı dövrdə yaşayıb yaradan aşıqların irsindən deyişmə mətnləri toplanılmışdır. Təqdim olunan deyişmələri şərti şəkildə belə qruplaşdırmaq mümkündür: 1. Klassik aşıqların yaradıcılığında yer alan deyişmələr; 2. Nisbətən yaxın tarixi keçmiş və müasir dövr aşıqlarının yaradıcılığından deyişmələr; 3. Konkret dastan mətnlərindən seçilmiş deyişmələr; 4. Klassik el aşıqlarının müəyyən qıfılbənd, müxəmməs və s. şeir şəkillərinin götürülərək digər aşıqlar tərəfindən deyişmə şəklində cavablandırılması. İlk qrupa Dirili Qurbaninin Əhməd, Xəstə Qasımın yaradıcılığından "Cəsədlə Can", "Zəminlə Asiman" deyişmələri ilə yanaşı, ayrıca olaraq aşığın Təbrizli Molla Əli, Pəri xanım, Ləzgi Əhmədlə olan deyişmələri qeydə alınmışdır.

Yaxın tarixi keçmiş və müasir aşıqlardan Məzahir Daşqınla Hüseyn Cavan, Aşıq Hüseyn Sainin, müxtəlif el sənətkarları ilə deyişmələri verilmişdir. Bu qrupdan Aşıq Hüseyn Sainin Mərəndli Aşıq Məhəmmədin qıfılbəndinə cavabı, Şair Nəbi, Aşıq Manaf Muğanlı, şair Bəxtiyar, Aşıq Güləhməd, Aşıq Sirus, Əziz Şəhnazi, Aşıq Hüseyn Nəcar kimi aşıqlarla şeirləşmələri yazıya alınmışdır.

Məlumdur ki, bir çox xalq dastanları bu və ya digər ustad aşıqların həyatı, müxtəlif məişət macəraları, səfərləri, sevgi, istəkləri və s. əsasında yaranır. Bu qrup dastanların yaranması həm də o aşığın yaradıcılığı, şeirlərinin dastanlaşması hesabına formalaşır. Bu baxımdan "Abbas və Gülgəz" (Abbasla Gülgəzin deyişməsi), "Əsli və Kərəm" (Kərəmlə Varanuş), "Gülüs-

tan xanımla Aşıq Əlyar", "Ululu Kərim və Süsən xanım" dastanlarından da ayrı-ayrı deyişmələr də kitaba daxil edilmişdir.

Aşıq sənəti, ədəbiyyatının geniş yayılmış sənətkarlıq məsələlərindən biri də aşıqların müxtəlif dövrlərdə yaşamış ayrı-ayrı aşıqların yaradıcılığından müəyyən qıfılbənd, şeirlərin seçilməsi və bu mətnlər əsasında aşıqların deyişmə təşkil etməsidir. Kitabda Xəstə Qasımın müstəzad qıfılbəndinə Aşıq Ələsgərin verdiyi cavab (bu qıfılbəndi vaxtilə şair Burzinin Aşıq Ələsgərə göndərdiyi bildirilir), Aşıq Ələsgərin qıfılbəndinə Göyçəli Aşıq Bəhmənin, Hüseyn Sainin, Qurbaninin bir qıfılbəndinə və "Baba Neysan" dastanlarından iki ayrı-ayrı qıfılbəndlərə cavabları qeydə alınmışdır.

Təqdim edilən dastan və deyişmə mətnləri transliterasiya və səsli fayllardan orijinal formada qeydə alınmış, dialekt sözləri, ərəb-fars ifadələrinə lüğət üzərindən aydınlıq gətirilmişdir. Qeyd edək ki, səs yazılarında müşahidə edilən anlaşılmazlıqlar, yazı mətnlərinin transliterasiyada yaratdığı çətinliklər və s. bağlı olaraq mətnlərin toplanıb, yazıya alınmasında yaranan qüsurları mümkün olduqca aradan qaldırmağa çalışmışıq. Canlı müsahibə və dinləmə imkanlarımız olmadığı üçün bu baxımdan kitabda müəyyən qüsurların aşkar olunması qaçılmazdır.

Kitabda səsli faylların köçürülməsi, qədim türk mənşəli, ərəb-fars mənşəli sözlərin oxunuşu, aşıq dilindəki mürəkkəb ifadə, cümlələrin aydınlaşdırılması, müxtəlif şərhlərin qeydə alınması, eləcə də konkret aşıqlarla söhbətlərimizin təşkilində göstərdiyiköməyə görə dil və sənət məsələlərini müstəqil tədqiqatlarında araşdıran hörmətli Həbib Sasaniana (Yakamoz) öz təşəkkürümüzü bildiririk.

***Mətanət Maşallahqızı (Abbasova)***
***Filologiya elmləri doktoru, dosent***

# ƏHMƏD VƏ İBRAHİM

Bəli, əzizlərimiz aşıq dastanı başlamamış bir ustadnamə diyər, biz də geçmiş ululların saldığı izdən çıxsaq, yolumuzdan azarıx. Bəs ustadnamə belə başlanır:

Sazımın sözümün, haq kalamımın,
Nitqimin muradı Əlidir, Əli.
Gözümün diydəsi, quşumun səsi,
Dilimin fəryadı Əlidir, Əli.

Üz tutub asmana, çağırdım Heydər,
Yol açıb, "gəl" dedi saqiyi-kövsər.
Yeddi qat göyləri gəzdim sərbəsər,
Ruhumun qanadı Əlidir, Əli.

Otuz cüz Quranı, elmi nihanı,
Mənə bəxş edibdi kərəmin kanı.
Yerim Dirilidi, adım Qurbanı,
Ustadlar ustadı Əlidir, Əli.

Ustadlar ustadnaməni bir yox, iki deyib, biz də diyək iki olsun:

İnsan oğlu, yalançıya inanma,
Yalançılar sədaqəti nə bilir?
Ya dost olma, ya da dostu unutma,
Dostu satan şərafəti nə bilir?

Aqil insan gördüyündən qazanar,
Bu günün düşünər, sabahın qanar.
Həya mane olar, insan utanar,
Həyasızlar qəbahəti nə bilir?

Gəl, ey katib, dərdə dərmandan danış,
Bir dərd bilən, bir də loğmandan danış.
Sən ədalət pişə[1] sultandan danış,
Yırtıcı qurd ədaləti nə qanır?

Ustadlar ustadnaməni iki yox, üç deyib, biz də diyək, üç olsun, düşmən ömrü puç olsun.

İnsan oğlu, bu dünyanın var-dövləti boşdu, boş.
Ölənətək çalışırıq, əziyyəti boşdu, boş.
Gedənlər nə apardı ki, bizlər də nə aparaq?
Gedəni çılpaq göndərir, səxavəti boşdu, boş!

Kim imandan danışırsa, imanını satmasın,
Allah yolu müqəddəsdir, özünü allatmasın.
Əldə Quran, içdə şeytan, aralığı qatmasın,
İmanı şeytana verərsə, ibadəti boşdu, boş.

Misal var ki, uzaq görən kişi imiş atalar,
Halal əkmiş, halal biçmiş, halal yemiş atalar.
Əl tutmaq Əlidən qalıb, belə demiş atalar,
Əl tutub, başa qaxırsa, kəraməti boşdu, boş.

Ağır otur, batman gəl ki, "bərəkallah" desinlər,
Elə hərəkət etmə ki, küssünlər, incisinlər.
Bir məclisdə zəhlə töküb, baş aparan kişilər,
Gəvəzəlik eyliyirsə, mərhəməti boşdu, boş.

Bel bağlama bu dünyaya, dünya sənə yar olmaz,
Hər kəsin bir taleyi var, hər kəs bəxtiyar olmaz.

[1] Peşə

Qocalıb əldən düşərsən, əldə ixtiyar olmaz,
Salman, dünyaya bağlanma, sədaqəti boşdu, boş.

Bəli, əzizlərimiz, sizə xəbər verəciyəm Toqat şəhərindən. Toqat şəhərində Zülal Şahdan.

Zülal şahın yaşı yarıdan çox keçmişdi. Allah buna iki oğlan evlad verdi. Böyügünün adını qoydu Əhməd və iki yaş Əhməddən kiçiyinin də adını qoydu İbrahim.

İbrahim beş yaşa çatmışdı, buların anası dünyadan getdi. Zülal şah məcbur qalıb uşaxlarına bir dayə tutdu. Ama bu dayə bu uşaxlara o qədər məhəbbət yetirdi ki, bu uşaxlar heç anasızdıx hiss etmədilər. Bu uşaxlar dayiyə və dayə uşaxlara o qədər məhəbbətləri dərin idi ki, bir-birlərin beş dəyqə görməseydilər, aram-qərarları gəlməz idi. Əhmədinən İbrahim bu dayənin himayəsində böyüməkdə olsunlar, ama vəzir-vəkil, qohum-qardaş yığıldılar Zülal Şaha məsləhət verdilər ki, sən bir xanım tapıb yenidən evlənməlisən. Və məcburən Zülal şah bir orta yaşlı xanımnan evləndi. Zülal şah devran sürməkdə olsun. Ama uşaxlar da böyüyüb on-on iki yaşa çatmışdı. Zülal şah vəzirini çağırdı, dedi:

– Vəzir, mənim ömrümə heç ehtibar yoxdu. Birdən mən başımı yerə qoydum, sən bu tac-təxdə oturmalısan, o zamana qədər ki, oğlum Əhməd həddi-buluğa çatınca. Ondan sonra Əhməd şahlıx tac-təxtində oturmalı və Əhməd bu tac-təxtə sahib olmalıdı.

Şah bunu vəzirə dedi və bir kağız götürüb yazdı və imzaladı verdi vəzirə. Bir neçə ildən sonra Zülal şah dünyasını dəyişdi. Vəzir bütün vəzir-vəkili cəm eliyib dedi:

– Bax, Zülal şahın vəsiyəti belədi, bundan sonra mənim əmrimdə olmalısız.

Vəzir tac-təxtdə oturub, qılıncının dalı da kəsir, qabağı da. Bu vəzir şahlıxda olsun və Zülal şahın oğlanları da böyüməkdə. Ama sizə xəbər verim Zülal şahın ikinci arvadından.

Bı nə oyun oynadı, özün verdi vəzirin yanına ki, ay vəzir, indi ki şah öldü, mən də ərsizəm, sən də şah olubsan, elə ikimiz bir hayat qursax nə gözəl olar. Mən də bu saraydan getmərəm və sənə də bilmədiklərini diyərəm. Çox dastanı uzatmıyax. Vəzir Zülal şahın arvadını da aldı. Və bulardan bir oğlan uşağı da dünyaya gəldi.

Bular yeyib-içib, kefdə-damağda olsunlar. Bir gün dayə uşaxlara baş vurmağa saraya gələndə, gördü şahınan arvadın səsi ucalır. İstədi içəri girsin, dedi, qoy görüm bu şah arvadınan nə danışırlar. Diqqət edəndə gördü, arvad şaha deyir ki, ay şah, sən nə fikirsiz şahlığa davam edirsən?

Şah dedi:

– Nə etməliyəm ki, mən bilmirəm?

Arvad dedi:

– Ay yazıx, Zülal şahın oğlanları böyüyüb sabah hərəsi bir Zülal şah olacax. Olar cavan, səndə ki qocalırsan. Sabah oların biri şah olacax və səni heç vəzirliyə də götürmüyəcəklər, nə də sənnən mənim oğlumuza bu tac-təxtdə bir yer qalmıyacax.

Şah dedi:

– Xanım, neyləməliyəm?

Xanım dedi:

– Sən Əhmədinən İbrahimi öldürməlisən ki, gələcəkdə tac-təxt bizim oğlumuza yetişsin.

Şah dedi:

– Ay xanım, mən Zülal şahın duz-çörəyin yemişəm, mən necə onun oğlanların öldürüm? Camaat bilər, mən biyabır olaram.

Xanımı dedi:

– Onun yolun mən bilirəm. Sən bir şikar tədariki gör, oğlanlara da de ki şikara gəlsinlər. Bir-iki dəfə apar bir neçə

şikar vırsınlar, gəlsinlər. Ağızlarında tamları[1] qalsın. Sonra bir gün tək yollarsan və bir şikarçıya diyərik, gedər hər ikisini də çöldə güllələr. Və buna heç bir kəs şəkk eləməz. Və çox rahatçılığınan tac-təxt düşər öz oğlumuzun əlinə.

Bular yazdılar-pozdular, ama bunu yaxından eşidən Əhmədinən İbrahimin dayəsinin canına qor düşdü. Dayə dedi, vay, evim yıxıldı. Bu yazıx dədəsiz uşaxların nə günahları var ki, bular bu fitnəyilə həlak olalar? Bu yazıx dayənin əlləri əsə-əsə kor-peşman qayıdıb gələndə Əhmədinən İbrahim çıxdı dayənin qarşısına. Bular dayəni görən kimi özlərini bir quş yuvada anasının köysünə[2] sığınan kimi sığındılar dayənin köysünə. Bu uşaxlar diqqət edəndə, gördülər dayələrinin gözlərindən yaş gəlir. Oğlanlar dedilər:

– Anacan, niyə ağlırsan? Sənə nə olub? Kim sənə nə deyib?

Dayə dedi:

– Ay balalarım, dayanın, görün sizə nə deyirəm, ama dediklərimi yazın, yaduzda qalsın və heç vaxt unutmuyun.

Burda dayə görək nə deyir və Əhmədilə İbrahim nə eşidir:

Bu gün seryəğubdan bir söz eşitdim,
Gedin balalarım, qalmayın burda.
Nə ölşdülər, nə bişdilər bilirəm,
Əhməd-İbrahimim, qalmayın burda.

Əhməd dedi:

– Ana, nə eşidmisən, kim nə deyib? Sənin sözündan bir söz ayrılır, açıq-aydın de görək, nə deyirsən.

Lələ dedi:

[1] Dadı
[2] Köksünə

– Balalarım, deyirəm, əgər başa düşməsəz, diyəcəm.
Götürüb lələ ikinci bəndini necə deyir:

Şum sitarəniz olubdu qara,
Tükənməz bir dərddi, sağalmaz yara.
Sabah vəzir sizi yollar şikara,
Gedun balalarım, qalmayun burda.

Əhməd dedi:
– Ana, haramız var, kimimiz var, hara gedək?
Lələ dedi:
– İndi diyiciyəm, bir dayanın.
Burda dayə götürüb üçüncü bəndini necə deyir:

Tərk eyləyin bu gün xanimanızı,
Buradan qurtarın şirin canızı.
Vəzir əmr eyliyər, tökər qanızı,
Gedun balalarım, qalmayun burda.

Əhmədinən İbrahim dedilər:
– Ay ana, axı bizim günahımız nədi ki, vəzir əmr verəcək, bizim qanımızı tökələr?
Dayə dedi:
– İndi deyirəm, ay balalarım, bir qulaq asın.

Firuzə də sözlərini bildirir,
Dostlar ağlar, düşmənləri güldürür.
Sabah vəzir hətmən sizi öldürür,
Gedun balalarım, qalmayun burda.

Bəli, Firuzə dayə vəzirinən arvadının danışıxlarını və olar nə qərara gəliblər, buların nəzərlərinə çatdırdı. Buları tam

başa salandan sonra bu şahzadələr dayənin dediklərinə inandılar. Dedilər:

– Ana, biz nə vaxt gedək və hara gedək?

Dayə dedi:

– Balalarım, qoyun gün batsın. Camaatın gəl-gedi bir az azalandan sonra mən gəlləm. Bir az da yemək gətirrəm, sizi yola salaram. Şəhərdən çıxardaram. Ondan sonrasını özünüz bilərsiniz. Hələlik gedin, heç yana da çıxmayın mən gəlincən.

Gecədən bir az keçmişdi, dayə əlində bir az yemək gəldi, buları götürüb gətirdi, şəhərin dərvazasından yola saldı. Dedi:

– Balalarım, bax belə düz getsəz, gedər Çin vilayətinə. Çinin padşahı sənin atovunan[1] dostdu, özünüzü ona çatdırsaz və ona dərdinizi desəz, o, bir çarə tapar.

Dayə tapşırmalarını tapşırıb, bu balaca balalar öz torpaxlarından qaçax düşüb qaça-qaça getdilər. Ama dayə buların arxasınca ta öz evinə gedincə baxıb, gözlərinin suyu süzülə-süzülə bu da qayıtdı evinə.

Bu tərəfdən də Əhmədinən İbrahim durmadan, dayanmadan yerihayürü, gəldilər çatdılar bir arxın kənarına. İbrahim balaca uşaxdı, nə heç biri piyada yol getmiyiblər, ama burda sübh açılıncan qaçıblar. Bular gəlib çatdılar bir arxın kənarına. İbrahim dedi:

– Qardaş, mən daha qaçammıram, yorulmuşam.

Bu iki şahzadə bu arxın üstündə oturan kimi acbasusuz buları yuxu apardı. Bu iki şahzadə burda yatıb qalmaxda olsunlar, sizə xəbər verim başı batmış vəzirdən. Sabah açıldı, vəzir çağırdı mavinin, dedi:

– Gedirik şikara, qaçın Əhmədinən İbrahimi də gətirin.

Bu gəldi gördü, dedi:

[1] Atanızla

– Firuzə dayə, uşaxlara de gəlsinlər. Şah deyir, şikara çıxmalıyıx.

Dayə dedi:

– Gedin şaha deyin ki, Əhmədinən İbrahim dünən məktəbdən gəlmiyiblər.

Bu mavin gəldi şaha xəbər verdi. Şah dedi:

– Gedün o yaramaz dayəni gətirin, görüm şahzadələrin başına nə bəla gəlib ki dünənnən olar məktəbdən gəlmiyiblər.

Bular gəldilər, dayəni gətirdilər şahın huzuruna. Dayə gələn kimi şah dedi:

– Dayə, de görüm o uşaxların başına nə bəla gətiribsən? Olar əgər dünəndən gəlmiyiblər, bəs sən niyə dərdara xəbər vermiyibsən?

Dayə dedi:

– Şah sağ olsun, mən də heç gecəni sübhə qədər yatmamışam. Elə istiyirdim geyinəm, gələm sənə xəbər verəm ki, bu şikara gedən adamın gəldi.

Bunu şahın arvadı eşidən kimi şaha dedi:

– Şah sağ olsun, bu dayənin bu uşaxlardan xəbəri var, yalan deyir. Bu dayə uşaxları qaçırdıb. Sən atlı sal şəhəri, kəndi axtarsınlar və ta uşaxlar uzaxlaşmamış tapsınlar, gətirsinlər. Elə olmasa, bu uşaxlar bir gün tapılıb gələcəklər və tac-təxtə sahab çıxacaxlar.

Şah əmr verdi cəlladlar, bütün cəlladlar at üstündə hazır oldular. Şah dedi:

– Gedin, o iki şahzadəni hardadı, tapın gətirin.

Cəlladlar bütün şəhəri gəzdilər, bulardan bir xəbər olmadı. Şəhərdən çıxdılar, gördülər bir yol var, o yolunan iki uşağın ayaxlarının rəddi[1] qalıb. Düşdülər o ayax izinə gəldilər gördülər bəli, bu iki balaca balalar arxın qırağında yatıblar. Cəlladlar yapışdılar bu iki körpə şahzadənin qollarından, qal-

[1] İzi

dırdılar ayağa. Oğlanlar bu cəlladları görəndə İbrahimin gözləri doldu, başladı ağlamağa. Cəlladlar istədilər İbrahimi çəksinlər atın tərkinə. İbrahim qaçdı sığındı Əhmədin qucağına. Bular bilirdilər əgər buları aparıb vəzirə versələr, buları öldürtdürəcəkdi. Amma cəlladlar İbrahimi Əhməddən araladılar. Bu zaman İbrahim dedi:

– Ay cəlladlar, siz bizim atamızın çörəyin-duzun yeyibsiz, niyə bizi aparırsız vəzirə? Vəzir bizi istiyir öldürə.

Amma cəlladlar dedilər:

– Biz bilmirik sizin aranızda nə var. Şah bizə fərman verib. Biz məcburux sizi aparax şahın hüzuruna.

Burda İbrahim dedi:

– Cəlladlar, onda icazə verin, mən sizə bir neçə kəlmə deyim. Baxmasanız, bizim qolumuzu bağlayıb aparın.

Burda görək, İbrahim nə deyir:

Bir sözüm var sənə, a cəlladbaşı,
Aman cəllad, müsəlmanlıx günüdü.
Ağlaram, gözlərim tökər qan-yaşı,
Aman cəllad, müsəlmanlıx günüdü.

Siz mərd olun, budur mərdin diləgi,
Mərdin olsun imam Hüseyn köməgi.
Sizi tutar Zülal şahın çörəgi,
Aman cəllad, müsəlmanlıx günüdü.

Cəllad dedi:

– Ay oğlan, siz niyə bir belə vəzirdən qorxursuz?

İbrahim dedi:

– İcazə verin, bir kəlmə də deyim, bəlkə siz qəbul edəsiz. Qəbul eləməsəz, elə özüz burda bizi öldürün. Aparmıyun vəzirin yanına.

Burda görək üçüncü bəndi necə deyir:

Qurban olum gözlərüzün məstinə,
Nə düşübsüz iki uşax qəsdinə.
Kim dedi ki çıxdız yollar üstünə?
Aman cəllad, müsəlmanlıx günüdü.

Cəlladların biri dedi:

– Oğlan, siz niyə bir belə vəzirdən qaçırsız axı? Siz Zülal şahın oğlusuz, sizin əlizdən nə xata çıxıb ki, vəzir sizi öldürmək qərarına gəlib.

İbrahim bu cəlladları hər bir əhvalatdan agah edəndən sonra düz-çörəyin qədrini bilən cəlladların biri dedi:

– Mən bu günaha bata bilmərəm. Mən bu uşaxları aparmıyacam, nə olacax, olacax.

Ama cəlladların biri dedi:

– Yox, mən buraxmam. Mən buları aparacam və şahdan da küllü-ənam alacam.

Bu zaman o biri cəllad dedi:

– And olsun o duz-çörəyə, istiyəsən bu uşaxlara bir söz diyəsən, ya gedib şaha diyəsən ki, tapdıx, ama gətirmədıx, səni doğram-doğram edərəm.

Cəllad dedi:

– Uşaxlar, hara gedirsiz? Mənim işim yoxdu, gedin. Ama gecə-gündüz yol gedin, bu sərhəddən çıxın. Birdən başqa cəlladlar gələr, sizi tapar, aparar verər o zalım vəzirə. Mən də gedəciyəm, diyəm ki, biz tapa bilmədik.

“Sizə yaxşı yol”, deyib cəlladlar qayıtdılar gəldilər, vəzirə dedilər ki, vəzir, başın sağ olsun, hər yanı gəzdik, heç bir əsər tapa bilmədik.

Vəzirinən arvadı fikirləri burdadı ki, bu uşaxlar hara getdilər. Bu işin axırı necə olacax. Bular bir gün tapılıb gələcəklər. Bular burda qalsın, sizə xəbər verim Əhmədinən İbrahimnən.

Əhmədinən İbrahim gecə-gündüz yatmadan, durmadan o qədər gəldilər ki, öz sərhəddərindən çıxdılar. Gəldilər Çin torpağına çatdılar. İbrahimin həm yuxusu gəlir, həm də acıxıb. Gecə də düşüb, qaş qaralıb. İbrahim dedi:

– Qardaş, mənim dizim daha gəlmir, gəl bu gecəni burda yatax qalax.

Əhməd dedi:

– Qardaş, bax qabaxda görürsən çırax işığı gəlir. Gəl bir az da yol getsək, bir abadlığa çatarıx, biraz da yeyib içərik.

İbrahim dedi:

– Əhməd, belə bir addım əsla mən gedə bilmərəm. İstirsən sən get, o görünən işıxlıxda bir şey tapa bilsən, gətir. Mən yatdım, vəssalam.

Əhməd İbrahimi bir daşın daldasında yatırtdı, ama tapşırdı ki, gözdə, birdən durub yeruvu dəyişmə ha, mən gedim çörək gətirim, ye. Dizlərün gücə gəlsin, sonra yolumuza davam edək.

İbrahim yatdı qaldı. Ama Əhməd yola düşüb gələr o işıxlığa sarı. Əhməd o qədər gəldi, ta çatdı Çinin bir şəhrinə. Baxdı ki, dərvazalar hamısı bağlanıb. Hər nə dərvazaları çaldı, açan olmadı. Məcbur olub Əhməd gecəni yatdı dərvazaların dalında, ta ki sabah dərvazalar açıldı. Əhməd gəldi bu küçə o xiyabanandan, bir çörəkçi tapdı. Durdu səfə bir neçə çörək götürdü, istədi çörəyin pulunu versin, baxdı ki, yanında bir pul yoxdu. Çıxartdı barmağından üzüyü, verdi çörəkçiyə. Çörəksatan dedi:

– Oğlan, mən bir neçə çörəyə görə bir üzük xırdalıyacıyam?

Çörəyi aldı Əhmədin əlindən.

Bunu bir nəfər səfdə olanlar da gördü. Dedi:

– Bala, sən diyəsən qəribsən?

Əhməd dedi:

– Bəli, ağa, qəribəm ki, heç pulum da yoxdu. Özümüz də acıx.

Bu adam dedi:

– Narahat olma, mən çörəyin pulunu verdim. Sən götür, get.

Əhməd çörəkləri götürüb gəlməkdə olsun, sizə xəbər verim İbrahimdən. İbrahim bir az yatdı. Soyux vırdı bunu, yuxudan oyatdı. İndi İbrahim bir yanda ac, bir yanda sovux, bir yanda gecənin qorxusu düşüb İbrahimin canına. İbrahim ağaşda yarpağ əsən kimi əsib titrəyir və həzin-həzin də ağlayır ki, bəs qardaşım harda qaldı. Bu da burda qalsın, sizə xəbər verim bu şəhərdə Rəhman adlı bir tacirdən ki, həm tacirdi, həm də çox rəhmdil bir dərviş. Bu dərviş hər gün axşamçağı bir neçə dostlarıynan dərviş paltarında şəhərdən çıxardılar kəndlərə, obalara baş vırardılar ki bəlkə bir neçə nəfərə köməkləri keçsin və bir savab qazanmış olalar. Bular da yolunan gedəndə, gördülər bir uşax burda sovuxda titriyir. Rəhman dərviş getdi İbrahimə sarı ki, ay bala, sən bu gecənin aləmində tək-tənha burda nə gəzirsən? Bunu görən kimi İbrahim başladı ağlamağa ki, ay cəllad, səni and verirəm allaha, məni öldürmə. Dərviş dedi, ay bala, cəllad nədi, ölüm nədi? Sən kimsən, burda nə gəzirsən?

Bu zaman İbrahim dedi:

– Cəllad, qabağa gəlmə. Mən deyim, mən kiməm və burda nə gəzirəm.

Burda götürüb görək İbrahim nə deyir və dərviş nə eşidir:

Gedən yox-gələn yox, bir xəbər alam,
Gözüm yolda qaldı, qardaş gəlmədi.
Durub şirin canı qəmlərə salam,
Gözüm yolda qaldı, qardaş gəlmədi.

Dizim tutmur özüm sənə yetirim,
Sən abdal ol, mən kəşkülün götürüm.
Dedi, otur burda gedim təam[1] gətirim,
Gözüm yolda qaldı, qardaş gəlmədi.

Sən mənim sultanım, sən mənim xanım,
Sənə qurban olsun bu şirin canım.
Qəbristanda qalıb, qardaş, İbrahim,
Gözüm yolda qaldı, qardaş gəlmədi.

Bu sözləri eşidən Rəhman dərviş daha bundan artıx dözə bilmiyib, əbasını çıxardıb İbrahimi bükdü əbasına və alıb atının tərkinə, düz gəldi evinə. Rəhman dərvişin evladı yoxudu. Həmişə evlad arzusunda yaşıyırdı. Rəhman dərviş evə girən kimi dedi:

– Ay arvad, gəl, Allah bizə bir evlad yetirib.

Xanım dedi:

– Ay kişi, bu körpə uşağı hardan gətirdin?

Dərviş bütün əhvalatı xanımına danışıb və bu zaman dərviş dedi:

– İndi inandın ki, Allah bizə bu oğlanı qeybidən göndərib. Dedi, xanım, götür bu balaca balanı köynəyindən keçir. Və xanım indidən də deyirəm sabahdan nə ki var-dövlətim var, yazdıracam bu oğlanın adına. Və oğul, indidən mən sənin aton[2], sən də mənim oğlum.

Dərvişin xanımı İbrahimi köynəyindən keçirib və İbrahim gördü bu ər-arvad həddindən artıq buna əlaqə[3] yetirirlər. Çox sevinib Allahına şükr elədi ki, hələ bundan sonra heç olmasa cəlladlardan canı qutardı. Dərviş bir müəllim gətirib,

---

[1] Yemək, qida

[2] Atan

[3] Burada sevgi deməkdir.

bu müəllim İbrahimə dərs verməkdə olsun, ama sizə xəbər verim Əhməddən.

Əhməd çörəkləri vırıb qoltuğuna yola düşdü. Gün az qalmışdı günorta ola, çatdı İbrahimdən ayrıldığı yerə. Baxdı ki, qardaşından bir xəbər yoxdu. Hər yanı gəzdi-dolandı, ama İbrahimdən sorağ olmadı ki, olmadı. Əhmədi qəm bürüdü. Dedi:

– Ey Allah-taala, bu nə işdi biz yazıxların başına gətirirsən? Qardaşımnan da oldum.

Əhmədi qəm basıb, gözlərindən yaş süzülə-süzülə götürüb görək, nə deyir:

Gedən yox, gələn yox, yollar bağlıdı,
Görəsən qardaşım hayana getdi?
Qəm ucundan bağrım başı dağlıdı,
Görəsən qardaşım hayana getdi?

İbrahimi bir də görəm köçümdə,
Görən taparammı Çində, Maçində?
Gözüm ağlar qaldı daşlar içində,
Görəsən qardaşım hayana getdi?

Bir ah çəkim, ahım getsin havayə,
Qadir Movlam, özün yetiş harayə.
Əhməd deyir, İbrahim, gəl hərayə,
Görəsən qardaşım hayana getdi?

Bu sözlərdən sonra Əhməd genə düşdü çöl-biyabanı axtarmağa. Aman ki, İbrahimdən bir sorax olmadı. Dedi:

– Bəlkə İbrahim görüb mən gec gəlmişəm, durub mənim arxamla gəlib Çin şəhrinə. Qoy mən genə elə gedim şəhərdə qardaşımı axtarım.

Əhməd daxil oldu Çinin şəhrinə. Bu küçəni-o küçəni, bu məhləni-o məhləni nə qədər axtardı, İbrahimdən bir xəbər olmadı. Gecə oldu, Əhməd gecəni bir yerdə daldalanıb sabah oldu. Gənə başladı şəhəri axtarmağa. Harda bir-iki uşax görür, özünü verir o uşaxlara sarı, olmur, qayıdır. Vaxt-vədə nahar olmuşdu, gördü camaat bir-bir, iki-iki, on-on, beş-beş şəhərin sağ tərəfinə yerihayürü getməkdədilər. Əhməd birinin qabağını kəsdi, dedi:

– Ay qardaş, mənim qardaşım itib, bu camaatın nəyi itib belə qaçmaxdadılar?

Bu adam dedi:

– Oğlan, sənin xəbərin yoxdu?

Əhməd dedi:

– Nədən mənim xəbərim yoxdu? Axı mən qəribəm, mən bilmirəm sən nə deyirsən.

Bu adam dedi:

– Hə, bala, qərib olsan, bilməzsən. Bizim məmləkətin bir qanunu var, şahımız öləndə və onun yerinə bir şah seçəndə, hamı gələr bax o düzəngaha və vəzir bir baxt quşumuz var, onu uçurdar, o quş hər kəsin çiyninə qonsa, istər cavan olsun, istər qoca, onu məmləkətimizə şah qoyarıx. Odu ku, camaat o düzəngahə yığışmaxdadı.

Əhməd öz-özünə dedi:

– Nə gözəl oldu, indi ki belədi, bəs axşama kimi hamı gələcək o düzəngaha. Mən də gedim ora. Bəlkə İbrahim də elə gələcək ora, elə orda qardaşımı taparam.

Əhməd də gəldi və camaat hamı gəlib cəm olandan sonra, vəzir çıxdı taxtın üstünə dedi:

– Ay camaat, kim istiyirdi gəlib, gəlmiyənlər özü bilər. İndi mən baxt quşunu uçurduram.

Vəzir quşu uçurtdu! Bu quş bütün camaatın başının üstünən keçib gəldi qondu Əhmədin başının üstünə. Vəzir dedi:

– Gətirin oğlanı, tacı qoyax təzə şahın başına.

Bir nəfər dedi:

– Vəzir sağ olsun, o oğlanı mən tanıram. O, naharda mənnən qardaşın soruşurdu. O oğlan bu şəhərdə qəribdi, qəribdən şah olmaz.

Quşu bir də uçurdular. Quş gənə gəldi qondu Əhmədin başına. Gənə o adam durdu, etiraz elədi. Vəzir dedi:

– Ay camaat, bu dəfə quşu uçurduram, bu dəfə kimin çiyninə qonsa, heç kimin bir sözü olmuyacax. Elə onu məmləkətimizə şah qoyacıyıx.

Vəzir quşu uçurdu, quş gənə gəldi qondu Əhmədin çiyninə. Vəzir əmr verdi, dedi:

– Gətirin.

Əhmədi gətirdilər. Şahlıx tacın çox belə təmttarağınan qoydular Əhmədin başına. Əhməd oldu "Əhməd şah". Əhməd şah vəzirini çağırıb dedi:

– Vəzir, bundan belə bu məmləkətdə bir biədalətsizlik eşitsəm, əvvəl sənin boynuvu vırdıracam. Ama ədalətinən məmləkəti idarə eləsən, nə desən verəciyəm.

Əhməd şahınan vəzir əl-ələ veriblər bu məmləkət günə bir gözəlləşir. Camaat hamı şaha duva edir ki, ey Allah-tala, sənə çox şükür, nə gözəl şahımız var. Millət sevincdə yaşıyır. Ama Əhməd şahı İbrahimin tapılmamağı çox sıxırdı. Əhməd şahın heç üzü gülmürdü. Bir gün vəzir dedi:

– Şah sağ olsun, sən neçə aydı şah olubsan, sən əvəzi ki şad olasan, hər gün qəmuvun[1] üstünə artır, sənin nə kəm-kəsrin var?(hansı çatışmazlığın var?)

Əhməd şah dedi:

– Vəzir, mənim İbrahim adlı bir qardaşım itib. Onun narahatıyam.

Vəzir dedi:

---

[1] Qəmlərinin

– Şah sağ olsun, sən onu neçə aydı niyə demirsən? Mən indi əmr verərəm, Çin məmləkətində nə ki İbrahim adlı beş yaşından ta on iki yaşına qədər varsa, gətirsinlər, sən olara bax.

Əhməd şah gördü bundan ağıllı bir iş ola bilməz. Vəzir əmr verdi, bütün İbrahimləri gətirirlər. Ama altı il keçib. İbrahimdən hələ bir xəbər çıxmıyıb. Əhməd şah şahlığında olsun, sizə xəbər verim İbrahimdən.

İbrahimin atası İbrahimi qoyub məktəbə. İbrahim ali savadlı və böyüyüb on yeddi-on səggiz yaşına gəlib gözəllikdə misli bərəbərsiz[1]. Aya deyir, sən çıxma, mən çıxaram. Günə deyir, sən çıxma, mən çıxaram. İbrahimin atasının mal-dövlətinin sayı-hesabı yoxudu. Bunun atası Rəhman dərviş gəlib lap şahın imaratının üzbəüzündə böyük bir qızıl mağazası alıb və mağazanı kip doldurub qızılınan. İbrahimi də qoyub o mağazada. Ama kim gəlib mağazanın qabağından keçəndə, elə ki gözü sataşır İbrahimə, day qızıl yaddan çıxır. Biixtiyar heyranlığınan mat-mat baxırlar İbrahimə. Bu qızılsatan İbrahimin gözəlliyi aləmə car olub. Bu xəbər gedib çatdı Əbdulla xanın qızı Səkinə pərinin qulağına. Əbdula xanın evinən İbrahimin mağazasının qapıları bir xiyabana açılır. Ama hər cuma Əbdulla xanın əmrilə bu xiyaban bağlanır və bunun qızı Səkinə pəri başında kənizlərinən bu güllü-çiçəkli xiyabanda alverə çıxırlar. Bu cuma Səkinə xanım əmr verdı ki gedin deyin İbrahimə, Əbdulla xanın qızı Səkinə pəri istiyir sabah cümə, istiyir gəlsin mağazadan qızıl alsın. Ona görə sən cuma mağazada ol. İbrahim mağazada buların yollarını gözləyirdi ki, gördü bir xanım başında on beş silahlı xanımınan girdilər içəri. Qızlar qızıllara baxmaxda olsunlar, ama Səkinə pəri bir diqqətinən İbrahimə baxdı. Qız bir könüldən min könülə İbrahimə aşıq oldu. Dedi, ey baritaala nə olardı, bu oğlanı yazay-

[1] Taysızdır

dın mənim baxdıma. Ama İbrahim də qıza bir diqqət nəzər yetirdi. Səkinə pəri dedi:

– Qızlar, gəlin gedək.

Qızlar dedilər:

– Xanım, bəs bir şey almadın?

Səkinə pəri dedi:

– Qızlar, mən almalımı aldım.

Bular qayıtdılar. Gecə gəldi arayə, indi qız yata bilmir. Çağırdı dayəni yanına, dedi:

– Dayə, mən İbrahimi görüb və ona aşıq oldum. İbrahimi necə bu evə gətirmək olar?

Dayə dedi:

– Ay xanım, atan bilsə, bizim hamımızı doğram-doğram edər. Bu mənim işim deyil.

Səkinə pəri dedi:

– Dayə, sən qorxma, sən ancaq get İbrahimə xəbər ver ki, sabah Səkinə xanım səni evində görmək istəyir.

Dayə gəldi bu xəbəri İbrahimə verdi. Sabah İbrahim gəldi. Qızlar İbrahimə yol görsətdilər. İbrahim qızın yanına çatan kimi Səkinə pəri dedi:

– Qızlar, siz gedin işizdə olun.

Qızlar qayıdandan sonra Səkinə pəri dedi:

– Oğlan, sən məni sevirsən?

Ama Səkinə pəri oğlan geyimində zahir olmuşdu. İbrahim dedi:

– Ay xanım, icazə ver, gör sənə nə deyirəm:

Hərcayi gözələ gözəl demərəm,
Gözəlin başında əlamət olu.
Zülfləri bir yanə, gərdən bir yanə,
Açıla çiynində, qiyamət olu.

Mən qurbanam sənin kimi gözələ,
Fələk salıb mənı bu qurbət elə.

Gözəl odu sözlərimdən söz ala,
Qəribin başında məlamət olu.

Qədəm qoydum, mən də gəldim bu bağa,
Bülbül kimi aşıq oldum budağa.
Meylimi salmaram səndən uzağa,
Günəş camalından xəcalət olu.

Bu sözlər qutaran kimi qız dedi:

– Oğlan, sən məni sevirsən?

Oğlan dedi:

– Olarmı sənin kimi gözəli sevmiyəsən?

Qız dedi:

– İbrahim onda bu sirri bir sən bil, bir də mən. Və sabah mən də öz ata-anama deyim, sən də. Olar gəlsinlər, danışıq eləsinlər, biz toy eliyək.

İbrahim gəldi evlərinə, gördü atası yatıb, ama anası bunun yolunu gözləyir. Dedi:

– Ay bala, bu nə zamandı, gecə yarıdan geçib. Sən harda qaldın? Biz öldük, dirildik axı.

İbrahim dedi:

– Ana, şeir bilirsənsə, qulaq as, gör nə deyirəm:

Ərzi-halım yetirin
Gül üzlü yara, ölürəm.
Bir bulunmaz dərdə düşdüm,
Eyliyin çarə, ölürəm.

Uzax düşübdü ellərim,
Açılmaz qonça güllərim.
Mənim bu həsrət əllərim
Yetmədi yarə, ölürəm.

İbrahim ayrılmaz yardan,
Qurtulmaram intizardan.

Fələk məni nazlı yardan
Atsa kanara, ölərəm.

Bu sözləri ana eşidib dedi:

– Bala, mən bilmədim sənun sözlərun mənasın.

Dedi:

– Ana, qoy sənə bir söz deyim.

Dedi:

– Oğul, nə deyirsən, ana, sənə qurban?

Dedi:

– Ana, sən atama de ki, mən bundan sonra hər gecə övə[1] gec gələciyəm, bir. Bir də ki cümələr heç gəlmiyəciyəm. Qalacıyam borclarımı yığam.

Bunu xanım Rəhman dərvişə yetirdi və Rəhman dərviş dedi:

– Xanım, lap gözəl, oğlan təzə müştəri tapıb və əli qızışıb. Qoy işdəsin, lap belə gec gəlsin, ya heç gəlməsin. Yatsın qalsın mağazada. Mən oğlumdan arxayınam.

Oğlan gec gəlmənin imzasını alıb qoyub cebinə. İndi İbrahim gec gəlir və ya heç gəlmir, nə ata nigarandı, nə də ana. Səkinə pəri də hər gün gələr. Bular bu mağazada deyib-gülüb danışırlar. Ama hərdən də İbrahimi qız aparır evlərinə və anasına da deyib ki, ana bax bu oğlanan mən istirəm hayat quram. Atama de, qəbul eləsə, bu oğlanın ata-anası elçi gəlsinlər. Qızın anası dedi:

– Bala, atovun hələ bir on gün də vacib işi var. Evə də gələ bilmiyəcək, darıxmayın, atan gələndə diyərəm. Nə olacax? Bir qiz bir oğlanındı. İndi ki siz bir-birinizi sevirsiz, elə indidən Allah mubarək eləsin.

Bular burda qalsın, sizə xəbər verim Cüvüd adlı bir tacirdən ki, bu tacir Rəhman xanı da tanırdı. Bu tacir şəhərdə

---

[1] Evə

dolananda gözü sataşdı bir qızıl tükanına. Gördü heç indiyənə qədər bu şəhərdə belə bir böyük qızıl tükanı yoxudu. Diqqət yetirəndə gözü sataştı bu mağazada bir cavan oğlana. Girib içəri dedi:

– Oğul, sən kimin oğlusan?

Dedi:

– Mənim atam Rəhman xandı.

Bunu eşidən tacir dedi: "Hə, yaxşı oldu, gedərəm Rəhman xanı alladaram, diyərəm ki, bu oğlanı ver mənə. Mənim mirzəm yoxdu, bu mənə mirzə olsun və bunu bütün malım da var, satax mənfəyətinə[1] şərik".

Rəhman xan bu taciri yaxşı tanıyırdı, bilirdi bu tacirin xəyanətlərin. Dedi:

– Yox.

Bu tacir gördü, bunun heç bir çarəsi yoxdu, gərək İbrahimi oğurrasın. Cüvüd tacir tapdı bir nəfər. Ona çox pul verib dedi:

– Bax, bir bihuşi bir dərman səndən istirəm ki, bir nəfəri huşdan apara. Amma beş gündən sonra ayıla.

Cüvüd tacir dərmanı hardan tapdı gətirdi, bir yeməyə qatıb bir oyunan verdilər. İbrahimi huşdan apardılar. Qoydular bir sandığın içinə. Çatdılar dəvəyə, karvan şəhərdən çıxdı.

Bu işin üstündən bir həftə keçmişdi. Hələ də nə İbrahimin ata-anasının xəbəri var, nə də Səkinə pərinin. Bir gün Səkinə pəri dedi:

– Ay dayə, heç İbrahimdən xəbər yoxdu, ondan mənə bir xəbər.

Dayə gedib xəbər gətirdi. Səkinə dedi:

– Dayə, nə xəbər gətirdin?

Dayə dedi:

---

[1] Qazancına

– Səkinə pəri, diliminən desəm, sinəm od tutub yanar, icazə ver, xəbəri mən sazınan deyim:

Bir ərzim var, xanım, sənə söyləyim,
Əl-əldən üzüldü, yar əldən getdi.
Ərzi halın sənə bəyan eyliyim,
Əl-əldən üzüldü, yar əldən getdi.

Ayaxda zəncir var, boynunda kündə,
Heç kimsə düşməsin o düşən gündə.
Cüvüd tacir onu aparıb Hində,
Əl-əldən üzüldü, yar əldən getdi.

Otağuva surahilər düzülsün,
Yuxu gəlsin, xumar gözlər süzülsün.
Bani diyər, Cüvüd, bir balon ölsün,
Əl-əldən üzüldü, yar əldən getdi.

Dayə sözlərin tamam elədi. Səkinə pəri dedi:

– Dayə, bunu bizdən başqa kimsə də bilir ki, İbrahimi Cüvüd tacir oğurluyub?

Dayə dedi:

– Bəli, xanım. İbrahimin atası atlı salıb, hər yanı axtarırlar.

Səkinə pəri dedi:

– Dayə, dur gedək anamın yanına.

Bular durub gəldilər ananın yanına. Ana Səkinənin rəngi-ruxunu belə solqun görüb dedi:

– Qızım, nə olub sənə? Sən heç vaxt belə saralıb-solmazdun.

Səkinə pəri dedi:

– Ana, qulaq as, gör mənə nə olub:

Dolannam başuva, gülüzlü ana,
Vəfalı həmdəmim yada düşübdü.

Axtarır gözlərim, tapmır yarımı,
Hayıf olsun, yol uzağa düşübdü.

Yoluna varmağa ixtilatımdı,
Müjdəsin verənə can baratımdı.
Onu görmək mənim ziyarətimdi,
Hayıf olsun, yol uzağa düşübdü.
Əməmmədim ləblərinin balından,
Qutulmaram qovğasından-qalından.
Görən tərif edir xətti-xalından,
Hayıf olsun, yol uzağa düşübdü.

Səkinəyəm, yar ayrısı yamandı,
Görsənməsin heç bir yara, amandı.
Bostanlarda bitmiyibdi, yalandı,
İbrahim bir güldü, tağa düşübdü.

Səkinə pərinin bu sözlərindən anası bir şey bilmədi. Ana dedi:

– Bala, aydın-aşkar de görüm, sən nə istirsən?

Qız dedi:

– Ana, evim yıxıldı!

Ana dedi:

– Bala, sənə nə olub?

Qız dedi:

– Ana, mənim sevgilim İbrahimi bir tacir gəlib oğurluyub aparıb. Mənə icazə verin, mən İbrahimin atasıynan gedim İbrahimi axtarmağa.

Ana icazə verib, Səkinə dayəsinən gəldilər İbrahimin atasının evinə. Qapını çaldılar, Rəhman xan gəldi qapını aşdı. Bular daxil oldular otağa. Rəhman xan dedi:

– Siz kimsiniz? Sizə nə lazımdı?

Səkinə pəri dedi:

– Xan, bir sözüm var sənə deməli.
Xan dedi:
– Buyur.
Səkinə pəri dedi:
– Xan, onu istirəm sazınan diyəm.
Burda qız görəg İbrahimin atası Rəhman xana nə deyir:

Dollannam başuva, igitlər xanı,
Bu qapuva mən dərmana gəlmişəm.
Dosta qurban dedim baş ilə canı,
Dərdim vardı, mən dərmana gəlmişəm.

Açılanda, qızıl gülün fəsliyəm,
Danışanda, qumru, tutu səsliyəm.
Camalında huri-qılman əhliyəm,
Dərdim vardı, mən dərmana gəlmişəm.

Səkinəyəm, mən də dərdə dolmuşam,
Saralmışam heyva kimi solmuşam.
İbrahimin gül camalın görmüşəm,
Dərdim vardı, mən dərmana gəlmişəm.

Qız Rəhman xanı başa saldı ki, bura nəyə gəlmişəm. Rəhman xan dedi:
– Bəs sən İbrahiminən bir-birizə söz vermişdiz, bəs onu İbrahim mənə niyə deməmişdi?
Qız dedi:
– Vallah, heç mən də atama deməmişəm.
Bular çox danışandan sonra bu qərara gəldilər ki, bular iki dəstə dərviş paltarında İbrahimi axtarsınlar. Bular İbrahimi axtarmaxda olsunlar, sizə xəbər verim Cüvüd tacirdən.
Cüvüd tacirin karvanı bir xeyli yol gələndən sonra bir düzəngahda bular oturublar. Cüvüd tacir dedi:

– Açın sandığın ağzın, oğlanı çıxardın gətirin.

İbrahimi gətirdilər, karvanın həkimi dərmanı tutdu İbrahimin burnuna. Oğlan asqırıb huşa gəldi(ayıldı). Baxdı bura hara, mən hara! Bir azdan sonra yadına gəldi ki bunu mağazasından oğurladılar. İbrahim işi bildi, dedi: "Mən dillənsəm, bular məni öldurə də bilərlər. Hələ görüm, bular məni niyə bihuş edib özlərinən gətiriblər".

Cüvüd tacir dedi:

– İbrahim, bilirsən səni niyə gətirmişik?

Dedi:

– Yox.

Tacir dedi:

– İbrahim, mən Hüseyn Şahın qızı Bəyim xanımı istirəm. Ama onun məndən xoşu gəlmir. İndi mən istirəm gedəm Hüseyn xana diyəm ki, bu oğlan mənim oğlumdu. Qızı buna istirəm. Sənin aduva qızı alam gətirəm. Sonra sənən işim yoxdu. Səni sağ-salamat aparam, qoyam mağazanda. Ama bu işi eləməsən, yəqin bil ki, səni doğram-doğram elətdirrəm. Gənə sənə deyirəm, nə daldalanıb qaçmağa özünə icazə ver, nə də ağzundan bir söz çıxsın. Bunan sonra ta Hüseyn şahın qızını mən evə gətirmiyincən mən diyənə baxmalısan.

İbrahim gördü heç bir qaçax yolu qalmıyıb. Bir az geçməmişdi, Allah görsətməsin, bir yel-külək qovzandı. Hər yanı toz-duman aldı, göz-gözü görmədi. Bu karvanda olan adamlar dedilər:

– Bu oğlanın bu gün burda olması bais oldu bu toz-dumana. Bizim mal-mətahımızı bu günə saldı. Bu qədər bizə zərər verdi, bunun ayağı şumdu, gələsiz bu yaramazı öldürək.

Bunu İbrahim eşitdi, dedi:

– Ay baba, mənim nə günahım var, mənim başım çox bəlalər çəkib. Siz Allah, məni öldürməyin.

Ama baxan yoxdu. İbrahim dedi:

– İcazə verin, mən yalvarım inandığım bir qüdrətə. Əyər yel-külək açmasa, onda məni öldürün.

Bular əl götürdülər. Burda İbrahim görək nə deyir:

Kamanı dəstində dağlar maralı,
Xədəngi dəsdindən ay çıxar indi.
Qərib vilayətdə bağrım yaralı,
Qəmər şəfəq atar, ay çıxar indi.

Şeyda bülbül meylin salar o gülə,
Bu dünyada kim ağlıya, kim gülə.
Şahi-Mərdan[1] səvar ola Düldülə[2],
Qənbər[3] qabağında ha çıxar indi.

İskəndər atlandı, qaldı zulmatda,
Qərq oldum qəmlərə, qaldım zulmatda.
Gecə gedər, günüz qalmaz zulmatda,
Göz yaşı tökərəm, qalmaz zülmətdə.

İbrahim, bax budu Dərbəndin yolu,
Qəm yemə, imdada yetişən olu.
Ağlamaz şad olu dusdar[4] əli,
Zülfüqar[5] belində ay çıxar indi.

Sözlər qutaran kimi göydən toz-duman çəkilib hava bir gözəl şərayətə gəldi ki, hamı İbrahimdən əl çəkib. Bular başladılar şəhərə sarı yol gəlməyə. Gəlib çıxdılar Dərbənd şəhrinə. Bura çatan kimi Cüvüd tacir məttəl olmuyub tez İbrahi-

---

[1] Həzrəti Əlinin adı
[2] Həzrəti Əlinin atının adı
[3] H.Əlinin qulu
[4] Sevən, dost tutan
[5] H.Əlinin ikibaşlı qılıncı

mi geyindirib, bəzətdirib, başında bir neçə cavan bir xonça düzəltdirib gəldilər Hüseyn şahın evinə. Cüvüd Tacir dedi:

– Şah, sən məni yaxşı tanırsan. Dünyada ən pullu tacirlərdən biri mənəm. Bu da mənim oğlumdu. Mən birdən illərinən ticarətə çıxıram, bir neçə gündən sonra da ticarətə çıxacıyam, bir xeyir işə gəlmişəm.

Şah dedi:

– Xeyir iş nədi?

Cüvüd tacir dedi:

– Şah, qızuvu mənim oğlum istəyir, nə deyirsən?

Şah baxdı ki, nə gözəl oğlandı. Dedi:

– Nə deyirəm ki, qoy qızın anasına və özünə diyək, əgər oğlanı bəyənsələr, Allah mübarək eləsin.

Çağırdılar, qızınan anası gəldi. Qız oğlanı görən kimi huş başdan çıxdı. Bəli, oğlana "hə" cavabı verdilər. Ama Cüvüd tacir aman vermədi, tez bir kəbin kəsən qazi çağırıb, qaziyə bir kalan[1] pul verdi dedi:

– O kəbin kağızında mənim adımı yaz. Ama oxuma, bulardan imza al, sən çıx get.

Qızın kəbinini kəsdi qazı və camaat hamı getdilər. Qaldı İbrahiminən qız. Qız dedi:

– Ana, sən atamdan bir icazə al, mən o otaxda bir İbrahiminən danışım görüm, o məni görmədən, bilmədən məni necə sevib, onan bir balaca danışım.

Qızınan oğlanı saldılar bir otağa. Bəyim xanım dedi:

– İbrahim, salam?

Bundan cavab olmadı. Dedi:

– İbrahim, məni sevmirsən.

Gənə cavab olmadı. Qız dedi:

– Olmuya bu oğlan kar-lal ola.

Bir də ucadan səslədi:

---

[1] Çox sayda

– İbrahim!

İbrahim başını qovzadı.

Qız gördü oğlanın gözlərində yaş baharın buludu kimi süzülür. Qız dedi:

– Oğlan, sənə nə olub, sən niyə danışmırsan?

Dedi:

– Qız, bir sirr var.

Qız dedi:

– Oğlan, nə sirr var, bir de görüm.

İbrahim dedi:

– Qorxuram.

Qız dedi:

– Oğlan, sən bilmirsən mən kiməm? Sən harda oturubsan, sən nədən qorxusan, kimdən qorxusan? Əgər sənə bir kimsə bir söz deyib, de mənə, verim doğram-doğram eləsinlər. Sən nədən qorxusan?

Oğlan dedi:

– Xanım, mən sənə düzün desəm, məni qoruyub saxlıya bilərsən?

Qız dedi:

– Sən mənim əmniyətimdəsən. De görüm, səndə nə söz var.

Burda İbrahim başına gələn qəzov-qədəri yerli-dibli açıb Bəyim xanıma dedi. Qız hirsindən dişləri dodaxların gəmirir. Daha artıq dözə bilməyib dedi:

– Şahzadə, sən otur, mən indi hər işi yerinə qoyub, gələciyəm sənun yanuva.

Oğlan bu otaxda qalsın, ama qız gəldi anasının yanına dedi:

– Ana!

Ana dedi:

– Can bala, sənə nə oldu? Niyə belə pozqunsan?

Dedi:

– Ana, qulaq as, gör nə deyirəm.

Burda Bəyim xanım nə deyir və ana nə eşidir:

Dolannam başuva, gül üzlü ana,
Ana, mən bu zülmə dözə bilmərəm.
Yanıram atəşə misli pərvana,
Ana, mən bu zülmə dözə bilmərəm.

Atam zülm eyləyib özü-özünə,
O, iki mil nahax vırıb gözümə.
Cüvüd tacir məni alıb özünə,
Ana, mən bu zülmə dözə bilmərəm.

Ana, qurban astananın daşına,
Rəhmin gəlsin gözdən axan yaşıma.
Mən dolanım şah atamın başına,
Ana, mən bu zülmə dözə bilmərəm.

Doldur piyaləni, ver içim tası,
Silinsin könlümün, qalmasın pası.
Mən Bəyiməm, İbrahimin butası,
Ana, İbrahimsiz dözə bilmərəm.

Ana dedi:

– Qızım, sənə kim nə dedi bəyəm? İbrahim elə sənindi, day sən nə fikr edirsən?

Qız dedi:

– Ana, iş başqa cürədi!

Ana dedi:

– Qızım, sən quş dili danışırsan. Bir aşkar elə görüm, arada nə sirr var?

Burda Bəyim xanım anasını hər bir əhvalatdan agah elədi. Anası daha dözə bilməyib tez Şaha xəbər verdilər. Şah

gəldi. Bəyim xanımın anası şahı hər bir əhvalatdan xəbərdar elədi. Bu zaman şah cəhənnəm kimi zəbanə çəkdi, dedi:

– Cəllad!

Cəlladlar hazır oldular. Vəzir gəldi ki, şah sağ olsun, sən nə iş görürsən, bu tacir bütün dünyanın varlı-karlı tacirləriy-nən qohumdu, tanışdı. Sən bunu dara çəkdirsən, bu bizim məmləkətə daha bir tacir qədəm basmaz. Bir məmləkətdəki mal-mətah gəlib-getməsə, nə olar?

Şah dedi:

– Bilirsən bu yaramaz nə xiyanət edib?

Vəzir dedi:

– Şah, bunu sal zindana, qoy qalsın orda, ömürü çürüsün.

Şah əmr verdirdi Cüvüd taciri saldılar zindana. Bu tərəf-dən də şah bir qazi çağırtdırdı. Bəyim xanımın kəbinini kəsdi-lər İbrahima. Və indi İbrahiminan Bəyim xanım ikisi bir otax-da, iki cavan bir-birinin camalınan doya bilmirlər. Bu zaman İbrahim Bəyim xanıma dedi:

– Gözəl, mən istirəm sənin camaluva bir neçə tərif deyəm.

Burda görək İbrahim Bəyim xanıma nə deyir:

Mina gərdən, sərvi boylu, incə bel,
Nəyiçin qayıtdın, niyə qayıtdın?
Ay da qubarlanır, günəş utanır,
Nəyiçin qayıtdın, niyə qayıtdın?

Uzun qollu, ağ biləkli, nazik əl,
Yazıram şənin də, oxuram qəzəl.
Yusifdən mahcamal, Şirindən gözəl,
Nəyiçin qayıtdın, niyə qayıtdın?

Ağzı sütdü, dodax qaymax, diş inci,
Mən olmuşam ala gözün zarıncı.

Alxatın alması, cənnət turuncı,
Nəyiçin qayıtdın, niyə qayıtdın?

Qırmızı potun[1], güləbatın, gül ayax,
Gözəllər yanında gözəl gül ayax.
İbrahimi bir də dindir, gül ayax,
Nəyiçin qayıtdın, niyə qayıtdın?

İbrahimin sözləri qutaran kimi bular çıxdılar, gəldilər Bəyim xanımın anasının yanına. Qız dedi:

– Ana, biz bu qərara gəldik, bir aydan sonra toy eliyək. İndi icazə verirsiz biz toydan qabax bir Misir şəhrinə səfər edək?

Ana gəlib şahdan da icazə alıb, bular səfərə çıxdılar. Bular Misrə gəlməkdə olsunlar, sizə xəbər verim Cüvüd tacirdən. Bunun burda zindanda olmağını eşidən tacirlər o qədər məktublar yazdılar ki, şah məcbur qaldı bu yaramaz taciri zindandan çıxartdırdı. Bu zindandan çıxan kimi bir neçə quldura kalan pul verdi və dedi:

– Bax, şahın yeznəsi İbrahimin yerin kim mənə nişan versə, özü ağırda ona pul verəciyəm.

Quldurlar düşüblər şəhəri, kəndi, çölləri, dağları, yolları, daha bir yer qalmadı, bu iki cavanı axtarırlar. Bu iki cavan da gəlib az qalıblar çatalar Misrə. Bular bir yorqunluqlarını almağ üçün bir dağın damənəsində oturdular. İbrahim dedi:

– Xanım, sən burda otur. Mən bir dolanım. Bir şikar vırım, gətirim pişirək, yiyək, acıxmışıx.

İbrahim şikara çıxmaxda olsun, sizə xəbər verim Cüvüdün tərəfindən. Cüvüdün quldurlarından biri xəbər gətirdi ki, ay tacir, mən İbrahimin sorağın tutdum, bax filan yerdədilər. Cüvüd Tacir gəldi, bu quldur diyən kimi buların yerini

---

[1] Göndən tikilmiş ayaqqabı

tapdı. Gördü bəh-bəh İbrahim hara gedib? Bəyim xanım tək oturub bir ağacın dibində. Qız Cüvüd taciri görən kimi huşdan getdi. Tacir su səpib qızın üzünə, qız huşa gəldi. Tacir daha macal vermədi, qızı atıb atın tərkinə, yola düşdü. Bir xeyli yol gəlmişdilər, Bəyim xanım dedi:

– Ey namərd, məni hara aparırsan?

Tacir dedi:

– Namərdin qızı, sən bilmirsən mən hər kimi istəsəm alaram? Səni aparıram özümə arvad eliyəm.

Bu zaman qız dedi:

– Tacir, mənim ki sənə gücüm çatan deyil. Bu çöldə də sənin əlindən qurtarıb qaça bilmiyəciyəm, sən məni burax. Mən bir neçə kəlmə söz deyim, sonra məni hara aparırsan, apar.

Qadir Allah, bu nə sitəm, nə işdi,
Çərxi dönmüş, axr verdi zulum yar.
Qürbət eldə bağrım başı alışdı,
Bülbül uşdu, xəzan oldu, gülüm yar.

Bivafa yar necə getdi, gəlmədi,
Könül bu dünyadan kamın almadı.
Deyirdim, yar gördüm, arzum qalmadı,
Əhdimidi safa görəm, ölüm, yar.

Bülbül uşdu, gül dibini aldı xar,
Ruhum uçub, cəsətimdə nəyim var.
Mən Bəyiməm, İbrahimə intizar,
İllərinən gözü yaşlı qalım, yar.

Qız sözlərini qutarıb. Cüvüd tacir qızı götürüb getməkdə olsun, sizə xəbər verim İbrahimdən. İbrahim bir neçə saat şikarın dalıycan gedəndən sonra, qayıtdı gəldi, gördü atlar var, amma Bəyim xanımdan xəbər yoxdu. Dedi, bəlkə bunan zərə-

fat eliyir. Qız bir yerdə gizlənıb. Ha çağırdı, qızdan bir xəbər olmadı. Dağı-dərəni, çayı-çəməni nə qədər gəzdi, qızdan bir sorağ olmadı. Baxanda gördü, bir at ayağının yeri var. Atını minib, bu at ayağının iziynən gethaget, çatdı bir karvana. Bu karvanbaşı baxdı, gördü bir atlı gəldi, çatdı bulara. Ama elə bil bu oğlan nigarandı. İbrahim ədəb-ərkanan salam verdi. Dedi:

– Baba, bir atlı görmədiz? Bir qız tərkində, bu ətraflarda?

Bu karvan başçısı dedi:

– Oğul, bir neçə saat bundan qabax bir tacir burdan kecti. Tərkində də bir dünya gözəli varıydı.

İbrahim dedi:

– O taciri tanırsız?

Dedilər:

– Bəli, o Cüvüd tacirdi, ona nə pulda, nə də gücdə heç kimin gücü çatmaz.

Oğlan dedi:

– Vay, evim yıxıldı.

Dedilər:

– Oğlan, niyə bu hala düşdün?

Dedi:

– Qulaq asun, görün, nə deyirəm:

Bir qasıd gəleydi yar ölkəsindən,
Bir xəbər aleydım halını yarın.
Siyah zülflər qıvrım-qıvrım, çinbəçin,
Qorxuram incidə belini yarın.

Dolansam dünyanı, tapmaram tayın,
Haqqı var boynumda, deyirəm sayın.
Vədə verdik, olax onan qol-boyun,
Odu ku gözlürəm yolunu yarın.

Bu karvanın başçısı dedi:

– Oğul, o sənun nişanlınıdı? Bir-birinizə çatmamışdız?

İbrahimin gözləri doldu, dedi:

– Baba, qulaq as.

İbrahiməm, gəlirəm yolu uzaxdan,
Eşqim dara çəkir, salır ayaxdan.
Dərməmişəm gül qonçasın budaxdan,
Arzum budur dərəm gülünü yarın.

İbrahimin sözləri qutaran kimi bu karvanın sahibi dedi:

– Oğul sən istisən gedəsən, nişanlını onun əlindən alasan?

Oğlan dedi:

– Əyər siz mənə kömək eləsəz, desəz ki, o tacir hansı səmtə[1] getdi, bəli, mən gedərəm o yaramaz namərdi cəzasına yetirrəm.

Gördülər, insaf deyil buna düzünü deməmək. Dedilər:

– Oğul, bax belə, sağ tərəfə gedən yolunan getsən, o tacirə çatarsan.

İbrahim atını çapıb gəlməkdə olsun, ama tacir qız da tərkində, az qalmışdı Misir şəhrinə. Qız başladı ağlamağa, qışqırmaxa. Tacir gördü bu qızı belə apara bilmiyəcək, dedi:

– Bu meşəlikdə bunu endirim, ya bunu başa salaram, səsin kəsər, apararam, ya da bir dərman verərəm, bu, huşdan gedər, apararam.

Atdan endirib qoyanda yerə, bu tərəfdən İbrahim yetirdi. Bu tacir istədi qılıncınan İbrahimi vırsın. İbrahim özünü verdi kanara. Oxunu qoydu kamana. Tacir qaçdı çıxdı bir ağacın başına. Qız dedi:

– İbrahim, əluvu mındar qana bılama, gəl məni götür, qaçax. Qoy bu zalım öz cəzasıynan ölsün.

---

[1] Yönə

İbrahim qızı alıb tərkinə, özlərin çatdırdılar Misir şəhrinə. Bular bir az aralanmışdı, tacir ağaşdan düşüb atını mindi. Düşdü buların dalıycan. Gəldi gördü bu qızınan oğlan gəliblər o karvansarıya ki, tacir orda qalırdı. Dedi:

– Mən gərək bu qızı dövlət əliynən alam.

Bular bu karvansarada gecəni qaldılar. Ama bu uşaxlar bilmirlər ki, bu tacir də bu karvansarada qalır. Sabah açılan kimi tacir özünü verdi Misir şahının yanına. Dedi:

– Şah sağ olsun, sənun məmləkətində mənə bir belə zülmü necə qəbul edirsən?

Şah dedi, mənim məmləkətimdə inanmıram bir kimsəyə zülm olmuş ola. De görüm, sənə kim zülm edib?

Dedi:

– Şah sağ olsun, mənə öz nökərim zülm eliyib.

Dedi:

– De görüm, nə olub axı?

Tacir dedi:

– Şah sağ olsun, namuslu adamam, utanıram, necə deyim?

Dedi:

– Utanma, de.

Dedi:

– Şah sağ olsun, mənim arvadım mənən yaşda kiçikdi və öz nökərim onu yoldan çıxardıb və qaçırdıb gətirib bu şəhrə. Mən də dallarına düşüb gəlmişəm. İndi əl mənim ətək sənin, gör nə iş görə bilərsən.

Şah cəhənnəm kürəsi kimi zəbanə çəkdi. Dedi:

– Cəllad.

O dəyqə cəlladlar hazır oldular. Dedi:

– Cəlladlar, gedin, filan karvansaradan o iki cavanı qolları bağlı gətirun mənim yanıma.

Cəlladlar o dəyqə gəldilər, qızınan oğlanı gətirdilər şahın huzuruna. Şah dedi:

– Buların hərəsini aparun bir zindana salun, mən buları ayrı-ayrı danışdırıb, dar ağacından asacam.

Cüvüd tacir dedi:

– Şah sağ olsun, qızda günah yoxdu. Sən elə oğlanı edam elə. Mən də qızı götürüm gedim. Allah da səndən razı olsun.

Şah dedi:

– Yox, mən özüm billəm kimi necə danışdırram və əvvəl kimi danışdırram.

Şah əmr verdi, dedi:

– Gedin qızı gətirin.

Qız gəldi. Şah dedi:

– Qızım, bəyəm sən bilmirsən ki, birinin kəbinnisi başqa bir kişiynən ola bilməz.

Burda qız işi bildi. Bu da şah qızıdı, savadlı, ağıllı, kamallı. Qız bildi tacir gəlib, şaha nə deyib. Burda qızın gözləri doldu. Dedi:

– Şah baba, sənə tam tərsinə çatdırıblar. İcazə ver, mən sənə düzünü deyim.

Burda götürüb, görək Bəyim xanım Misrin sultanına nə deyir:

Uzax yerdən səni deyib gəlmişəm,
Ümid sənə qalıb, Misir sultanı.
Səni mən özümə umud bilmişəm,
Umud sənə qalıb, Misir sultanı.

Qurban, tanı mənim əsl soyumu,
Naməhrəmlər görmüyübdü boyumu.
Özün öz əlunan[1] eylə toyumu,
Umud sənə qalıb, Misir sultanı.

---

[1] Əlinlə

Səhər-səhər çıxan dan ulduzuyam,
Aşıqların söhbətiyəm, sazıyam.
Xəbər alsan Hüseyn şahın qızıyam,
Umud sənə qalıb, Misir sultanı.

Bu sözlər qızın ağzından qutaran kimi Misrin şahı dedi:

– Qızım, sən düz deyirsən?

Qız dedi:

– Al, bu mənim kəbin kağızım və bu da mənim sicillim.

Baxanda tanıdı, dedi:

– Cəllad, götürün bu yalançı taciri, salın zindana.

Bu tacir Misir şahının zindanında qalsın. Ama bu oğlanan qıza şah bir torba puldan, qızıldan verdi, buları yola salıb. Bular yavaş-yavaş, gəzə-gəzə, oynuya-oynuya gəldilər çatdılar Çin şəhrinə. Bular gəldilər Çin şəhrində böyük bir qəsr aldılar və bu qəsridə qalmaxda olsunlar. Sizə xəbər verim Cüvüd tacirdən.

Bu tacir də gənə nə hiylə işdətdi, bu zindandan çıxıb düşdü bu cavanların dalıycan. Bu da gəldi bu cavanların qaldıxları qəsri tapdı. Buların yerlərini öyrənən tacir dedi:

– Hə, burda buların aşını mən yaxşı pişirəciyəm. Bilirəm Çinin şahı Əhməd şah ədalətli şahdı. Gedəciyəm Misrin şahına işdətdiyim hiləni bu Çinin də şahına işlədəm. Burda bu İbrahimi mən dardan astırram və Bəyim xanımı alıb gedərəm.

Cüvüd tacir gəldi çatdı Çinin şahı Əhməd şahın hüzuruna. Çatan kimi başladı ağlamağa. Əhməd şah dedi:

– Tacir, niyə ağlısan, nədi sənin dərdin?

Tacir dedi:

– Şah sağ olsun, heç bilirsən mənim namusumu öz nökərim İbrahim əlimdən qaçırdıb, gətirib sənin şəhrundə rahatcasına yaşayır.

Şah dedi:

– Belə bir ədalətsizlik mənim məmləkətimdə baş verib?

Çağırdı vəziri:

– Eşitdin şəhərdə nə baş verib? Tez tutun o İbrahimi, görün o yaramaz hardadı? Bu tacirin arvadıynan gətirin mənim yanıma.

Vəzir iki cəllad götürüb gəldi İbrahiminən Bəyim xanım olan qəsrə. Vəzir dedi:

– Bu adda adamlar burda kimdi?

İbrahiminən Bəyim xanım dedilər:

– Vəzir sağ olsun, bizik. Nə əmrun var?

Vəzir buları başa saldı. Qız vırdı təpəsinə, dedi:

– Vay, evim yıxıldı, genə o xəyanətkar tacir bizi tapdı. Ay allah, axı bizim günahımız nəyidi bizi bu xiyanətkarın əlində giriftar edirsən?

Bunu vəzir eşitdi. Dedi:

– Qızım, nə xəyanətdən danışırsan?

Qız dedi:

– Vəzir, mən bilirəm o tacir şaha nə deyib, amma olar hamısı saxta sözlərdi. Sözün həqiqəti bizdədi. Sən bizim qolumuzu bağlama, icazə ver, mən bir neçə kəlmə deyim. Qəbul eləməsən, bizim qollarımızı bağla, apar.

Burda qız nə deyir:

Budur səndən iltimasım, sirri sübhan, ey vəzir,
Bu çərx devranın əlindən yandı bu can, ey vəzir.
Qəbul etsə, baş qoyaram rikabına yarımın,
Bu yerlərdə budur sənə sirri pünhan, ey vəzir.

Sağ salamat bu yarımı apar şahın yanına,
İlahidən bir od düşsün Cüvüd xanimanına.
Vəzir, səni and verirəm Əhməd şahın canına,
Bir ədalət devran eylə, gəldim cana, ey vəzir.

Rizə-rizə[1] doğrasalar, mən onan irazıyam,
İbrahimin yolunda mən ölməyə də razıyam.
Adım Bəyim, dağıstanlı Hüseyn şahın qızıyam,
Bir ədalət devran eylə, səni quran, ey vəzir.

Bu sözlər qutaran kimi İbrahiminən Bəyim xanımı bir-birindən ayırıblar, hər birinin əlinə bir zəncir, buları apardılar, hərəsini saldılar bir zindana, gəldilər. Əhməd şaha xəbər verdilər ki, şah sağ olsun, o iki yaramazları tutub gətirdik, saldıx zindana.

Şah dedi:

– Elan verin, sabah edam meydanı sulansın, dar ağacı qurulsun. Mənim məmləkətimdə belə bir vicdansızlığa yol verilməz.

Sabah açıldı. Eşidən-bilən dəstə-dəstə camaat o meydana gəlməkdə olsun, sizə xəbər verim Rəhman dərvişdən. Bu da İbrahimi axtara-axtara, gəlib çıxıb bu şəhərə. Rəhman dərviş baxdı ki, hamı bir tərəfə getməkdədi. Dedi, görəsən, camaat niyə o tərəfə qaça-qaçdadılar? Bu da gəldi bu edam meydanına. Bu meydana gəlincən dar ağacını hazırlamışdılar ki, bu cavanları dara çəksinlər. Rəhman dərviş də dərviş paltarında, əlmas təbər əlində, girdi bu camaatın içinə, görüm bu oğlanın adı nədi ki, bu gün istirlər dara çəksinlər. Bir-iki adamdan sual elədi ki, ay bala, kimdi dara çəkilən, adı nədi? Ama İbrahimi yavaş-yavaş gətirirlər dar ağacına. Dedilər, bax o oğlandı, adı da İbrahimdi. Rəhman dərviş diqqət yetirəndə oğlu İbrahimi tanıdı. Tez gəldi Əhməd şahın yanına, dedi:

– Şah sağ olsun, sən nə edirsən?

Əhməd şah dedi:

– Sən kimsən, dərviş? Sən nə deyirsən?

Dərviş dedi:

[1] Balaca-balaca

– Şah, bir qulağ as, gör mən nə deyirəm.

Bir cavanı itirmişəm,
Axtarıran biyabanı.
Sorağın burda bilmişəm,
Veran qalsın bu gülşanı.

Ovçular ov nişəstində,
Durubsan cavan qəstində.
Bir yəhudinin üstündə,
Öldürürlər müsəlmanı.

Sən bir bax Rəhman xanə,
Bir od sallam şirin canə.
Tənə vurma, ey divanə,
Qəbul etməm bu tənanı.

Rəhman dərvişin sözləri qutaran kimi Əhməd şah dedi:

– Mənə tənə verir. Tutun bunu. Bu istir aranı qatsın. Bəlkə bu gün bu edam baş tutmasın. Ama mən bu ədalətsizdiyi qəbul etmərəm. Mənim məmləkətimdə birinin namusun əlindən alalar, mən də duram bu ədəlatsizliyə biganə baxam. Tutun bu dərvişi.

Bunu tutmaxda olsunlar, ama bu tərəfdən Səkinə xanım başında kənizləri, olar da dərviş paltarında yetişdilər. Səkinə xanım almas təbər əlində, bu da girdi meydanın içinə, dedi:

– Qızlar durmuyun.

Başının kənizləri bular da daxil oldular meydana. Vəzir gördü, bu tərəfdən də bir dəstə dərviş hazır oldu. Dedi:

– Şah sağ olsun, bir əl saxla görüm, bular kimdi?

Şah dedi:

– Dərviş, sən kimsən? Sən nə deyirsən?

Səkinə xanım dedi:

– Şah sağ olsun, mənim o Rəhman dərvişinən işim yox. Qulağ as gör, mən nə deyirəm. Götürüb görəg Səkinə xanım Əhməd şaha nə deyir:

Bir sözüm var sənə, ədalət şahım,
Eylə toyumuzu, mübarək olsun.
Bu yerlərdə sənə gəlir gümanım,
Eylə toyumuzu, mübarək olsun.

Batində bir qızam, zahirdə dərviş,
Özün ədalət ol, haqq işə yetiş.
Görmürəm mən burda ədalətli iş,
Eylə toyumuzu, mübarək olsun.

Ağam çox adildi, o molam[1] Əli,
Dərvişlər köməyim, həm yarım olu.
Yazaram Kişmirdən ləşgərim gəli,
Eylə toyumuzu, mübarək olsun.

Səkinə pəriyəm, dusdar əli,
Çağırram sidqilə şah Heydəri.
İbrahim yolunda qoyaram səri,
Eylə toyumuzu, mübarək olsun.

Bu sözlərdən sonra Əhməd şah vəzirin çağırdı, dedi:

– Vəzir, bular "İbrahim-İbrahim" deyirlər. Olmuya bu İbrahim mənim qardaşım İbrahim ola? Gələsən, bu qızınan oğlanı danışdırax, görək bular kimdilər? Günahları nədi? Bəlkə bular günahsızdılar.

Şah dedi:

– Qızı gətirin, danışsın görək qız nə deyir.

---

[1] Mövlam

Bəyim xanım gəldi. Əhməd şahın qarşısında dayanıb, götürüb görək nə deyir:

Ey ağalar, gəlin mane olmayın,
Eyləsə dərdimə bu, dərman eylər.
Eşqə yanannarı siz qınamayın,
Yandırıb atəşdə, nə tufan eylər.

Ala gözlərinin mənəm möhtacı,
Ləbləri doyurmaz mən təkin acı.
Bir dərdə düşmüşəm, yoxdu əlacı,
Nə təbib, əflatun, nə loğman eylər.

Həqqi qoyub, şərə qulaq asanlar,
Müxənnəs sözlərə yeltək əsənlər,
Təsadlıq puluynan qurban kəsənlər,
Bəyim İbrahimə can qurban eylər.

Bu sözlərdən sonra Əhməd şah dedi:

– Vəzir, bu qız da İbrahimdən der. Ta elədə bu da “İbrahim-İbrahim” dedi. Gələsən, elə bu İbrahimin özünü danışdıraq, görək bəlkə bu yazıxda da heç günah yoxdu.

Şah əmr verdi, İbrahimi gətirdilər. İbrahim Əhməd şahın üzünə baxanda, az qaldı qəlbi dayana. Əhməd şah da İbrahimin üzünə yaxından gözü düşəndə, İbrahimin halına düşdü. Buların heç birinin dili tutmadı bir-birlərinə bir söz desinlər. Bular göz-gözə durub, bir-birinə heyrətlə baxırlar. Camaat da İbrahiminən Əhməd şahın belə səssiz durub dayanmaxlarına baxırlar. Bu meydana sükut hökmüranlıq verir. Bir xeyli bu dayanmaxdan sonra vəzir dedi:

– İbrahim, sən heç utanmadın bu kişinin kəbinli arvadını götürüb qaçmısan? Sən nə cəsarətin sahabısan? Sən bilirsən bu işin cəzası nədi?

Vəzirin bu sözlərinə İbrahim daha dözə bilmiyib dedi:

– Vəzir sağ olsun, sizin qulluğunuza tam tərsə yetiriblər. Mən o siz deyən deyiləm.

Dedi:

– Bəs sən kimsən?

Burda İbrahim dedi:

– Şah, icazə versən, mən diyərəm mən kiməm.

Burda İbrahim nə deyir və camaat nə eşidir:

Zülal şah oğluydux biz iki qardaş,
Cəlladlar əlində qaldım, neyləyim?
Ağlar didələrim tökər qanlı yaş,
Cəlladlar əlində qaldım, neyləyim?

Dərin-dərin dəryalarda qərq oldum,
Sığındım pirimə, mətləbi buldum.
Altı ayda bir çəpişə qul oldum,
Qəssablar əlində qaldım, neyləyim?

Xoş günümü dəryalarda xoşladım
Turş günümü adalarda turşladım
Bir altayda bir çəpişə işlədim
Cəlladlar əlində qaldım neyləyim?

İbrahiməm, bu qəmlərdə qərq oldum,
Qəvvaz kimi dəryalarda dolandım.
Məğribi-məşriqə gəzdim yollandım,
Cüvüdün əlində qaldım, neyləyim?

Əhməd şah İbrahimin sözlərin eşidəndən sonra daha əllərində, dizində taqət qalmamışdı. Dedi:

– Vəzir, vallah, bax bu, mənim qardaşım İbrahim olacax. Mən daha həyəcandan ayağa dura bilmirəm. Get oğlanın

sağ qoluna bax, gör qolunda Zülal şah adına bazubənd var, ya yox?

Vəzir gəldi İbrahimin qoluna baxdı. Gördülər bəli, İbrahimin qolunda Zülal şah adına bir qızıl bazubənd var. Bunu görən Əhməd şah huşdan getdi. Əhməd şahı huşa gətirdilər. Şah daha dözə bilməyib özünü atdı İbrahimin üstünə.

– Qardaş İbrahim, mən sənin qardaşın Əhmədəm, – deyib, bu iki qardaş bir bala ananın köysünə sığınan kimi sığındılar bir-birinin köysünə. Bu iki qardaş neçə ilin həsrətinə son qoydular. Bu zaman vəzir fərman verdi. Cüvüd taciri tutdular, cəzasına çatdırdılar. Və İbrahiminan Əhməd şah bir-birinin başına gələn əhvalatı bir-birinə danışdılar və Əhməd şah fərman verdi. Səkinə xanımı və Bəyim xanımı gəlin çıxartdılar. İbrahim nişanlılarının əlindən tutub getdilər bəxt evinə. Dedilər, güldülər, bir yüz il bu fani dünyada yaşadılar, özlərindən oğullar-qızlar qoyub, bu dünyadan köçüb getdilər. Və dastanımız da burda başa çatdı. Bu zaman göydən iki alma düşdü. Biri dastan danışan aşığın, biri də bu dastanı dinliyənlərin. Xoşbəxt olun...

# GƏRGƏRLİ MƏHƏMMƏD

Hardan ərz eliyək, Gərgərli Məhəmmədin dastanından. Amma qəblən dastandan söhbət eliyək. Özümü və yoldaşlarımı tərif eliyim. Sazda çalıb-oxuyan Aşıq Mahmud Mərdəfkən, balabanda ağayi Şükrəli Nəcəfli, qavalda ağayi Tarverdi Heydəri.

Aşıqlar dastanı başlamamışdan əvvəl bir ustadnamə deyirlər. Biz də bir ustadnamə diyək:

Çoxdu bizim yerdə qədim qalalar,
Heç biri Koroğlu qalası deyil.
Yüz serçə balası ərsiyə gəlsə,
Təkcə bir qızılquş balası deyil.

Adam var, Allahı onun var bəndə,
Peşman olur ona salam verəndə.
Məclisə böyük, ağsaqqal gələndə,
Qıcanıb yerindən durası deyil.

Namərd oğlu, sən salam verən gündən,
Könül yük olsa da ayrılmaz səndən.
Dara düşən vəxtı ötəcək gendən,
Allahın salamın alası deyil.

Səfəroğlunu yada salmıyan dünya,
Heş kimi vecinə almıyan dünya,
Həzrət Süleymana qalmıyan dünya,
İnan ki, heç kəsə qalası deyil.

Gələk mətləb üstünə. Zamanı qədimdə (əski çağlarda) Gərgərli şəhrində bir Xacə Əziz vardı. Xacə Əzizin bir oğlu

var, gərək, Məhəmməd adında. Amma Xacə Əziz özü tacir idi, ticarətə gedərdi şəhərlərə, dedi:

– Oğul, öy-eşiymizdən müvazibət elə, mən gedirəm İstanbul şəhrinə, ticarətə.

Bəli, bunlar gəlib yoldaşlarınan yüklərini bağlıyıblar, gəliblər İstanbul şəhrinə ticarətə. Gəldilər burda xərix-furuşdarın eliyirlər. Bir zaman baxdı, gördü şəhər şuluqlaşdı. Soruşdu karvansara sahabından:

– Ay bala, nə xəbərdi? Niyə belə bu şəhər şuluqlaşdı?

Dedi:

– Vallah, bizim şəhrimizdə bir Əziz xan var, Əziz xanın da bir qızı var Şahzada xanım adında. Şahzada xanım çox gözəl aşıxdı. İndi bu meydanda əksin saldırır, şəhərbəşəhər paylatdırır.

Aşıqlar görüb bunun əksini, tamahlanıb gəlib bunnan bağlaşalar. Otuz doqquz dənə aşıq bağlıyıb, biri qalıb qırx ola. Əhd eliyib. Əgər qırxıncı aşığı bağlasa, onu öldürtdürə, yoxsa hər aşıq da onu bağlasa, ona toy eliyə, gedə ona.

Dedi:

– Hə, ola bilər biz də gedək tamaşa eliyək?

Dedi:

– Neynək, gedək.

Durub gəliblər, baxdı gördü meydanda o qədər adam var ki, sanı-hesabı yoxdu. Qədim kişilər demişkən: "Bir batman darını səpsən, biri yerə düşməz".

Boyun burdu o yan-bu yan edib qabağa gəldi, gəlib gördü, bəli, bir dənə səndəlin üstündə bir xanım əyləşib, üzündə bir rubənd. Muntəzirdi nəqqaşlar ki, xanım rubəndi götürsün, bunun əksin salsınlar. Bir zaman əl aparıb xanım rubəndi götdü, nəqqaşlar bunun əksin salıblar. Cəmaat hər kəs alırdı, birdən bu Xacə Əziz hiss elədi. "Nə yaxşıdı mən oğluma bir soğat apárardım, bunnan ki yaxşı olmuyacaqdı".

Bu, əksin də birin aldı. Gəlillər, yoldaşlarınnan yük barların bağlıyıblar, gəlirlər Gərgərli şəhrinə yetişiblər.

Bəli, Məhəmməd gəldi atasının yanına:

– Atacan!

– Bəli.

– Getmişdin İstanbula, mənə nə soğat gətirmisən?

Dedi:

– Oğul, sənə bir dənə soğat gətirmişəm, heç görünməmiş ola.

Əl aparıb cibindən əksi çıxartdı. Məhəmmədə verdi, Məhəməmməd əksə baxdı. Baxdı, gördü dünyada belə bir gözəl görmüyüb. Bir gönüldən-min gönülə bu əksin sahibinə aşıq olub. Amma çün cavan idi, bir az hindi[1] uşaq idi, utandığından dedi:

– Atacan, mənə Quran-kitab gətirəydin, mən əksi neynirəm?

Dedi:

– Oğul, apar as otaqda divarda, na vaxt gönlün qubar oldu, baxarsan gönlün aram tapar[2].

Gətrib otaqdan əksi asdı, amma elə sübhə kimi belə hayıl-mayıl bu əksə baxdı, dedi:

– Ey pərvərdigara, mən ki bu əksin sahıbını zahırda görməm, heç olmasa mən bunu yuxuda görəydim. Görəydim, əksə görə özü də belə var, ya yox?

Oğlanı ixtiyarsız sübhə yaxın yuxu aparıb. Amma kim gəlib bunun başının üstünə, yerin-göyün ləngəri, mərdin dizinin taqəti, namərdin gözünün xəncəri, ağaların ağası Şahı Mərdan Əli. Aldı ağasının əlindən badəni, nuş elədi. Barmağın pəncərə eliyib:

– Oğlum, haranı görürsən?

---

[1] İndi

[2] Rahatlıq tapar

Dedi:

– A Xacə Əli, İstanbulun şəhrin görürəm, Əziz xanın qızı Şahzada xanımı.

Dedi:

– Vərdim, səni ona aşıq verdim, onu sənə məşuq. Cəfasın çox çəkərsən, səfası sənindi.

Amma oğlan yuxudan ayıldı, anası gəldi gördü oğlan ayılıb, amma rəngi-rufu əvəz olub.

– Bala, qurban olum sənə, niyə belə olubsan? Nə gəlib sənə?

Dedi:

– Ana, bir saz ola, ürəyimin dərdini diyəm.

Allah heç kəsin tabaxda çörəyini bir eləmiyə. Yesə qurtular, yeməsə ac qalar. Çünki, bir dənə balasıydı, qıymadı buna. Gəldi, Xacə Əziz sorağına:

– Xacə Əziz.

Dedi:

– Bəli.

Dedi:

– Oğlun dünən səndən Quran-kitab istirdi, büyünnərim[1] saz istiyir.

Dedi:

– Eybi yoxdu, göndəriblər, saz gəlib.

Gərgərli Məhəmməd, götürsün görüm burda atasına, anasına nə söhbət eliyir, mən ərz eliyim filmdə bizi tamaşa eliyənnərin və burda əyləşənnərin hamsının sağlığına:

Başına döndüyüm ana,
O cananı da mən söydüm[2],

---

[1] Bugün
[2] Sevdim

Eşq atəşi düşüb cana,
Öylər[1] yıxanı mən söydüm.

Dedi:

– Bala, qurban olum. Mən çox söyünürəm ki, sən bir qız söyəsən. Kimdir, hardandı, adı nəmənədi?

Dedi:

– İcazə ver, ərz eliyim da:

Əli əlvan naqqışlıdı,
Çiyni xurmeyi saşlıdı[2].
Yorğun maral baxışlıdı,
Evlər yıxanı mən söydüm.
A bivəfa, etmə vəfa,
Canım qurban, gəl insafa.

Burda oğlanın atası dedi ki:

– Bala, bax, əli əlvan naqqışlı, yorğun maral baxışlı, bala, çoxdur, amma kimdi, hardadı, atasını de.

Dedi:

– Atacan, icazə ver ərz eliyim da.

Məmməd diyər tökər qanı,
Qıya baxar, alar canı.
Əziz qızı Şahzadanı,
Evlər yıxanı mən söydüm.

Amma bunda anası, atası bildilər ki bu kimi söyüfdü[3]. Anası ağladı, dedi:

---

[1] Evlər
[2] Saçlıdır
[3] Söyübdü (sevibdi)

– Xacə, niyə getdin bu əksi gətdin? Uzaqdan, uzaq şəhərdən bir əksi gətirdin, bizim öymüzü yıxdın. Daha bu oğlan qalıb bizə oğul olmaz.

Xacə Əziz dedi:

– Xanım, biytablığ eləməyinən. Allah kərimdi. İnşallah, düzələr.

Dedi:

– Yox.

Amma bu arvad biytablığ eləməkdən. Məhəmməd baxdı gördü, anasının o cür ki əhvalatı vardı, ana balaya çox bağlıdı. Dedi:

– Ana, Allah kərimdi. Bir bilə ahı-nalə eləmə. İcazə ver, ürəyimə söz gəlib.

Görək nə deyir, mən ərz eliyim tamam bu filmə tamaşa eliyənnərin və dostların sağlığına. “Ceyranı Kərəmi” havasıyla:

Qəm yeyib, qəm çəkmə divanə göylüm,
Bizi də yaradan Allahımız var.
Özü birdi, min bir adı laşərikdə var,
Şərik-rəsula göndərən Quranımız var.

Bizdən salam olsun, Şahı əcməin,
Onun hökmündədir ərşinən, zəmin.
Onun bir fərzəndi də həzrəti əmin,
Ərşin sütunu Şahi Mərdanımız var.

– Ay oğul, çox gözəl oxursan, genə vardı bunlardan?

Deyir:

– Bəli, var.

Görək nə deyir?

Şah Tağı, Şah Nağı, Şah ölü adı,
Həsən Əsgəri də müşgül güşadı.
Məhəmməd söylər, dərdə davadır,
İmam Zamantək rəhbərimiz var.

Gərgərli Məhəmməd sözün tamam elədi, anası dedi:

– Kişi, bayaq sənə dedim, bu oğlan bizim yanımızda qalmaz. Gərək biz başmıza fikir eliyək.

Dedi:

– Xanım, bir belə əzab-əziyyət çəkməyinən. Əlan[1] mən bu oğlanı aparram, Təbrizin aşıxlar meydanına, bir aşıq Teymur var. Aşıq Teymur bunu imtahan eləsin. Görək, yaxşı aşıqdı, oxuya bilər, getsin. Xeyr, oxuya bilməz qeytərrik, gətirrik öyə, sazın da sındırıb qoymarıq heş dəbərə.

Durub ayaqüstə, oğlannan bahəm gəldilər Təbrizin şəhrinə. O zaman, dustlar, aşıqlar meydanda oxuyardılar. Baxdı, gördü, bəli, camaat cəm olub, aşıq Teymur meydanda oxuyur. Səlam elədi, əleyk aldı.

– Xacə, hayana, inşallah?

Dedi:

– Vallah, bu oğlan birdən-ikiyə aşıq olub, bir saz alıb gətirib, deyir "mən gedəcəm aşıqlığa". Gətirmişəm, sən bunu yoxlayasan, görəsən, ayə, bu aşıqlığa bələddi, ya xeyr.

Dedi:

– Eybi yoxdur.

– Oğul?

Dedi:

– Bəli.

– Oğul, dünən saz almağınan bu gün aşıqlığa getmək olmaz. Bala, səhər gedərsən, beş dənə aşığa rast gələrsən. On-

[1] İndi

lar səndən saz çalmaq istərlər, söz oxumaq xəbər alarlar, qıfılbənd soruşarlar, bilməzsən.

Dedi:

– Aşıq, onlar nə soruşarlar, sən onu məndən soruş.

Aşıq Teymura bir az gülmək gəldi:

– Oğul, hələ sən o yerə çatmıyıbsan, mən səndən söz soruşam.

Dedi:

– Soruş da. Ya o yerə çatmışam, çatmamışam, məndən söz soruş.

Ən başı, Teymur götürür görək Məhəmməddən nə soruşur? Aşıq Məhəmməd cavab diyacaq, ya xeyr, mən ərz eliyim tamam eşidənnərin sağlığına:

Aşıq, meydanda eşq olsun,
Buyur meydanə, bismillah.
Eşqin badəsi nuş olsun,
Buyursan canə, bismillah.

Gərgərli Məhəmməd sazı döndərib sinəsinə, dedi:

– Aşıq, "adın nədir, Rəşid, birin deyim, birin eşid".

Götürsün görək nə deyir, nə ərz eliyir:

Aşıq, sənnən meydanə,
Girrəm meydanə, bismillah.
Allam sazını əlindən,
Sallam ərkanə, bismillah.

Belə bu dövrədən baxanlar baxdı gördü, bəh, bəh, oğlan elə gözəl oxudu, elə gözəl saz çaldı, elə danışdı, aşıq Teymur elə-belə qaldı.

– Oğul.

Dedi:

– Bəli.

Dedi:

– Oğul, hələ mən səndən qıfılbənd soruşmamışam, eləcə dedim görüm bir şey bacararsan?

Dedi:

– Usta, soruş.

Dedi:

O nədi – göydə qaradı?
O nədi – karvansaradı?
O nədi – alınmaz qaladı?
Sən də söylə, de, bismillah.

Dedi:

Ustad, bulud göydə qaradı,
Bu dünya karvansaradı.
Sənin sinən alınmaz qaladı,
Sözün olsa, de, bismillah.

Baxdı, gördü oğlanın ağzından od tökülür:

– Oğul, qulaq as.

Görək dübarəsin nə cür deyir? Mən ərz eliyim hamınızın sağlığına. “Paşaköşdü” havası ilə:

Teymur diyər, mən bəngiyəm,
Burada ağır səngiyəm.
Dəryaların nəhəngiyəm,
Tuta bilsən, de, bismillah.

Amma görək Məhəmməd nə deyir, ərz eliyim hamsın:

Məmməd deyir, mən əraǧam,
Dərdi baladan iraǧam.
Geçiş vermiyən qərğabam,
Geçə bilsən, de, bismillah.

Söz tamam oldu. Aşıq Teymur dedi:

– Xacə.

Dedi:

– Bəli.

Dedi:

– Xacə, bu oğlanı dəyirmanın boğazına ölü salsan, aşağıdan diri çıxar.

Amma dövrədə əyləşənlər əl çalırdılar, "əhsən, afərin" dedilər. "Aşıq, əla, bu cavan aşıq gör nə gözəl oxudu".

– Ustad.

Dedi:

– Bəli.

Dedi:

– Ustad, mən eşitmişəm, ustadlarda qanun belədi ki, necə ki sən məndən sözü xəbər aldın, indi nobət[1] mənimdi, mən xəbər alam.

Aşıq Teymur öz-özünə deyir ki, ilahi pərvərdiyara, bu hayannan gəldi, bizim burda işimizi elə bil xarab eliyəcək. Bu nə xəbər alar, mən tapa bilməm? Deyir:

– Oğul, elə görər, mən xəbər aldım, bəsdi.

Dedi:

– Yox. O cür deyil.

Amma görək indi Gərgərli Məhəmməd nəmənə aşıq Teymurdan xəbər alır, mən ərz eliyim tamaşaçıların və burda əyləşənlərin sağlığına. "Qəhrəmanı" havası ilə:

[1] Sıra, növbə

Gəl-gəl, arif, səndən xəbər alayım,
Bir şəcər qurulub, yolu nədəndi?
Yeddi yol ayrıcı ərkan içində,
Qurğusun kim qurub, yolu nədəndi?

Kim idi əyləşib qırxlar cəmində?
Biri qulluğunda, biri kəmində.
Ənkəbut tor çəkib ruhi-zəmində,
Onun bə torunun bağı nədəndi?

Amma aşıq Teymur dedi:

– Oğul, sən qanunu bilmirsən, rəsmi qayda belədi ki, sən o sözləri qurtar, mən axırda sənə bir cavab verrəm.

Görək, Gərgərli Məhəmməd nə deyir, ərz eliyim:

Məhəmməd də fani bilir dünyanı,
Nədən xəlq eyliyib külli-cahanı.
Sərsərin içində pərdə-pünhanı,
Deyirlər, qıl körpünün yunu nədəndi?

Aşıq Teymur baxdı, gördü bax o vaxtdan kı aşıqlığa gedib, onnan da qabaxdandan bu sözü eşitməmişdi. Dedi:

– Oğul, hər yerə gedə bilərsən. Tacir, hara istəsə, bu getsin. Bu elə özünə görə bir yaxşı aşıq olub.

Durub ayaq üstə, atası yapışıb oğlanın əlindən:

– Oğul, gedək.

Gəliblər. Anası baxdı, gördü, oğlan gəldi.

– Bala, qurban olum, nə oldu, nə xəbərdi?

Dedi:

– Atamnan soruş.

– Kişi, apardın, aşıq Teymur nə dedi?

Dedi:

– Vallah, aşıq Teymur dedi, bu hara istiyirsə, gedə bilər. Özünə görə gözəl aşıxdı.

Anası razılıq eliyib:

– Oğul, səni Allaha tapşırram.

Anasından, atasından, elindən, qohum-qardaşınnan oğlan xudahafis elyir, qərar elyib gəlsin hara? O vaxtı İstanbul şəhrinə. İndi nağıllarda mənzil-məkan qərar vermək olmaz, o vaxtı gecə-gündüz yol eliyib, gəlib yetişir İstanbulun şəhrinə. Az qalan, baxdı gördü bir nəfər rudbardan[1] gəlir. O baş-qulağın sarıyıb, əlində də bir saz. Yetişdi Gərgərli Məhəmmədə. Salam elədi, əleyk aldı.

– Oğul, aşıqsan?

Dedi:

– Bəli.

– Hara, inşallah?

Dedi:

– Gedirəm şəhərə.

– Nədən ötrü gedirsən?

Dedi:

– Vallah, burda bir aşıq var, bir qız var, əksin nişan verdi, bu qızdan ötrü gedirəm.

Dedi:

– Ay oğul, gəl, getməginən. Bu obada aşıqları salıb bəndə ki, sən heç onların heç birin cəm edə bilməzsən. Özün heş, gedib o biri aşıqların da qanına bais olarsan.

Məhəmməd qulaq asmadı. Orda götrüb, görək, nə deyir, ərz eliyim hamınızın sağlığına. O gələn adam Gərgərli Məhəmməd idi.

Sənə deyim əzəl başdan,
Gəl qayıdaq, Məmməd qardaş.

[1] Rudbar – Gilan əyalətində şəhər adı

Didəm dolub qanlı yaşdan,
Gəl qayıdaq, Məmməd qardaş.

Dedi:

– Hara qayıdıram? O boyda yolu gəlmişəm. İndi mən hara qayıdıram?

Dedi:

– Axır, səni o aşıq bağlıyar, özünnən də sonra o biri aşıqların qanına bais olma.

Dedi:

– Mən gəlmişəm elə aşıx bağlamaqdan ötrü.

Dedi:

– Sən bağlıyammazsan onu.

Qız duran ağır ellidi,
Yüz min fitnəli, fellidi.
Özü ərəbi dillidi,
Gəl, qayıdax, Məmməd qardaş.

Gördü, yox, heş bu Məhəmmədə bu sözlər kar[1] eləmir. Dedi:

– Məmməd qardaş, qulaq as.

Dübarəsin:

Səhərin nəsimi əsdi,
Səbrimin qərarın kəsdi.
Mənim qulağımın birin kəsdi,
Gəl, qayıdax, Məmməd qardaş.

Əl atdı, başını sarımışdı, sarığını götürəndə Məhəmməd baxdı, gördü bunun qulağının biri yoxdu.

---

[1] Təsir etmir

– Bəs, qardaş, sənin qulağına nə gəldi?

Dedi:

– Elə mən də sənin kimi bir aşığıdım, yoxlamadım ki, bu nə cür aşıxdı. Getdim aşığın meydanına, məni bağladı, istirdi məni də, onları da öldürtdürsün, mənim orda dostum-aşnam varıdı, bir cür məni onun əlindən aldılar. Dedi: "Olmaz, gərək bunun qulağın kəsəm, gedə neçə dənə sənin kimi aşığa ibrət ola, bir də gəlib bu meydanda bağlaşmıya".

Məhəmməd dedi:

– Qardaş.

Dedi:

– Bəli.

Dedi:

– Gedə bilərsən. Mən xoxangəldiynən qorxmam.

Yola rəvan oldu. Gəldi şəhərə varid oldu. Amma tanımır bura haradı. Buranın İstanbul olduğunu bilir. Amma hansı xiyaban[1], hansı küçədi, hara gedəcək, bilmir. Belə xiyabannan gedirdi, gözü sataşdı bir dənə bəzzazın dükanna. Baxdı gördü bir nəfər oturub, Allahlıxdı. Onun meyli-məhəbbəti düşdü bunun qəlbinə. Gəldi, dedi:

– Salam, qardaş. Adın nəmənədi? Kimsən?

Dedi:

– Mənim adım Əhməddi. Mənə bəzzaz Əhməd diyərlər. Oğul nəyə gəlifsən?

Dedi:

– Gəlmişəm, mənim burda bir mətləb-muradım var.

Qızın əksin nişan verdi, dedi:

– Bu əksdən ötrü gəlmişəm, bu qızı alam.

Əhməd baxdı bunun üzünə, dedi:

[1] Yol

– Oğul, heyif sənə, yaxşı cavansan. Getmə bu qızın meydanına. Bu, otuz doqquz aşıq bağlıyıb, salıb bəndə[1]. Sən gedərsən, səni də öldürər, onları da öldürər.

Amma Məhəmməd dedi:

– Yox, olan deyil.

İndi bunlar danışırlar, Allahlıxdı, gedə-gedə bunların məhəbbətləri çox olur.

Dedi:

– Qardaş, qoymaram belə səni.

Bir az yemək-içməkdən sonra dedi:

– Sən burda əyləş, bir neçə gün qalginən, mən deyərəm nə vaxt gedəcəksən.

Amma burda qalıb ta. Bir gün, iki gün, on beş günə kimi Əhmədin yanında qaldı Məhəmməd. Elə gündə deyirdi: “Qardaş, nə vaxt gedəcəyik? Nə vaxt sən mənə nişan eliyəcəksən?” Bir günlərim baxdı gördü şəhər şuluqlaşdı, mərdum qaçır.

– Nə xəbərdi, qardaş, niyə qaçırlar?

Dedi:

– Vallah, Şahzada xanımın on iki dənə şəyirdi var, meydanda oxuyurlar. Mərdum gedə onların tamaşasına.

Dedi:

– Biz də gedək da.

Dedi:

– Eybi yoxdur, gedək.

Durdu gedə, əl atıb sazın götürdü. Dedi:

– Yox, qardaş, sazı götürmə.

Dedi:

– Yox, mən heş yerə sazsız gedəmmərəm.

Nə qədər Əhməd deyir, Məhəmməd az eşitdi, sazın götürüb, gəldilər gördülər, bəli, on iki dənə xanımın şəyirdi var. Meydanda oxuyurlar, camaat tamaşa elyir.

---

[1] Tora salmaq

Məhəmməd bu mərdumu o yan-bu yan elyir, gəlir qabaxda saz əlində dayanır. Bunların bir böyügü vardı. Səsləndi, dedi:

– Oğul, gəl bura görüm. Aşıqsan?

Dedi:

– Bəli.

Dedi:

– Bilirsən ki, Şahzada xanımın qorxusundan heş aşıq bu dövrəyə zad edəmməz. Sən nə cürətnən gəlmisən bura?

Dedi:

– Gəlmişəm da, sözünüz var, buyurun.

Dedi:

– Ağa, sən nəmənəsən, biz səndən söz soruşaq? Sən hələ dünən saz alıbsan, sən hələ bir dənə oxu görək nə cür oxursan ki? Biz görək səndən söz soruşmalıyıq, ya soruşmalı dəyilik?

Götürsün görək burda, Gərgərli Məhəmməd nəmənə oxuyur, ərz eliyim hamuzun sağlığına:

Həqiqətdə bir söz üçün varallar,
Heş bilmərəm nə ərkandı, nə yoldu.
Nə tarixdi, nə zakirdi, nə pirdi,
Nə əlifdi, nə əlhəmdi, nə daldı.

Amma bunda aşıqlar baxdı bir-birinin gözünə. “Bilirsiniz, nə dedi?” Heş kim bilə bilmədi.

– Oğlan, ikincisi də var?

Dedi:

– Qulaq as.

Nə eyvandı, nə Keyvandı[1], nə damdı,
Nə işdi ki, işlənməmiş kəmandı.

---

[1] Farslarda planet adı

Nə piyalə, nə sürahi, nə camdı,
Nə al ələ, nə boş saxla, nə doldur.

Aşıqlar baxırlar, görələr, ayə, bu sözdən bir kəlmə baş tapa biləcəklər, ya xeyr.

Məmməd diyər, gözüm qaldı məstanda,
Tərif elə, ha deyilsin dastanda.
Bir cüt şəmaməsi düşüb bostanda,
Nə yetişib, nə ötübdü, nə kaldı.

İndi aşıqlar baxırlar bir-birinin üzünə. Söz tapa bilmədilər. Hərə durdu bir tərəfə əkildi. Əhməd gəldi yaxına. Çəkib Məhəmmədin üzündən öpdü:

– Qardaş, qurban olum sənə, mən bilmirdim sən bir belə söz başarırsan. Bir belə şeir biləsən.

Bular gəliblər, amma bu şəyirdlər gəldi, Pərizad xanıma xəbər gətdilər ki:

– Baba, bugünnəri meydana bir aşıq gəlibdi, elə bir söz oxudu, bunun bir nöxtəsin də tapa bilmədik.

Bu xanımın da adəti idi. Hansı aşığnan bağlaşsaydı, əvvəl gedərdi hamama, onnan sonra gəlib bağlaşardı. Özünə on dörd qələmnən bəzək verərdi. Bəlkə aşıqlar görüb bunu, camalına heyran qalalar, sözləri itirələr. Xanım dəstur verdi:

– O aşığa xəbər eliyin, sabahlarım gələcək meydanda mənnən bağlaşa. Amma car salın.

O vaxtı xanım hamama gedəndə nəmənə tükən-bazar vardı, hamısı gərək bağlıyardı. Carçılar car saldılar ki, tükannarı bağlasınlar, xanım hamama gedir. Bəli, hamı dükanın bağlıyıb, xəbər elədilər ki, “Qardaş, Əhməd, sən də dükanı bağla”. Əhməd istədi dükanı bağlıya, Məhəmməd dedi:

– Hara, mən dayanacam tükanda.

– Qardaş, gəlib mənim də bu tükanımı uçurdarlar, tükanıma cərimə eliyərlər.

Dedi:

– Hamısı mənim öhdəmə.

Əhməd də məcbur oldu, çarəsiz otdu elə Məhəmmədin yanda. Qaldılar tükanda.

Bəli, səhər tezdən kəniz, hacar, qul, qaravaş, neçə fərraş, xanım o tərəfdən gəlir. Qarabaşdar qabaxdan gəlir, dedi:

– Qardaş, tükanı niyə bağlıya bilmirsən?

Dedi:

– Bağlamamışam, çün mən bu xiyabanın rahdarıyam.

Daha bir söz tapıb diyə bilmədilər. Xanımın kəcavəsi gəldi yetişdi. Böylə kəcavə yetişən kimi Məhəmməd sazı götürdü, əndi xiyabana. Ənib xiyabana, xanım dedi:

– Oğlan, çəkil yolumdan, gedim.

Dedi:

– Yox, xanım. Mən bu xiyabanın rahdarıyam. Rahdar pulumu ver, xoş gəldin, get.

– Oğlan, nə rahdarı, nə pulu?

Baxdı gördü belə bunnan danışsa, söz çoxa çıxacaq. Dedi:

– Xanım, icazə ver deyim da.

Götürsün görüm burda nə deyir. Mən ərz eliyim sizin hamınızın sağlığına:

Gedən gözəl, bəzirgansan, xacəsən,
Aləm dönsə, mən dönmərəm, yar səndən.
İşvəylə, qəmzəylə canım alırsan,
Əskik olmaz, dürrü-gövhər, kan səndən.

Dedi:

– Oğlan, mən əvvəl hamama gedirəm, mənim nə dürr-gövhərim var sənə verəm, get, sabahlarıma qarabaşlardan yollaram sənin rahdar pulunu gətirər.

Gördü, yox, dedi:

– Xanım, çərçi deyiləm nisyə satam. Mənimki nəğdnəndi, nəğdini ver, soyuş.

Gördü, oğlan, əsəbi olan dəyil. Dübarəsi, gör nə dedi:

Məhəmməd mooladan mətləbin aldı,
Gəlib yönün qürbət ellərə saldı.
Xanım, öldürsən də, qanım sənə həlaldı,
Yoxdu kimsəm, gələ ala qan səndən.

Amma diyərlər, xanım baxdı gördü bunlar çox danışa, körpü qalar çayın qırağında. Rubəndin üzündən götürdü, oğlanın gözü sataşdı xanımın gözünə. Baxdı gördü dünya gözəli. Yanı belə bir gözəldi, dünyada tayı yoxdu. Oğlan baxan kimi qəşş elədi, huşdan getdi. Düşdü xiyabanın bir tərəfinə. Bəli, xanımın kəcavəsi rədd oldu, getməyə hamama.

Bu, gəlməkdən, Əhməd baxdı gördü, baba, oğlan düşüb xiyabanın bir tərəfinə, gəldilər Məhəmmədi gətiriblər, qəşşidən ayıldıblar:

– Ay bala, niyə belə oldun? Nə gəldi, sən nə gördün? Kim nə dedi, niyə belə oldun?

Dedi:

– İcazə versən, onu da saz-söznən deyim.

Götürsün görək, belə deyib, ərz eliyim dustların sağlığına:

Başına döndüyüm, ay Əhməd qardaş,
Saqi mənə bir camı içirdi, getdi.
Dolanım başına mən yavaş-yavaş,
Ağlımı sərimdən uçurdu, getdi.

Dübarəsin deyir:

Məhəmmədəm, mən gedərəm elimə,
Yalan sözü gətirmərəm dilimə.
Tərlan düşdü bir nadanın əlinə,
Ovlada bilmədi, uçurtdu getdi.

Söz tamam oldu, dedi:

– Qardaş, hamamın yolu hayandadı?

Nişan verdi. Dedi:

– Bu yana. Neynirsən hamamın yolunu?

Dedi:

– Gedirəm.

Məhəmməd yerindən qalxdı, gedə, Əhməd yapışdı qolundan:

– Qardaş, bax, gedib özünü ölümə verməginən, gəl bu işdən əl çək.

Gördü, yox, olan dəyil. Məhəmməd sazı da götürüb gəldi hamama sarı. Amma qarabaşlardan ikisi dayanmışdı qapının ağzında.

– Oğlan, hara, inşallah?

Dedi:

– Gedirəm hamama.

– Niyə?

Dedi:

– Belə soyuq dəyib.

– Bu gün hamam zənanədi[1], sabah mərdanədi[2]. Get, sabah gələrsən.

Gördü, bunlarnan danışsa, körpü qalar çayın qırağında. Tutdu bunları kəllə-kəlləyə çaldı atdı kənara, girdi hamamın

---

[1] Qadınların növbətidir
[2] Kişilər üçündür

içinə. Kənizlər baxdı gördü ki, baba, səs gəlir. Biri baxanda gördü oğlan gəlib hamama.

– Ay xanım, – fəryad elədi, – o sırtıq aşıqdı xiyabandakı, gəlib bura.

Bular höyül-balaynan...bular libasların geyindilər.

– Oğlan, hayana gəlmisən? Nəmənə istiyirsən?

Dedi:

– Xanım, mənə də soyuq dəyib, özüm də qəribəm, gəlmişəm bu hamamda soyuqdəymənəm çıxa.

– Oğlan, gəl mənim bağrımnan oynama, gəl çıx get. Verrəm burda öldürəllər səni.

Dedi:

– Xanım, belə öldürsələr də öldürsünlər, amma icazə ver bu günnəri mənim bu soyuqdəymənəm çıxsın.

Çox diyəndə orda Məhəmməd götürüb belə diyir:

Başına döndüyüm xanım,
Xanım, mənə soyuq dəyib,
Sənə qurban şirin canım,
Xanım, mənə soyuq dəyib.

Yoxdu bu hamamın tası,
Silinsin könlümün pası.
Sənsən gözəllərin xası[1],
Xanım, mənə soyuq dəyib.

Dedi:

– Neyniyim, soyuq dəyib. Sən bura nəyə gəlibsən? Çıx, get! Çıx, get bu hamamdan. Verrəm burda öldürəllər, qanın da batar.

Dedi:

[1] Seçilmişi

Ucadı hamamın tağı,
Xanım, sizin sözünüz qalsın bağı.
Hamamnan qovma qonağı,
Xanım, mənə soyuq dəyib.

Ağa dəstur verdi, bunu ki atsınlar hamamdan çölə, Məhəmməd bir az belə baxdı gördü, xanım yenə kənizlərdən birinə ehtiyat elyir. Hamamnan çıxıb gəldi.

Gəlirdi, baxdı gördü bir qoca kişi dayanıb xiyabanın yanında. Salam verdi.

– Əmi.

– Bəli.

– Əmi, bu Şahzada xanımın dərxanəsi[1] hayandadı?

Nişan verdi, dedi:

– Oğul, elə bu xiyabannan getsən, gedib tapassan.

Gəldi Şahzadə xanımın dərxanəsinə. Qapıçılar soruşdu:

– Oğlan?

– Bəli.

– Kimsən, nəmənəsən, hardan gəlibsən?

İstirdi elə varid olsun içəriyə, səssiz-salamsız. Dedi:

– Tanımırsız? Mən Şahzada xanımın xaloğlusuyam. Uzaqda olardım, özü məni dəvət eliyib gəlmişəm.

Dedi:

– Xanım hamama gedibdi. İxtiyarsız biz adamı buraxmarıq içəriyə.

Dedi:

– Baba, elə siz gedib Şahzada xanıma diyəsiz xaloğlunuz gəlib, sizə ənam verər. Qoy mən gedim içəriyə.

Bəli, bunları qane eliyib, varid oldu içəri. Kənizlər də bu sözü eşidiblər. Oğlana çox izzət, ehtiram eliyiblər. O vaxt ol-

---

[1] Padişahın xüsusi otağı

du, xanım hamamdan çıxıb gəlir. Kənizlərin bir neçəsi qaçdı xanıma tərəf.

– Ay xanım, müjdə ver, xaloğlunuz qonaq gəlib.

Dedi:

– Axı, mənim xaloğlum yoxudu ki, qonax gələ.

Kənizlərin biri dedi:

– Bax, o xiyabandakı sırtıq aşıxdı ya, odu gəlib, nə qonağı?!

Gəldilər, gördülər, bəli, həmin aşıxdı, əyləşib burda.

– Oğlan, sənə demədimmi, sən get, meydanda gəlib sənnən bağlaşacam.

Dedi:

– Xanım, xoş gəlibsən.

– Nə xoş gəldini?

Dedi:

– Axı, qonağa "xoşgəldin" eləməzlər? Bura bizim öyümüzdü[1], sənə də xoş gəldin elyirəm.

– Oğlan, əl çəkginən, nə xoşgəldini? Bura mənim öyümdü.

Dedi:

– Yox, xanım, bura mənim öyümdü, sən iştibah gəlibsən.

Amma gördü belə olan dəyil, Məhəmməd götürüb saz-sözlə görək bu xanıma necə xoşgəldin eliyir, mən ərz eliyim tamaşaçıların və burda əyləşənlərin sağlığına:

Başına mən dönüm, alagöz xanım,
Xoş gəlibsən bizə, qurban olduğum.
Götür işvə-qəmzəni, sən qoy kənara,
Xoş gəlibsən bizə, qurban olduğum.

– Oğlan, bura mənim öyümdü, nə xoşgəldin eliyirsən mənə?

---

[1] Evimizdir

Elə durma incir nazik ayağın,
Sən ağzı mənim quymax dodaqlım.
Sənəm qurban malım, canım, öz varım,
Xoş gəlibsən bizə, qurban olduğum.

– Oğlan, bura mənim öyümdü, – kənizlərdən xəbər aldı, – kənizlər, bu oğlan düz deyir?

Dedilər:

– Xanım, vallah, sən düz deyirsən, bura sənin öyündü.

– Oğlan, əl çək, sənə dedim, elə bil səni öz əlimlə mən axırda öldürtdürəm.

Dedi:

– Xanım, sənə ərz elədim, öldürtdürsən, qanım sənə halaldı, qoy sözümü deyim qurtarım. Dübarəsi[1]:

Yeriş-yeriş dəyil sərvi-rəvandı,
Hər bir yerişlərin nahənq bir qandı.
Xanım, Məhəmmədin canı sənə qurbandı,
Öz öyündü, sənə qurban olduğum.

Belə diyəndə dedi:

– Oğlan, nə bayaqkı sözün, nə indiki sözün, indi dersən öz öyündü.

Cebindən əksi çıxartdı, dedi:

– Xanım.

Dedi:

– Bəli.

Dedi:

– Xanım, mən səni deyib uzaq ölkədən gəlmişəm, indi sözün nəmənədi? Bax, bağlaşma desən, səhər meydanda bağlaşacayıq, yox ki burda rizayət versən, gəlmişəm, sənnən ötrü

---

[1] Yenidən

bir belə yolu gəlmişəm, öldürürsən, qalırsan, səni almaxdan ötrü gəlmişəm.

Xanım dedi:

– Kənizlər, bir az o yana durun görüm, bu oğlan nə deyir?

Amma elə xanımın da göylü varıdı. Kənizləri bir az o yan-bu yan eliyir. Oğlannan danışdı, dedi:

– Oğlan, mən sənin qanından keçirəm. Çünki mən belə sənə əlaqə[1] tapmışam.

Bəli, diyərlər ki, adam göndərib atasının yanına:

– Atacan, mən o aşıqların qanından keşdim, o aşıqları öldürtdürmürəm. Mən bu oğlannan toy eliyrəm.

Bəli, dustlar, orda qırx aşığı bənddən azad elyiblər. Molla gətdilər, qazi gətdilər. Xanımnan oğlanın kəbnin kəsiblər. Qırx gecə-gündüz burda Əziz-xan toy tutub bunlara. Və Məhəmməd götrüb xanımın qayıtdı Gərgərli şəhərinə. Onlar orda yaşadılar. Qocaldılar, ucaldılar. Bəli:

Budur ehtibarı qoca dünyanın,
Özündə saxlıyır baharı, yazı.
Biz də olaq bu hikmətdən irazı,
Aşıq Mahmud götürsün sədəfli sazı.
Oxusun sizinçün bir xoş avazı.

Sənsən mənim bu dünyada,
Dövlətim-malım,simavar!
Səhər tezdən qaynamasan,
Yamandı halım, samovar!
Yanında hazır olaydı,
Kərəylə balın, simavar!

[1] Sənə vurulmuşam

Baxdım açılan səhərə,
Xəyalım uçdu göylərə.
Nəlbəkidə qaldı kərə,
Durum gedim dükənnərə,
Şirniyyat alım, simavar!

Tanrıdan dövlət istəməm,
Bircə ağ otağım ola!
Hər gecə bir bölük atlı,
Gəlhagəl qonağım ola!
Hatəm sayaq[1] süfrə açam,
Pozulmaz yığnağım ola!
Öyəclər çəkilə şişə,
Qonaqlar düşə təşvişə.
Yarla öpüşə-öpüşə.
Bəlkə onda eşqə düşə,
Qaynaya zalım simavar!

Sənin çayın içməyəndə,
Aşıqların səsi batır.
İçində dambatı olan
Sazını tez yerə atır.
Şairlərdə qayda budur,
Sözünü qiymətli satır.
Mənim adım Ağacandır,
Sözlərim dürr-mərcandır.
Sinəm bir dərya ümmandır,
Gecə-gündüz dərsin verib,
O böyük alim, simavar!

---

[1] İslam peyğəmbərin zamanında tanınmış xeyriyyəçi şəxs. Onun adı Hatəm Tai omuşdur.

# KOROĞLUNUN TOQAT SƏFƏRİ

Möhtərəm eşidənnər, isteryo Xəyyam həlbət də bizdən Koroğlunu, Toğat gölünin səfərini həlbət də təğazə eliyipdir. Biz əlimizdən gələni ərz eliyəm, həlbət də Məhərrəmi Rəşidinin həmkarlığıynan qəbləzin ki, dastanımızı şuru eliyək, adresin ərz eliyək. Həlbət də, cəlallı Qoş Koroğlu günnərin birisində oturmuşdu təmam dəlilər dövrəsindəydi. Qoş Koroğlu bir zaman baxdı gördü, Eyvaz xan zumurrutnişan[1] təxdin üsdündə oturupdur.Vəli Dəmirçioğlu, Dəli Həsən, bular da bunun dorəsindədilər neçə dənə dəlilərdən. Baxdı gördü Eyvəz çox sadə nəzərə gəliri. Bəraye inki[2], Eyvəz yeddi min yeddi yüz altmış yeddi dənə dəlinin sərkərdəsidi. Baxdı gördü Eyvəz də bir nəfər bular təki sadə oturup bularîn vəsətində. Amma Qoş Koroğlu bir ah çəkdi öz ürəyində, fikr elədi, mən bir nəfəri dəlilərdən yolluyam, gedə Toğat gölünnən, Durnateli gətirə. Mən tutam qızıl suyuna, tikəm[3] Eyvəz xanı başına məhlim[4] ola Eyvəz xan bir belə dəlilər burda vardı, buların sərkərdəsidir. Həlbət də, yel vuranda Durnateli əfsənə[5] eləyə mən baxam lezzət aparam. Durup əyağın üsdünə bir cam şərbəti doldurupdur, səsləndi:

– Mənim qardaşlarım, bir nəfər isdirəm bu camı mənim əlimnən ala, bu şərbəti içə gedə Toğat gölünnən, İstanbulun Toğat gölünnən Durnateli gətirə mən tutam qızıl suyuna, Eyvəz xanın başına tökəm. Tel vura, Eyvəz xanı başınnan yel elə-beləyə vuranda, mən baxam lezzət aparam. Hər cəvanmərd hazırdu mənim əlimnən bu camı-şərbəti alsın nuş eləsin.

---

[1] Zümrüdlü
[2] Bunun üçün, çünki
[3] Tökəm
[4] Məlum
[5] Əfsanə

Koroğlu bir dorə dolandı dəlilərin içində Eyvəz xanın nəzəri Koroğludaydı baxdı gördü heş kim əlin uzatmadı. İkinci dorədə Eyvəz xan özü durup əyağın üsdünə, əl uzatdı kasəyə. Qoş Koroğlu verμədi Eyvəz xana, rədd elədi Eyvəz xannan.Yəni razı dəgildi Eyvəz xan gedə. Razı dəgildi Eyvəz xanı bir saət yanınnan o yan-buyana rədd eləyə (ayrı sala). Üçümüncü dəfədə Qoş Koroğlunun nəzəri Eyvəz xana düşdi, baxdı gördü ağdəsdə xənçəri çıxarıb dayıyıbdı ürəginin başına, bir əlin də uzadır Koroğluya tərəf, camı şərbəti isdir biləsinnən. Baxdı gördü əgər vermiyə Eyvəz xana, Eyvəz xan mümkündü özünü öldürə. Amma bu kasey ki əlində varıdı, içi doludi şərbətinən, veripdi Eyvəzə. Eyvəz alıp bu şərbəti Koroğlunun əlinnən nuş eliyipdir. Dəsdur veripdi dedi, mənim atımı amadə eləyin. Dəmirçioğlu baxdı gördü Eyvəz xan vaqiən bir belə dəlilərin sərkərdəsidir. İsdir gedə, dedi:

– Dahı mənim qalmağım fayda eləməz[1].

Səsdəndi:

– Mənim də atımı amadə eləyin.

Dəli Həsən baxdı gördü bu iki sərkərdə buların içinnən gediri, ərziş yoxudu day bularçün.

Səsdəndi:

– Mənim də atımı amadə eləyin.

Qoş Koroğlu baxdı gördü üş dənə sərkərdələrinnən gedir, əgər xuday nakərdə bular üçün bir piyşaməd, bir kuçiktərin piyşaməd ola[2], dedi, hətmən mən biçarə oluram. Bəs səsdəndi:

Uşaxlar, mənim sazımı gətirin.

Sazı gətirip də deyir, bəlkə inşallah, Eyvəzə bir neçə dənə dəlalət nəsihət eliyəm, Eyvəz getmiyə bu səfərə, öz ürəgində əlbətdə bu fikri elledi(əlbətdə bu fikir ürəyindən keçdi).

[1] Yersizdir

[2] “Allah eləməmiş bunların başına bir pis hadisə gələrsə” mənasında.

Mən tovuz teli gətirrəm, tikərəm Eyvəzin başına. Mənimçün çətin bir iş dəgil. Amma şayət(olabilsin), inşallah, Eyvəzi bu müsafirətdən) munsərif eliyəm (səfərdən vaz keçsin). Bəs alıpdur Qoş Koroğlu Eyvəzə nəsihət elər:

Xan Eyvəzim, tərk et getmə,
Bala canı, qışdı bu dağın yolları.
Boran olar, çiskin eylər,
Balam,yaşdır bu dağın yolları.

Vəli[1], Xan Eyvəz qəbul eyləmədi. Xan Eyvəz dedi:

– Mən xülasə gedəceyəm, Koroğlu. Sən narahat olmaginan.

Qilic[2] oynaşar əllərdə, balacan,
Qalxan oynaşar qollarda.
Amma hərami çoxdu yollarda,
Sən allah, getməginən,
Laşdı[3] bu dağın yolları.

Dedi:

– Qoş Koroğlu, mən gedəcəyəm bu müsafirətə.

Əgər bu rifaqalardan da birisi gedə bu işi görə mənimçin həlbət də, bu teli gətirə səhər tikey mənim başıma dünyadur, pişamətdir insanüçü ola. Bular qeydələr[4] mənə diyələr bu teli biz gətirdiy sən tikdiy başıya. Mənimçün yaxcı bağışlamaz. Bu telin sorağına ya gərəy yeddi yüz nəfər gedə eliyə, qırx nəfər ya tək mən özüm gərəy gedəm. Buları da istəmirəm gedələr.

---

[1] Ancaq (Amma)
[2] Qılınc
[3] Leşdi
[4] Qayıdarlar, dönüb mənə deyərlər

Mənim balam, olma nökər,
(Mən səni oğul gözündə görürəm, oğul əvəzində gətirmişəm bura, sən nökər dəgilin burda.)
Nökər olan cəfa çəkər.
Atlar nal-mıxın tökər,
Daşdır bu dağın yolları.

Dedi:

– Qoş Koroğlu, əgər daş ola, qış ola, xülasə, mən gedəceyəm o yolu.

Bala can, əgər sən gedən,
Koroğlu hay çəkər ağlar.
Sinəsini çəpraz dağlar,
Amma qar yağar, balam, kəmana bağlar,
Qışdır bu dağın yolları.

Söz təmam oldu, Eyvəz qulağ asmadı. Savar olub[1] ata, yola düşdü. Həlvətdə, Dəli Həsənnən Dəmirçioğlu da xan Eyvəzin dalıyca. Bular şəhirdən çıxıplar, müddəti yol gəliplər, pəsaz müddətdən sonra özlərini yetirdilər İstanbul şəhrinə. Üç ağaç, ya bir ağaç be qolu ustadlar qalan Xoləsə[2] bir bağ varudu binamı[3] "Toğat gölü" diyərdilər. Bura bu əndazə yaxçıydı, basəfa yeriydi. Yaxçı çeşmələr dört ətrafdan tökülərdi gələrdi bura. Buranı Xunkar[4] dəsdur[5] vermişdi villa eləmişdilər. Villanın çar ətrafu da bağudu. Bular üş dənə dəlilər yetişiplər bağın içinə, gəliplər bu villanın otaxlarının birində oturuplar, nəfəslərini tazə eliyiplər, nahar yeyiplər, nahardan sora Dəli

---

[1] Minib
[2] Sözün qısası
[3] Adı
[4] Xudkar
[5] Tapşırıq

Həsən baxdı gördü, bu əndazə bu suyun başına durna töküldü, əslan[1] hesaba gəlmiyə. Ama çəkiplər ox kamannaru bir neçə dənə xulasə bu durnalardan vuruplar amma vurannan sora gətiriplər, otağın içində buları amadə eliyiplər kəbab çəkmək için. Hər tərəfə baxdılar, bağı tazə çün bağ düzəlmişdi. Təmam ağaşları tazə momaydu[2]. Xan Eyvəz səsdəndi:

– Uşaxlar, durun görəy bu bağın içinnən quru ağaş tapa biliriz, gətirəyiz.

Dəli Həsən dedi:

– Nəmə, dədəmiz burda gəlip zəhmət çəkip nəccarlığ eliyip, qapı düzəldip. Rəhməttiyin oğlu, bağın içi təmam tazə mumadı. Bu qapılardan çıxadin sindirin burda otağın içində kəbabı ələm eləyin, hala biləxəra İstanbul şahı da bir gün olar gələr buranı görər, ayrıdan qapı alar salar. Məgər qorxuyan[3] yoxudu.

Əl atıplar Dəli Həsəni qapılardan pəncərədən çıxadıp gətiriplər sindiriplar, otağın içində kəbabı çəkillər.

Qalmaxdan ossunnar, ama xəbər kimnən verəy, Qoş Koroğludan. Qoş Koroğlu əyləşmişdi çardaxlı Çənlibeldə, əssan belə bir dəfə səsdəndi:

– Uşaxlar, mənim belə ürəyim qəmnak[4] oldu, qəm tutdu məni. Mənim sazımı gətirin.

Sazı gətiriplər Koroğluçün. Koroğlu baxdı gördü, miqdarı durna gögnən gedire. Bu durnalar da qəmnan gedire. Amma beş kəlmə xatirnə gəlipdir. Alıp görək nə cur sohbət elere, biz ərz eliyək, təmam eşidən dusdarın, rüfəqalarımızın sağlığına:

Gögdən gedən beş durnalar,
Eyvəzimnən necə xəbər olmadu?

---

[1] Əslində, ümumiyyətlə
[2] Yeni çücərmiş qoz və ya badam ağacı
[3] Olmaya qorxursan
[4] Qəmli

Ciqqası[1] sərxoş durnalar,
Qardaşdan xəbər olmadu?

Durna gedər düzüm-düzüm,
Boynu qənətinnən uzun.
Durna mənim iki gözüm,
Bəs niyə mənim qardaşımnan xəbər olmadu?

Amma deyir, durnacan əgər mumkindi bir az qalx havaya, qeyit bax görginən Eyvəzdən xəbər var mənimçün, muşdulux gətir.

Tökülmə çaya, çimənə,
Arzumanı[2] qalar mənə.

Amma durnacan, əgər mumkindi qalx havaya, dönədönə bax gör, niyə Eyvəzdən xəbər olmadu?

Bu tərəfdən dəlilərdən yığışıp da Koroğlunun dorəsinə. Koroğlunu baxdılar gördülər çox narahatdur, əgər icaza versəy, beş yüz atdı atlanak bəraye inki sən Eyvəzdən, sarınnan narahat olay, biz sənin narahatçuluğuynan dözə bilməy. Koroğlu deyir, hələ səbr eləyin, görək nə cür olar?

Çartaxlıdı Çənlibeli,
Açılıpdı qızilgülə.
Eyvəz Qoş Koroğlunun bir şirin dili,
Eyvəzimnən xəbər olmadu.

Ərz elədim dəlilərdən, səsdəndilər: "Qoş Koroğlu, əgər narahatay dəsdur verginən neçə dənə atlı atlansın". Amma

[1] Burada "başı" deməkdir, ancaq cıqqa əslində tac anlamındadır
[2] Arzularım

icaza vermiri Koroğlu. Koroğlu burda qalmaxdan ossun, xəbər verək, dəlilərdən. Dəlilər qalıplar burda bir neçə gün.

Bu villada daha qapı yox, pəncərə qoymadılar qala. Amma xəbər verək bağvandan[1]. Bağvan bir gün, günün batar çağı durup əyağının üsdünə gəlir inşallah, bağı su nöbətçisidi gəlir bağı suvara. Gəldi dahi bu villaya tərəf getmədi həlbət də gəlip gedipdi. Bağın üsdünə, burda bir gölək[2] düzəltmişdilər. Dedi, yaxşısı budur mən bu gölü bağlaram bir sərxab vurram çün o zaman ki ayıldım, şuru[3] elədim su suvaram da yuxluya bilməm onnan. Gölü bağlıyıpdı bağvan belini qoyup yanına, bəna elədi, sərxab vurmağa. Yuxluyup yarı gecə geçərdi, geçməzdi, xulasa bağvan yuxusunnan ayılıp. Amma ayılanda suyu bağladı, su gəldi əyağa özü də suyunan gəldi. Gəldi gördü, təmam bu bağın bu mumalaru əgilip suya səlam verire. Dəlili də bu oldu. Eyvəz səsdəndi:

– Qardaşlar, bizim ağacımız burda tükəndi, ağaç fikr eləyin[4].

Dəli Həsən dedi:

– Qardaşdar, ağaç yoxdu, gəlin çıxək gedək.

Dəmirçioğlu dedi:

– Bəyə biz bura namə gətirmişik gələk çatan sahat verək gedək. Gəlmişik burda bir beş gün istirahtçılıx eliyək. Sən niyə bir belə narahatın, Dəli Həsən?

Dəli Həsən bu cür deyəndə durup əyağ üsdündə gəlip bağın bir tərəfində şəmşirnən xaytarış yerə tökmüşdü. Bağban baxdı gördü təmam bu tazə mamalar əgilipdi suya səlam verillər. Dedi, deyillər ildə bir dəfə xuləsə ağaç suya səlam verər. O zamana hər kəsin əğidəsi[5] pak ola, nəzərinə gələ görə bilə,

---

[1] Bağban
[2] Gölməçə, balaca göl
[3] Başlamaq
[4] Ağac haqda düşünün (ağac fikrində olun)
[5] Əqidə

əlində bel ola, qazma ola, külüng ola, diyə qızıl, qızil olar. Ağa, bu beli dayadı qarnına, dedi, belim qızil, belim qızil, belim qızil, xulasə biləsini yuxu apardu. Amma süp tezdən ayıldı gördü xeyr, xəbər yoxdu. Belə iki batman da palçıx yapuşupdu, qızil-mızildən də xəbər yoxdu. Beləyə baxanda, baxdı gördü, xeyr, bular söhbətu səlam vermək dəgil, buları dibdən xaytarış[1] eliyiplər. Durup əyağı üstünə villaya tərəf gəlməgə gəldi, gördü villanın qapılarınnan tütün[2] vurur çölə. Dedi, hətmən İsfahan lotularınnandu, geçi-meçi tutup gətiriplər, burda yeyillər, ərz eliyim xidmətiyə. Bu bağin ağaşdarını bular kəsiplər təmam. Bir miqdar varudu çata başladı söyməyə. Siz belə olmuşiz gələyiz Cəfər paşani ərz eliyim ağacını təmam xaytarış eliyip yerə tökəyiz. Amma xan Eyvəz səsdəndi:

– Dəli Həsən, qulağ as gör bağvannan dədəyə nə cür dua eliyir rəhmətlik göndərir.

Gördülər bəli, bağvan əlin qoyup qulağına sögə-sögə özünü yetirdi bulara. Qapıdan baxanda baxdı gördü üç nəfər burda oturup, əslən bir belə yekəlikdə adam heç görmüyüb hindiyənəcən[3]. Birdən gəldi diyə səlam, özünü itirdi, dedi bismillah. Xan Eyvəz səsdəndi:

– Əleykə salam. Bağvan can, biz cinik?

Dedi:

– Yox, vallah, mən ərz elləmədim siz cinsiz[4]. Geş gə mənim yanımda otu.

Ağa, geçipdi xan Eyvəzin yanında oturup həlbət də, Xan Eyvəz biləsinnən soruşdu:

– Xop, bağvan, sən bura nə vəxlər gəlləy?

Burda ərz elədi:

---

[1] Ağacın, gülün və s. budanması

[2] Tüstü

[3] İndiyədək

[4] Cinsiniz

– Vallah, buranı bugünki bunyatı bu bağ burda qoylup əvvəlinnən mən bağvanıymışam. On günnən on iki günnən, bir həftədən bir gəlləm bu bağı suvarram, çıxaram gedərəm. Bu gün ki nobatıydı[1] gəlmişəm, xulasa görmüşəm. Bir bədəneyi bağ[2] təmam xaktəraş olup, eyb eləməz olar geçər. Mücəddədən gənə əkəriz.

– Xop, bağbancan, sən nağad[3] hüquq(muzd) allan[4] bu ərbabıynan İstanbul patişahıynan, padişahından.

Dedi:

– Vallah, mənə huğuq[5] – zad verməz, mən fəğət[6] gəlləm gəlləm hər zaman, gəlləm burda üş dənə durna vurram, dört dənə vurram, iki dənə vurram, aparram üç qıran[7] mənə huquq verə bu, ənam verər.

Dedi:

– Şayəd gəldi, on dənə apardın?

Dedi:

– Elə üç qıran verər!

Dedi:

– Bir moqe[8] gəldin bir dənə apardın, dedi: elə üç qıranı verər.

Səsdəndi:

– Dəli Həsən. Həsəncan, bu durnalardan on-on beş dənə verginən bu bağvan aparsın. Aparsın, bu yomiyəsinnən[9] qalmasın, gündə üş dənə aparsun, çun bu durnalara biz ox-kaman

---

[1] Növbə
[2] Bağın gövdəsi
[3] Nə qədər
[4] Alarsan
[5] Hüquq
[6] Yalnız
[7] Qəpik-quruş
[8] Mövqe, vaxt, zaman
[9] Günlüyündən, günlük qazancından

atmuşuy daha bir muddət gəlməzlər uçara[1] bura. Yomiyəsinnən qalmasın, gündə üş qıranı alsın. Biləxərə üş qıranı da biz başa verəy beləsinə. Olmuya bir moğe xudayi nakərdə biləsini, İstanbul padşahı ixrac eliyə işinnən[2].

Əl salıpdur Eyvəz həlbət də, bir ocu[3] tutan puldan doldurupdur bağvanın oycuna. Bağvan baxdı gördi Osman lirəsidi. Amma Dəmirçioğlu dedi:

– Gəl, bəs mən də verim.

Dəmirçioğlu da bir oyuc verdi. Dəli Həsən buların hamısınnan çox verdi.

Bağvan töküp cibinə yavaş-yavaş gəlirdi, qapıdan çıxdi, öz ürəgində dedi, birdə sizə dədə yandırım aşıxlar dasdan eləsin qiyamətə desinlər. Siz gələyiz burda yanı belə olmuşuz, gələyiz ağaş taraşlayız[4], yerə tökəyiz. Bağvan çıxıp özünü yetirip xunkarın yanına durnaların gətirip leşin atıp xunkarın bərabərinə. Xunkar dəsdur verdi, dedi, bunun ənamını verin üş qran verdilər, bu baxdı bu üş qrana, baxdı cibindəki üş qrana, bu üş qranı atdı getdi. Xunkar dedi ki:

– Bağban, məyər dəli olmuşan?

Dedi:

– Xeyr, qurban, dəli olmamışam. Sən heş zaman bu ənama bir tərəqqi-tənəzzül vermədin. Bax ha getmişəm Koroğlunun dəlilərinnən üş dənə gəlmişdi bağa. Hala dilim tutuldu, salam verə bilmədim bismillah, dedim. Əgər səlam verə bilsəydim, bir qatır yükü mənə ləl-i-cəvahirat[5] verərdilər. Nəmə-Nəmənə deyirən sən? sən həməşə bu üş qranı mənnən alanda, dua elərdin bu gün atdın getdin.

Dedi:

---

[1] Uçarlar
[2] İşindən uzaqlaşdıra
[3] Ovuc
[4] Ağac kəsmək
[5] Daş-qaş

– Ərz elədim, bismillaya bax.

Cibini görsətdi xunkara. Xunkar gördi, xeyr, cibdoludu oğlanın.

– Kim məyə varıdı bağda?

Dedi:

– Üş dənə Koroğlunun dəlilərinnən sağlıyına. Təmam qapı-pəncərənin ağacını çıxadıplar yandırıplar. Da heş zat yoxdu. Bu gün səhərdi ki, bağın qalan bəğyəsini də xaytarış eliyip yandırallar.

Amma Xunkar istədi neçə nəfər əyyarlarınnan dorəsinə, nəxşə çəkin[1], biz gedək, xulasə buları tutak. Bir cür tutak bilələrini ki, Koroğluya şikəstlik verək.

Ağa, yığılıp da gəliplər, amma əyyar vəzir[2] varıdı, Əyyar-vəzir üş dənə bu mutriflərdən amadə elədi. Dedi:

– Siz ikiyiz çallıyız, biriyiz oynariz. Bu oynuyana dedi, oynuyan tənabbazıdı.

– Üş dənə mey doldura, üçünün də içinə bihuşdardan dəxl elən[3] aparran verəyən, bular üşləri bi dəfə gedəllər yuxaru, üşləri də yıxılar, tutarık beləlārini.

Eyvaz xan səsləndi:

– Xop, qardaşlar, daha bəsdi durna bunnan çox olmaz, telli bunnan çox olmaz. Durun, yavaş-yavaş gedəy biz indi, Koroğlu narahat olar.

Durupdular əyağ üsd ündə. Əyaxlarını qoyalar həlqeyi rikaba yola düşələr, bu tərəfdən gördülər bəli, bağın aşşağı tərəfinnən mütriflərin səs-sədası çıxdi, bezən bekub, berəqs, Eyvaz xan səsdəndi:

– Qardaşlar, bular hətmən bizim bura gəlməymizi eşidiplər ki, biz gəlmişiy bura. Bul ar da gəliplər bizdən bir üç

---

[1] Plan cızmaq

[2] Səlahiyyətli vəzir

[3] Daxil edərsən, tökərsən

qran alalar. Gəlin gedəy buların məclisində bir beş dəyğə[1] oturak, başa bir üç qıranı bulara verək, borc isdiyək belələrinnən. Deyək, vallah, bizim yolumuz uzaxdı gedəcəyik.

Gəlipdi bir kənardan oturuplar, amma tənabbaz neynədi? Həlbət də tənabbaz üç dənə meydən doldurup üçünə, içinə bihuşdardan dəxl elədi, gətirdi verdi bulara. Xan Eyvəz qanşar, Dəli Həsən oni dalica baxdı gördü, Dəli Həsən xan Eyvəzə deyir, başınnan ağaç göyərib.

Dedi:

– Bəli. Dədəyin elə baçınnan ağac gögərmişdi.

– Başınya ağaç gəlmişdi.

Amma Dəmirçioğlu baxdı bu işi görəndə, yavaş meyi atıp yerə vurdu bu, ikisini öldürdü, bu tənabbaz atıldı çıxdı dama, börk eliyir xəlxa[2], ay baba, gəlin, xolasə üş nəfəridilər, ikisi yixilip, birisi vardu. Amma bir zaman Dəmirçioğlu baxdı gördü dört tərəfdən qoşun töküldü, bağın dorəsin[3] muhasir elədi. Gəlib Eyvəzin bərabərində durup deyir:

Eyvəzcan, dur əyəğ üsdündə, qoşun gəlir.
Yaaar, belə səfər etdim, tutdum şuğu[4] tərlanı,
(Həlbət də, Dəmirçioğlu deyire.)
Amma ağlımı eylədi zayıl Eyvəz xan.

Bəli, ərz elədim həlbət də, nəvarın oy üzündə zəmani ki buları tutdular, Dəmirçioğlu gəldi, Eyvəz xani başının üsdünə baxdı gördi, Eyvəz xan yatıp, əmma bu əndazə eyvanı (səhv edib, Eyvazı demək istəyirmiş, dili dolaşıb) xudavəndi-aləmi-

---

[1] Dəqiqə

[2] Börk eliyir xəlxa – əski çağlarda yaşlı kişilər başlarına dəridən qara, sarı və ya boz rəngdə papaq qoyardılar, bir kimsəni uzaq məsafədən yardıma çağırmaq üçün papaqlarını əlinə alıb işarə verərdilər.

[3] Ətrafın

[4] Şux

yan cəvvannux biləsinə vermişdi, Eyvəzi cəmalı gününən mubavizə eliyirdi. Ürək yandı, ürək kəbab oldu. Eyvəz xan, dur əyağın üsdünə, bax gör nə əndazə bizim dövrəmizi qoşun alupdur. Əgər vağiən[1] sərxoşay[2], dur əyağ üsdə.

Yaaar,belə şikar etdim, tutdum şuğu tərlanı,
(Həlbət də, Dəmirçioğlu deyire.)
Amma ağlımı eylədi zayıl Eyvəz xan.
Şıxı Sənan[3] kimin məni dinnən döndərdin,
Düşmani üstümüzə eylədi mayıl, Eyvəz xan.

– Eyvəz can, əgər sərxoşay, dur əyağ üsdə, gör nə xəbərdi?

Yaaar, belə oxu qoyub kəmannara, vayy, atallar,
Qulaç qolum dal gərdənə çatallar.
Amma musayılar əlan bizi tutallar,
Olma bu son zaya mayıl Eyvaz xan
Eyvaz can əgər sərxoşsan ayıl ayyy, Eyvəz xan.

Amma baxdı gördü, Eyvəz çun bihuşdu, gözdərinnən yavaş-yavaş yaş gediri. Ərz elədim Eyvəzin bu əndazə cəvan-nuğu varudu, Eyvəzin cəmalu gününən cəng edirdi. Həlbət də, bu kəlməni deyirdi Dəmirçioğlu:

Gəl belə bəsdi, oğlan, bizə qıldin nazuyu,
Əcəl furğatudu, tutup üzüyü.
Şəmsi-qəmər kimin görsət üzüyü,
Gün kimi ağlama, ayıl, Eyvəz xan.

---

[1] Gerçəkdən, həqiqətən
[2] Sərxoş mənasında
[3] Şeyx Sənan

Baxdı gördü Eyvəz xannan xəbər yoxdu. Deyir:

– Fəğət, Eyvəz xan, əyağ üsdə dura biləy. Fəğət, minəy atın üsdünə, atlar biləmizi aradan çıxarallar, qorxmaginan.

Dəmirçioğlu deyir, həxdi yaradan,
Həx saxlasın mərd igidi bəladan.
Əgər hökm eləsəm, atlar geçər Tonadan,[1]
Əgər sərxoşisən, ayıl, Eyvəz xan.
Bu sovdaya olma mayıl Eyvaz xan

Amma Eyvəz xannan xəbər olmadu, ərz elədim, qoşun töküldü xolasə buların dört ətrafına. Dəmirçioğlu bəna elədi[2] bulardan qırmağə, vəli, qoymazdı bular heç bicələri, Eyvəz xanın dorinə dolana. Bulardan miqdar qırip, cəng eliyə-eliyə, Dəmirçioğlu bağdan çıxip qoşunu xolasə qatıpdı şəmşirin qabağına. Vəli, qoşun baxdılar gördülər əgər bir yerdə olsalar, hərif olmazdar, üş-dört bölük oldular qoşun. Bir- iki bölügüynən bu cəng elərdi, o birləri gəldi Eyvəznən Dəli Həsənin qollarını bağlıyıplar, hər birisini çəkiplər öz atının üsdünə. Amma bir miqdar xuləsə, Dəmirçioğlu bu qoşunnan qırip, bir miqdardan sora baxdı gördü xeyr, daha qol işdən düşdü, daha qırə bilmiri. Dedi:

– Baba, bir nəfər də gəlsin mənim qolumu bağlasın.

Bir nəfər göndərdilər, gəldi Dəmirçioğlunun qolnu bağlıya. Dedi:

– Otur yerə, qolii bağlıyım.

Baxdı bu kişiyə, dedi:

– Xudavəndə, sezavardı[3] mən oturam yerə, bir nəfər mənim qolumu bağlıya. Bunin çənəsinin dibinnən yumruğnan vuranda, başi fırıldandi getdi kənarda düşdi.

---

[1] Dona çayı

[2] Qərar verdi

[3] Dəyəri varmı? – (ərəbcə “cəza” sözündən alınmış fars ifadəsidir)

Dedi:

– Baba, bu kimdi, süt əmən uşax yollamışız mənim qolumu bağlıya, əğəllən bir böyüh adam yollayın.

Bir yekə adam tapdılar dedilər:

– Əmi, sən gəl ged o oğlanın qolunu bağla.

Dedi:

– Onun kəlləsi hara getdi ki, mənimki hara gedə?Mən məyə(məgər) dəliyəm gedəm onun qolini bağlıyam. Sən gəl getginən onun kəlləsin ləqqidi[1] hətmən.

Dedi:

– Mənim kəlləm calğaxdı, əslən mənim işim dəgil.

Amma bir nəfər bu yanda varudu, bu belə çox yekə-mekkəydi, vəli, işliyə bilməzdi. Yemək yerisi fəğət yaxçıydı, hərdən iki batman yeyərdi. Arvat da il on iki ay övə gedənnə kötək vurardda, qovardı eşyə biləsini. Xop, köpəy oğlu sən ki, bəlanisbət, işləmirəyn, sən gəllən övdə nəmə axtarayn? Bu dedi, xop, mən ki daha canımnan tox olmuşam, mən gedərəm, əgər mən bunun qolunu bağladum, deyəllər, filankəs Koroğlu dəlilərinin birisinin qolunu bağlıyıp. Əgər vurdu öldürdü ki, rahat ollam arvadın kötəyinnən. Gəldi dedi, dayan, mən qolunu bağlıyım. Xulasə, Dəmirçioğlu baxdı gördü bu pis dəgil. Dayanıp əlbətdə qolunu bağlıyıp bunu da çəkiplər öz atını üstünə. Buları gətirməkdən ossunlar, nəzikridi İstanbulun şəhrinə bular varid olalar. Bir zaman Eyvəz xan həva vurdu, ayıldı. Gördü bəli, qanşardan tecarət gəliri. Eyvəz xan tanurdu, buların içində bir Əli tacirbaşu vardu. Tacirbaşu gözü sataşdu, baxdı gördü üş dənə Koroğlu sərkərdələrinnən bağluyuplar atları üsdünə aptarıllar. Yavaş-yavaş gəldi bu Eyvəzə tərəf.

Dedi:

– Eyvəz bəs necə bu cür?

Dedi:

[1] Beyni zədələnmiş mənasında

– Vallah, cərəyanımızı heş soruşmaynan. Bizi aparılar öldürələr məgər sən özün yetirən Koroğluya. Koroğlu bizim dadımıza çatar.

Xan Eyvəz səsdəndi:

– Həlbət də, bu rəyisi qoşunnan müsəlman vəziridi. Həm əyyarıdı, həm vəziridi.

Dedi:

– Vəzir.

Dedi:

– Bəli.

Dedi:

– Bizi aparıllar öldürələr, bizim arzumuz ürəyimizdə qalar, mən bir neçə kəlam söz yazım bu kağaza, bu Əli tacir hərdənbir bizim məmləkətə yolu düşərdi. Bəlkə şəhrə gedə. Bu kağazı verə mənim anama. Mənim anam bu kağaznan məşğul ola, mənim otumu[1] fəramuş eliyə.

Dedi:

– Eybi yoxdu, yazginan.

Amma Əli tacirə səsdəndi:

– Əli tacir, mən diyəni yazginən, apar ver xulasa Koroğluya. Denən özünü yetirsin vəgərnə[2] bizi öldürərlər.

Bəs alıp görək xan Eyvəz nə cür danışır Əli tacur uçun. Biz ərz eliyək mohtərəm eşidənnərimizin saluğuna. İstiriy Xəyyam üçün:

Yaaar, belə Qoç Koroğlu bəyan olsun halımız,
Didar qaldı qiyamata, bilmiş ol.
Amma pust[3] tağıldı, talan getdi malımız,
Koroğlu can didar qaldı qiyamata, bilmiş ol.

---

[1] Odumu
[2] Yoxsa, əks halda
[3] Post, qərargah

Amma Əli tacıra deyir:

– Əlican, yaxçı yazginan kağızı, fəğət yetirginən Qoş Koroğluya.

Bizi tutdu yarm ay(yarım ey) neçə-neçə xəsalar,
Az qaldular qollarımızı kəsələr.
İstanbulda bizi dardan asallar,
Amma daha qaldı didar qiyamata, bilmiş ol.

Amma həlbət də, Əli tacirin bir tərəfdən gözlərinnən yaş gedir, axı bir tərəfdən kağızı yazır, o deyir:

– Qorxmaginan, xan Eyvaz, inşallah, özümü yetirrəm Qoş Koroğluya.

Deyir:

İçmiş idim, sərxoşudum tutdular,
(Əgər huşdu olsaydım tuta bilməzdilər).
Amma qulaç qolmu dal gərdənə çatdılar.
Bilginən İstanbulda bizi dusdağ etdilər,
Didar qaldu qiyamata, bilmiş ol.

Amma Əli tacura diyir:

– Əli tacur, fəğət bu kağazu tez yetirəy Qoş Koroğluya.

Deyir:

– Mənim gözümə minnət[1].

Eyvəz diyər, çixmiş idim ovuma,
Dov eylədim, heç kəs gəlməz dovuma.
Amma Qoş Koroğlu özün yetir hovuma[2],
Didar qaldı, qardaş, qiyamata, bilmiş ol.

---

[1] Gözüm üstə

[2] Yardımına, dadına çatmaq

Söz tamam oldu, Əli tacir yola düşdü. Əli tacir gəlməkdən, vəli, xəbər verək Qoç Koroğludan. Qoş Koroğlu ərz elədim, çox narahat bir dənə əyyarlarınnan[1], dəlilərinnən varudu, binamu “Yumux Əhmət” diyərdilər. Yumux Əhmədi çağırıp:

– Əhmət can, gələyn sən xulasa gedəyn bir Toğat gölünə görəy, bəs bu uşaxlar niyə gəlmillər, denən yatax salmışıyız, bizim ki cigərimiz tükəndi, ürəgimizin yağı əridi, bəs niyə gəlmiriz siz?

Yumux Əhmət dedi:

– Mən getməm püşk atax bir nəfərə düşdü gessin. Necə hamı musafirətə məni yolliyuruz?

Gətiriplər püşk atıplar, həlbət də, o keski-püşk gətirirdi, Koroğlu işarə elədi ona dedi, isdirəm bu səfərə Yumux Əhməd gedə bəraye inki ziraydi[2]. Püşkü çıxatdılar Yumux Əhmədçün. Yumux Əhməd püşkü görəndə durdu yola düşdü. Amma yola düşüb, həlbət də çardaxlı Çənlibeldən miqdarı aralanmışdu, Çənlibelinən İstanbulun ortalarında gedərdi. Bir zaman gördü bir nəfər əlində bir kif[3], belə qaçuru hessaba gəlmiyən. Kəsdu qabağunu:

– Əmi, hara gedirən?

Həlbət də, Yumux Əhməd soruşuru. Bu qasit dedi:

– Sənə nə var mən hara gedirəm? Məgə mən sənnən soruşuram sən hara gedirən?

Dedi:

– Xob, soruş, mən deyim.

Adam vəxdi ki, çöldə rəfiq oldu xop dost oldu, bir-birinə diyər hara gedirəm, bir-birinə diyər işim nəmənədi? Dərdim nəmənədi?

– Xop, mən gedirəm İstanbula, sən hara gedirən, qardaş?

---

[1] Varlılardan talayıb yoxsullara paylayan – burada Koroğlunun dəlilərini nəzərdə tutur.

[2] Bəraye inki zira (f) – bunun üçün ki, bu səbəbdən

[3] Kif (f) – çanta

Dedi:

– Mən gərəy təmam mərzləri ağa bir həftəki gəzəm.

– Niyə?

Dedi:

– Bu kifiin içini görürən, bu təmam kağazdı. Koroğlunun üş dənə qoçaxlarınnan tutmuşuk, əlbətdə, Xunkar dəsdur verip, elaniyə eliyiplər, təmami mərzlərə dağıdak ağa bir neçə gün bunnan sora təmam çar ətrafdan gələlər. Həlbət də günlərin birisinə qoç Koroğlunu bu üş dənə dəlilərin dara vurak. Hamı bilə biz Koroğluya şikəstik[1] vermişik.

Dedi:

– Xop, qardaş da bunun bir davası var. Xop, olar nəzir adamı üş nəfərçin ərz eliyin, siz təmamı məmləkətlərə xəbər eliyiriz, elan eliyiriz.

Dedi:

– Heç üş nəfər adamdılar, vəli bu əndazə buları yekədil qəvi pəhləvandıla, ağa, yeddi pərgəneyi[2] Hindistanı bular döğüplər. Bular məgə üş nəfərdilər. Əgər biz bu üş nəfəri öldürək, yeddi min yeddi yüz yetmiş yeddi nəfərə biz şikəstlik vermişik.

Dedi:

– Ha baba, yalaniynan.

Dedi:

– Caniçün.

– Bəs bu üş nəfər nə cürdü?

Dedi:

– Ərz elədim ki, üş nəfər əslən buların qəvilgində heş dünyada pəhlivan yoxdu.

Dedi:

– Neçə ağaş gəlmisən İstanbuldan bura.

Dedi:

---

[1] Məğlub etmək.

[2] Ərazi vahidi

– İstanbuldan bura altı ağaş gəlmişəm.

Dedi:

– Bu altı ağacı mən hər ağacına üş tümən verirəm. On səkkiz tümən qeydək gedək, ərz eliyim sən bu üş nəfəri mənə görsədin, qəyidən gələn.

Bu fikr elədi, dedi:

– Bu yolun ortasında mən bir on səkkiz tümən tapam, belə pis dəgil.

Dedi:

– Verməssən.

Dedi:

– Gəl qoy cibivə.

Ağa, on səkkiz tüməni alıp qoyup cibinə. Xulasə, Yumux Əhməd bu məmuru qeytərdi dala fərraşu. Qeydiplər gəlhagəl gəldi, xulasə nişan verdi, o siyaçaldadır.

Dedi:

– Yox, geş qənşara, qəşəng nişan ver.

Geşdi gəldi qənşara. Amma Yumux Əhməd baxdı gördü buları üşlərini də salıplar, ağa, siyaçalar üşləri də zəncirə bağludu.

Dedi:

– Buları denən tü ləşizə[1].

Dedi:

– Ağacan, buları biz gəbərdəcəyik, həlbət də, Osmannını dili öldürəməgə deyirik, gəbərdəcəyik. Buları biz ağacan öldürəcəyik axı sizə varuxda[2] dəyi ki mən bulara diyəm tü ləşizə.

Dedi:

– Ağa, sən mənim adamıman, demirən canım on səkkiz tümənimi ver.

---

[1] Tüpürmək mənasında

[2] Varuru xuda dəyil – Tanrı rəva bilməz, Tanrının xoşuna gəlməz

Qaldı məcbur. Xop, diyə bir belə yolu mən gəlmişəm, indi diyəm on səkkiz tüməni mən verim?

Əyildi, bulara diyə tü ləşizə xulasə, Yumuğ Əhməd kəlləsinnən şəmşirnən vuranda boynu düşdü getdi quyuya. Ağa, kəllə tarakka-taraqnan quyya düşdü əlbətdə, Dəmirçioğlu qanşardaydı, düşdü Dəmirçioğlunun yanına. Əlini atdı, tutdu gördü bəli, bir dənə kəllə saldılar. Səsdəndi:

– Xan Eyvəz, bizə xolasə xəbərdarlıx verillər hala neçə gün qalıp bizim, ağa, dara çəkmeyimizə, bizim edam eləməyimizə. Bizə deyillər, siziyn kəlləyinizi belə qopardacayız.

Xan Eyvəz dedi:

– Xop, bizə acığuzu görsətmə, ay kəllə salan hər kəsən əgər qoş Koroğlunin əyağı dəgər, inşallah, bu məmləkətə, onda məhləm olar, ağa, kəllə qopardan kimdi.

Yumux Əhməd səsdəndi:

– Qardaşdar, narahat olmayın, mənəm. Bir nəfər idi öldürmüşəm ki, ağa, on min dənə düşman gələcəydi sizin ləşizə[1] baxa.

– Yumuxcan, sənən?

– Bəli.

– Yumux Əhməd, özün yetirəy qoş Koroğluya denən bizim öldürməyimizə daha bir zat qalmuyupdur.Tez özünü yetirsin bizə.

Ağa Yumux Əhmət biləfasilə bu fərraşın xolasə libasdarınıda soyup geyip eyninə qeyitdi şəhrə. Qeyidip bu gəlməkdən olsun xəbər verək Əli tacırdan. Əli tacır Qoş Koroğlu yarı gecəydi ha, bir zaman gördü qapını vurullar. Əlbətdə dəlilərdən, nokərlərdən yolluyup qapını aşdılar, baxdılar gördülər Əli tacırdı.

– Əli tacır, sən də gəlmən, gələəndə-də yarı gecə ya sobə[1] yovux gəllən buriya.

[1] Leş

Dedi:

– Vallah, narahatcılığım var. Bir kağaz var, istirəm verəm Qoş Koroğluya.

Ağa qoş Koroğlu kağazı adı gələndə hövül yuxudan ayılıpdır. Dəsdur verip çıraxları yandırıplar, kağazı gətiripdir Əli tacır verip Qoş Koroğluya. Mirzalardan çağırıp, hər kəsə bu kağazı verdi, gördü xolasa bu kağazı oxudular, gördülər yaman xəbərdi, Koroğluya yaman xəbər verəndə öldürərdi hər kəs olaydu. Birisi dedi fəranseidi, birisi dedi, şikəstədi, birisi dedi, ingilisdi, biz oxuyax bilmərik bu kağazu. Bu tərəfdən Yumux Əhməd yetişdi. Gördü Əli tacır kağaz gətiripdi, mirzalar heç biri oxuya bilmiri.

Dedi:

– Ağa, mən oxuyaram. Mən bir əyağımı qoyaram qapıdan içəri, bir əyağım qapıdan çölə istədin, oxuyaram belənçin.

Dedi:

– Oxu, hər cür oxuran.

Dedi:

– Özün bilirən ki mənim savatım bir belə yoxdur.

Bir əyağın qoyup qapıdan içəriyə, bir əyağın eşiyə, ağa axır kələməni oxudu.

Dedi:

Eyvəz diyir, mən çıxmışdım ovuma,
Dov eylədim, heş kəs gəlməz dovuma.
Qoş Koroğlu özün yetir hovuma,
Didar qaldı, qardaş, qiyamətə, bilmiş ol...

Qaşdı çöləəəə. Səsdəndi:

– Eyvəz xanın canı caniçün, dinməm beləyə, gəl kağazı oxuginan.

---

[1] Sübhə

Dedi:

– İndi daha ver mirzələr oxusun.

Mirzələr oxudu kağazu, xulasə, Qoş Koroğlu baxdı gördü bəli, xan Eyvəzi və bu üş dənə sərkərdə ki, burdan getmişdilər bular bəntdədilər, tutubla üşlərində. Amma Qoş Koroğlunun təmamu başına dünya, tirə vu-tar oldu. Səsdəndi, təmam dəlilər yığıldılar dövrəsinə, götürüp həlbət də, bir Həsən varıdı – Dəli Həsən xeyir (yəni məşhur dəli Həsən yox). Bu da bir Həsən idi, Rum uşağuydu. Koroğlu gətirmişdi beləsini. Götürüp ona dəsdur verir, deyir, sən getginən xolasə. Təkə-türkmana, Qəcər Mustafa bəy varidi, Qoş Koroğlunun dayısıdı, gedəy onun yanına. Bir kağaz yazaram apar ver biləsiyçin[1]. Ağa, Qoş Koroğlu alıp kağaz yazır o Qəcər Mustafa bəyə. Biz əlimizdən gələn görək nə cür yazrik mohtərəm eşidənnərimizin sağlığına. Steryu Xəyyam üçün:

Həsən paşa tutup Eyvəz balunu,
Yaz Təkə-türkmannan dayılar gələ.
Eyvəzsiz, neynirəm dayıcan dünya malunu,
Yazginan türkmannan dayılar gələ.
Yaaar gələ, ölürəm heyyy.

Minərəm Qır atı, düşərəm yola,
Çeynərəm pulatu[2] püsgürrəm gögə.
Özüm çərxəkçi[3] ollam düşərəm eldən-elə,
Yaz Təkə-türkmannan dayılar gəlsin.
Ey ceyanum, geşdi dövranum, nə fayda.
Etheer (Annadrajdan) Çaharçı Başıya müraciət edin.

---

[1] Onun üçün
[2] Polad
[3] Birinci alay

Qoşununu ucalardan aşırram,
Torpağını torbayınan daşıram.
Başı bəlli sərkərdəsin döşürrəm,
Yazıram Türkmannan dayılar gələ.

Əlbətdə, Koroğlunu dovvumun qismətini[1]...

Mohtərəm eşidənnər, həlbət də, isdiriyo Xəyyam bizdən Koroğlunun dasıdanının Toğat səfərinin dasdanını qismətini tağaza eliyip əlimizdən gələni ərz eliyək, mohtərəm eşidənnərimizin sağlığına. Əlbətdə, qisməti əvvəlindən ərz elədim, Koroğlu zəmani ki, kağaz yetişdi əlinə ki Eyvəz yazmışdı ki, "bizi tutdular", dünya başına tirəvu-tar oldu. Alıp görək, Həsən varudu, Həsən həlbət də, Dəli Həsən xeyr, bu da bir ayrı Həsən idi. Ruminin uşağı idi. Koroğlu gətirmişdi. İsdiri biləsini yolluya, Təkə-türkmanda Qəcər Mustafa bəy varudu, Qoş Koroğlunun dayısıydı o. Amma deyir, dayıcan, dar günümə yetiş, xolasə, köməgimə mənim. Alıp görək nə cür kağaz yazır o, Həsən aparsun dayısıyçun, biz ərz eliyək eşidənnərimizin sağlığına:

Həsən paşa tutup Eyvəz balunu,
Yaz Təkə-türkmannan dayılar gələ.
Eyvəzsiz neynirəm, dayıcan, dünya malı nı,
Yaz, Təkə-türkmannan dayılar gələ.

Minərəm Qıratı, düşərəm yola,
Poladı çeynərəm, pülərəm[2] çölə.
Özüm çərxəkçi ollam Eyvəzdən sarı,
Düşərəm eldən-elə,
Yazıram türkmannan dayılar gəssin.

[1] İkinci bölüm
[2] Püfləmək, üfürmək

Amma Həsənə sifarışderirəy[1], Həsəncan, sənə qurban, dil cəvapda diyərən, Qoş Koroğlu deyiri, daha mənim bunnan yaman günüm heç olmaz.

Yaz, Təkə-türkmannan dayılar gəssin. Ey həmdəmim, ye qəmim, zülm olub.

Əlbətdə, ağa, söz təmam olup, Həsən yola düşübdü Təkə-türkmana tərəf getməgə. Koroğlu carçı varıydı, carçını səsdəndi,, dedi, ağa car vurginan təmamı dəllər gəlsin, işim vardur. Ağa, təmamu dəllər yığılıpdı gəliplər, Qoş Koroğlunun dövrəsinə dəsbesinə duruplar.

– Qoş Koroğlu, sənin narahatçılığıya biz tağat[2] eliyə bilməyik, hər əmri var, ağa, əmr eləginən.

Amma Qoş Koroğlu alıp deyir:

– Qardaşlar, indi isdiyirik Dağısdana gedək.

Amma dəlilərim səfər oldu Dağısdana,
Mənimlən eyyy gedən gəlsin.
Naməd igid meydana girməsin,
Mərd badasını içən gəlsin.

Dəlilərim səfər oldu Dağısdana,
Mənimlən gedən gəlsin.
Naməd bəlanisbət meydana girməsin,
Mərt badasını içən gəlsin.

Ağa, Koroğlunun dəliləri ərz elədim dorəsinə yığılıplar, fəğət beləsinnən icazə isdillər atlansılar:

Amma qalxanı çikəm üzümə,
Dünya gəlməz gözümə,

---

[1] Sifariş etmək
[2] Taqət

Amma əzəl xələtin özünə
Kəfən deyib biçən gəlsin.
Əcəl köynəgin özünə,
Xələr deyib biçən gəlsin.

Deyir vəxti ki:

Mən qalxanı çəkəm gözümə[1],
Dəlilərim, biliriz ki,
Dünya gəlməz mənim gözümə,
Amma əcəl köynəgini özünə
Xələt deyib biçən gəlsin.

Ağa, dəlilərdən icazə isdillər:

– Qoş Koroğlu, sənə qurban, biz hər zaman sən hər tərəfə hər musafirətçiligə əmr eləmişən, məgər kutahlığ eləmişik?[2] biz əslən hazırık təmam sənin yolunnan ölümə gedək.

Amma Qoş Koroğlu deyir, qulağ asun:

– Bura kı, biz gedirik çəpunçulux yoxdu, burda cəng vardu. Ağa, hər kəs zindəganlığından tox olup[3] bu cəngə gələ bilər.

Həlbət də, Qoş Koroğlu diyər, ərz eliyək mohtərəm eşidənnərmizin sağlığına, ağa, Həsən ağanın da sağlığına:

Deyir, mənəm bu çölün aslanı,
Amma Tutub şöhrətim bütün dünyanı.
Qılıç qəbzəsinnən qanan eyyy damı,
Şərbət deyip içən gəlsin.

Ərz elədim, təmam dəlilər amadə olullar, Qoş Koroğluynan yola düşdülər. Qoş Koroğlu həlbət də, axır kəlməsin belə diyər, ərz eliyim sağlığıza:

---

[1] Qalxanı başıma qaldıram, gözümün qabağına qədər yuxarıda saxlayam
[2] Sözündən boyun qaçırmaq
[3] Doymaq

Koroğlu diyər dəmhadəmdir,
İslam dini xob, mohkəmdi.
Sizə diyim, dəlilərim, qardaşlarım,
Ax belə dögüş dəgil, toy-beyramdı[1],
Toy-beyrama gedən gəlsin.

Ağa, həlbət də sözləri təmam olup mohtərəm eşidənnərimizin salığına. Burdan xulasə Həsəninən qaral qoymuşdular.

– Həsəncan, dayım Mustafa bəgə diyərəy, siz də ağa, İsdanbul gədiginə, biz də İsdanbul gədiginə.

Bəli, ağa, cəlallı Qoş Koroğlunu həlbət də dəlilər təmam dorəsində isdillər hərəkət eliyələr. Amma Qoş Koroğlu baxdı gördü, məmə yiyənnən pəpə yiyənə, ağa, təmam atlanıplar. Səsdəndi ki:

– Dəlilərim, özünüz biliniz ki, mənim dünyada nə əndazə düşman varımdır. Siz bir miqdarız qalın, bir miqdarız mənnən gəlin, əgər isdiriz hamıyız mənimnən gələyiz, yaxçı bağışlamaz sizin içün.

Ağa, bir miqdar qeyidiplər həlbət də qalmağa, bir miqdarı Qoş Koroğluynan, ağa, yola düşüplər. Gəlhagəl gəliplər, ağa, İsdanbul gədiginə, ərz elədim. Qəcər Mustafa bəy ki dayısı olmuş ola, bunuynan qərar qoymuşlar İsdanbul gədiginə. Gəldilər İsdanbul gədiginə. Qoş Koroğlu dəsdur verdi, dedi:

– Burda orduları qondarın[2] görək, nə xəbərdi.

Ağa, burda tökülüplər qalmağa, Koroğlu səsləndi, həlbət də dəlilərinnən bir nəfər durar əyağın üsdə çün biz bu şəhrin ağa rəsmi-rusumatına[3] əlan bələt dəgilik, bilmirik bular nə nəxşə töküplər, aya bizi də tutalar birdən, dəsgir eliyələr. Görək bu şəhrin rəsmi-rusumatı nə cürdü? Bir nəfər bu çöldə,

[1] Toy-bayramdı
[2] Qondarmaq (d) – dayandırmaq
[3] Adət ənənəsinə (dəbinə)

ağa, çopannan-çolukdan ərz eliyim, biçindərəndən[1] gərək tapan gətirən hər cürdü. Ağa, dəlilərin birsi durup əyağin üsdünə həlbət də, dolanıp bu çölü baxdı gördü bir nəfər qoca biçin dəri. Sərlam verdi, əleyküməssəlam.

– Qoca, Koroğlunun dədəsi gorba-gör düşsün. Canım Koroğlu sənə nemı eliyib, sən necə Koroğlunun əlinnən narahatayn?

Dedi:

– Vallah, əgər isdirəyn rasdını mən səninçün tərif[2] eliyəm, çux çəkər. Muxtəsər biləyə diyim. Ağa Qoş Koroğlunun üş dənə sərkərdələrinnən dərəcə yek, sərkərdələrinnən tutuplar gətiriplər bura, üşləri də cəvannu[3]. Buları cümə güni öldürəcəkdilə. Mən bularin xatirinə mənim gözüm buların nahəqq qanna sataşmıya, mən narahatçılığımnan çıxmışam gəlmişəm burda. Gecə-gündüzü ağa biçin dərrəm ki, mən şəhrə getmiyəm. Fəğət, mən müsəlmanam bu İstanbuli içində. Cigərim kəbab olur hey, yol gözdürüy hey, deyillər Koroğlu gələcək, Koroğlu gələcək, Koroğlu gələcək. Vağiən Koroğlunu bir belə ağa tərif elirdilər, tərifinə görə dəyməz imiş.

Amma dəli baxdı gördü xulasə bu qoca ki sohbət eliyir, beləsiçin loxt madərzaddı. Yapışdı aldı qucağına, həlbət də, o zaman kuta[4] don diyərdilər.

– Ay cəvan oğlan, qoy bəs donumu geyim, hara aparıyan məni?

Dedi:

– Səni aparıram bir nəfərin yanına, sobət eliyək.

Ağa, götürüp gəlip Qoş Koroğlunun yanına. Qoş Koroğlunun bərabərində oturup yerə, qoca səlam verdi, Dedikin:

– Qurban, qocanı dindirginən.

---

[1] Biçinçi

[2] Şərh etmək

[3] Cavandır, gəncdir

[4] Pencək mənasında

Səsdəndi:

– Qocam, Allaha quvatıyn[1] versin, burda nəmə elirən? nə iş görüyəyn?

Dedi:

– Koroğlunun dədəsi gorba-gor düşsün.

Dedi:

– Baba, gecə tapıb gətirəni bunnan əlavə əğlı olmaz, götür apar biləsin, götür apar, rədd elə gessin.

Dedi:

– Yox, qurban, Şahnamanin axırı xoşdu[2].

Əlbətdə Dəli Mehtər idi. Dəli Mehtər dedi:

– Şahnamanin axırı xoşdu, danışdır biləsini. Eybi yox, narahat olma.

Dedi:

– Xob, qoca əmi, Qoş Koroğlu dünyani qırıp, cəng eliyip, ağa, dava eliyip, murafa eliyip, sənə ki bir zulmu çatmeyib, sən niyə sögürən beləsini?

Dedi:

– Vallah, Qoş Koroğlunu bu əndazə mənimçin tərif elərdilər ba təəssob tərif elərdilər. Tərif elərdilər mənim çün mən tərif görmürəm beləsinnən. Bəray inki üş dənə dərəcə yek sərkərdələrinnən tutupla gətiriplər burda zindan eliyiplər. Cümə biləl追rini öldürəcəkdilər, dara vuracakdilər. Bu əndazə mən ah çəkmişəm, bu yola baxmışam, cigərim təmam olup. Mən çun musəlmanam, ağa, ürəgim tağət eləmir bu üş dənə cəvanı bular nahəqq öldürələr, amma ona görə ki, gözüm buların nahaq qanına sataşmiya o zamannanki buları gətiriplər bu şəhrə, mən gecə-gündüz bu çölü-biyabandayam, arvat-uşağımın üzünə həsrət olmuşam.

---

[1] Qüvvət vermək mənasında

[2] Şahnamanı axrı xoşdu – Şahnamənin axırı xoşdu- شاهنامه آخرش خوش است) Bu farsca bir atalar sözüdür: Mənası isə “hekayənin sonunun xoşluqla bitməsi” deməkdir.

Amma qoş Koroğlunun həlbət də bu sözdən çox xoşu gəldi. Səsləndi ki:

– Qoca, eybi yoxdu, inşallah, sənin narahatçuluğiyin əvəzi, biz səninçün xidmət elərik bunnan belə. Amma baxdı gördü, xulasə burda çox qoşun vardı.

Dedi:

– Sən Koroğlunu görmşən sögürəyn?

Ərz elədi:

– Xeyir, mən görməmişəm.

Dedi:

– Elə sən məni gör, Koroğlunu gör.

Ərz elədi:

– Bəs hətmən sənən Koroğlu da?

Dedi:

– Bəli, Koroğlu mənəm, bu da qoşunumdu.

Amma biz çun bu şəhrin rəsminə bələt dəyirik, istədik səni çağırak, sənnən soruşak, bu şəhrin rəsmi-rusumatı nə cür olacakti, biz nə cur varid ola billik bu şəhrə?

Amma Koroğlu alıpdur həlbət də, bir az qocanuy qəlbini şad eliri.

– Qorxmaginan, qoca, qulağ asginan bir neçə kəlma beləçin oxuyum.

Bəəd biz əlimizdən gələni ərz eliyək mohtərəm eşidənnərimizn sağlığına. Ustad aşığ İsmayılın salığına, çun Abbas ağayi küşku da burda təşrif huzuru varudu. Abbas ağanın da sağlığına ki, isdiryo Xəyyamın dusdudu.

Canım qoca, gözüm qoca,
Qocaca, bügün necə olacək?
Amma çekəndə Misri qilici,
Çox ürəklər su olacək.
Qocaca, bügün necə olacək?

Deyir, pozaram yığnaxların, qocacan,
Dağıdaram tifaqarın.
Sərin-sərin yeylaxlarun,
Eyvəz gəlip dolanacak... al məni cəllad əlinnən...

Amma qoca həlbət də, Qoş Koroğlunun bu söhbətdərinnən keyf eliyir. Hər nəmə qocanin bədənində yorğunnux varidu çıxıriiy.

Qoç Koroğlu, gədikdə dadlar[1],
Amma bağırlar yarılar, ürəklər çatlar.
Coşa gələr ərəb atlar,
Qocacan, səhər ağ köpüklər yalanacək.

Ağa, həlbət də, Koroğlunun sözü təmam oldu, səsləndi:

– Qocacan, sənə ərz elədim, bizə dəsdur verginən, aya biz bu şəhrə nə cur varid ola billik?

Dedi:

– Sənə qurban Qoç Koroğlu, əgər sən isdiyən bu ticaratinən, bu millətinən, bu qoşunnan bu şəhrə gedəyn, ağa, günnən iki saat qalanda, qapılar sənin qorxunnan bağlanuru. İkki saət gün qovzananda qapu açılıru. Heş zaman sən gedip bir iş görə bilməyən burda. Məgər in ki, sən tecarətlik libası geyən. Libası cəngiyiy[2] üsdünnən ağa, bu nokərləri, bu dəlilərinən tamam ikki bir, ikki bir, çatay bu atlarin üsdünə. Benam tecarətlik[3] sən gecədən miqdari gedəndə varidi bu şəhr olayn. Vəgərnə eliyə bilmən yetişdiərən.

Ağa, həlbət də, Qoş Koroğlu qocanın sözünnən çox xoşu gəldi səsdəndi:

---

[1] Dad etmək, fəryad etmək
[2] Döyüş paltarı
[3] Ticarət

– Qoca, isdirəm səni rahət eliyəm bu xərmən dögmək-dən. Bizim atlarımız ağa ajdıla. İcazə verən, sənin xərməni dögələr, sən elə nəğdini bizdən alginan.

Ağa, atları bilə velliyiplər[1], qocanın xərmənin dögüplər, közəllin[2] də götürüplər, vəli, bu əndazə dəsdur verdi, qocaya ənam verdilər. Qoca baxdı gördü, yeddi puşt üçin yeyə, oladbəolad genə bəsidi[3].

Bəli, Qoş Koroğlu həlbət də qocanın dəsduruna əməl eli-yip, durup əyağın üsdünə, gəlip, ağa, nəzdiki İsfahanın qələsi olanna(olanda) təmam bu nokərləri ikki bir, ikki bir hey çatdı-lar atların üsdünə. Ağa, çatıplar atlari üsdünə, vəxdi ki çatdılar qapıya, Qoş Koroğlu qapını dəqqəlbab elədi. Dərban səsdəndi:

– Kimdi?

Dedi:

– Valla, mən tacıram.

– Bəs indi hardan gəliləy?

Dedi:

– Valla, biz ayrı şəhirdən çixdik, gün batmışdi, çıxdik, ittifaqən[4] bizə dedilər indi çıxməyin, qallız gecə çöldə. Gəlmi-şiy, xulasə, yavaş-yavaş buracan gəlmişik, əgər sən icazə ver-sən, sənə muzahım olmasaq, biz belə gələy içəriyə, çöldə qal-mıyəy. Sizə var dəgil bizim çöldə qalmağımız.

Dedi:

– Valla, sizin içəri gəlməyiz, gəlməməzdigiz mənimçün mühüm dəgil, siz fəqət gərəh qalaydız, gün çixəndə gələydiz içəri.

– Niyə axu, qoca.

Dedi:

---

[1] Velləmək (d) – başını buraxmaq
[2] Közəl (d) – çör-çöp
[3] Kifayət etmək mənasında
[4] Təsadüfən, yeri gəlmişkən

– Vallah, Qoş Koroğlunun qorxusunnan bura günnən iki sahat qalanda ...

Bəli, həlbət də ərz elədim zəmani ki, ağa, Qoş Koroğlu yetişdi İstanbulun qələlərinin dibinə. Be dəsdur həmin qoca təmamı ağa dəllərini ikibə iki çatmışdı atların üsdünə. Ağa özdərini yetiriplər qapının dalına. Qoç Koroğlu qapını dəqqəl-bab elədi. Dərban səsdəndi:

– Kimdi qapının dalında?

Koroğlu dedi:

– Valla, mənəm, tacıram, ayrı məmləkətdən gəlirəm.

– Bəs necə indi gəlirəy?

Ərz elədi:

– Valla, biz gec vəxt idi çıxəndə, ta gəldik bura, gec olubdur, bağışlaginan.

Dedi:

– İndi qapı açılmaz.

– Necə qapı açılmaz?

Dedi:

– Valla, məgər xəbərin yox heş zatdan?

Ərz elədi:

– Xeyr. Məgər nə xəbərdi?

Dedi:

– Valla, Koroğlunun qorxusunnan günnən iki saat qalan qapı bağlanır o, günnən ikki sahat qozanannan qapı açılır o. Mən heç günə eliyə bilməm qapını açam.

Dedi:

– Kişi nadan olma, nadan olma, qapını açgınan. Əgər Koroğlunun adını gətirməsəydin, biz gecəni sobhə kimi elə qalardik bu qapının dalında. Amma mən bir omr zəhmət çəkmişəm, ağa, mali dünya yığışdırmışam, tacir olmuşam. İndi Qoç Koroğlu gəlib, əgə mənim özümü də öldürmüyə, daha mən gəlip qədimki məlik-toccar olamam. Təmam darəliğimi

qarət elər. Qiyamatın günü tutmuşam ətəginən, qapını açgınan, mənim balalarıma rəhm elə.

Dedi:

– Qapını açmam, Osmanin başına and olsan qapini açmam.

Dedi:

– Xob, qapını açmmıran, hələ bir əlin gətirginən çölə bir pulu çay mənnən alginan.

Ağa, əlini gətirip çölə, dərban baxdı gördü, Koroğlu ovcu hər nağat tutar doldurdu, ağa, Osmannı lirəsiynən, əlni çekdi içəri, baxdı gördü, ağa, ovuş doludu Osman lirəsiynən. Bunu neçə ki ömrü var, yiyə tükənməz. Səsdəndi, ürəgim yandı beləyə. Amma belə fori[1] ərz eliyim, qafiləni keçəy içəri ki, heş kəsin xəbəri olmiya bizdən.

Deyir:

– Gözümə minnət.

Ağa, qapını açıpdur həlbət də. Yumuğ Əhmədə dedi:

– Əhmədcan, sən kəsginən, ağa, dərbanın yanınu olmiya, dərban birdən baş tapa, qaça əlimizdən, bizə hezzad[2] eliyə bilməzdər, vəli, gedəllər Eyvəzi zindanda öldürəllər. Onnan sora təmam dünyanı mənə versələr, mənimçün ərziş yoxudu.

Ağa, Yumuğ Əhməd kəsib həlbət də dərvazabanun yanunu. Dərvazabanu qoymur təkan yiyə yerinnən. Qafilə gəldi tükənmədi, gəldi tükənmədi, bir zaman, ağa, dərvazaban baxdı gördi hər qafili, hər at qatırı ki qapıdan geçir içəri, bir miqdar gedir qəbağa, üsdünnən iki dənə sibili yoğun düşüri. Ay dədəm yandı.

– Əcəb tacırbaşı, səni bular malı dünyaymış sənin üçün, əli ağrımasın. Bəs tükənmiyəcək hələ, ələn söb olar.

Dedi:

---

[1] Tez, dərhal

[2] Heç bir şey

– Biləxərə səniynən də sobət eliyirik, qafilə də gedir içəridə, eybi yoxdur.

Ağa, dəsdur vermişdi qoca, gedəriz Şah Abbası var, İstanbulun şəhrinin içində həlbət də gedəriz yığılıriz Şah Abbasıya. Ağa, zamanıki qafilə tükəndi, Koroğlu dəsdur verdi. Yumuğ Əhmədə dedi:

– Öldür biləsini.

Dedi:

–Görüm o pulları, Yumux Əhməd, dərvazabana dedi.

Dedi:

– Nəmənə pulu?

– Buları kişi mənə verdi.

Dedi:

– O bizim madərhesabmuzdu[1]. Hər yerə gedərik pullarımızı biz verrik ona, o xərşlər bizimçün, pulu ver mənə.

– Neççə il yaşamışay?

Dedi:

– Təğribən əlli dört, əlli beş, əlli üç.

Dedi:

– Çox ömr eləmişəyn. Pulu ver mənə.

Ağa, pulu alıp, xolasə, bu biçara dərbanı öldürdü. Dərbanı öldürüp, dərbanın libasdarunu çün, ağa, Osmannı libası idi. Libasdarını geyip, eyninə kilidi sancıp belinə, oldu dərvəzaban. Ağa, gəliplər Qoş Koroğlunun dəliləri, özü gəliplər yığılıplar həmun Şah Abbasın ki ərz elədim Şahabbasıya yığılıplar bura. Qoş Koroğlu bulara dəsdur verdi.

Dedi:

– Bura baxın nəzdikhay sübdü, ürəgim isdiyir sühb üçün xunkarın Həsən paşanın hər nəmənə nigahbanı var, ağa, öldürəyiz, özüzdən nigahban qoyayız yerinə.

---

[1] Madərhesab – Bir qrup dost və ya kollektiv əməkdaş əylənmək üçün bir nəfər seçərlər və hərənin payına düşən məbləği ona verərlər. Bütün xərci o öhdəliyinə götürər və təşkil edər.

Ağa, təmamu bu şəhirdə hər nəmənə nigahban varudu, gecəlikdə buları öldürüplər, özlərinnən nigahban qoyuplar yerinə. Hər nigahbanı öldürərdilər, libasın giyərdilər əyninə. Amma zindanın dövrəsində də neçə dənə nigahban qoyarız, fəğət belə eləyin bilməsin xan Eyvəz biz gəlmişik. Əgər bilsə, yalvar-yaxar elər, çuğadarız[1] biləsini biz Xunkarı tutub öldürəyilmərik. Ağa təmamu dəsdurlarını mub-mu ijra[2] elədilər dəlilər. Qoç Koroğlu görək nəmə elədi. Qoş Koroğlu əvvəli sohbudu. Ağa, özünü yetirdi tarsaz əminin dükannın yanına. Həlbət də, dəlilərə dedi ki:

– Mən gedirəm tarsaz dükanı na. Mənim sazımi üzü bir az batupdu. Bir neçə dənə də sədəflərinnən düşüp. Mən gedim sazımı verim, qeyirsilə[3] mən gərək aşuxlux libasınnan, ağa, casuzlığ eliyəm görəm, hara haradı və nə xəbərdi.

Ağa Qoş Koroğlu aşuxlux libasında özünü yetirdi, tarsazın dükannın qanşarında oturdu. Tarsaz əvvəli sobhdu, gəlmişdi şagirdinən dükana baxdı, gördü bir dənə ədəl-bədəl, xulasa, qapını tutdu. Daha işıx yolu qapıdan içəri düşmürü.

– Ay usda, mənim bu sazımı düzəldəyn, mən aşığam gəlmişəm bu məmləkətdə, bir neçə dənə toy var, buları çalam, sazım xarab olup, bunu düzəltginən.

Dedi:

– Baba, çəkil kənara, modeşur sənin sazıya da vurum özüyə də. Kişi, əvvəli süp sən bizim dükanmızın qapısın tutdun, əslən işıx yolu da tapılmıru. Məgər aşux da sənin təki olar.

Amma yerə oturanda şagirdin gözü sataşdı, gördü, ağa bəlitoyin dibinnən, xolasə, şəmşir zumurrudnigarun ucu görsəniri. Bildi əy dad, bu adam, ağa, qurtdu, qoyun cildində gəlipdir. Səsdəndi:

---

[1] Çıxardarsınız
[2] İcra
[3] Düzəltmək, təmir etmək

– Ustacan, əvvəli süp gəlip, qəripdi, biçaradu, ürəgini sinirmə bəs icaza ver, sazını mən qeyrim.

Amma usda bir səxt sillə ağa şagirdin üzünnən, sən mənim şagirdimən, mənə dəsdur verrən, mən qeyirrəm özüm billəm, qeyirməm, qovaram gedər, özüm billəm. Amma Koroğlu səsdəndi:

– Usda, heyif olsun şagirdi vurdun, qulağ as, bir neçə kəlmə xatirimə gəlipdi. Biləyin üçün sohbət eliyim, ama bilginən sazımı qeyirəsən.

Çəmlibeldən mən buraya gəlmişəm,
Usda, sazımı düzəlt, allam gedərəm.
Sazım sinipdi, mən sərgardan qalmışam,
Usda, sazı düzəlt, allam gedərəm.

Amma usda baxdı gördü, dədəm yandu, kişi deyir Çəmlibeldən gəlmişəm, olmıya Koroğlunun dəlilərinnən, özünnən ola. Ərz elədi:

– Qurban, şuxlux elirdim aaa, mənim gözümə minnət, əlan xolasə, sazi düzəldərəm.

Amma dedi, sazımı düzəldəynən, mən beş kələməmi diyəcəyəm, düzəltməynə. Vəli Heyif ossun, şagirdini vurdun, gərək vurmıyaydin.

Əndim gəldim İstanbulun düzünə,
Amma mən Aşığam şagirdiyin gözünə.
Xurda sədəflərdən duğra üzünə[1],
Usda sazımı düzəlt, allam gedərəm.

Amma usda ərz elədi ki:

---

[1] "Balaca sədəflərdən doğra və sazımın üzərinə döşə" mənasında

– Sənə qurban, çəşm, icaza ver, həmin əlan bir dəyqə hamısı çəkər sənin sazıyı düzəldəm. Heş narahat olmaginan, mən məzərət isdirəm mən əvəzi danışmağımdan.

Amma deyir:

– Yox, usdacan, eybi yoxdur, şagirdiyi vurduy, məni gərək vurmuyaydun.

Ağa, burda həlbət də, bu birsi kəliməni deyiri, biz ərz eliyək Abbas ağa güştiynən Həsən ağanın sağlığına:

Deyir, Eyvəzcan, yoluya qoymuşam bu şirin canı,
Amma bazara töklər usdanın qanı.
(Çünki, ağa, dükan bazar ortasındaydu, deyir, əlan öldürrəm beləyü.)
Yaaar, Tanı mənəm, Çəmlibelin sultanu,
Sazım, usta, düzəlt, allam gedərəm.

Bəli, ərz elədim, usta düşüp titrətməyə. Ağa, bu tərəfdən də Koroğlu sazı verip, şagird düzəldiri.

Der, mən sənnən soruşdum dəsmuzduyn neçə,
Ama dəsmuzdu Koroğlu eylədi heçə.
Ağa, hökm elərəm əlan Misri qilicə beliynən geçə,
Usda, sazı düzəlt, allam gedərəm.

Əlbətdə, söz təmam oldu. Vəli, usdanı öldürdü, bu tərəfdən baxdı, gördü şagird sazı düzəltdi, mürəttəb elədi.

– Ağa, məni də öldürəyn?

Ərz elədi:

– Xeyr, mən səni öldürməm.

– Vəli, bir şərtnən əgər bu şəhərdə mən, ağa, bir zaman gələm görəm, xəbər tapam kuçiktərin[1], sən mənim adımı

[1] Kiçiklərin

demişəyn, heç kim bilmir mən bura gələnəcey. Bura gələnəçey dört nəfər bilir mən bu şəhrə gəlmişəm. Birisi qocaydu, müsəlmanudu, öldürmədim biləsini. Birisi dərvəzabanudu[1], öldürdüm. Həlbət də, birisi ustaydu, birisi də sənən.

Dedi:

– Ağa, mənim ağzım daşdan bərkdi, əslan bu söhbətlər mənim ağzımnan çıxmaz.

Ağa, sözdəri təmam olup, həlbət də, durup əyağnın üsdə, yavaş-yavaş mənzilə gəlipdi Koroğlu. Səsdəndi:

– Uşaxlar, vəz nə cürdü?

Ərz elədilər:

– Ağa, vəz çox mürəttəp munəzzəmdi.

– Xob, mən istirəm xolasə aşuxlux libasında bir çölə çıxam, görəm nə cürdü.

Qoş Koroğlu bir dəst qara libas geyipdir, üz-gözünə qara yaxup, çölə çixib. Çölə çixməğinnən xəbər verək bu tərəfdən Həsən paşanin cəşn be pa eləmişdi[2]. Otağında xoşluğuydu. Səsdəndi, müsəlman vəzir varuydu, Əyyar vəzir deyərdi biləsinə.

– Əyyar vəzir, gedəyn bi dənə aşıx gətirəyn bizim üçün söhbət eliyə.

Əyyar vəzir çölə çıxanda baxdı, gördi bir qara aşıx gəldi, yekkə qapqaradı diyərən ağa, Mazəndəran[3] kürələrinnən çıxıb.

– Dadaş, sən aşığayn?[4]

Ərz elədi:

– Bəli, aşığam. Məyə, nə cürəm?

Dedi:

– Vallah, çox qarayan.

Dedi:

---

[1] Qapıçı

[2] Şənlik büsatı qurmuşdu.

[3] Mazəndəran əyalət adıdır.

[4] Aşıqsanmı?

– Hələ mən dudurğuyam, əgər sən yedurğu görəydin, xolasə, ürəyin çatlardı.

– Nə cür yanı sən dudurğuyan?

Dedi:

– Mənim hələm nənəm ağmış, dədəm qaraymış. Vay olardan ki, həm dədəsi qara ola, həm nənəsi.

– Xubaa, hər nəmə özüyə, söz yaxçı oxuya billən?

Dedi:

– Xolasə, gərək məni aparan, oxudan, ta bilən sözdərim nəmənədi?

Ağa, götürüp gəlib Xunkarın yanına, Xunkarın gözü sataşanda bu aşığa, bədən titrəşdi: “Tapmıyaydın sən bu aşşıx tapıb gətirdiyinə”.

Dedi:

– Məyər ağa, nə cürdi?

Dedi:

– Bu, çox qaradı. Bi dənə ağ aşux qəhətdi sən tapan gətirən?

Dedi:

– Vallah, elə şansa xulasə çıxdım, bu güdarıma gəldi, götürdüm gətirdim biləsini. Xob elə sohbət eləsin, görək sohbəti nə cürdi. Aşıx, sohbət elə bizimçün.

Deyir:

– Gözümə minnət.

Alıp aşıx həlbət də, sohbət elər, biz ərz eliyək, mohtərəm eşidənnərimizin salığına.

Der girmişəm aşıx pusduna[1],
Sövlə gəlirəm hannan mən.
Çəkəndə Misri qilinci,
Tökərəm qizil qannan mən.

---

[1] Dəri, cild

Həsən paşa didi:

– Vay-vay, bu aşşıx üzü çooox qaradu, sözdəri də nə qədər acudu. Aşıx, yaxçu sohbət eləginən. Çəşm:

Tiplər[1] qabağında durram,
Oxumu, yayımı vurram.
Amma təmam Osmannını qırram,
Qeyitməm yüzdən, minnən mən.

Koroğluyam, xofum[2] yoxdur,
Yırtixcıyam[3], sapım yoxdur.
Öldürrəm, insafım yoxdu,
Paşadan, bəgdən, xanlardan mən,

Ağa, səsdəndi:

– Da demə.

Həsən paşa səsdəndi:

– Da demə.

Dedi:

– Eybi yox, isdirən demiyəm, mənim hoğuğumu[4] verginən. Məyər canıya qənim oldu, nə qəd dediyn hüğüğün alayan?

Dedi:

– Üş kəlmə demişəm, kəlməsi iki yüzdü[5].

Dedi:

– Məyəm[6] səninki teriyak çəkən misqal tərəziynəndi?

– İstirən ver, istəmirən vermə, gənə oxuyaram.

---

[1] Alay, ordu
[2] Qorxum
[3] Tikişçi, dərzi
[4] Hüququmu
[5] Hər bir kələməsi iki yüz ağça (Osmanlı lirəsi)
[6] Məgər

Ağa çun oxumağınnan Həsən paşanı bədi(açığı) gəldi.

Dedi:

– Vəzir, hər nəmə isdir, ver, qoyma oxusun, pir ola inşallah[1]. Əslan bunu bu əndazə sözdəri acudu, təmam Koroğludan deyir.

– Xob, sən Koroğludan demə.

Dedi:

– Mən elə Koroğlu sözdərini öyrənmişəm.

Ağa, yola salıplar Koroğlunu. Xolasə, Koroğlu çıxıp özünü yetirip mənzilə, dedi:

– Uşaxlar, xolasə tazə bələt olmuşam, amma hoğuğumu da veriplər. Əlləri ağrımasın. Ağa, yetişipdir bir dəs göy libas geyip, bir göy rənk sürtüp üzünə.

Gənə vəzirə səsdəndi: Dur ayağ...

Sənə deyim, Həsən paşa,
Avaz-avaza verirsən.
Ama bilirəy, Osmannı əğli kəm olar,
Bu çoxu sən aza verisən.

Əlan dəlilərim durar,
Durallar bığlərin burar.
Amma bilginən sənə bu qəral,
Dəlilər şeşpər vurar,
Yer altda siza[2] verərsən.

Fərraşam, səni dəsdinə,
Amma cəllatlarım cani qəsdinə.
Bizim Eyvəz xan üsdünnən,
Neçə bəyzada verissən?

---

[1] Qocalmaq
[2] Sızmaq

Amma səsdəndi:

– Dur bunu da rətt[1] elə gedə. Sən tapmıyaydın gedip aşıx tapdığıynan. Hər yerdə gedirik göğ aşığnan, qara aşığ tapır gətiri.

Der, icaza ver axır kəlməni ərz eliyim.

Koroğlu sözün etməz haşa,
Şəmşirini çəkər daşa.
Amma sənə deyim, Həsən paşa,
Belə kəlləni bada verəsən.

Bu ahəngidə bizdən həlbət də Həsən ağa isdiriy, Xəyyamın oğlu təğaza eliyib, sağlığına oxuyruq.

Ağa, söz təmam oldu. Durdu əyağ üsdə, dedi:

– Dur, bunun məvacibini ver getsin. Tapmıyaydın sən inşallah, bu aşığ tapdığıynan.

Ağa, duruplar əyağini üsdünə Koroğluni vəzir mücəddədən, ağa, haqq-hüququnu verip gətirdi yola sala.

Dedi:

– Mən ölüm, sən Koroğlu dəyilən?

Dedi:

– Kişi, oğru ceddi abadin, oğri kimdi?

Dedi: Ay dadi- biydad, bu əslan beçara, koroğlunun adını eşitmeyib...

Zəmaniki vəzir ağa getdi, tapdı gətirdi Koroğlunu ərz elədim, Koroğlu iki məratip getdi, hər dəfəsində bir rəng libas geyirdi və qeyidirdi təğyiri-libas elirdi, yəni libasını əvəz elirdi, özünə həlbət də təğyiri rəng verirdi özünə. Bir dəfəsində rəngini qara eləmişdi. Bir tərəfini bir dəfəsində sarı eləmişdi, ağa, mücəddədən qeyidip, həlbət də öz mənzilinə səsdəndi:

---

[1] Yola salmaq, uzaqlaşdırmaq

– Uşaxlar, mən yaxçı tapmışam ağa, Xunkarın mənzilini əgər, işallah, muvəffəq olaq doslarımızznan belə. əlbətdə, ağa, qeydip bu dəfə görək nə iş gördü? Bir dəs ağ libas geyipdir, üz-gözünə ağ rəyngnən vurdu, başunu ağa ağardup, saz çiyninnən çıxıb xiyabana.

Xunkar səsdəndi ki:

– Vəzir, sən getdin, yaxçı aşux gətirmədin. Bu dəfə getginən görək nə cür aşıx tapıp bizimçün gətirə billən.

Ağa, vəzir xiyabannan gəlirdi, baxdı gördü, bir aşıx gəlir, çox ağdı. Ərz elədi:

– Dadaş, sən aşuğan?

Ərz elədi:

– Bəli, məgər necəyəm, məgər nəyimdi mənim?

Dedi:

– Valla, sən çox ağ aşığan, yaxçı aşığayn.

Dedi:

– Vallah, mən bu dünyanın aşığı dəyiləm. Mən ölmüşdüm, o dünyadaydım, mənə yer olmadu, gəlmişəm mücəddədən bu dünyaya.

Səsdəndi ki:

– Aşıxcan, elə o qara aşıx da sən idin, o gög aşıx da sən idin, bu ağ aşıx da elə sənəyn. Sənə qurban, əgər sən Koroğluyayn, mənim cigərim kəbab oldu, mən özüm müsəlmanam. Müsəlman vəzirəm mən, mənə vujdanən[1] əgər sən Koroğluyayn.

Çox biləsinə tikrar eliyənnən sora hər üç mərtəbəsində də tikrar eləmişdi, “sən Koroğluyay”, ərz eləmişdi, xeyir. Vəli, baxdı gördü vəzir, ağa, cani-dildən xəbər alır biləsinnən. Ərz elədi:

– Valla, vəzir, mən Koroğluyam.

---

[1] Vicdan

Amma vəzir bu əndazə xoşbəxt oldu, mohtərəm eşidənnərimiz, əziz dosdarımız xoşbəxt olsunnar, inşallah. Əlbətdə, dedi:

– Xob, sən əvvəl gün mənə desəydin, nə bir belə sən zəhmətə qalardın, nə mən zəhmətə qalardım.

Ağa, dohulu usdad aşığ İsmayılı Şahmuradu, bular xulasə, vəzir biləsin götürdü gəldi. Xunkar baxdı gördü bi dənə aşıx gətirir, çox ağdu, səsdəndi ki:

– Vəzir, tapmıyıp aşıx tapdığıynan. O birisi qaraydı, o birisi gögüdü, bu da ki, çox ağdu.

Dedi:

– Qurban, bu qiyamat aşuxdu. Əslan bunu heç soruşmaginan nə cür aşığayn. Mən baxdım gördüm buni bu əndazə məlumat varudu, həddi-hesab yoxudu. Yaxçı aşıxdu bu.

Ağa, vəzir görək neynədi? Vəzir yetişincə, həlbət də ağa, şərapdan veripdir Xunkarın xurduna. Xunkar xulasə məst oldu. Səsdəndi:

– Xop, aşıx biləmisin sohbət eləsin.

Amma aşıx durup əyağın üsdünə, Koroğlu görək nə cür söhbət ellir. Biz, ağa, Abbas Ağayi İsmayılın balabanıynan əlimizdən gələn mohtərəm eşidənnərimizin salığına ərz eliyək:

Belə deyim, Xunkar paşa, bilginən,
Şəhriyə vəlvələ sallam, inşallah.
Qırram Osmannını təmam eylərəm,
İstanbulda sikkə çallam, işallah.

Amma səsdəndi:

– Vəzir, əlbətdə Həsən Paşa səsləndi, deyəsən bu aşux yaxçu oxuru.

Ərz elədi:

– Qurban, ərz eləmədimmi yaxçı aşıxdı, qulaq as gör nə cür yaxçı oxuru?!

Çağırram Allahı, vurram qilici,
Əli ovlatını çox olar güci.
İstanbul içində dolanan Gürcünü
Nokərə, meytərə allam inşalla.

(Ağa, Xunkarın bir qızı vardı, binamı Gürcü diyərdilər biləsinə.)

İstanbul içində dolanan Gürcü,
Nokərə, meytərə allam, işallah.

Amma səsdənir:
– Vəzir, diyəsən bu aşıx yaxçı sobət eller.
Ərz eller:
– Qurban, bu aşığun nəzir yuxudu, ərz eləmədimmi yaxçı sobət eləəər?!

Koroğlu diyər, neynəmişəm, neylərəm,
Xənçərinən düşman bağrıın peylərəm.
Qırram Osmannını, təmam eylərəm,
Xunkarı təxtinnən sallam, işallah.

Koroğlu diyər, neynəmişəm, neylərəm,
Xənçərinən bağrıın başın teylərəm.
Təmam Osmannını qırram, təmam eylərəm,
Amma deyir: Xunkarı təxtinnən sallam, işallah.

Əlbətdə, ərz elədim Xunkar deyir:
– Vəzir, deyəsən bu aşıx yaxcu sohbət elir. O birsilərdən yaxçu sobət elir.
Ərz elədi:
– Qurban, demədim bu aşuğun məlumatı çoxdu?!
Ağa sözləri təmam olup həlbət də, Koroğlunu gecə vəzir qoymadı daha gələ. Koroğlu qalıp burda. Xunkar paşa səsdəndi ki:

– Vəzir, aşığı qoymaginən gedə süp əvvəli vəxt işallah, Koroğlini noçalarını dara çəkəndə bizimçün oxusun, biz xoş olak.

Deyir:

– Mənim gözümə minnət.

Ağa gecəni yatıplar burda, əvvəli subh duruplar əyağı üsdünə. Yavaş-yavaş gəliplər meydana. Amma xəbər verək meydannan, xulasa, baxdı gördü Koroğlu, gördü dar qurulupdur. Amma Koroğlunun ah-nahadından çəkildi. Pərvərdigara, kaş mənim gözüm kor olaydı, mən bu darı görmiyəydimkin. Mənim, ağa, qardaşlarımı gətrilər burda dara çəkələr? Amma Koroğlu oturup meydanin bir güşəsində, vəli, xəbər verək kimdən? Ağa, xəbər verək üş dənə dəlilərdən, həlbət də, Dəli Həsəni gəliplər gətisinnər inşallah, meydana. Ağa, Dəli Həsəni gözlərini zindanin içində bağlıyıpdılar, gətirillər meydana. İnşallah, meydanda biləsini dara çəkələr. Zəmanikin Dəli Həsən yetişdi meydana, gözü ki bağluydu. Baxdı gördü, sərsida çoxdu, bildi ki, bəli, xolasə bura meydandı, ağa, Həsəni gətiripdilər. Ama Həsən səsdəndi ki:

– Aya, bir nəfəri ki, isdillər öldürələr, mohlət varıdı beş-on dənə ya vəsiyyət eləsin, ya sohbət eləsin, ya dərdi dillinnə desin.

Ərz elədilər:

– Bəli. Sən eliyə billən hər cur sohbət eliyəyn.

Amma Həsən alıp görək nə cür sohbət elli, biz ərz eliyək təmam mohtərən eşidənnərimizin salığına:

Göylüm isdər, Qoş Koroğlu,
İndi girə bu meydana.
Çekə batmannan qilici,
Meydanı döndərə qana.

Göylüm isdər, Qoş Koroğlu,
Allah, indi girə bu meydana.

Çekə batmannan qilici,
Meydanı dönnərə qana.

Amma Koroğlu bi kinarda durmuşdu. Keyf elədi Həsənin bu bir sözünnən. Ağa, ürəgində deyirdi, sənə qurban, Həsəncan, qorxmaginan burdayam. Ağa, ikiminci kəlməsin görək nə cür deyir? Ərz eliyək mohtərəm eşidənnərimizin sağlığına. Dəli Həsəni biçara oturmuşdu yerə, bu kəlməni deyire:

Mərtlər meydanda oturup
Namərt şəmşirin götürüp
Qırat ağzın köpürüb
Gəlir daşlana-daşlana.

Çun Həsən biçara oturmuşdu yerə, bu kəlməni deyiri:

Deyir mərtlər meydanda oturup,
Namərt şəmşirin götürüp isdiri onu öldürə.

Ama deyir bilginən Həsən, paşa əlan, inşallah, Koroğlu əgər çatmasa da, yolda gəliri. Qıratın ağzi köpürüyüb gəliri daşlana-daşlana. Amma baxdı gördü, ağa, Osmannılar qəh vurulla[1], gülüllər Həsənin bu kələmə sözinə. Deyir, əgər bilginən siz şir olayız, bizə heç zad eliyə bilməyiz, xatircəm oli. Həlbət də, bu kəlməni deyir, ərz eliyim salığıza.

Başına qoyupdur börkü,
Mərd kişi meydanda görkü.
Biz aslanık, Osmanlılar tülkü,
Tülkü neylər bu aslana?

Deyir:

---

[1] Qəhqəhə çəkmək, gülmək

Bizim ərbabımız başına qoyar əblağı börkü
Mərddi inşalla əlan meydanda görkü
Amma deyir bilginən Xunkar:
Biz aslanık, Osmanlılar tülkü
Tülkü neynər bu aslana?

Ağa, həlbət də, kəlməye axırda təğaza eleri. Der əgər öldürsəz də bizi öldürün, Eyvəz xanı öldürməyin, yəni ürəgində belə fikr elədi. Pərvərdigara, əgər biz ikkimiz ölsək, Koroğlu bir muddəti narahatçılıx çəkər. Narahat olar. Vəli, daha bir belə, ağa, belini sindirməz Koroğlunun bizim ölməgimiz. Amma əgər Eyvəz ölsə, Koroğlunun dudumanı dağılar[1], beli sinər. Əlbətdə, bu kəlmədə deyire. Vağiən Xunkar əgər insaniyyətlikdən dünyada qoxu aparmışan, sən bizi ikkimizi öldür, Eyvəz xanı öldürməginən.

Həsən sözün diyər yana,
Yandı bağrum, döndü qana.
Bizim ikkimizi öldür,
Dəyməginən Eyvəz xana.

Həsən sözün diyər yana-yana,
Yannı bağrum, döndü qana.
Bizim ikkimizi öldür,
Amma sən Allah, Xunkar,
Dəyməginən Eyvəz xana.

Ağa, müsəlman vəzir indi çun biliri Koroğlu burda meydandadu. Səsləndi:

– Öldürməyin, gedin o birsiləri də bir dənə, bir dənə gətirin. Üçünü də bir dəfə dara vurak.

---

[1] Xanədanı, evi yıxılar

Ağa, gəliplər, ərz eliyim xidmətiyə, bu tərəfdən əlbətdə xan Eyvəzi gətirmədilər. Çün xan Eyvəzi Qoş Koroğlu çox istərdi. Ağa, dedilər, bu qalsın o axıra. Axırda bunu öldürək. Koroğlunun cigərinə biz dağ çəkək. Dəmirçioğlunu gətirdilər. Ağa, Dəmirçioğlunu gətirdilər. Dəmirçioğlu zəmaniki yetişdi meydana. Xunkar səsdəndi ki:

– Vəzir, aşuğmuza denən bir neçə kəlam sohbət eləsin, biz yavaş-yavaş, ağa, Koroğlini qoçaxlarini istirik dara vurak.

Amma Koroğluni dünya gözinə tirə vo tar oldu. Alıp görək Koroğlu nə cür danışuro? Biz ərz eliyək mohtərəm eşidənnərimizin salığına

Dəlilərim, bu gün meydan günüdür,
Gəlin bu meydana beş-beşlərimiz.
Səf-səf oleyn düşman sizi görməsin,
Girək bu meydana beş-beşlərimiz.

Dəlilərim, bu gün meydan günüdür,
Girriy bu meydana dört-beşlərimiz.
Səf-səf oleyn düşman sizi görməsin,
Girək bu meydana beş-beşlərimiz.

Amma Xunkarın bir az havası cəm idi. Səsdəndi:

– Vəzir, diyəsən aşux gicəki təki sohbət eləmiri.

Ərz elədi:

– Qurban, ərz eləmişəm bu aşuğu çox sahıbı məlumətdir. Məluməti çoxdur bu aşığun, yaxçı sohbət eliri.

Ağa, hər aşuğun məluməti olmaz, məgər in ki, bizim ustadımız aşığ İsmayıl Şahmurad olmuş ola. Həlbət də, bu kəlməni bilə diyər, ərz eliyim sağlığıza:

Qədəm vurub, bu meydani izləyin,
Sixa çəkin, düşman bağrunu duzlayun.

Balalarım, qoğa günü bir-birini gözləyi,
Ortalıxda qalmasın ləşlərimiz.

Qədəm vurey, bu meydanı izləyi,
Sixə çəkin, düşman bağrın duzlayun.
Balalarım qoğa günü, bir-birini gözləyin,
Ortalıqda qalmasın ləşlərimiz.

Amma səslənir:

– Sənə qurban, vəzircan, havasın cəm eləginən, güzlə dəlilərdən öldürməsinlər, ta mənim sözüm təmam ossun.

Ağa, bu kəlməni diyər, ərz eliyim eşidənnərimizin saluğuna. Bəli, ərz elədim həlbət də.

Qədəm qoyun, bu meydanı izləyin,
Sixə çəkin, düşman bağrın duzlayu.
Dəva günü, bir-birizi gözləyin,
qalmasın Ortada ləşlərimiz.

Əlbətdə, bu kəlməni nəvarın o üzündə də ərz elədim, tağaza olunub bu üzündə də ərz eliyəm. Ahəngi mehtərxanı, ağa, ba həmkari Abbas ağa İsmayılı.

Girəm dost bağına, gül dərəm dəstə,
Təbərrik eyl iyəm, yollıyam dosta.
Qardaşlarım, çekin qilişləri, ləşi tökün ləş üsdə,
Ta parsdan[1] arınsın qilişlərimiz

[1] Ta parsdan – əslində “pasadan” mənasındadır. Qılınclarınızın pası təmizlənsin deməkdir

Amma bu tərəfdə, ağa, Dəli Həsən, Dəmirçioğlu Koroğlunun səsini eşitdilər. Ağa, dünyanı diyərdin verdilər bulara, bular qəlblərində zoğ[1] elillər. Ama bir-billərinnən xəbər yoxlarudu. Çün ikisinnin də gözü bağlı gətiriplər. Hərəsini bir yerdə saxlıyıplar, bir-birinin yannarında dəgillər. Amma Koroğlu axır kəlməsini diyər, ərz eliyim motərəm eşidənnərizin salığına isdiriyo Xəyyam üçün:

Qoş Koroğlu diyər, geşdim bu cannan,
Heç qorxmaram həştat belə meydannan.
Der, ya budur, Eyvəzi çəkəm zindannan,
Ya gedə bədənimizdən başlarumuz.

Ağa, sözü təmam oldu. Əlbətdə, dəsdur verdilər, ağa, məmurlara, fərraşlara, gedin Koroğlunun o birisi noçasını da gətirin. Amma gəliplər Qoş Koroğlunun xan Eyvəzini zindannan gətirillər, əmma Qoş Koroğlunun gözü sataşdı xan Eyvəzə. Ağa, ah-nahadınnan çəkildi. Zəmani ki, Eyvəzi yetirdilər meydana, Eyvəz səsdəndi:

– Ağayan, aya bir nəfəri isdiriz öldürəz, aya icazası vardır, beş dağə sobət eləsin.

Ərz elədi:

– Bəli, sobət eləginən.

Amma Qoş Koroğlini, ağa, ah-nahadınnan ərz elədim, çəkildi, kinarda durup səs eləmir, görək xan Eyvəz nə cür sohbət eliri. Biz ərz eliyək motərəm eşidənnərimizi sağlığına. Ağa, Abbas Ağayi İsmayili balabanıynan istiriyo Xəyyamın oğlu Həsən ağanın sağlığına:

Uca dağların başında,
Elim, ey havar, ey havar.

---

[1] Zövq

Tutupdur ardımı gələr,
Zulum, ey havar, ey havar.

Amma bu kəlamı diyəndə Koroğlunin ah-nahadınnan çəkildi. Dünya Koroğlunun başına tirə-vo-tar oldu. Amma alıpdır bubirsi kəliməni xan Eyvəz desin, Koroğlu qulağ asuru:

Mən gələndə, qardaşlar, ağladılar,
Cigərimi dağladılar,
Nagahannan bağladılar,
Qolun, ey havar, ey havar.

Ağa, ərz elədim Koroğluni ah-nahadınnan çəkiliri, həlbət də, bu kəlamları diyəndə, alıp görək bu dəfə nə cür söhbət ellir? Ərz eliyək, ağa, eşidənnərimizin salığına. Həlbət də, bizim bu ahəngimizi tənzim eliyən, ağa, ustad Aşıq Yusifi İsmayilini də sağlığna:

Gedin deyin qardaşıma,
Rəhmi gəlsin göz yaşıma.
Gör nə bəla gətirdi başıma,
Dilim, ey havar, ey havar.

Amma xan Eyvəz xiyal elədi, bu ikisininki bunnan qanşar[1] gətiriplər, buları öldürüplər. Xan Eyvəzi, ağa, bətər dərdi ziyad[2] oldu, inşallah, eşidənnərimiz xoş olsunnar. Bu kəlməni deyir, bəs hanı mənim rəfixlərim, hanı mənimnən gələnnər?

Hanı mənimnən gələnnər?
Bağrımın başın dələnnər,

---

[1] Burada öncə, bundan əvvəl mənasında
[2] Çox oldu

Qurbətdə qərib ölənnər,
Ölüm, ey havar, ey havar.

Amma xan Eyvəz həlbət də, görəy götürüp kimnən köməg istiri? Bir belə qoşini, ağa, mabeynində qalupdur təki-tənha görək kimi yad edir xan Eyvəz. Ərz eliyək təmam eşidənnərimizin salığına. Ağa isdiriy Xəyyam uçun.

Xan Eyvəz durar, oturur,
Movlasın dilə gətirər.
Mən öləndə pəs Allah kim götürü,
Kəfənsiz canım, ey havar.

Ağa, sözü təmam oldu. Vəli, bu tərəfdən xəbər verək həlbət də, Mustafa bəgdən. Qəcər Mustafa bəg ərz elədim, o birsi nəvarlarda, o biri qismətlərdə, Qoş Koroğlunun dayısuy-du. Ağa, Qoş Koroğlunun yeddi min yeddi yüz altmış yeddi dənə nəfarat varuydu. Uşaxdan, böyükdən, xanımnan, qızdən. Vəli, Qəcər Mustafa bəyin həlbət də yeddi min yeddi yüz yetmiş yetdi dənə fəğət şəmşir vuran varıydı. Ağa, bu tərəfdən qoşunnan yetişipdir qapıni dalına, qapını dəqqəlbab elədi. Görək qapıni dalında duran kimidi? Yumuğ Əhməd. Ağa, Yumuğ Əhməd qapıni dalında səsdəndi:

– Kiməy?

Dedi:

– Mən.

– Yumuxcan, sənəy?

– Mən Mustafabəgəm gəlmişəm. Gəlirəm Qoş Koroğlunun köməyinə.

Dedi:

– Çıx get var işinə. Burda heş zat yoxdu sən gəlmişəyn çapan. Bu şəhər bizim özümüzdən izaf olmaz.

Ağa hər qəral Mustafa bəy yalvardı, yaxardu, Yumux-can, axı mənəm, mən Koroğlunun dayısıyam. Aç qapını.

Dedi:

– Qapını açmam. Çıx get var işiyə.

Amma Koroğlu sohbət elərdi, gərm sohbət idi meydanda həlbət də, Qəcər Mustafa bəyi ki, Qoş Koroğliyi dayısıydı. Nəzəri bu yerə çatdı, bu Yumux daha qapını açmaz. Əlində şeşpər varudu, ağa, şeşpərü pərtab elədi, gəlip meydanin vəsətində düşdü yerə. Bir zaman Qoş Koroğlu baxdı gördü, dayısının şəmşiri gəldi meydanın ortasında dəydi yerə. Uşaxların birisinə işarə elədi, hətmən Yumux qapını açmırı, getginən, ağa, qapunu açuyn. Amma Qoş Koroğluni bu tərəfdən Qəcər Mustafa bəyin gəlməginnən, bu tərəfdən dəlilərin salim gürməginnən xoşbəxt olupdu. İnşallah, motərəm eşidənnərimiz xoşbəxt ossunar. Həlbət də, alupdur Qoş Koroğlu beş dənə Qəcər Mustafa bəyin ağa, cəvan mərtdiyinnən tərif elər, biz tərif eliyək mohtərəm eşidənnərimizin sağlığına:

Gəldi xiyalımnan geşdi,
Cəvan oğlan Mustafa bəg.
Dəldi bağrımi başıni deşdi,
İgid oğlan Mustafa bəg.

Amma Qoş Koroğlu həlbət də dayısu Mustafa bəyi osafınnan tərif eləməkdə, bir dənə dəlilərdən gəldi qapını aşdu. Qəcər Mustafa bəy ağa qoşunuynan varud oldular İstanbulun şəhrinə.

Cidasının başu qannudur,
Bəs ki, həmməşə cəng elər
Ağ otaxlu, əlvan xonnu[1].

[1] Xonçalı

İgitlikdə təmam mənadır[1],
Addı-sannu, cəvan oğlan Mustafa bəg.

Amma bu birsi kəlməni belə diyər, ərz eliyək eşidənnərimizin salığına.

Nəinki Koroğluynan, ağa, zamanında uşaxlıxlarında küşti qapardılar. Həlbət də, ərz elədim Qəcər Mustafa bəg Koroğludan böyükdür. Bir az ahıl uşağudu. Götürərdi Koroğlunu, vurardu, ağa, çayin içinə. Burda kələmə yadına düşdü.

Deyir, hay deyəndə haya basar,
Huy diyəndə göydən asar.
Qoş Koroğlunu çaya basar,
Cəvan oğlan Mustafa bəg.

Ağa, Mustafa bəg varid oldu həlbət də İstanbul şəhrinin içinə. Ərz elədim bu tərəfə, Qoş Koroğlu baxdı gördü, dört ətrafını ağa öz qoşunnarı alıp ortalığa. Osmannu eyni buğdani içinnən hərdən-birdən də çovdar olar, çovdar diyərik, bizim dilimiz çovdar diyərik. Ağa, həlbət də alıp ortalığa əslan, ağa, yüz nəfərə bir nəfər Osmannıdur. Qoş Koroğlu xoş oldu, inşallah, mohtərəm eşidənnərimiz xoş ossunnar. Qoş Koroğlu alıp görək nə cur sohbət eller? Biz ərz eliyək eşidənnərimizi sağlığına:

Dəlilərim, əlan meydan günüdür,
Dəli göylüm, əbtal[2] olsun, dolansun.
Xunkar, bir sahatdan şəhriyi mən talaram,
Balaların qapı-qapı dilənsin.

Bu tərəfə baxır, ağa, Qəcər Mustafa bəy qoşunuynan dayanıp. Bu tərəfə baxır, ağa, yüz bərabər, ərz elədim öz qoşunudur həlbət də, bir bərabər, ağa, Xunkarın qoşunu dəgi.

---

[1] Kamil, bütöv
[2] Axmaq

Həlbət də biz buranı ahəngi Eliyati oxuduk, isdiryo xəyyam özü təğaza elədi.

Eyvəzin dərdinnən daha olmuşam xəsdə,
Can qurban eyləyən bəfalı dosda.
Çəkin qilişləri, qorxmayın, ləşi tökün ləş üsdə,
Fərman verrərm əlan tufağı dağılan,
Toqat şəhrin talansın.
Qöş Koroğlu diyər peyman dolanda
İzrail tək amma canlar alanda
Qır Atnan mən bu meydana varanda
Köpügünnən bədovların yalannar

Zəmanikin, ağa, Koroğlunun meydanda baxdı gördü, dəliləri gətirdilər. Üşlərin də gətiriplər, murəttəb eliyiplər. Ağa, üş dənə dar, vəsət meydanda bepadı ağa buları öldürsünnər. Ərz elədim, beş xatirinə gəlsinnər. Əlbəddə, beş kəlmələri ki ərz eləmişəm üçümüncü qismətdə. Ağa, axur beş kəlməmiz, əlbətdə bu idu. Qoş Koroğlu deyər:

Bu meydana varannan,
Ezrayıl təki çöküp canı alannan.
Qiratınan, meydaniya vəvələ salnan
Köpügünnən bədüvlərin yalansın.

Əlbətdə, ağa, söz təmam oldu Koroğlunun sözü. Səsləndi:

– Xob, qardaşlar. Dəlilərim, bəs siz haçan içində olmuşuyuz? Nə günümdə mənim dərdimə dəyəcəksiz?

Alubdur, dəsdur verir dəlilərə. Biz ərz eliyə mühdərəm eşidənnərimizin sağlığına. Ağa, ahəngi “Mehdərxanı” ilə ərz eliyək.

Sizə deyim, dəlilərim,
Hov deyin, meydan üsdünə.
Çəkin Misri qilişləri,
Ləşin tökək ləş üsdünə.

Amma dəlilər amadə oluplar, Koroğludan dəsdur istiyillər.

Qala dibində yatannar,
Toz u-torpağa batannar.
Bizim Eyvəzi tutannar,
Sizə qullux baş üsdünnə.

Ağayan[1] Koroğlunun ah-nahadından geçib. Xan Eyvəzin gözləri bağlı, qolları bağlı, dünya başına tiə-vo-tar olup. Vəli, axur kəlməsin deyir.

– Həsən can, bəs niyə durmuşan? Ağa, xan Eyvəzin dahı narahatçılığını təhəmmul eliyə bilməz.

Qoş Koroğlu deyər, aman, barı,
Çatsın imdadıma tarı.
Həsən can, qilişlə darı,
Mən getdim Xunkar üstünə.

Ağa, sözləri təmam olup, mötərəm eşidənnərrimizin sağlığına. Əlbətdə, ağa, hov deyiplər, ağa, dəlilər qoşunu üsdünə, xulasə, qirilən qirilip. Ağa, qaçan qaçıp. Amma Qoş Koroğlu bir zaman baxdı gördü, Mustafa bəy, ağa, eyni bir dana Gərşasıp[2] kimin durupdu. Baxdı Mustafa bəyin cavannağına, baxdı Mustafa bəyin kirdarına, ağa, beş xatirinə gəlipdir.

---

[1] Ağalar
[2] Firdovsinin "Şahnamə" əsərində adı çəkilən pəhləvan

– Musdafa bəg, sən nə əndəzə yaxçı dayıyan mənimçin. Musdafa bəy, kaş, ağa, səniynən qardaş olaydıx və altmış qardaş olaydıx.

Bəs biz ərz eliyəh eşidənnərimiz sağlığına:

Bar İllahım budur sənnən diləyim,
Bir atadan altmış oğlan törüyək.
Dəsdur verənimiz ola atamız,
Hov deyənə meydan üsdə yeriyək.

Amma Qəcər Musdafa bəyi əndəzadan əlavə, xoşu gəldi, səsdəndi:

– Bacoğlu, heş mən sənə dayı deyiləm, qardaşam sənə.

Ağa, həlbəddə, bu birisi kəlməmi deyər, ərz eliyim sağlığıza:

On beşimiz əkin-tükün ovluyak,
On beşimiz əldə şəmşir tovluyak.
Otuzumuz elimizə, atamıza xidmət eliyək,
Ama ortalıxda sultan olan birimiz.
(Atasını deyirdi)

On beşimiz çöldə olak həmməşə,
(Şikarda olax, atlanax-düşəh.)
On beşimiz düşman üsdə yerişək.
Otuzumuzda gedək Xunkarlara qarışak,
Amma, Ortalıxda Xunkar olak birimiz.

Əlbəddə, söz tamam oldu. Vəli, Qoş Koroğlunu, ağa, sözlərindən Qəcər Mustafa bəgin çox xoşu gəlipdi. Səsdənir:

– Sənə qurban, bacoğlu, ərz eylədim, mən sənə dayı dgiləm, qardaşam.

Ağa, əlbətdə, bu zaman ki Qoş Koroğlu bu şəhrə varid olanda, amma ərz elədim, burda müsəlman vəzir vardı. Müsəlman vəzir əndəzadən əlavə Koroğluya yaxçılıx eləmişdi. Əhməd vəzir deyərdi elə beləsinə. Koroğlu zəmaniy ki, fəth eylədi, fəth Koroğlunun adına oldu, gəlip əlbəddə Əhməd vəziri, ağa, bu şəhrdə padişah elədi. Əhməd vəziri Xunkar qəral verip, bu zamana əlbətdə. Ağa, şahlara xunkar diyərmişlər. Sikkəni vurdurup Əhməd vəzirin adına, amma bir neçə gün burda qalıplar. Pəsəz neçə günnən sora Qəcər Musdafa bəg xudafis elədi. Yola düşməhdən olsun, xəbər verəh, ağa, Koroğludan. Koroğlu dəsdur verdi:

– Qardaşdar, getməli olduk. Bizim yolumuzu gözdiyillər.

Ağa, durur əyağı üsdünə. Gəlsinnər, görəh əlbətdə Koroğlu nə işdər gördü. Səsdəndi:

– Həsən can, Əhməd paşadan, xulasə xudafizdih eləginən.

Ağa, Əhməd Paşadan Həsən gəlip xudahafidik eləsin. Ağa, alıpdır bir neçə kəlam sazı sözünən, Əhməd Paşadan, Əhməd Xunkardan, ağa, xudahafisdıx eyləsin. Ərz eliyək möhtərəm eşidənnərimizin sağlığına, əlbətdə ustad Sidqi Əli balabanıynan.

Halal elə duz-çörəgin, nəməgin,
Əhməd paşa, xanimanın avadan[1].
Biz bilməsək, kor eyləsin əməgi,
Mənim ağam, xanimanın avadan.

Əhməd paşa təşəkkür eyliri.

– Sənə qurban, Həsən can. Ağa, tamam kı yaxculugi mənim hakkımda eliyip, Qoç Koroğlu eliyip. Mən bi zad eləməmişəm sizə. Amma dur icazə verginən, əlan Mustafa bəg getdi çatdı, hərə öz mənzilinə. Biz də gərək gedək.

[1] Evin abad mənasında

Görürəy bəla nisbət[1] namərtləri,
Çərxi fələk daşların atdı.
Koroğlu qannarın bir-birinə qatdı,
Musdafa bəy geddi dahı mənzilə çatdı.
Mənim ağam xanimanın avadan.

Ərz elədim, Əhməd paşa, Ağa əl qoyub döşünə.

– Sənə qurban, Həsən can, axı mən sizin dər həqqizdə bir yaxşılığ eləməmişəm. Yaxçılığı Qoç Koroğlu eliyipdi. Ağa, hər nə qədər mənə ehtiram elədiz, Qoç Koroğluya eləyin.

Qızılgülü dəsdə-dəsdə dərəllər,
Dərib-dərib zinəxdanə sərəllə.
İstəklini dünyada istəkliyə verəllər.
Əhməd paşa, xanimanın avadan.

Həsən deyər, neynəmişəm, neynərəm?
Xənçərinən bağrım başını teylərəm.
Bunnan sora mən tərifi eylərəm,
Əhməd Paşa, xanimanın avadan.

Ağa, sözləri təmam oldu. Əlbətdə, yola düşüllə burdan. Yola düşüp şəhərdən xudahafizdıx eliyiplər. Ağa, yavaş-yavaş

şuru eləsinnər gəlməyə. Vəli, bir miqdar gəlip, ağa, Qoç Koroğlu həməşşə qoşunun qanşarıyca gələrdi. Ağa, xoşbəxt idi, inşallah, mohdərəm eşidənnərim xoşbəxt olsun. Ama ürəyində nə fikir eylir. Deyir, əgər vaqiən Qırat olmasaydı, görən mən nə iş görə biləydim? Ağa zəmaniki Qoş Koroğlu həlbət də, Qıratınan hər tərəfə, hər musafirətə gedərdi, muvəffəq olardı. Amma baxır Qıratın vəqarına, baxırıx Qıratın yol

[1] Sizlərdən iraq olsun mənasında

getməyinə. Qoş Koroğlu bu ənnaza xoş olup hesaba gəlmiyə. Amma alıpdır əlbətdə, bir neçə kəlam, ağa, Qıratı nəvazişt eliyər. Ərz eliyək eşidənnərimizin sağlığına:

Canım Qırat, gözüm Qırat,
Hər nə desəm ərzanıyn ur[1].
Amma bilginən səni minən dünyada alar murad,
Qırat, hər nə yesəy ərzaninu.[2]

Qıratı mən aldım körpə,
Amma səslənəndə gedər sərfə.
Hər danına qırx tas arpa,
Qıratcan, səni ərzanuydu.

Amma mən sənə xidmət eləsəm, az xidmət eləmişəm. Bərabərikən sən mənə xidmət eləmisən. Bəli, əlbətdə navarın o üzündə ərz eylədim. Qoç Koroğlu deyir:

Bir atı aldım ovunan,
Meydana girəm hovunan,
Üsdü məxmər qəşovunan,
Qırat, sənin ərzanuydu.

Əlbətdə, bu birsi kəlməsin ərz eliyim eşidənnər sağlığına:

Qıratı aldım bəsinən,
Meydana girirəm səsinən.
İçi qəleyli tasınan,
Sərin sular, heyvan, ərzanuydu.

---

[1] Nə qədər tərifini etsəm haqqındı
[2] Halal olsun, halalındır

Ağa, axır kəlməsin ərz eliyim eşidənnərin sağlığına:

Koroğluyam, gəldim amana,
Sığınnam dahi Şahı-Mərdana.
Heyvan deyir, dəsdimi yetirdin damana,
Qırat səni ərzanuydu.

Əlbətdə, ahəngimizi təhiyyin eliyən Aşıx İsmayılın sağlığına, Şah Muradın sağlığına, bəndənin ustadımdu.

Ağa, söz təmam oldu, bular burdan hərəkət eliyiplər gəlməgə, vəli, müddəti mədid yol gələrdilər. Ama pəsəz müddətdən sora, ağa, yetişiplər Çartaxtlı Çənlibelə. Muştuluxçu göndərdi qənşərdən Qoş Koroğlu gəlir və dəliləri, Xan Eyvəzdi, gəliri. Ağa, pişvaz eliyiplər tamam dəlilər, mehtərlər, ağa, xanımlar tökülüplər. Xan Eyvəzi pişvaz eliyiplər. Bular pişvaz eləməgində, əlbətdə, ağa, Qoş Koroğlu təmam baxdı gördü dəlilər, xanımlar, mehtərlər yığılıb dörəsinə, təmam qoşun dörəsindədi. Amma Qoş Koroğlu xoşbəxt olup, inşallah, eşidənnərimiz xoşbəxt olsunnar. Əlbəttə beş kəlmə xatirinə gəlipdi. Səsdənir:

– Yığılın, – deyir, Eyvəz gəlipdi, qardaşlar.

Sizə deyim, dəlilərim,
Yığilin, Eyvəz gəliri.
Sizə qurban olsun şirin canım,
Pişvaz eləyin Eyvəzi, Eyvəz gəliri.

Çənlibelin igidləri,
Bizə verər ögüdləri.
Bağçalarımızın sögüdləri,
Açılın, qardaş gəlir.

Amma Qoş Koroğlu ağayan, bu ənd aza xoş idi, həddi-hesaba gəlməyə.

Qoş Koroğlu deyər yana,
Yandı bağrım, döndü qana.
Özüm qurban olum, Eyvəz xana,
Pişvaz elər, Eyvəz gəliri.

Ağa, xan Eyvəzi pişvaz eliyiplər. Qurbannıx payannaz, nə izzət, ehtiramnan əlbətdə. Xan Eyvəzi ağa varid eliyiplər cəlelli Qoş Koroğlunun qələsinə. Xoşbəxt olup, yığılıplər, cəştini paylıyıplar, neçə gecəbəgündüz çırağbannığ eliyipdilər Çartaxlı Çənlibeli. Cəştini paylıyıblar, xoşbəxt oluplar, inşəlləh, eşidənnərimiz xoşbəxt olsunlar. Amma xanımlar gəlipdi, əlbətdə, əyləşipdi Qoş Koroğlunun dörəsində.

– Qoş Koroğlu, indi sərgüzəşdiyinnən bizim için tərif eləginən. Görəy, ayə, sən xan Eyvəzi, ağa, nə cür getdin gətirdin? Nə zəhmətlərinən, nə zilalətlərinən[1] gətirmişəy xan Eyvəzi?

Bəli, Qoş Koroğlu tərif elədi beləlari içün. Amma Qoş Koroğlu baxır Eyvəzə, bu əndazə xoşdu, ağa, hessaba gəlmiyə. Alıp deyir, Qoş Koroğlunu, ağa, bu gün xoşdux vaxdıdı. Gətirmişəm Xan Eyvazı. Beş kəlmə xatirinə gəlip, deyir:

Yolladım durna ovuna,
Gətirmişəm xan Eyvəzi.

Atlandıx getdik ovuna,
Gətirmişəm xan qardaşı.

Ağa, cəşn bepa eliyiblər mucəddədən şəhrin içində Qoş Koroğlu bu birsi kəlməni belə desin sizin sağlığıza. Əlbətdə, ahəngi "Mehtərxana" ilə.

[1] Zillət mənasında

Eyvəzi yolladım telə,
Rəngi bənzər qızılgülə.
İki qoçağınan belə,
Qardaşdar, gətirmişəm xan Eyvəzi.

Ərz elədim, Koroğlu bu ənnazə xoşdu, nəhayət yoxdu.

Baxçada açılar güllər,
Gül üsdə oxur bulbullar.
Yığılsın, qardaşdar, ellər,
Gətirmişəm xan Eyvəzi.

Ağa, həlbət də, Qoş Koroğlu axır kəlməni deyər. Ərz eliyim eşidənnərimizin sağlığına:

Koroğlu diyər, nələr olsun,
Saralsın, düşmannarımız solsun.
Yığılsın xanımlar, mehtərlər gəlsin,
Gətirmişəm xan Eyvəzi.

Ağa, söz tamam olup. Əlbətdə, burda qalıplar, muddəti Qoş Koroğlu varudu Xan Eyvəzinən. Amma həmməşə xan Eyvəz şikara gedəydi, ya övdə qalaydu, ya çıxaydı, qədəm vuraydu meydana, Koroğlu baxardı görərdi, xan Eyvəz həmməşə narahatdı. Gətirip əlbəttə, durna telini ki həmin tor ki qol vermişdi[1], ağa, gətirip tutup qızil suyuna, tikib xan Eyvəzin başına. Yeddi min yeddi yüz altmış yeddi nəfərin xan Eyvəz sərkərdəsidir. Ağa, muttəffiq oluplar, pəsəz muddətdən sonra Koroğlu oturmuşdu mey otağında. Xöşbəxt idi. Bir zaman baxdı xan Eyvəz oturub, qəmnakdur. Amma fikr elədi, xudaya, görən

[1] Söz vermişdi mənasında

xan Eyvəz niyə qəmnakdı, niyə narahatdı? Beş kəlmə xətrimə gəlipdi. Uşaq, mənim sazımı gətir. Alıpdır, xan Eyvəzə deyir:

– Balacan, sən əvvəla özün istədin. Dəlilərdən istərdim yolluyum, özün getdin durna tellini gətirdin. Qızil suyuna tutdum, tikdin başıya, sən xöşbəxt olay. Mən gətirmədim sən narahat olay, qəmnak olay.

Dəstur verdi, sazımı gətirin! Sazını gətiriplər. Sobət eliyir. Nə cür soh bət eliyir, ərz eliyək salığuza:

Səhər-səhər, sobhi səhər,
Ellər, Eyvəzim, Eyvəzim.
Bir balacan qoy açılsın güllər,
Güllər, Eyvəzim, Eyvəzim.

– Eyvəzcan, sənin narahatçılığını başara bilməm daha. Xulasə, sən sohbət elə, oğlum. Hər nə narahtçılığın var görən, danış mənim üçün.

Xan Eyvəz üz oldu:

– Qoş Koroğlu, mənim heş bi narahatçılığım yoxdu.

Deyir:

– Qulaq as.

Sedan[1] dağılıpdır, balacan, dörd guşəyə,
Dünya gələr tamaşaya.
Du şəqqə hezar peşəyə[2],
Ellər, Eyvəzim, Eyvəzim.

– Balacan, mən istədim sən xoş olay. Mən istəmədim ki, sən durna telini qızil suyuna tikəm, tutam başıya. Sənə qurban, Eyvəzcan, mənim ürəgim çatlar, sən narahat olayn.

[1] Səs-səda
[2] İki şaqqa, min dənə peşəyə

Koroğlu qurban boyuya, oğlum,
Dünyayı yığaram toyuya.
Tutmuşam qızil suyuna,
Sərinə ellər, Eyvəzim, Eyvəzim.

Qoş Koroğlu xan Eyvəzə dedi:

– Daha narahatçılığını görə bilmərəm. Hər kəsi isdirəm öz şəhrimizdən, təğaaza eləginən, beləyn için toy eliyim.

Xan Eyvəz için gətiriblər, Mahmud paşa varıdı, çox böyük adamıdı. Mahmud paşanın qızını alıplar. Xan Eyvəzin toyunu şuru eylədilər. Ağa, xoşbəxt oluplar. Aşıq İsmayıl Şahmuradi sağlığına.

## KOROĞLUNUN İSTANBUL SƏFƏRİ

Koroğlunun cavan vaxdıydı. Təzəcə Çənlibeldə yurd yapıb yuva salmışdı. Atası da yanındaydı, başında dəliləri də azıdı. Uzaq səfərlərə də az getmişdi. İstanbul Xudkarının Nigar xanım adlı bir qızı varıydı. Koroğlu Nigar xanımın gözəlliyinin sorağını almışdı. Və dəlilər bilirdilər ki Koroğlu Nigar xanıma vırılıb. Dəlilər dedilər:

– Ay qoç Koroğlu, qəm çəkmə, icazə ver, ya qırılaq, ya da Nigar xanımı sənin için gətirək.

Dəlilərin cavabında aldı görək, Koroğlu nə diyəcək:

İgit gərək yar sevməyə
Özü tək gedə, tək gedə.
Müxənəs qəddin əyməyə
Özü tək gedə, tək gedə.

Nigarın şirin dilləri,
Bağrıma sancıb milləri.
Uzax-uzax mənzilləri
Özü tək gedə, tək gedə.

Qəniminə qılınc çala,
Ölkəsinə talan sala.
Düşmənlər üstə baş ala,
Özü tək gedə, tək gedə.

Dola polad yarağına,
Düşə igid sorağına.
Yüz tülkünün qabağına
Özü tək gedə, tək gedə.

Koroğluyam, haşa-haşa,
Girrəm xudkarla savaşa.

Qıratı görməyə paşa
Özü tək gedə, tək gedə.

Koroğlu sazınan dediyi kimi də sözünən dedi:

– Dəlilərim, Nigar xanımı gətirməyə özüm tək gedəciyəm.

Koroğlu qılınc qurşadı, qalxan taxıb, əmud asıb, neyzə götürüb və bir çiynindən də sazını asıb, Qıratını minib, dəlilərinən salamatlaşıb, Qıratı ildırım kimi sürüb Osmanlıların torpağına çatdı. Hər yandan atladı, gəlib İstanbula yetişdi. Axşamıdı. Atı sürüb bir dəyirmançının qapısında saxladı, dedi:

– Ay dəyirmançı, mən qəribəm. Məni bu gecə qonaq saxlarsan?

Dəyirmançı dedi:

– Niyə ki yox, buyur gəl.

Koroğlu Qıratı çəkib, töylədə bağladı. Özü də gəlib dəyirmançının evinin bir tərəfində oturdu. Dəyirmançının arvadı yemək-içmək gətirib. Bular yeyib-içəndən sonra qoca dəyirmançı dedi:

– Ay qonaq, adın nədi? Haralısan, bura neyiçin gəlibsən?

Qoca dəyirmançının cavabında görək Koroğlu nə cavab verir:

Qoca baba, ölkənizə üz tutub,
Bir qız sorağına gəldim ha, gəldim.
Osman gözəlinin düşdüm eşqinə,
Açıq qabağına gəldim ha, gəldim.

Qıratı çapdırıb, yollarda yordum,
Düşmən qarşısında mərdanə durdum.
Adım igit Rovşən, Çənlibel yurdum,
Laçın oylağına gəldim ha, gəldim.

Əskik olmaz Koroğlunun qovğası,
Düşər paşalarla cəngi, davası.
İstanbul şəhrində Xudkar balası,
Nigar fərağına gəldim ha, gəldim.

Koroğlu sazınan dediyi kimi də sözünən dedi:

– Ay qoca, Xudkarın qızı Nigar xanımı aparmağa gəlmişəm. Onu necə ələ keçirə bilərəm?

Qoca dedi:

– Ay oğul, sən tək bir oğlansan, Nigar xanımı bir qoşun qoruyur. Osmanlı qoşununa bata bilməzsən və Nigar xanımı apara bilməzsən.

Koroğlu dedi:

– Qoca, sən Nigar xanımı mənə göstər, aparmağıynan işin olmasın.

Dəyirmançının arvadı dedi:

– Ay oğul, mən Nigar xanımı sənə göstərə bilərəm, ama Xudkar eşidər bilər, adam göndərər, gələr bizim bu dəxməmizi də başımıza uçurdar. Sən Nigarı görmək istəsən, sabah cümədi. Nigar xanım hər cümə başında qırx kənizinən gəlir gülşən bağına. Get, orda gör. Apara bilsən də, bilməsən də, özun bil.

Koroğlu gecəni dəyirmançının evində yatıb, sabah açıldı, sabah dəyirmançının arvadı gülşən bağını Koroğluya göstərdi. Koroğlu Qıratı gülşən bağına sarı sürüb gəldi, çatdı bağa. Bağbanı çağırıb dedi:

– Ay bağban, Xudkarın qızı Nigar xanımın gülşən bağını mənə nişan ver.

Bağban gördü, bu oğlanın boyu-buxunu, enli kürəyi, atı, əynində geyimi, yaraqlanıb-yasaqlandığı silahı bu bağbanın çox xoşuna gəldi. Bağban dedi:

– Güllü bağı sənə nişan verə bilərəm. Əvvəl de görüm, sən kimsən? Bu boyun, bu buxun, bu geyim və bu atın üstün-

də belə durub əmir verdiyinən, sənə səltənət sahabı olmağ yaraşır, de görüm sən kimsən?

Burda Koroğlu bağbanın cavabında belə deyir:

Uca dağ başında tutaram cəngi,
Nigarı Xudkardan allam, inşallah.
Qırram Osmanlını, hindi, firəngi,
İstanbulda qılınc çallam, inşallah.

Qıratımı bəsləmişəm qəhrində,
Heç at görməmişəm onun təhrində.
Cümə günü İstanbulun şəhrində
Xudkarı təxdindən sallam, inşallah.

Qarışmayın Koroğlunun işinə,
Qalib gəlləm yüzünə, yüz beşinə.
Quzğun qonar cəmdəyinə, leşinə,
Səltənət sahibi ollam, inşallah.

Bağban dedi:

– Oğul, sən gəzdigin Nigar xanımın bağı elə bu bağdı. Mən də bağbanıyam. Və Nigar xanım bugün bağa gəzməyə gələcək.

Koroğlu dedi:

– A bağban, mən bağa girib Nigar xanımı bağda gözlüyə bilərəm?

Bağban dedi:

– Xudkar bilə mən səni bağa yol vermişəm, məni doğram-doğram etdirər. Amma səndən çox xoşum gəldi. Qıymıram sən əliboş qayıdasan, çək atını bir yanda bağla, bir kəs görməsin, get gir bağa. İndi Nigar xanım gələcək, orda Nigarı görə bilərsən.

Koroğlu elə də elədi. Bağda oturub Nigarın yolunu gözləyirdi ki, gördü Nigar xanım başında qırx incəbelli qıznan daxil oldu bağa. Koroğlu qıza yaxınlaşıb salam verdi, Nigar xanım baxdı bir cavan oğlan, yaraqlı-yasaqlı, ucaboylu, bir çiynində də bir saz. Heç bunu saymadı. Bu, Koroğluya çox ağır gəldi. Burda Koroğlu götürüb görək nə deyir:

Salam verrəm, salam almaz,
Görüm kəssin salam səni.
Ağçasız, pulsuz aşığam,
Pulum yoxdu alam səni.

Xəzinəm yox, ağzın açam,
Dövlətim yox, tökəm saçam.
Əlac budur, alam qaçam,
Çənlibelə salam səni.

Hansı dağların qarısan?
Hansı bağların barısan?
Nigar, Koroğlu yarısan,
Bilir küllü-aləm səni.

Nigar bu sözləri Koroğludan eşidən kimi qəhqəhə çəkib güldü. Dedi:

– Ay aşıq, sən bir aşıq, mən bir xudkar qızı, axı səndə bir pul var ki, məni alasan?

Koroğlu Nigarın cavabında götürüb görək nə deyir:

Uca-uca dağlar başı
Çənli olar, çənsiz olar.
Cəhd eylə, bir işdə tapıl,
Sənli olar, sənsiz olar.

Ağ üzdə busa tək gərək,
Ərənlər İsatək gərək.
Gözəllər Nessatək gərək,
Telli də olar, telsiz də olar.

Koroğlunun atı gərək,
Dəmir polad qatı gərək.
Bir igidin zatı gərək,
Pullu da olar, pulsuz da olar.

Nigar xanım dedi:

– Ay oğlan, tutağ ki, mən sənin pulsuzduğuna da dözdüm. Sən məni xudkarın əlindən necə alıb apara bilərsən?

Nigar xanımın cavabında Koroğlu götürüb, görək nə cavab verir:

Alagözlü Nigar, səni
Mən Çənlibelə aparram.
Çəkərəm Qırat belinə,
Dönərəm yelə, aparram.

Mayiləm qələm qaşına,
Uğrayaram savaşına.
Durub dolannam başına,
Tutaram dilə, aparram.

Tülək tərlan, qorxma sardan,
Səni zorunan xudkardan,
Könül ayrılmaz Nigardan,
Alaram belə, aparram.

Saymaram xudkarı, xanı,
Qoşuna verməm amanı.

Meydan içində al qanı
Döndərrəm selə, aparram.

Koroğlu gəlib damağa,
Rəhm etməz sultana, ağa.
Qıratı saldırram dağa,
Çardaxlı elə aparram.

Nigar xanım dedi:

– Çox yekə-yekə danışırsan. Sən məni Çardaxlı Çənlibelə nəyinən apararsan?

Koroğlu dedi:

– Səni Qırata mindirib aparacam.

Nigar xanım dedi:

– Sənin Qıratın necə bir atdır?

Koroğlu dedi:

– Ay Nigar xanım, qulaq as, mən deyim mənim atım Qırat necə bir atdı.

Uca dağ başında yel kimi əsər,
Bu günümdə mənə kömək Qıratım.
Bir aylıq yolları bir gündə kəsər,
Köhlən bəsləmişəm gərək Qıratım.

Yolların tozunu göyə qaldırar,
Müxənnəs üstünü birdən aldırar.
Meydanin içində düşmən aldırar,
Olar yiyəsinə dirək Qıratım.

Qoç Koroğlu qonar olsa yəhərə,
Yağı düşmənləri salar qəhərə.
Obaşdan aparram, qoymam səhərə,
Dara düşsəm, mənə kömək Qıratım.

Nigar xanım dedi:

– Ay oğlan, sən ki, bir belə Qıratını tərifədin, gedək görək, doğurdan da, o at sən diyən tərifə dəyir, ya yox?

Koroğlu dedi:

– Nigar xanım, gedək baxın, əyər mən diyən olmasa, onda mənə qəzəb eyləyin.

Nigar xanım başında qırx incə qızınan, Koroğlu da yanlarında bağdan çıxıb gəldilər Qıratın yanına. Bu zaman Koroğlu gördü məqamıdı, firsəti fota ferməyib, tez atıldı mindi Qıratın üstünə və əl atdı, Nigar xanımı da çəkdi Qıratın tərkinə.

– Qızlar, biz getdik, – deyib, Çənlibelə yola düşdülər. Bu tərəfdən Nigar xanımın qaçırılmasını qızlar qaçıb xəbərini xudkara verdilər. Xudkar o dəyqə fərman verdi, qoşun atlandı, düşdülər Koroğlunun dalıycan. Koroğlu şəhərdən bir az aralanmışdı, gördü qoşun yetirhayetirdədi. Koroğlu atın başını çövürdü, qoşunan davıya başlasın, Nigar xanım dedi:

– Nə iş görürsən?

Koroğlu dedi:

– İstirəm dava eliyəm. Bir az atanın qoşunundan qıram, sonra gedək.

Nigar xanım dedi:

– Ay Koroğlu, gərək məni gətirmiyeydin, indi ki, gətirmisən, götür məni, get Çənlibelə. Sənin gücün mənim atamın qoşununa çatmaz. Sən bir nəfərsən, atamın saysız-hesabsız qoşunu var. Tutub səni həlak edərlər.

Koroğlu dedi:

– Nigar xanım, mən səni bu cür apara bilmərəm.

Nigar dedi:

– Niyə?

Koroğlu dedi:

– Mən səni belə aparsam, dəlilərim diyərlər, Koroğlu getdi, xudkarın qızını qaçırdı, gətdi. Mən gərək burda bir

yaxşı dava edəm, qoşundan qıram, qan tökəm, paşa öldürəm, sonra səni aparam. Mən belə sadəcə səni aparmacıyam.

Koroğlu bunu deyib, qılıncını çəkib, Nigar xanım da tərkində. Qoşuna bir vəlvələ düşdü ki, elə bil bir sürü çobansız qoyuna bir acgöz canavar girən kimi, Koroğlu sağdan vırıb, soldan çıxır, soldan vırıb, sağdan çıxmağda olsun, sizə xəbər verim Çənlibeldən. Dəlilər bu fikrə düşdülər ki Koroğlu Nigar xanımı gətirməyə tək getdi. Birdən tutular-elər, başsız qalarıx. Koroğlunun dalıycan getmək lazımdi. Dəlilərin bir neçəsi Çənlibeldə qaldı. Qalanı Koroğlunun dalıycan yola düşdülər. Dəlilər o zaman Koroğlunun yanına çatdılar ki, Koroğlu qoşunun içində sağa-sola qılınc vırmağdaydı. Ama qoşun Koroğlunu arıya alıb tuthatutdaydı. Bu zaman dəlilər nərə çəkir, özlərini qoşuna vırıllar. Qoşun dəliləri belə görəndə, Koroğlunun başından aralandılar. Bu zaman Koroğlu baxdı ki, dəlilər qoşuna qan uddurmaxdadı, ama Nigar xanım ürəyi dolub, ağlamağdadı. Burda Koroğlu Nigar xanıma nə deyir, tərəfindən diyək, siz də qulaq asın:

Ağlama, telli Nigarım,
Gəldi dəlilərim, gəldi.
Xudkar qızı, gözəl yarım,
Gəldi dəlilərim, gəldi.

Qurbanam mərdin adına,
Dostunu salar yadına.
Bu gün bir ər imdadına
Gəldi dəlilərim, gəldi.

İgidin gərək qovğası,
Həmişə olar davası.
Koroğlunun qoç arxası,
Gəldi dəlilərim, gəldi.

Bu sözlərdən sonra Koroğlu bir dəli nərə çəkib, dəlilər daha da gücə gəldilər. Koroğlu özü bir yandan, dəliləri də bir tərəfdən, xudkarın qoşununu yarıdan keçirdilər. Qoşunun öləni öldü, qalanı qaçıb, Koroğlunun əlindən canlarını qurtardılar. Koroğlunun tərkində Nigar xanım, dəlilər də ətrafında, başladılar Çənlibelə doğru gəlməyə. Çox dağlar-dərələr, düzlərdən keçib gəldilər, Çənlibelə çatdılar. Nigar xanım baxdı ki, bir güllü-çiçəkli bir ərazidə, bir əlçatmaz, ünyetməz bir dağın belində dayandılar. Nigar xanım dedi:

– Koroğlu, Çənlibel buradı?

Burda götürüb görək nə cavab verir:

Çiskinli dağların başı,
Nigar, Çənlibel budu, bu.
İgitlər açar savaşı,
Nigar, Çənlibel budu, bu.

Çəkib bazirgan soyduğum,
Qafilələri boş qoyduğum,
Paşalar gözü oyduğum,
Nigar, Çənlibel budu, bu.

Ohalardan oha dağı,
Hərgiz gələ bilməz yağı.
Koroğlunun tək oylağı,
Nigar, Çənlibel budu, bu.

# KOROĞLUNUN ƏRZURUM SƏFƏRİ

Günlərin bir günü Koroğlunun aşığı Cünün Ərzuruma gəlmişdi. Cəfər Paşanın məclisində oxuyurdu. Söhbət arasında Cəfər Paşa dedi:

– Ay aşıq, sən söylədin ki, Çənlibellisən. Yəqin ki, başında yeddi min yeddi yüz yetmiş yeddi dəlisi olan Koroğlunu görübsən, tanıyırsan. Bir ondan oxu, görək.

Aşıq Cünün Cəfər Paşanın cavabında sazı sinəsinə basıb, aldı görək nə dedi:

Qıratın üstündə, ərlər yanında
Dağları, daşları gəzir Koroğlu.
Hərdən acıqlanıb, nərə çəkəndə,
Yağılar bağrını əzir Koroğlu.

Meydana girəndə hənir eyləyər,
Leş qalar bir yanda, kəllə söyləyər.
Yüz sar gəlsə, bir tərlana neyləyər,
Laçıntək havada süzür Koroğlu.

Mərd meydandan qaçmayıbdı yaşında,
Dəlilərin cəm görmüşəm başında.
Düşməni sındırar tər savaşında,
Cünün deyər, şirə bənzir Koroğlu.

Aşıq Cününün qoç Koroğlu tərifləməsi, onun iyidligindən, mərdligindən oxuması Cəfər Paşaya xoş gəlmədi. Ancaq o, məclisdəki qonaqlardan keçib, Aşıq Cününa bir söz demədi. Aşıq Cünün Cəfər Paşanın məclisində oxumaqda olsun, sizə Telli xanımdan danışım. Cəfər Paşanın Telli xanım adlı gözəl bir qızı var idi. O, atasının məclisində aşıq oxuduğunu bilən kimi, Cəfər Paşanın yanına adam göndərib, Aşıq Cünü-

nün gəlib onun məclisində də oxumasına izin istədi. Cəfər Paşa izin verdi. Aşıq Cünün qalxıb Telli xanımın məclisinə gəldi. Telli xanımın yanında qırx incəbel qız əyləşmişdi. Telli xanım Aşıq Cününü görüb dedi:

– Ay aşıq, haralısan? Adın nədi?

Aşıq Cünün dedi:

– Ay xanım, Çənlibelliyəm. Adım Aşıq Cündündü.

Telli xanım Çənlibelin adını eşitmişdi. Koroğlunun, onun Qıratının tərifi qulağına çatmışdı. Ona görə də Cününa üz tutub:

– Ay Aşıq Cünün, Çənlibel nə cür yerdi ki, onun atı dəli, iyidi dəlidi! Aşığı da dəlidi?

Aşıq Cünün dedi:

– Ay xanım, elə mənim ata-anam qöydüğü ad Cündündü.

Telli xanım dedi:

– Çənlibeldə qoç Koroğlunu tanıyırsanmı?

Aşıq Cünün dedi:

– Çox yaxşı tanıyıram.

Telli xanım dedi:

– Elə isə Koroğludan bir az oxu, qulaq asaq.

Aşıq Cünün dedi:

– Ay Telli xanım, sinəmə üç xana söz gəlib, izin ver əzəl onu söyləyim, sonra da iyidlikdə mərd, dava günü cümrüd dəlilərin başı, qəhrəmanlar qardaşı Koroğludan oxuyum.

Telli xanım dedi:

– Aşıq, izindi, oxu.

Telli xanımın cavabında aldı Aşıq Cünün, görək nə dedi:

Bugünkü məclisdə bir gözəl gördüm,
Gözəllər səfində sana yaraşır.
Geyinib sallanan gözəllər çoxdu,
Tərlan kimi süzmək ona yaraşır.

Tutini bənd eylər şirin dilləri,
Şumşad barmaqları, nazik əlləri,
Guləbatın kimi qara telləri,
Töküləndə dal gərdənə yaraşır.

Qənim üstə nərə çəkib huvlamaq,
Ərəb at döşünə qatıb quvlamaq.
Sənin kimi bir ceyranı ovlamaq,
Cünün deyər, qoç oğlana yaraşır.

Telli xanım Aşıq Cününün "səni ovlamaq da bir qoç oğlana yaraşır" deməklə Koroğluya işarə etdigini bilib, dedi:

– Ay Aşıq Cünün, o oğlan kimdi ki, gəlib məni ovlasın?

Telli xanımın cavabında aldı Aşıq Cünün, görək nə dedi:

Əyləşibdi Çənlibelin elində,
Deyil işlərində naşı Koroğlu.
Misri qılınc həmayıldı belində,
Geyir hər vaxt al-qumaşı Koroğlu.

Bir hay desə, ağır tuplar basılar,
Qançırğadan qanlı başlar asılar,
Nər iyidə yetmiş quzu kəsilər,
Verər aşı, ağ lavaşı Koroğlu.

Bir cidası vardı, başı quşa pər,
Meydana girəndə ərə miş bir nər,
Paşalar titrəyər, şahlar tük tökər,
Yetmiş yeddi dəli başı Koroğlu.

Aşıq Cünün bu məclisdə qalmasa,
Şirin canın eşq oduna salmasa,
Telli Xanım kimi gözəl  almasa,

Çəkər, yıxar dağı-daşı Koroğlu.

Telli xanım Aşıq Cünündan Koroğlunun tərifini eşitdi, əzəl ona xələt verdi, sonra əlinə qələm alıb Koroğluya belə bir namə yazdı: "Koroğlu, sənin iyidlik tərifini eşitdim. Gəlib məni aparsan, bu hünər sənə halal olsun, apara bilməsən, kişiligi yerə qoy, başına yaylıq ört".

Aşıq Cünün naməni götürüb, Çənlibelə yol aldı. O zaman Çənlibelə çatdı ki, Koroğlu kef məclisi qurmuşdu. Aşıq Cünün Telli xanımın naməsini Koroğluya verdi. Əhvalatı dil-cavabı nağıl elədi. Dəlilərin hamısı kef məclisində, Koroğlunun yanında idilər. Koroğlu dəliləri başsız qoyub, Ərzuruma Telli xanımı gətirməyə gedə bilmədi. Keyf üstü idi. Bir badə şərab doldurub əlinə aldı. Üzünü dəlilərə tutub dedi:

– Kim Koroğlunun xatirini istəyir, alsın bu şərabı içsin, getsin Ərzurumdan Cəfər Paşanın qızı Telli xanımı gətirsin. Dəlilərdən səs çıxmadı. Koroğlu əlində şərab üçüncü dəfə təklif eləyəndə, Dəmirçioğlu irəli yeridi, Koroğlunun əlindən şərabı alıb içdi. Aldı Dəmirçioğlu:

Götürüb belimə qılınc bağlayıb,
İzn versən Ərzuruma gedərəm,
Yağı düşmən qəzəbindən qurxmaram,
İzn versən, Ərzuruma gedərəm.

Axtararam, düşmanları seçərəm,
Başlarını yarpız kimi biçərəm.
Mərd yolunda candan, başdan keçərəm,
İzn versən, Ərzuruma gedərəm.

Dəmirçioğlu, axıtsalar qanımı,
Qoç iyidə qurban dedim canımı.
Alıb gətirərəm Telli xanımı,
İzn versən, Ərzuruma gedərəm.

Dəmirçioğlu sözünü sazınan dedigi kimi, dilinən də dedi. Dəmirçioğlu nə qədər ki Koroğlunun yanında idi, hələ bir dəfə də olsun uzaq səfərə çıxmamışdı. Bərkə-boşa düşməmişdi. Dəlilər dedilər:

– Ay Koroğlu, Dəmirçioğlu dava görməyib, bərkə-boşa düşməyib, xamdı. Onu uzaq səfərə, Telli xanımı gətirməyə göndərirsən?

Koroğlu başındakı dəlilərə Dəmirçioğlunun hünərli, güclü bir iyid olduğunu bildirmək istədi. Koroğlu bir alma götürdü. Almanın üst tərəfinə bir üzük taxdı. Dəmirçioğlunun papağını götürdü, almanı onun başına qoydu. Almanı Dəmirçioğlunun başına elə qoymuşdu ki, orda üzüyün halqası görünürdü. Koroğlu Qıratı yəhərləyib mindi, əlinə yay-ox aldı. Qıratı qızılquş kimi cövlana gətirdi. Yay-oxu çilləyə mindirdi. Bir-birinin dalınca qırx ox atdı. Yaydan çıxan oxların hamısı üzüyün halqasından keçdi. Heç biri xata eləmədi, yayınmadı. Koroğlu oxları atanda Dəmirçioğlu nə yerindən qımıldandı, nə rəngi qaçdı, nə gözləri qırpındı. Canından qorxmayan qoç iyit kimi yerində mərdanə durdu. Bir yana tərpənmədi. Koroğlu bundan çox şad oldu. Könlü havalandı, ürəgi coşdu, aldı görək nə dedi:

Dəlilər içində bəlli iyidsən,
Gördüm sınayanda mərdanə səni.
Şəst ilə dayandın meydan içində,
Bənzətdim alıcı tərlana səni.

Çənlibel dedigin dağlar damanı,
Müxənnəslər gəlsə, çəkər amanı.
Başında nişanə aldım almanı,
Qorxutmadı hədəf, nişana səni.

Qırpınmadı gözün, qaçmadı rəngin,
Aləmə yayılar savaşın, cəngin,

Allam xəracını hindin, firəngin,
Göndərrəm İrana, Turana səni.

Çənlibel başında məclis qurulsun,
Xanların, bəylərin boynu vurulsun.
Gəl əyləş mey içək, keflər durulsun,
Koroğlu çağırır dövrana səni.

Koroğlu sözünü saznan dedigi kimi, dilnən də dedi:

– Məni istəyən Dəmirçioğluna xələt versin.

Dəlilər, xanımlar Dəmirçioğluna xələt verdilər. Dəmirçioğlu Koroğlunun sınağından yaxşı çıxdığından, dəlilər onun mərdliginə, iyidliginə heyran oldular.

Koroğlu dedi:

– Oğul, izindir, get yaraqlan.

Dəmirçioğlu yeddi qılınc, yeddi qalxan, yeddi cıda[1], yeddi gürz, yeddi tüppüz götürdü. Koroğlunun yanına qayıtdı. Koroğlu gördü Dəmirçioğlu o qədər yarağ götürübdü ki, altında tərpənə bilmir. Aldı görək nə dedi:

Dəmirçioğlu Ərzuruma varanda,
Ərzurum dedigin gölə nisbətdi.
Çox yaraq götürmək başa bəladı,
Qılınc həmayıldı, belə nisbətdi.

Söyləyim sözlərim, eylə diləzbər,
Şirin nəsihətim qıl sinədəftər.
İyidə lazımdı, gürz, qalxan, şeşpər,
Cıda bir boynuzlu kələ nisbətdi.

Koroğlutək düşmənləri səsləmək,
Hay deyəndə yağı üstə qəsd demək,

[1] Cida (d) – silah, mizraq

Arpa verib candan betər bəsləmək,
Ərəb at dedigin yelə nisbətdi.

Dəmirçioğlu elə bilirdi ki, iyidin yarağı nə qədər çox olsa, bir o qədər yaxşıdı. Koroğlunun bu sözündən sonra Dəmirçioğlu yaraqların hərəsindən birini götürdü. Koroğlu ona bu dəfə dedi:

– Oğlum, atların hansını minmək istəyirsən, get min.

Dəmirçioğlu getdi, tövlədən Ərəb atı çəkdi, yəhərlədi, mindi, Koroğlunun qabağına çıxanda Ərəb ata bir qamçı vurdu. Koroğlu Dəmirçioğlunun atı vurmağın görəndə, götürdü görək, nə dedi:

Səhərdən meydan başına
Ərəb at çarxaçı gərək.
Ərəbatın nədir suçu?
Bir iyid minici gərək.

İyidin iyid dəstinə,
Girəndə abdal pustuna,
Yoldaş yoldaşın üstünə
Dar gündə dönücü gərək.

Koroğluyam, sözüm oxdu,
Paşalardan qorxum yoxdu.
Bu dünyada iyid çoxdu,
İyiddə nər gücü gərək.

Dəmirçioğlu Koroğlu ilə, dəlilər ilə salamatlaşıb yola düşdü. Bir az getmişdi, birdən atının başını çəkdi, geri qayıtdı. Koroğlu gördü Dəmirçioğlu gəlir. O belə fikir elədi ki, Dəmirçioğlu qorxub qayıdıb. Dedi:

– Oğul, niyə qayıtdın?

Dəmirçioğlu dedi:

– Ərzurum böyük şəhrdi. Bəlkə getdim Telli xanımı tapa bilmədim, gücüm çatıb gətirə bilmədim, bu haqqda mənə tapşırığın nədi?

Dəmirçioğlunun cavabında aldı Koroğlu, görək nə dedi:

Ərzurumun bazarına varanda,
Məqamda düşməni atmağın gərək.
Gördün ki, mətləbin başa varmadı,
Ərəb at yalına yatmağın gərək.

İyid gərək meydan aça, düz dura,
Düşmən qabağında bığıni bura,
Ayaqların üzəngiyə bərk vura,
Şeşpəri-şeşpərə çatmağın gərək.

İyid olan neylər əllini, yüzü?
Namərdin davada dörd olar gözü.
Budu Koroğlunun, oğul, bir sözü,
O Telli xanımı tapmağın gərək.

Dəmirçioğlu Koroğludan ayrılıb, Ərəb atı sürüb, Ərzuruma tərəf yol başladı. Hər yerdən keçib gəldi, Ərzurumun dağlarına çatdı. Özü yorğun, atı da ac idi. Düşdü, atı ota buraxdı, özü də bir bulağın başında dirsəkləndi. Bu dirsəklənməkdə Dəmirçioğlunu yuxu apardı. Bir də qalxanda gördü ki, hər yanı duman bürüyüb, Ərəb atı da yoxdu. Götürdü görək, nə dedi:

Ərəb at getdi əlimnən,
Ərəb atı mən istərəm!
Ayrı düşmüşəm elimnən
Ərəb atı mən istərəm!

Bənnasız hörgü hörülməz,
Təbibsiz xəstə dirilməz,
Baxıram heç yan görünməz,
Ərəb atı mən istərəm!

Dəmirçioğlunun bu vaxtı,
İyidəm istərəm baxtı,
Ətrafımda düşmən çoxdu,
Ərəb atı mən istərəm!

Dəmirçioğlu gəzdi, Ərəb atı dumandan, çisgindən tapa bilmədi. Aldı yenə görək, nə dedi:

Dünyada heç iyid yoxsul olmasın,
Yoxsulluq iyidə yaman ad olu.
Hər kəsin ki, varı-dövləti olsa,
Ləzzət çəkir, dahanında dad olu.

Varlı, kasıb bu dünyadan keçərlər,
Yaxşını, yamanı arar, seçərlər,
Varın olsa, gəlib yeyib-içərlər,
Yoxsul olsan qohum, qardaş yad olu.

Dəmirçioğlu ha oxuyar arada,
Artdı dərdim, oldu həddən ziyada.
Yaxşı at minənlər qalsa piyada,
Daş düşür başına, ömrü bad olu.

Dəmirçioğlu Ərzurum dağlarında Ərəb atı axtaran zaman bir naxırçıya rast gəldi. Götürdü görək, naxırçıdan Ərəb atı necə xəbər aldı:

Başına döndüyüm, naxırçı qardaş,
Mənim Ərəb atım gördünmü ola?
Mərd iyidin atı candan əzizdi,
Mənim Ərəb atım gördünmü ola?

Naxırçı:

Başına döndüyüm mərd, iyid oğlan,
Sənin Ərəb atın mən dağda gördüm.
Qoç iyidlər qalmasınlar piyada,
Sənin Ərəb atın mən dağda gördüm.

Dəmirçioğlu:

Dumandı, çisgindi günün qarası,
Gözümə görünmür dağlar arası.
İyidin atıdı, ciyərparası,
Mənim Ərəb atım gördünmü ola?

Naxırçı:

Adın nədi sənin, hardan gəlirsən?
Cümrüdlərin könül pasın silirsən.
Gəzib Ərəb atı tapa bilirsən,
Sənin Ərəb atın mən dağda gördüm.

Dəmirçioğlu:

Dəmirçioğlu dolanıbdı elləri,
Məskən eləyibdi Çənlibelləri.
Arada işləyər düşmən elləri,
Mənim Ərəb atım gördünmü ola?

Naxırçı:

Mərd igid, könlünə gəlməsin güman,
Düşmənlər əlindən çəkərlər aman,
Ayazıyar ətraf, çəkilər duman,
Sənin Ərəb atın mən dağda gördüm.

Naxırçı Ərəb atı Dəmirçioğluna nişan verdi, getdi. Bir az keçdi, yel qalxdı, dağlar başından duman çəkildi. Ətraf ayazıdı, hər yan göründü. Dəmirçioğlu Ərəb atı tapıb mindi, az getdi, çox getdi, axşamçağı özünü Ərzuruma yetirdi, bir qoca qarıya rast oldu. Dedi:

– Ay qarı nənə, qəribəm, məni bir gecəligə qəbul elirsənmi?

Qarı dedi:

– Bizlər qonağı çox sevərik, niyə eləmirəm.

Dəmirçioğlu düşdü, atı töyləyə çəkdi. Özü də qarının evinə gəldi. Qarı nənə Dəmirçioğluna çörək gətirdi. Yeməkdən sonra qarı dedi:

– Oğul, buraya niyə gəlibsən?

Dəmirçioğlu dedi:

– Ay nənə, Cəfər Paşanın qızı Telli xanımı aparmağa gəlmişəm. Söylə, onu necə görə billəm?

Qarı dedi:

– Ay oğul, o qız çox aşıqpərəst qızdı. İmaratının qabağı da pəhlivan meydanıdı. Sabah bir saz götür, o meydana çıx, çal oxu, onda Telli xanım külafirənginə çıxar, görərsən.

Dəmirçioğlu gecə qarının evində yatdı. Sabah açıldı. Atını qarının töyləsində qoydu. Özü aşıq paltarı geydi, altından yaraq bağlayıb, çiyninə üstdən bir saz keçirib, özünü pəhlivan meydanına saldı. Pəhlivan meydanında Cəfər Paşa başının adamları ilə əyləşmişdi. Cəfər Paşanın bir qara pəhlivanı var idi. Paşanın yanında qalırdı. Güclü, heyührə bir pəhlivan idi. Qara pəhlivan Dəmirçioğlunu güləşən pəhlivan bildi. Elə

düşündü ki, başqa torpaqdan onunla güləşməyə gəlib. Ortaya çıxdı. Dəmirçioğlunu meydanına çağırdı. Dəmirçioğlu qara pəhlivanın meydanına girdi. Aldı görək, nə dedi:

Nərə çəkib mən meydana girəndə,
Varmı meydanıma gələ pəhlivan?
Tutub kəmərindən çalanda yerə,
Mənim zərbi dəstim bilə pəhlivan?

Mənim şiri-nərtək meydanda gəzən,
Xışm ilə düşmənin bağrını əzən,
Tülək tərlan kimi havada süzən,
Sonra yaxan keçər ələ, pəhlivan!

Dəmirçioğluyam, yarağa dolaram,
Ac qurd kimi düşmən üstə olaram,
Qılınc çəksəm, leş-leş üstə qalaram,
Döndərrəm al qanı selə, pəhlivan!

Qara pəhlivan Dəmirçioğlunun bu sözündən acıqlandı. Ona hücum elədi. Dəmirçioğlu qara pəhlivana aman vermədi. Götürüb yerə vurdu, basıb bir qolunu da qırdı, dedi:

– Səni öldürməyirəm, buraxıram get. Cəfər Paşaya söylə ki, pəhlivanını yıxdığım üçün mənə bir kisə qızıl göndərsin.

Qara pəhlivan yerindən qalxdı. Cəfər Paşanın yanına gəldi. Cəfər Paşa dedi:

– Qara pəhlivan, nə oldu? O sənə nə elədi ki, belə bikefsən?

Qara pəhlivan qırılmış qolunu Cəfər Paşaya göstərib dedi:

– Bax belə elədi, basıb qolumu qırdı. Hələ öldürürdü, əlindən birtəhər qurtardım. Məni yıxdığı üçün üstəlik bir kisə qızıl da istəyir.

O vaxtın adətinə görə, bir pəhlivan bir pəhlivanı yıxanda, oranın böyüyündən xərac alardı. Cəfər Paşa mətləbi anladı, başındakı adamların yanında biabır olmamaq üçün üzə vurmadı, dedi:

– Aparın, ona bir kisə qızıl verin, özünü də mənim yanıma gətirin.

Paşanın adamları apardılar, Dəmirçioğluna bir kisə qızıl verdilər. Dəmirçioğlu qızılı götürüb Cəfər Paşanın yanına gəldi. Cəfər Paşa onun çiynində olan sazı görüb dedi:

– Sənin aşıqlığın da varmış?! Gəl oxu, qulaq asaq. Kefimiz açılsın.

Aldı Dəmirçioğlu görək nə dedi:

Qalxıb Çənlibeldən düşmüşəm yola,
Ərzurumun bazarına gəlmişəm.
Əcəl köynəgini geyib əynimə,
Cəng-cidalın[1] güzarına gəlmişəm.

Əyləşmişdim orda, söhbəti keçdi,
Qalxdı könül quşu, dülü mey içdi,
Telli xanım, namən gəldi yetişdi,
Bir gözəlin ilqarına gəlmişəm.

Dəmirçioğlu, yalan gəlməz dilimə,
Müxənnət yapışar çətin əlimə,
Misri qılınc bağlamışam belimə,
Tərlanların tavarına gəlmişəm.

Dəmirçioğlunun səsinə Telli xanım küləfirənginə çıxdı. Gördü bir oğlan saz çalıb oxuyur. Telli xanım Koroğluya namə göndərmişdi. Fikirləşdi ki, yəqin naməm çatıb. Koroğlu

---

[1] Dava-dalaş

məni aparmağa gəlibdi. Telli xanım qarabaşlarından birini yanına çağırıb dedi:

– Ay qız, get o aşığa deyinən, sabah mən bağa gəzməyə çıxacağam, mənim gülşən bağıma gəlsin.

Telli Xanımın tapşırığını alan Dəmirçioğlu mətləbi anladı. Qayıdıb qarının evinə getdi. Elə ki, sabah açıldı Dəmirçioğlu qalxıb Ərəb atı mindi, birbaş Telli xanımın gülşən bağına sürdü. Baxdı ki, Telli xanım qarabaşları ilə gülşən bağındadı. Atı ona yaxınlaşdırdı, əlini atıb Telli xanımı Ərəb atın tərkinə çəkdi. Bayax ha, bağdan çıxdı. O tərəfdən qarabaşlar özlərini Cəfər Paşaya yetirdilər, dedilər, o dünənki pəhlivan aşıq qızın Telli xanımı qaçırtdı. Cəfər Paşa hökm elədi, qoşun atlanıb Dəmirçioğlunun dalından düşdü. O tərəfdən Dəmirçioğlu, Telli xanım da tərkində Ərəb atı sürüb, Ərzurum şəhrindən aralanmışdı. Baxdı gördü, dalınca qoşun gəlir, atın başını çəkdi, dayandı, başladı dincəlməyə. Telli xanım nə qədər yalvardı ki, bu yerdə əylənmə, sür atını gedək. İndi qoşun gəlib çatar, məni də, səni də öldürərlər. Gördü yox, Dəmirçioğlu getmək istəmir. Axırda götürdü görək, nə dedi:

Osmanlı qoşunu gəlir qurd kimi,
Var get, əcəm oğlu, qalma bu yerdə!
Başın gedər, gövdən qalar yurd kimi,
Var get, əcəm oğlu, qalma bu yerdə.

Dəmirçioğlu ona cavabında dedi:

Osmanlı qoşunu gəlsə qurd kimi,
Ölər əcəm oğlu, qaçmaz bu yerdən!
Başım getsə, gövdəm qalsa yurd kimi,
Ölər əcəm oğlu, getməz bu yerdən!

Telli xanım:

Qoşun gəlib, indi səni tutarlar,
Qollarını dal gərdəndə çatarlar.
Qul deyibən həbəşidə satarlar,
Qaç get, əcəm oğlu, qalma bu yerdə.

Dəmirçioğlu:

Qoşun da gəlibən məni tutsalar,
Qollarımı dal gərdəndə çatsalar,
Qul deyibən həbəşidə satsalar,
Ölər əcəm oğlu, qaçmaz bu yerdən.

Telli xanım:

Telli xanım ərzin sənə eyləsin,
Dili tutmur beş kəlməni söyləsin.
Bircə iyid min qoşuna neyləsin?
Qaç get, əcəm oğlu, qalma bu yerdə.

Dəmirçioğlu:

Dəmirçioğlu dərdin kimə söyləsin?
Şirin canın sənə qurban eyləsin.
Yüz min tülkü bir aslana neyləsin?
Ölər əcəm oğlu, qaçmaz bu yerdən.

Söz tamam oldu. Dəmirçioğlu sözünən dedigi kimi, dilinən də dedi:

– Telli xanım, mən səni belə dalaşsız, davasız Çənlibelə aparsam, Koroğlu deyəcək, oğurlayıb gətiribsən. Bu, iyidlikdən deyil, gərək qayıdam, qoşunla dava eləyəm, səni elə aparam.

Bu tərəfdən qoşun gəlib yetişdi. Dəmirçioğlu baxdı ki, yolun qırağında bir qalaça var. Telli xanımı gətirib haman qalaçada qoydu, qalaçanın ağzını da bir daş ilə möhkəmlədib özü

qılıncı çəkdi, qoşuna cumdu. Deyirlər ki, Dəmirçioğlu Cəfər Paşanın qoşunu ilə düz üç gün, üç gecə vuruşdu. Çox adam öldürdü. Qoşunu əldən-ayaqdan saldı. Cəfər Paşa özü də qoşunun içində idi. Gördü ki, bu yolla onu öldürə bilmiyəcəkdi. Əmr elədi, kəmənd atanlar gəldilər. Hər tərəfdən kəmənd atıb, axır ki, Dəmirçioğlunu tutdular. Telli xanımı da qalaçadan çıxardıb, şəhrə gətirdilər. Cəfər Paşa elə idi ki, acığından qudurmuş itə dönüb, zəncir gəmirirdi. Əmr eləyib, Dəmirçioğlunu pəhlivan meydanında zəncirlətmişdi. Gündə bir cəllad bıçağı enində ayaq tərəfindən soydürüb, yerinə saman təpdirirdi. Dəmirçioğlu burda qalsın, gəlin sizə Çənlibeldə Koroğludan xəbər verim. Koroğlu bir gecə yatmışdı, yuxusunda gördü ki, bir dişi laxlayıb, ağzı qan ilə doldu. Səksənib yuxudan ayıldı. Elə bir dəli nərə çəkdi ki, bütün dəlilər yuxudan qalxdılar. Koroğlu dəliləri yanına çağırdı, görək onlara nə dedi:

At belinə, dəlilərim,
Sizə qurban can, yerisin!
Tutulubdu Dəmirçioğlu,
İyid, pəhlivan yerisin!

Yağılar çəksin amanı,
Gözüm görməsin yamanı,
Leş-leşə verək düşmanı,
Axsın qızıl qan, yerisin!

Qoç Koroğlu gələr cuşa,
Polad qalxan tutar başa.
İyidlər dursun savaşa,
Qıraq sultan, xan, yerisin!

Dəlilər işi belə görəndə, yaraxlanıb atlandılar. Koroğlu özü də Misri qılıncını belinə bağladı, qalxan asdı, nizə götürdü, sıçrayıb tərlan quş kimi Qıratın belinə qondu. Çənlibeldən

ildırım kimi endilər. Üz tütüb Ərzurum səmtə getdilər. Dağları, daşları üz elədilər, dərələri, təpələri düz elədilər. Özlərini Ərzuruma yetirdilər. Koroğlu yenə də düşməni yoxlamaq üçün aşıq paltarını geyinib, dəliləri Ərzurumun dağlarında qoyub, özü tək şəhrə girdi. Gəzə-gəzə gəlib çıxdı meydana. Gördü Cəfər Paşa başının adamları ilə buradadı. Cəfər Paşa onu görcək yanına çağırtdırıb, dedi:

– Aşıq, Koroğlunun bir dəlisini tutdurub, dərisini soydururam. Deyirlər o dəli çox iyiddi, bir ondan oxu, qulaq asaq.

Koroğlu belə baxanda gördü ki, pəhlivan meydanının bir tərəfində Dəmirçioğlunu zəncirə bağlayıblar. Cəlladlar ayaq tərəfindən soyub, dərisinə saman təpirlər. Cəfər Paşa onun yanına gedib, soruşdu:

– Hə, dəli, necəsən, inciyirsən? Qorxursanmı?

Dəmirçioğlu paşanın cavabında dedi:

– Qoç Koroğlunun dəlisi heç qəm çəkib, qorxarmı?

Koroğlu Dəmirçioğlunun bu sözünü eşidib, aldı görək, nə dedi:

Dəmirçioğlu, dəlilərim
Qisasını alar indi.
Sultana, paşaya, xana
Misri qılınc çalar indi.

Olum mən sənin qurbanın,
Mərd iyidsən, qıydın canın,
Cümrüd[1] dəlilər düşmənin
Yanar oda qalar indi.

Olmaz yağılar felinə,
Gərək Koroğlu bilinə.
Qızıb Ərzurum elinə,
Bir vəlvələ salar indi.

---

[1] Cümrüd (d) – igid

Koroğlu gördü, Dəmirçioğlunun yarasından qan axır, taqətdən düşüb, məlül-məlül baxır, aldı əlüstü görək nə dedi:

Məlül-məlül nə baxırsan,
Dəmirçioğlu, Dəmirçioğlu?!
Canım odlara yaxırsan,
Dəmirçioğlu, Dəmirçioğlu!

Dost dostdan aralı gərək,
Quvğaya varalı gərək.
İyidlər yaralı gərək,
Dəmirçioğlu, Dəmirçioğlu!

Qoç Koroğlu eylər savaş,
Kəsər, tökər çox qanlı baş,
Telli xanım sənə peşkaş,
Dəmirçioğlu, Dəmirçioğlu!

Koroğlu üzünü Dəmirçioğluna tutub oxuyurdu. Cəfər Paşa dedi:

– Aşıq, onun indi boynunu vurduracağam, onda baxarsan, oxu. Deyirlər, Koroğlu nərə çəkəndə nərəsindən dağ-daş titrəyir. Koroğlu kimi nərə çəkə bilərsənmi?

Koroğlu dedi:

– Çox yaxşı nərə çəkə bilərəm.

Aldı görək nə dedi:

Qul deyərlər, qulun boynun burarlar,
Qullar qabağında gedən tirəm mən.
Hesablıya dağ da olsam, əyilləm,
Bədhesaba yaman kinli girəm mən.

Qırram qoşununu xakı-pay kimi,
Bir qılınc vuraram Əmray[1] kimi.
Mən coşmuşam buz-bulanıq çay kimi,
İnanma ki, neçə ilə sönəm mən.

Koroğlu da yatıb-yatıb oyanmış,
Misri qılınc qızıl qana boyanmış,
Mən poladam, dəmirçi də dayanmış,
Şüşəyəmmi, əl diyəndə sınam mən?

Koroğlunun nərəsinə dəlilər dağlardan tökülüb, hər yandan qoşunu qırmağa başladılar. Koroğlu Cəfər Paşanı yerə vurub sinəsinə çökdü. Misri qılıncı çəkib başını kəsmək istəyəndə, Telli xanım özünü atasının üstünə saldı. Başından yaylığını açıb, Koroğlu ayağının altına atıb, dedi:

– Koroğlu, iyid basdığın kəsməz. Bu dəfə atamı mənə bağışla.

Koroğlu Cəfər Paşanın sinəsinin üstündən qalxdı. Dedi:

– Get, səni Telli xanıma bağışladım. Ancaq bir də qabaqlaşsaq, əlimdən can qurtara bilmiyəcəksən.

Cəfər Paşanın qoşunu qırılan qırıldı, qırılmayanları qaçıb dağıldı. Koroğlu davadan əl çəkib, Telli xanımı, Dəmirçioğlunu götürüb, Çənlibelə yola düşdü. Koroğlu ilə Eyvaz dəlilərin qabağında gedirdi. Yolun çoxunu getmişdilər, azı qalmışdı. Çənlibelə yaxınlaşmışdılar. Bir də Koroğlu üzünü Eyvaza tutub dedi:

– Eyvaz, get gör Dəmirçioğlunun yarası necədi, sağalırmı?

Eyvaz Dəmirçioğlunun yanına gəldi. Gördü, yarasından qan o qədər axıb ki, rəngi ağappaq ağarıb, elə zəifləyib ki, dili

---

[1] Əmiray – qılınc çalmaqda məharəti olan şəxs

yoxdu danışa. Nəfəsi zorla gedib-gəlir. Koroğlunun yanına qayıdıb dedi:

– Dəmirçioğlunun yarası çoxdu, sağalası deyil, bunu bu halda Çənlibelə niyə aparırsan? Gəl buralarda bir yerdə qoyaq, rahat ölsün.

Eyvazın cavabında aldı Koroğlu, görək nə dedi:

Binadan gözəl olmayan
Telin qədrini nə bilər?
Göydə uçan boz sərçələr
Gülün qədrini nə bilər?

Kəl qoşub kotan əkməyən,
Nanın süfrəyə tökməyən,
Arının qəhrin çəkməyən,
Balın qədrini nə bilər?

Utan, Eyvaz xan, bir utan,
Dağların damanın tutan,
Namərdliklə başa çatan,
Elin qədrini nə bilər.

Koroğlu saz ilə dedigi kimi söz ilə də dedi:

– Eyvaz, mən dəlilərin hərəsini bir yerdə atıb getsəm, onda başımda adam qalmaz. Dəmirçioğlunu Çənlibelə aparacağam. Həkim tapacağam. Yarasına dərman qoyub bağlayacağam. Əgər sağalsa, bir yaxşı toy eyləyib, Telli xanımı ona verəcəgəm. Sağalmayıb ölsə, onda da Çənlibeldə basdıracağam.

Eyvaz səhvini başa düşüb dinmədi. Gəlib Çənlibelə çatdılar. Nigar xanım qabağa çıxdı. Dəmirçioğlunu yaralı, rən-gi qaçmış görəndə, özünü saxlaya bilməyib ağladı. Nigarı ağlar görən Koroğlu aldı görək, nə dedi:

Ağlama, alagöz Nigar!
Dəmirçioğlu sağalacaq.
Bağrıma basma köz, Nigar!
Dəmirçioğlu sağalacaq.

Çənlibeldi mənə pənah,
Köksün ötürüb çəkmə ah.
Tapdıracam həkim, cərrah,
Dəmirçioğlu sağalacaq.

Koroğlu heç əyməz boyun,
Tutacam Tellinin toyun.
Kəsəcəm tuncu, qoç, qoyun,
Dəmirçioğlu sağalacaq.

Koroğlu bir həkim tapdırıb gətirtdi. Dedi:

– Həkim, Dəmirçioğlunun yarasına yaxşı məlhəm eylə sağalsın. Sənə xələt verəcəgəm. Yaxşı baxmasan, Dəmirçioğlu sağalmasa, yəqin bil ki, səni onun yerinə öldürəcəgəm.

Həkim bilirdi ki, Koroğlunun sözü sözdür. Canı dilənən Dəmirçioğlunun yarasına əlindən gələn qədər yaxşı dava-dərman eləməyə başladı. Bir qədər keçdi, Dəmirçioğlu sappasağ olub ayağa qalxdı. Koroğlu həkimə xələt verib yola saldı. Koroğlu Çənlibeldə gözəl bir məclis düzəltdirib, bir yaxşı toy qurdurub, Telli xanımı Dəmirçioğluna verdi.

# ӘMRAH VӘ SӘLVİNAZ

Bəli, dusdar, salam ərz eliyirəm xidmətizə. Allah bilənizi həməşə şad və dilxoş eləsin. Hə, dusdar, bir qatar divan oxuyum xidmətizə. Bu divannan sonra gedax görax bərnamiyi "Əmrah və Səlvinaz" nə cür olacaq, xidmətizə diyəciyəm:

Əmr olundu ilahidən, işdədi ruhi qələm,
Qalu-bəla ilqar oldu, başdadı ruhi qələm.
Öz nurunnan xəlq eylədi, nəzər saldı cahana,
Ali-əbanı yazanda, beşdədi ruhi qələm.

Əvvəl Adəm ağladı, gördü oğul dağını,
Əmr olundu Cəbrayıla, gəzdi behişt bağını.
Səfirullah dərk eylədi, pənçtənin çırağını,
Buyurdu, o hansıdı, əlində vardı ələm.

Dusdar, sözə tozih verməsəm, eləsən ki, çayı qəndsiz içirsən. Amma durub kulli sözlərimizə tozih verəndə navarın bəxtin tuture. İstiyirem ki, bu bir kəlmiyə tozih verəm, ta bilax ki, ələm yani nəmənə. O zaman-zamandi Allah yerləri, göyləri xəlq eliyib. Adəm xəlq olundu. Adəm xəlq olunanda, Adəm dünyanı qəbul eləmədi. Qəbul eləmiyəndə, əmr olundu ilahidən, Cəbrayil, Adəmi götür behiştləri dolandır, ona deyinən ki, Allah bu əzəmətdə yerləri, behiştləri yaradıbdı. Sənnən, sənin nəslinnən ötrü. Cəbrayıl Adəmi götrüb dolandırdı, tamam behiştləri göstərib. Behiştin bir yerinnən keçəndə qapıdan belə vaxtı gördük behiştin kitabında yazılıb bir dənə nohə. Bu nohədə yazılıb Allah, Məhəmməd, Əli, Fatimə, Həsən və Hüseyn. Üz tutdu Cəbrayıla:

– Cəbrayıl.

Cəbrayıl dedi:

– Bəli.

Dedi:

– Cəbrayıl, o nohə nəmənədi, yazılıb ora?

Cəbrayıl dedi ki:

– O Pənç tən, Ali əbadı.

Dedi:

– Pənç tən Ali Əba kimdi?

Dedi:

– Olar bir şəxsiyyətlərdi, sənin nəslinnən gəlacaxlar dünyaya.

Dedi:

– Xob, olar bir şəxsiyyətlərdi mənim nəslimnən gəlacaxlar dünyaya ayə, oların ki yazılıb Allah, Məhəmməd, Əli, Fatimə, Həsən və Hüseyn. O Həsənnən Hüseynin adlarının altında birində qırmızı əlamət var, birində göy əlamət var. O əlamətlər nəmənədi?

Dedi:

– O İman Həsən ki, göy əlamət var, onu o dünyada zərhinən öldüracaxlar. Odur ki, onun adının altında göy əlamət var. O İmam Hüseyndi ki, qırmızı əlamət vardı o da odu ki, Kərbəla meydanında əhli-əyalı əsir olacaxdı. Odu ki, onun da adının altında qırmızı əlamət vurulubdi.

Dedi:

– Bax görüm, o Kərbala meydanı haradı?

Dedi:

– Baba, Kərbəla meydanı hələ gəlacahdədi, gəlacaxlar hələ.

Dedi:

– Ta o Kərbəla meydanın görməsəm, qəbul eləmərəm heş zadı.

Allahdan nida gəldi:

– Cəbrayıl, Kərbəla meydanını, Kərbəla bəsatın çək Adəmin gözü qabağına.

Odu ki, Cəbrayil Kərbəla bəsatın çəkdi Adəmin gözü qabağına.

Belə baxanda gördü bir cəngdi, bir davadı, bir qantöhmədi, pənah apara Allaha. Baxdı gördü bir dənə ələmdar, bir əlində ələm, bir əlində şəmşir, bir cəng eliyir, iftizah eliyir ki, demiyəsən. Dedi:

– Bax, görüm.

Dedi:

– Hə.

Dedi:

– O, İmam Hüseyndi, o, Əliəkbərdi, o, Qasımdı, o kimdi? Bəs o, Ələmdar kimdi? Bir əlində ələm, bir əlində şəmşir cəng eliyir?

Dedi:

– O da Həzrət Əbülfəzdi, Ələmdar Kərbəladı.

Hənuz o ələmi aşura günü İmam Hüseyn üz vurdu, nə qəddər hər kəsə göstərdi ki, bu ələmi götüsün, heş kəs qəbul eləmədi. Həzrət Əbəlfəz ikiəlli qucaxladı, qardaş, bu ələm mənimdi. Onu deyim, o hansıdı ki, əlində vardı ələm. Ələm doslar, Kərbəla ələmi, hənuz ələmidi. Bu işi tozih vermasax, sözdən baş qatammarıx.

Bar ilahi, məşhər günü özün yetiş imdada,
O gündə etibar yoxdu qohum-qardaş, övlada.
Ey əmir, çox qalıbdı yetişəsən ustada,
Yüz il söz yazasan, min il çalasan qələm.

Dosdar, indi divan başa çatdı. Sizə deyim, qədim tarix o zamannan dövran, dövranı Zinharxandı valıyi-Azərbaycandı. Amma Təbriz ətrafında necə ki, bilisiz hamız tanırsız Marağa şəhri. Şəhri Marağanın ətrafında bi dənə kənd vardı, adı o zaman Ərzədin idi. İndi Kürdədehdi. Dusdar, bu Kürdədeh hardadı? Bu ki, bizim Azərbaycan xəlqi hamısı tanıllar, bu yan-

dakılar bilillər. Bellə deməhdə yanı, bu uzax yerlərə getsin çatsın ki, odu ki, deyirəm ki, olarda bilələr haradı. Bax, bizim bi dənə Müldü çayımız var. Onun əvvəli Səhənddən gəlir. Müldü çayının axır kəndi həmin Kürdədehdi, o zaman Ərzədin idi. Səhəndin aşağısında əvvəlin kəntdi. Bax, o daıstanın yeridi, bildıx. İndi bi yol orda iki dana qardaş yaşıyır. Buların birinin adı Məhəmməd xan Tühmardı, birinin adı Əhməd Lələdi. Məhəmməd Xan Tühmarınan Əhməd Lələ, iki qardaş bahəmdilər. O günü dədədən ayrılıblar. Ayrılannan bu yana buların heş birinin övladı yox idi. Çox razı-niyazdan sora Allah buların hərəsinə bi övlat veribdi. Buların Əhməd Ləliyə bir oğlan verdi, Məhəmməd Xan Tühmara bi dənə qız. Qədimnən böyüh kişilərin rəsmi budu. Uşaxlarına ad qoyanda böyüh bir qonaxlıx elərlər. El arasında adı xitap eliyib, ad qoyallar, ya Qurannan istixazə eləllər. Ad nəmənə çıxsa o adı qoyallar. Adqoyma gecəsində oğlanın adın qoydular Əmrah, qızın adın qoyublar Sərvinaz. İndi buları Ləliyə, Lələdən tayiyə, tayədən məktəb, mədrəsiyə, o günü Məhəmməd xan Tühmar öz boccasınnan o kəntdə mədrəsə qoydu və şəhərdən ora məllim gətdi. O zaman da məllimlər malli idi. Hüququn özü verib, o kəndin uşaxları da oların uşaxlarının sayəsində dərs oxurdu. İndi bılar məşğuldular dərsə. Əmrahınan Sərvinazın on üş, on dört bu mizan sintdəri vardı. Əmrah günnərdə bir gün əmiqızıynan gündə bahəm gedirdilər mədrəsiyə, bahəm gəlirdilər. Bir dəyqə bir-birlərinən aralaşmazdılar. Amma belə diqqətdi bir müşdəri gözüynən əmiqızının üzünə baxdı. Gördü, bura bax pərvərdiqar, öz göylü xoş olanda xəlq eliyipdi, baxginən Əhməd İbrahimin sözündə var.

Hər gözələ deyir, gözəl deməərəm,
Gözəlin başında əlamət oli.
Zilflərin bir yana, gərdən bir yana,
Açılsa başında, qiyamət oli.

Əmiqızında bu gözəllik var. Sən allah, bax gör bu kəndin işi, minnən birində belə gözəl tapılar. Əmrah bi dayqada əmiqızıya yavaş-yavaş məhəbbət yetirdi. Dosdar, mədrəsiyə ki gediblər, klasda oturublar, çıxanda eşiyə, qapıdan rədd olanda əyyamı-cavannıxdı da, çox məzə istiyirəm dusdardan. Belə Sərvinazın böyrünnən keçəndə bir çimdih vurdu. Sərvinaz gördi, ayə, buyünə kimi bu on üç, on dört ildə əmioğlu heş mənə bu nəzər eləmiyip. Əmioğlu mənə belə bir şuxluxlar eləmiyip. Dimmədi, rədd oldu getdi. Sabaxsı gəldilər. Sabaxsı gəldi, qapıdan belə geçəndə, Əmrah bi ton verdi, dolaşığınız yerdə əminizin məkanına bi söz deyək, işin başı açıla. Bir ton verəndə Sərvinaz belə çöndü, dedi:

– Əmoğlu, bə niyə elə eliyirsən? Olmıya sənin fikrin ayrıdı.

Dedi:

– Axı, öyün yıxılmasın, bala sənin, mən nə qədəh sənə söz andırım. Axı, halı olmursan, mənim bağrım çatdıyır.

– Necə, əmioğlu?

Dedi:

– Belə mən sənə məhəbbət yetirmişəm, vəxdidi, toyumuzu eliyax da.

Dedi:

– Əmioğlu, and olsun o yaradan Allaha, indi sənin yadıva düşür, mən elə bir ildi o fikrdəyəm. Sən heş ayılmırdın, elə o fikirrər mənim qəlbimdə dolanırdı.

Deyir, bəs neynəmalıyıx?

Dedi:

– İndi hələ dərsimiz az-maz qalır, qutarax, bir-iki ili qalır, qutarax. İndi bərnamə bunu qoyacıyıx arıya, gündə yarım saat uşaxlardan qabax gələciyix mədrəsiyə, yarım saat uşaxlardan bivaxd gedəcəyix. Heş yerdə girəvə tapammarıx, amma burda bi danışax əmioğlu-əmiqızı, bi xəlvət eliyax söhbət eliyax.

Ama bu dəyqədən buların bərnamələri bu oldu. Gündə yarım saat tez gələrdilər, yarım saat uşaxlardan bivaxd gedərdilər. Günnərdə bir gün, o Mirzə buların məşklərinə baxırdı. Belə üsdən baxa-baxa klasda gəlirdi Əmrahınan Sərvinaz. Əmrah burda oturup, Sərvinaz bu üzdə burda oturupdi. Əlində Sərvinaz xurma yeyirdi. Başı bənd idi qızlarınan danışırdı. Bu üz qızlar əyləşibdilər, bu üz oğlannardı vəsətdən. Qızlarınan danışırdı, o xurmanın çəyirdəyini əlində belə oynadırdı. Nəvaka malla yetişip Əmrahın məşqinə baxır. Elə üzü o yana belə əlin tutub, xurmanın dənəsiynən əmioğlusuna şuxlux eliyirdi. Dənəni belə atırdı əmioğluya. Elə necə əmioğluya atanda, getdi düz yapışdı mallanın burnunun ucunan. Malla belə baxanda gördü kimdi bu?

– Ay bala, kimdi bu xurma dənəsin atdı?

Heş kəs boyun almadı. Boyun almiyanda, yığdı bu uşaxlardan iki şuluxu, şulux uşaxdılar, buları yığdı təxdə siyahın qabağına. Dedi, indi bidənəsin tənbeh eliyəcəyəm, düzün deyin görüm xurma çəyirdəyin atan kim idi? Buların içində bir keçəl var idi, yaman bilikli idi. Durdu ayağa, dedi:

– Ağa.

Dedi:

– Hə.

Dedi:

– Rəhməddiyin balası, indi bu kətdə kimdə xurma tapılar? Bu, elə olsa Məhəmməd Xan Tühmarın qızında olar. Onnan sora kimdə o zamanda xurma hardaydı. İndi kimdə xurma tapılar?

Ağa, məllim baxanda bunun kiftinə baxanda baxdı gördi, bəli, xurma bundadı. Burdan hessap gəldi məllimin əlinə. Bılar buyün mədrəsədən çıxıllar, indi çıxdılar gedə-gedə, bir az-maz yeridilər qabağa. Əmrahınan buların qapıları belə yanaşıydılar, aralarında bi dənə duvar var idi. Ordan ki xudafisdəşirdilər, Əmrah gedə öz öylərinə, bı gələ öz öylərinə. Əmrah bir əlin atdı

belə əmiqızının yaxasına zada, elə ki yaxasına əlin atanda, boynunda mirvari gərdənbənd vardı. Əli ilişdi belə o gərdənbəndə, gərdənbənd qırıldı töküldü yerə. Qırılıb töküləndə yerə, dedi, vay, Əmrah, dədənin öyü yıxılsın, öyümü yıxdın. İndi bu gərdənbənd mirvarilərdən bi dənə tapmax olmaz burda. Yığdılar Əmrah araları girəvələdi, şuxlux üçün bir yetdi dənəsin yavaşca saldı cibinə. Dedi, qoy görüm hələ əmiqızım neyniyacax. Yığdılar başda saydılar, gördülər yetdisi əksikdi. Qız hay-hayınan başdadı ağlamağa. Əmrah dedi:

– Əmiqızı, bə niyə ağlıyırsan?

– Əmioğlu, ağlamıyım?

Dedi:

– Bə necə?

Dedi:

– Bıların yetdisi əskikdi.

Dedi:

– Əmiqızı, yetdisi əskikdi, bazarda məgər satmıllar? Mən gedərəm, allam da.

– Sən alarsan?

Dedi:

– Hə.

– Rəhməddiyin balası, varızdı yetdi keçi, iki qoyun? Buların da dənəsi yüz tüməndi. Yetdi keçi, iki qoyunuzu satasan, buların bi dənəsin eləməz. Sən bunun altısın hardan alassan?

Dosdar, burda Əmrah ayıldı. Ay dadi-bidad, düz deyir əmiqızım. Hələ mən bunnan qız da istiyirəm. Onnan da sora əmiqızım niyə gərəh varın mənim başıma çaleydi? Elə kələfçənin başın itirdi, o yetdi mıncığı deyəmmədi, baba, mən götümüşəm cibimdədi. Aralaşdılar elə fikir-xiyallı. Əmrahın qəlbində işdir, getdi içəri. Bu yannan da, ağa, malla yetirdi o zaman çüm qaladı Məhəmməd Xan Tühmargilin evində. Hüququ Məhəmməd Xan Tühmar verərdi buna. Gəldi Məhəmməd xan Tühmara dedi:

– Qurban, büyünnən Sərvinazı qoymuyassan gələ mədrəsiyə. Mə imtahannardı, vəxdarı az qalır, dərsdəri az qalır. Mən özüm gündə elə nahardan-nahara gələndə onun xüsusi bırda dərsin diyərəm, daha qoyma gələ, Əmrahınan şuxluğ eliyirlər.

Ağa, bu dəyqədən Məhəmməd Xan Tühmar dedi, hətda bı qızın qapıdan eşiyə çıxmağa da həddi yoxdu. Ağa, qız burdan qadağan oldu. İndi Əmrah da fikir xiyalınan getdi, gecəni yatdı, səhər durdu. Tez yarım saat-bi saat da qabaxdan gəlir ki, əmiqızı gəlacax, ha güddü, əmiqızı gəlmədi. O gün getdi gördü əmiqızı gəlmədi. İkinci gün gəldi, əmiqızı gəlmədi, üçümüncü gün gəlirdi, gördü genə əmiqızı gəlmədi. Ala dördümüncü günü da bu, yuxudan durmadı. Yuxudan durmuyar, nənəsi gəldi, ay bala, Əmrah buyün qalıb bivaxda. Gəldi Əmrahı yuxudan ayılda.

– Əmrah, Əmrah.

Əmrah durdu:

– Bəli.

– Əmrah oğul, qalmısan bivaxda.

Əmrah dedi:

– Ay ana, mən mədrəsiyə getmiyəciyəm.

– Ay bala, niyə getmiyəsən mədrəsiyə?

– Getmiyəcəyəm, ana.

– Axı, bə bala, qurban olum, niyə getmirsən?

Əmrah başdadı hoy-hoy ağlamağa.

– Oğul, bə niyə ağlırsan?

Dedi:

– Ay ana, ürəyim deşildi.

– Axı ürəyivin nəyi deşildi bə, bala.

Dedi:

– Qulax as, qoy deyim ürəyimin nəyi deşildi?

Amma, götürüb dusdar, “Duraxanı” havasıynan nə diyacax. Mən deyim genə nə qədəri istirio Nazimidən navar alıb, istifadə elənnər, onnarın hamısının sağlığına:

Başıya dolannam, gül üzlü ana,
Ana, nazlı yar yadıma düşüb, ağlaram.
Yanıram atəşdə misli pərvana,
Ana, nazlı yar yadıma düşüb, ağlaram.

– Oğul, Əmrah, bu sözdər yandıdı məni. Sən buyünəcən bu sözdərdən bir kəlmə söz danışmazdın. Oğul, nolub, nə yarı?

– Ay ana, qulax as, dübarəsin deyirəm.

Anacan, otağına siyahılar düzüldü,
Yuxu gəldi, xumar gözlər süzüldü.
Əlimi atdım belə, mirvariddər üzüldü,
Nazlı yar yadıma düşüb, ağlaram.

Xanım xəbər saldı, gördü mirvari kimdə var bu kətdə, heş kəsdə. Bə neynəsin, olmaya Sərvinazda mirvarilər var. Hətmən Sərvinazın mirvarisin deyir, elə bunun dərdi də Sərvinaz dərdidi.

– Oğul, dahi.

– Anacan, qulax as, qoy dübarəsin deyim:

Əmrah bülbül olub uçar gülünən,
Başım çıxmır, ana, yarın fitnə-felinnən.
Anacan, buyün incimişəm dilinnən,
Amma, nazlı yar yadıma düşüb, ağlaram.

Dedi:

– Oğul, indi getmirsən mədrəsəyə?

Deyir:

– Xeyr, ana getmirəm.

Dedi:

– Bəs getməsən? Mənim də sənin heş bu fitnə-felinnən başım çıxmır, bala. Qoy gedim Əhməd Ləlëni də, dədəni yolluyum, o bilər, sən bilərsən.

Xanım dəf oldu, getdi. Elə ki, qəyitdi, gəldi Əhməd Lələnin yanına. Lələ, dedi:

– Hə.

Dedi:

– Belə Əmrah buyün qalıp bivaxta. Gedip ayıltmışam əvəzinki mədrəsəyə gedə, durub mənə başdıyıp şeir deyir. Nazlı yar yadıma düşüp, ağlaram, nə bilim, nə cür, nə təhərnə.

Əhməd Lələ dedi:

– Arvat, qoy mən özüm gedim görüm.

Yavaşcanama durdu, keşdi gəldi Əmrahın otağına. Gördü Əmrah bəli, durup oturup yerində.

– Oğul, Əmrah!

– Salam, Lələ.

– Əleykimə salam, bala. Oğul, bə bax görüm mədrəsiyə niyə getmirsən?

Dedi:

– Lələ, mədrəsiyə getmiyəciyəm.

Dedi:

– Oğul, axı niyə getmiyəcksən, illəti.

Dedi:

– İlləti buduku, əmiqızım Sərvinaz mədrəsiyə getmir. Mən də oduku getmiyəciyəm. Oğul, sənin bağrın əmiqızının bağrına daşdı bala, o qız xaylağıdı getmir, getmir. Ama bəs niyə getmirsən?

Dedi:

– Lələ, belədə yaxçı halı olmursan, o cür də qoy sazı sözünnən deyim, bəlkə halı olasan ki, niyə getmirəm, niyə Sərvinaz getmir, mən də getmirəm.

– Oğul, de görax nə cür diyassan, bala, ağrın alım.

Ama götürüb, dusdar, elə "Ovçu gəraylısı"ynan necə biz diyax, genə bu navarımıza qulax asannar, eşidənnər sağlığına:

Babacan, mail olmuşam,
Bir qəddi dalə Səlvinin.
Özü bir gül, saçı sünbül,
Ama rəngi dilalə Səlvinin.

Əhəəəə, Lələ gördü, ay baba, bunun fikri ayrıdı.

– Oğul, dahi.

– Qulax as, Lələ.

Lələ, hökmü var xannar xanıycan,
Qul qələbaş var yanıycan.
Çəkəciyəm o zilfinin sayıcan,
Boyunnan bəla Səlvinin.

– Oğul, mən halı oldum. Oğul, bəla da çəhməsən də. Əmioğlu-əmiqızının kəbini ərşidə kəsilibdi, bala. Da buna söz yoxdu. Özün də sənnən Sərvi elə nənədən olannan, bala, beşiyi kəsməsiz. Bir-birizinsiz, sən heş nigaran qalma. Qutar sözü, gedim əlan əminnən xastiqarlıx eliyim.

Ama götürüp görax Əmrah dübarəsin nə dedi:

Ana, çox çəhmişəm cəfasını,
Sürməmişəm səfasını.
Ama Lələ, verməm bir cüt busasını,
Min tümən pula (o zamanın pulu) Səlvinin.

– Əmrah, bəsdi daha, qoy gedim.
– Ləlcan, qulax as, qoy dübarəsin də deyim.

Qızılgülü dərəm dəstə,
Ərmağan göndərəm dosta.
Əmrah deyər, olam xəsdə,
Lələ, qalam qoynunda Səlvinin.

Dedi:

– Oğlum Əmrah, bala, qurban olaydım. Sən elə otu orda, heş da buyün mədrəsiyə də getmə. Vəx keçip, mən özüm ǝlan bu eyni özümü yetirəm əmingilə,bala, əminən “hə” də cavabın alım, gəlləm.

O zaman Lələ gəldi, arvadın da götdü, xanımıynan bahəm indi getdilər Məhəmməd xan Tühmargilə. Dusdar, sizə deyim Məhəmməd Xan Tühmar nə cür bir adamdı. Bax bılar düzdü, bir dədənin oğludular, bir nənənin qarnınnan çıxıplar. Amma Məhəmməd Xan Tühmarın var altı min davarı, Səhəndəva yaylağında tamam yaylağ Məhəmməd Xan Tühmarındı. Ama Lələnin var, yetdi keçi, iki qoyunu. Bə niyə belədi? Dusdar, buna görə ki, əvvəla Əhməd Lələ bir az xəşdiyən adam idi. Onnan sora Əmrahı ki Allah verdi biləsinə, bax, dusdar, bir gəlinin qədəminin düşər-düşməzi olar övə gələndə, bir əyal anadan olanda, bir qədəminin düşər-düşməzi olar. Elə Əmrahın qədəmi bir az bəduğur oldu. Bi də Əmrahın yolunda o qədəh pul xəşdədi, yoxsa iki qardaş malı bir bölmüşdülər Məhəmməd Xan Tühmarınan. O qədəh Allah dərgahına pul xəşdədi, Əhməd Lələnin heş zadı qalmamışdı. Elə altı keçi, yeddi keçi, iki qoyunu qalmışdı. Odu ki, Lələ kasıb idi, Məhəmməd Xan Tühmar altı min qoyunun sahibi idi ki, Səhəndəva yaylağının bütün böyügü idi, elbəyi idi. Məhəmməd Xan Tühmar oturmuşdu. Lələynən xanım belə qapıdan varid oldular.

– Salam.

– Əleykimə salam.

Bir neçə dəyqə belə müntəzir[1] durdular duvarın dibində, qapının bədəlində ki, Məhəmməd Xan Tühmar bulara desin, nəyə gəlmisiz? Gəlin oturun. Gördü heç əhəmiyyət vermir. Lələ səsdəndi:

– Dadaş.

Dedi:

– Bəli.

Dedi:

– Axı, heş bizə demirsən, nəyə gəlmisən? Geçin oturun, ya otumuyun, ya gedin.

Dedi:

– Ay Lələ, day nəyə diyəciyəm gəl otu. Gündə, kişi, gəldiyin öydü də. Keş bir tərəfdə otu da.

Dedi:

– Axı, bu gəlməhlərim o gəlməhlərinən fərq edər.

Dedi:

– Hə.

Dedi:

– Buyün gəlmişəm əgər icazə versən, Sərvinazınan Əmrahın toyun başlıyax. Dedi:

– Necə?

Dedi:

– Belə dedim də. Əmrahınan Sərvinazın toyun buyünnən, bir-birə məhəbbət yetiriplər, toyların başdıyax.

Dedi:

– Heş bilirsən nə danışırsan?

Dedi:

– Necə?

Dedi:

---

[1] Gözləyirdi

– Bilisən ki, indi diyax. Təbrizinnən Urmiya arası, bu yannan da Həşdərbuddan belə, tamam bu mahallar məni tanıllar. Səhər eşitdilər mənim qızımın toyudu, tökülüb gəlacaxlar. Bax görüm nəynən cavab veressən? Altı dənə keçiynən?

Dedi:

– Dadaş.

– Bəli.

– Sən nəmənəsən, sənin varındı. Qardaşıx, fərqimiz yoxdu ki, sənin vardı, eləsən mənimdi da, sən xəşdərsən.

– Danışma bir də o sözdərdən. Bir də o sözün dalın gətisən, sən öləsən, verərəm, boğazuya qurğuşun tökərrər. Yox, demirsən, get sən kimin qızın alısan al, mən haranın səfehiyəm. Həmi qız verər, həm də bi də ona toy tutar. Sən get, kimin qızın alısan al, xərci mənim öhdəmə.

Lələnin eləsən ruziqar gözündə tiri-tar oldu. Onda şair deyir:

Əlindəki malın qədrin bil, baba,
İnsannarnan quş-qanadnan uçar, ha.
Varın olsa, hammı sənə qardaşdı,
Yoxsul olsan, yaxçı qardaş qaçar, ha.

Lələnin gözündə dünya tiri-tar oldu. Bir qazan suyu başdan töhdüm, dırnağınacan isdandı elesə.

– Bəs, qardaş, bellə oldı? İndi elədə, qadam dəysin sənin malua da, pulua da, qızuya da. Getdim, çəpərin birisin malı mənim başıma çalısan?

Qəyitdi xanımının yapışdı əlinnən o zaman, gəldi evinə. Əmrah çıxdı qabağına.

– Lələcan, nə cür oldı?

Dedi:

– Oğul, nə cür olacax? Ya mənim dədə balalığımı təhvil alassan, biləçsən, ya o qızı istəmiyəssən. İkisinnən biridi. Ya

məni istəmiyəssən, ya Sərvinazı istəmiyəssən. Mən də Məhəmməd Xan Tühmarnınan daha burda qardaşdığı qırdığ. Daha burda qardaşdığı qırdığ, da o adda mənim qardaşım yoxdu.

– Necə oldu? Necə, Lələ?

Dedi:

– Buna görə ki, sərvətin, malın çaldı bizim başımıza.

Dedi:

– Dünya mənim qonağım tökülüp gələcağ, yetdi keçiynən nə cavap vereçsən sən ona? Oğul, qeyrətin olsa da, onun qızın istəmiyəsən.

Əmrahın ürəhi doldu. Gördi düzdi dədəmi qeytəriplar, da mən onu istəməm. İstəmirəm, ama bu yannan əmiqızımın günahı nədi? Əmiqızının təxsiri nəmənədi? Narahat o eynidə gəlib otumuşdi, damlarının belə pilləsinin axır pillədəki dama girən yerdə. Pillədə otumişdi, belə əlin qoymışdı qoltuğuna, fikir eliyirdi. Allah, neynəməliyəm, nə cür eləyim? Əmim niyə belə elədi? Amma bu yannan xəbər verim sizə Sərvinazdan. Sərvinaz eşitdi ki, buyünnərim üş gündü mən mədrəsiyə getmirəm, görəsən əmioğlum da gedir, ya getmir. Amma buyünnərim də dədəsi bura elçi gəlipdi, Əhməd Lələ. Lələni də dədəm boş qəytəribdi.

Dedi:

– Dayə.

Dedi:

– Hə.

Dedi:

– Dayə, gör qap-bacada heş kəs yoxdu.

Dayə baxdı. Dedi:

– Yox. Heş kəs yoxdu.

Dedi:

– İndi ki, dayə, nərdivanı gəti, burdan qoyax duvara, baxım görüm, dayə, əmioğlu nə iş görür. Onun vəziyyəti nə cürdü?

Ağa, dayə gətti nərdivanı, gətdi dayadı belə duvara. Sərvinaz çıxdı, duvardan belə boylananda, baxdı gördi həyət xəlvətdi, heş kəs yoxdı. Amma, əmioğlum belə əli qoltuxda oturup pillədə. O da dırmaşdı dama. Damın o Sərvinin dalısıycan belə getdi, Əmrah kı o yerdə oturupdı. Damın qabağında düz Əmrahın başının üstündə. Ordan sallanır ki, burdan ki səssiz diyə:

– Əmioğlu, bə niyə narahatsan? Narahat olma, pullar kərimdi. Bə niyə mədrəsiyə getmirsən?

Burdan səssiz diyə, qəyidə ki, ta mını nigahbanlar-zad görmüyələr. Belə ki başın uzadırdı ki, deyə hənüz mirvari ki, gərdənbənd ki bunun boynunda idi. Arabir də pulu var idi. Belə boynun uzadanda, gərdənbənd bu yannan surişdi gəldi, düşdü qabağa. Qabağa düşəndə, dəydi damın o daşlarına. Daşlara dəyəndə, bi cingildədi. Əmrah belə başın bozadı gördü ki, səsi. Belə başın bozadı, gördü, Allah, Allah. Allah, sənin izzəti cəlalıva çox şükür. Mən ki sənnən onu istirəm. Mən ki onnan ötrü ölürəm. O da durup gözüm gözünə baxıri. Burdan səsdəndi:

– Əmioğlu.

Dedi:

– Bəli.

Dedi:

– Əmioğlu, bə niyə getmirsən mədrəsiyə? Bə niyə narahatsan, qorxma!

Onda idi Əmrah hay-hayınan ağladı. Əmiqızı dedi:

– Hə.

Dedi:

– Əmiqızı, evin yıxılsın, qulax as. Qoy bi yola bir qatar oxuyum. Bə belə gələllər, belə mülaqat[1] eləllər.

---

[1] Əlaqə saxlamaq

Amma götürüp burda, dusdar, “Gözəlləmə” havasıynan nə cür deyir. Biz diyax gənə istirio Nazimidən navar alıp, istifadə eliyənnər sağlığına:

Ey ağalar, üzü dönmüş yarə bax,
Hərdən aşiqini bir damağ eylər.
Hicran atəşi, əmiqızı, oldu bizə yadiqar,
Yandırıb belə bağrımı lalə qan eylər.

– Əmioğlu, qurban kəsəydim, qorxma. Əmioğlu, elə mən səninəm, sən mənim. Qorxma, biləyənə də hərdənbir bi baş çəkərəm. Qoymam belə qalasan.

Amma, dübarə Əmrah götürüp: “Axı neylərəm elə baş çəhməyi?”

Əmiqızı, mən neynirəm daldalardan baxanı,
Dal gərdəna qızıl heykəl taxanı.
Oğrun-oğrun baxıp, evlər yıxanı,
Ya xəsdə, ya nəsəx, ya bimar eylər.

– Əmiqızı, əmim səni mənə vermir, səni mən zorunnan alammam ki, bir belə gözümə görsənərsən. Xəsdə ollam, düşərəm yorğan-döşəyə, dədəmin evi yıxılar ta. Bellə səni görməyu neynirəm.

Dusdar, salam ərz eliyirəm xidmətizə. Bəndə Aşıq Bahar Binablı.

Söhbət o yerdə qalıpdı ki, Zinharxan gəlipdi saat yalovundadır, Məhəmməd xan Tühmardan oxuyan istiyibdir. O, Əhməd Ləlini indi kətdən gətirpdi. Əhməd Lələ varid olupdu. Əvvəlində oxuyupdu Zinharxana. “Cəmşidi” havasıynan oxumuşam əvvəlki navarda. Deyir:

Badi-səba[1], peyman[2] apar o yarə,
Deynən yara, o da məni bir ansın.
Cadu-qəmzələri dəlir bağrımın başın,
Nəyə deyir, bir and içim, inansın.

Zinharxan dedi:

– Sağ ol, Lələ. Bə sən deyirdin oxuyanda qəşəng oxuyursan. Amma bir az şux oxu, Lələcan. Bəlkə mənim də bir az göylüm açıla.

Lələ götürüp dübarəsin necə deyir, mən ərz eliyim.

Cadu-qəmzələri olub xas mənə,
Yarın ayrılığı oldu yas mənə.
Bir ah çəkim, ahım getsin asimana,
Tufan olsun, qoy dəryalar bulansın.

Zinharxan dedi:

– Bəh-bəh. Lələ, qəşəng deyirsən. Amma Lələ, vallah, bir nəzərən elə qəmgin gəlir sözdərin. Bir az şatın deginən, qoy, eynim açılsın.

Axı Lələnin dərdi vardı. Dusdar, Lələ götürüb o birsin belə deyir:

Ayrılmışam, munisimdən[3], elimdən,
Canım oynur, isti çıxsın bədənnən.
Ay lalə, belə ayrılıxdan, belə sitəmdən,
Dövran dönsün, çərx təzədən dolansın.

Axı dusdar, Əhməd Lələnin nəzərindın nələr geçir. Zinharxan bilmir ki, bunun dərdi nəmənədi. Nəzərindən bular

---

[1] Səhər mehi
[2] Əhd
[3] Həmdəm mənasında

geçir ki, ay dadı-bidad, necə olar ki, Məhəmməd xan Tühmar-nan biz ikimiz bir dədənin oğlu olax, ikimiz bir qardaş olax. Bunun məsələn, altı min, yeddi min davarı ola. Axı bə mənim bir keçim də olmuya. Bu nə cür ola bilər? Axı əvvəlki ağlım indi olsaydı, bilərdim nə iş görürəm. O ki, dövran dönsün, çərx təzədən dolansın. Amma o da ola bilməz. Zinharxan səsdəndi:

– Ləlөcan.

Dedi:

– Bəli.

– Çox qəşəng oxursan, çox betər xoşum gəlir. Kişi, amma belə dərddi adama bənziyirsən axı.

Dedi:

– Qurban, dərdim var, bəli.

– Bəs dərdin nəmənədi?

Dedi:

– Qulaq as.

Dusdar, onu da “Sima” havasıynan genə deyirəm, onu da elimizin sağlığına:

Əhmədi ayırmıyın Əmrah balınnan,
Qurtulmuram, düyününnən, dalınnan.
Mən öləndə ayağımın toprağınnan,
Belə bag gətirsin, qəbrim üstü qalansın.

Zinharxan, o ayannar idi ki, əyləşmişdilər, Zinharxanın dörəsində idilər. Əhməd Lələni tanırdılar. Üz tutdu olara:

– Ay oğul, Əmrah kimdi?

Dörədən dedilər ki:

– Qurban, Əmrah bunun oğludur. O da sənin kimi bir dərdə mübtəla olub. Mərizdi. Ordan bu Əhməd Lələnin qəlbi sınıxdı. Ona görə belə qəmgin oxur.

Dedi:

– Lələ, bax görüm, Əmrah hardadır?

Dedi:

– Kətdədir. Nökərindi.

– Dərdi nədir?

Tez dövrədən dedilər ki:

– Qurban, Əhməd Lələ diyəmmir. Bular Məhəmməd xan Tühmarnan iki qardaşdılar. Bu, bir az kasıbdı. Məhəmməd xan Tühmar dölətdidi. Buların övladdarı yox idi. Xülasə, buların bir qız, bir oğlan övladdarı olub. Əhməd Lələninki oğlandı, hənüz Əmrahdı. Məhəmməd xan Tühmarın qızıdı, hənüz Sərvinazdı. Bular nənədən olannan, qədimdə belə iş çox olardı – göbək kəsmədi bir belə. Amma çün Məhəmməd xan Tühmar dölətdidi. Dölətdi olduğuna görə, qızın bu Əhməd Lələnin oğlu Əmraha vermir. Əmrah da o qıza məhəbbət yetiribdi. Day bu vermədiyinə görə, o da mərizdiyibdi. Elə cənabız kimi düşüb yorğan-döşəyə. İndi yatıf qalıb kətdə.

Məhəmməd xan Tühmarın bu məsələsini eşidəndə Zinharxanın başında tühləri biz-biz oldu. Ay haq, nə cür ola billər? Bə bular necə qardaşdılar bir-birləriynən.

Dedi:

– Əhməd Lələ.

Dedi:

– Bəli.

Dedi:

– Gedib o Əmrahı gətirə bilərsən bura?

Dedi:

– Qurban, gedərəm, gətirrəm.

İstədilər sərbaz göndərələr.

Dedi:

– Qurban, sərbaz göndərmə. Çün o, cavandı, uşaxdı. İndiyəcən sərbazdar görmüyibdi. Görər, qorxar elər. Dərdi onnan da çox olar. Amma siz icazə verin, mən özüm gedim gətirim.

Əhməd Lələyə o zaman iki at verdilər. Birini aldı yedəyinə, birin də mindi üsdünə. Vəxtində gəldi çatdı övlərinə. Elə ki yetişdi övlərinə, oğlu Əmraha səsdəndi:

– Oğul,Əmrah.

Dedi:

– Bəli.

Dedi:

– Oğul, dur. Allah üzmüzə bir qapı açıb. Ordan nəcat tapacağıq.

– Necə, dədə?

Dedi:

– Buna görə ki, Zinharxan valeyi-Azərbaycandı. Gəlib Səhənd yaylaxlarına. İndi əmuva qonaxdı, yaylaxdadı. Məni istədilər. Getdim, bir-iksini oxudum biləsinə. Amma dedilər ki dörədən, Əmrah Lələdən də yaxçı oxur. Bir oğlu var, amma mərizdi. Dedi, onun mərizdiyin əlacın mən elərəm, get gəti, bir-iksin mənə oxusun. Oğul, gedək orda bir-iksin oxuyasan. Zinharxanın xoşu gələr, ümid Allah, qızı əmindən alar, verər sənə.

Əmrah öylə sərt durdu ki, o özüynən götürən atı ki, biri özününkini, biri də yedəyin idi. Onu da verdi, Əmrah mindi. Vəxtində gəlib yetişdilər hənüz çadırrara ki, Zinharxan oturub, ordadı. Əhməd Lələ belə Əmrahı nişannuyurdu, geçti o çadırrarın vəsətində çahar fəsli, qızıl qübbə çadırdı, o böyük çadır. Geşdi ora. “Amma valiyə ehtiram elə, icazə istə, gör nə desə, onu görginən”. Əmrah o vəxtində yetirdi. İcazə istədi, girdi çadıra. Geçib valinin üzbəüzündə belə bağır basdı.

– Salam var Əli.

Kətdi dilidi, dusdar.

– Var Əli.

Vali belə baxanda, başını belə qovzuyanda gördü bir cavan oğlandı. Üz tutdu, dedi:

– Bu kimdi?

Dedilər:

– Qurban, hənüz Əhməd Lələnin oğlu Əmrah deyillər, budu.

Vali yerinnən dik qalxdı ayağa. “Bəh-bəh”.

– Oğul, Əmrah sənsən?

Dedi:

– Bəli.

Oğlu belə çəhdi, alnınnan öpdü.

– Sağ ol, oğul. Gə otur burda mənim yanımda.

Öz belə yanında, kənarında otutdu Əmrahı. Belə əlin çəkir Əmrahın başına.

– Oğul, Əmrah eşitdim xudanı kərda kəsəddiyi var, mərizsən[1]. Oğul, bəzi hallarda Allah mənim dərdimə əlac olup. Ümidi Allahda, sənin dərdivə əlac elərəm. Oğul, Əmrah, deyillər çox qəşəng oxursan sən. Əhməd Lələ bizə oxuyub, birin də sən bizə oxusan, mənim göylüm açılar ha.... Onnan sonra sənin dərdiyin əlacı nə olsa, əmicanı, mən əlac eliyim.

Əmrah gördü qərib kişidi bu. Qərib annıyan adamdı. Dusdar, Zinharxan şuxlux götürməz, valeyi-Azərbaycandı. Bu cür görək Əmrah, üzünü tutubdu, dusdar, “Gülşanı” havasıynan “Əliyazı” da diyəllər, mən deyim qulaq asın, eşidənlər sağlığına:

Dərt bilən yoxdur, dərdim bəyan eylərim,
Deyə bilmərəm hər gələnə dərdimi.
Dəryalar mürəkkəb ola, meşələr qələm,
Mirzə isdiyir, diyəm, yaza dərdimi.

Zinharxan dedi:

– Oğul, Əmrah, qurban olaydım. Bala, biz hər gələn dəyilik. Axı tanımadın? Mən valeyi-Azərbaycanam. Zinharxanam. Məni hər gələn hesab eləmə. Qorxma, elə dərdin işarəsin eləsən, mən billəm nəmənədi.

---

[1] Xəstə, azarlı

Axı Əmrahın mənzuru bu dəyil ki. Əmrah deyir ki, hər yetənə dərduvu demiyəsən. Belə kişiyə deyəsən, bu, dərdiva əlac eliyə.

– Vali, icazə versən, qoy dübarəsin deyim.

– Oğul, mənə bax, sənə qurban olaydım. Maldan, puldan, qorxma ha. Vali əmin nə qədər desən, sənə kömәhlik eliyə bilər.

"Ay rəhməddiyin balası, neyniy malı, pulu?" Öz qəldində deyir.

Neynirəm doləti, neynirəm gənci,
Pərvanəm olupdu, şəmə yolunci,
Axı bir mən olam, bir də nazlı yar,
Bir də ki olaydı bir otax künci.

Onda diyərəm ev yıxana dərdimi.

Valiyi-Azərbaycan səsləndi:

– Əmrah, qəşəng deyirsən, amma dahi de. Qurban olayım, Əmrah, bir az şad deginan.

Amma Əmrah gördü, bu kişi lap işarədən qanır. Amma götürüb Əmrah sözün axırını dübarə desin:

Əmrah mənəm, neynəmişəm, neylərəm,
Xənçəl alıp, qara bağırım teylərəm.
Vali, innən belə anlıyana söylərəm,
Dahi demərəm anlamaza dərdimi.

Valeyi-Azərbaycan gördü, elə söz düz yerinə düşüb ha. Əgər burda ki bir firsət düşüb əlimə, bu firsəndi fotə versəm, dahi bir ayrı cürnən Məhəmməd xanan qızı alıp, mən Əmraha verəmməm. Səsləndi:

– Cəllad!

İki dənə cəllad girdi içəri. Əllərində iki dənə şəmşir.

– Qurban, kimin ömrü başı yetib. De, boynun vurax.

Dedi:

– Vurun bu cavanın boynun.

Onda Məhəmməd xan Tühmar da eşikdə idi. Gəldi içəri. Lənət oturmuşdu bəqərində. Özdərin atdılar Zinharxanın əl-ayağına.

– Qurban, nə olub? Bunnan nə xəta baş verdi?

Dedi:

– Bura baxın. Mən bura ilki gələnnən deyirəm, dərdin nədir? De, dərduva mən əlac eliyim. Bunun axır cavabı mənə budur ki, deyir, mən deyə bilmərəm hər yetənə dərdimi. “İnnən belə anlıyana söylərəm, dahi demərəm anlamaza dərdimi”. Bu bir dənə valiyi-Azərbaycanı annamaz hesab eliyir, eee. Odur ki, bunun boynu vurulmalıdır, vəssalam.

Əmrah hay-haynan ağladı.

– Qurban, mən ellə demirdim. Mənim ki indi boynumu vurursan, dost-düşman içində vurma. Qoy mən deyim, mənim boynumu nə cür vurginan.

Amma icazəni verdi ki, Əmrah tay götürüb sözünün o birsin belə deyir, biz diyax elimizin sağlığına:

Bahar fəsli, yaz ayları gələndə,
Qızılgül qunçanı qırmızı bağlar.
Bir gözəl söymüşəm, Leylisıfatdı,
Al-yaşıl geyinər, qırmızı bağlar.

Dedi:

– Oğul, o sözün nədir, bu sözün nədir?

Dedi:

– Qutal, boynun vurulmalıdır, vəssalam.

Amma dusdar, gəlin onu “Xoy Əmrahısı”ynan oxudum, elimizin sağlığına. “Zil Əmrahı” diyərıx biz:

Xarı görüm bu gülşannan yox olsun,
Assın dərdi, günü-günnən çox olsun.

Qaşı kaman, kiprikləri ox olsun,
Dəysə, bağrımdaki ürək qan ağlar.

İncəbel, nazik bədən, gül pirahəndi,
Alagöz, mehriban, qiymalı candı.
Əmrah diyər, öldürmüyün, amandı,
Çərrədib eşitsə, qırmızı bağlar.

Dedi:

– Vali əmi.

Dedi:

– Bəli.

Dedi:

– Hətmən mənim boyunumu vurassan buralarda.

Dedi:

– Bəli.

Dedi:

– Laqəl, mənim boynumu elə yerdə vur ki, bura dost-düşman içidir. Aparsın cəlladdar o dağların birsin damənəsində məni öldürsünlər, görməsinnər. Laqəl, elə söylüyün məni görməsin ölən vəxtində.

Valiyi-Azərbaycan cəlladdara səsləndi:

– Bunu aparasız o dağların damənəsində öldürəsiz, qoyub çıxıb gələsiz.

Bu anda Məhəmməd xan Tühmarnan Lələ döşəndilər Zinharxanın ayağınnan.

– Qurban, səni and vermişəm o Səməd Allaha. Gözümüzün ağı-qarası iki qardaşa bir gümanımız buna gəlir, – Məhəmməd xan Tühmar deyir.

– Bə, bunun da boynunu sən vurursan. Bizim həq sayımızı əlimizə verirsən.

Dedi:

– Niyə? Məgər sən bunu çox isdiyirsən?

Dedi:

– Qurban, bəli. İki qardaşa bir varımız yoxumuz budur da.

Dedi:

– İndi ki sən bunu belə çox isdirsən...

Bərnamə burdadır ki, Zinharxan bu dəyqəni istiyirdi.

Dedi:

– İndi ki, sən bunu çox istiyirsən, bə bir dənə qızıyı buna niyə vermirsən? Hətmən bu belə bu cür adam imiş ki, sən də qızıyı buna vermirsən.

Dedi:

– Qurban.

Dedi:

– Bəli.

Dedi:

– Bəli, mən qızımı buna verməmişdim. Amma bu dəyqədən sən bunu bağışlasan, mən də qızı verirəm buna.

Dedi:

– Hətmən.

Dedi:

– Bəli.

Dedi:

– Cəlladdar aparmayın, mən elə bu dəyqəni isdiyirdim. Mən yoxsa bina əvvəldən bilirdim, Əmrah mənzuru, məramı mənə söz toxumaq, söz demax dəyili.

O cür olanda dörə əhali hamı güldülər. Çəp çaldılar. İndi Məhəmməd xan Tühmar dedi, bəli, burda olmaz ki, bu vəzdə.

– Mənim də vəzim xoşalıb, vəxtim də az qalıb. Gedəcəyəm Təbrizə. İndi yığışdırın, gedax kəndə. Kətdə Əmrahnan Sərvinazın şirinnığını içax, toyların da, inşallah, qalsın toyların da mən çəkirəm öhdəmə. Qızı sən vermisən, toyu da mən götürrəm öhdəmə, mən toyu eliyacağam. Ba, bu dəyqədən də Əmrahnan siğə qardaş olacağıq.

Əmrahı çəkdi, alnınnan öpdü. Öz yanınna oturttu ki, o qorxmuya.

– Mən səni öldürməyəcaqdım. Mənzuru bu idi ki, əminnən Sərvinazın qoylun alam.

İndi Əhməd Lələ dünyaya bir küş atdı. Məhəmməd xan dəstur verdi, kətdə bir yekə evi vardı tənəvi. Oranı döşədilər. İndi dağdan, kətdən, dörü əhalidən, kətdən-şəhərdən hər kim varıdı, Əhməd Lələnin, Məhəmməd xan Tühmarın çağırdılar, dəvət elədilər. Məsələn, sabah yox, biri gün Əhməd Lələnin oğlu Əmrahnan, Sərvinazın “qət sındırması” şirrinniyidi.

Ağa, gün gəlib yetişib, vəxtində hazır oluplar məclisdə. İndi yiyən kim, içən kim, diyən kim, gülən kim, çalan kim, oxuyan kim, amma Sərvinaz dayəsinə səsləndi:

– Dayəcan.

Dedi:

– Bəli.

Dedi:

– Dayə, buyünə qədər əmoğlu məriz idi. Düşmüşdü yorqan-döşəyə. Halı, əhvalı yox idi. Onda o vəzin görmüşduz ki, indi yavaşcan getginan o məclis dörəsinə. O məclisin qapısınnan, o aradan görax bəlkə mən əmoğlumu bir görəm, baxam, görəm indi əmoğlum nə vəziyyətdədir.

Ağa, bular, dayeynən Sərvinaz ikisi gəliplər. Elə toy mənzili ki, var idi, orda məclis idi. Onun pəncərəsindən bular durub baxırlar içəri. Ayə, Əmrahı görələr. Əmrah nə iş gördü? Əmrah da üzü pəncəriyə sarı, valiyi-Azərbaycandan o viddə oturmuşdu gözü pəncəriyə tərəf baxırdı. Belə baxanda gördü, can-can, əmqızım gəliib pəncərənin qabağından baxır, eee. Ürək qıpqırıldı, düşdü əyağının altına. Belə səsləndi:

– Qardaş, (valiyi-Azərbaycana dedi), axı belə toyda, məcalisdə, belə şaddıx olan yerrərdə aşıx oxullar axı. Bəs siz niyə buyün aşıxdan-zaddan burda yoxdu?

Dedi:

– Rəhməddiyin balası, sən olan yerdə aşığı neyniyirx? Əvvəla, şirinnız toy özüvundu. O cür ki, sən oxursan, hansı aşığın işidir oxuya bilər? Bə niyə durmusan, de bir-iksini.

Amma Əmrah üzünü tutubdu pəncəriyə. Dusdar, götürüb görax necə deyib, biz diyax əyləşənnər sağlığına:

Pencərədən baxdı, baxdı göründü,
Tovuz tamaşalı, tərlan Sərvinaz.
Müjganların dəlir bağrın başını,
Kar eyliyir şirin cana Sərvinaz.

Tamaşaya gəlir Rumunan Qeysər,
Yel vurar, tellərin hər yanə əsər.
Boyun sərv ağacıdı, ləblərin kosər,
Amma dodaxların batıb bala, Sərvinaz.

Əgər aşıqmısan, məşuqun tanı,
Oxumusan elmini, hürufun hanı?
Göylümün quşəsi, bu şirin canı,
Əmrah qurban deyər sənə, Sərvinaz.

Dusdar, sözdər tamam oldu. İndi ağadan o zaman qovlu-qəral, şərti-şurt nə idi qoydular. Vəx bunu qoydular ki, qənnin sındırılar ki, mübarəkbad dedilər. Onnan sora Zinharxan qəral onu qoydu ki, indi yay fəslidi. Təqribən yazınan yay arasıdı. İnşallah, payızın axırrarında özüm gələcəyəm, Əmrah qardaş, sənin burda toyun tutaceyəm. O zamanacan sizi Allaha tapşırdım. Zinharxan xudafizləşib, rəvanı-ilah oldu Təbrizə getməyə, öz işinə məşğuldur.

Amma sizə xəbər verim Əmrahdan. Əmrah da bir gün, iki gün, üş gün, beş gün əmqızıyla deyirlər, gülürlər, danışırlar, amma qəzada qüdrət yoxdu. Gecələrin birində, ya üş aləm vaqədə yuxusuna bunun bir dənə seyyid gəlidi. Yuxudan ayıl-

dı. Nəzəriva gəlsin, vaqeyi yuxu gördü. Belə əlin çəhdi Əmrahın üzünnən, gözünnən, alnınnan ta gətdi gözdərin qabağına.

– Oğul, Əmrah, deyirəm, bax görüm, burdan haranı görürsən?

Əmrah belə baxanda:

– Qurban, mən burdan bir dənə şəhri görürəm.

– O şəhridə nəmənə görürsən?

Dedi:

– Qurban, şəhrin kənarında bir dənə bağ görürəm.

– O bağda nəmənə görürsən? Belə bax, bağın sağ tərəfinə.

Belə baxanda bir dənə saxtuman var.

– Qurban, bir dənə saxtuman var. Amma o saxtumanın içində bir dənə gözəl yatıb. Yemə, işmə, amma onun gözəlliyinə tamaşa elə. Gözəl deyirəm ha, qurban. Deyir:

– Bu, bir dənə gözəldir. Başının tühlərini bir dənə çətir salıp, dörd dörə yalxı salıp bürüyüpdü. Evin yıxılmasın, qaşdar üş gecəlik aydı, bulud altından tuluğ eliyipdi. Gözdər eləsən piyalədir, dan ulduzu kimi çöyürür oyan-bu yana, adamın ürəyi qıt qırılır, düşür əyağının altına. Yanaxlar elə bil, qızılgülün ətrəsidir. Dan ulduzu kimi, hərdən bir rənk vurur. Ağız süddü, dodax qeymax, burun fındıq, diş inci, ləb ləbi, zəb zəbi, gəl məni gör, dərdinnən öl, üryan, türyan qatışıb bir-birinə.

Əmrah bir neçə saniyə qəşş elədi bunu görəndə. Bunnan sora ağıya cavab verdi:

– Qurban, bu nişanda bir qız görürəm.

Dedi:

– Oğul, bura bax.

Dedi:

– Bəli.

Dedi:

– O qızın adı Pəridir. O bir dənə şıkarçı qızdır. Zirək bir qızdı, daldandı. Öz aralarında ona bir ləqəb veriblər “Səyyad Pəri”.

Zirək qızdardandır. Onu sənə buta verdim. Gedərsən, oni gətirərsən, onnan gələnnən sora, əmqızınan iksinə bahəm toy tutarsan.

Dedi:

– Ağa, mən getdim ora. Bəlkə o qız məni tanımadı.

Şair deyir:

Əziziyəm, görsədən,
Zilfimizi görsə dən.
Səni də mənə görsədib,
Məni sənə görsədən.

– Necə ki, səni ona nişan verrəm, onu da sənə. Get, o yoluyu gözdüyür, ee.

Əmrah elə sərsəm, xudafiz, Əmrah yuxudan ayıldı. Ayıldı, gördü qan-tər basıb biləsin. Allahu Əkbər, bu nə iş idi. Bu nə vaqesi idi, bu nə yuxusu idi mən gördüm. Xudaya, bu görən doğrudur, yuxudur, yalandır, nəmənədir görəsən? Mən bellə işə sırrı qaldım. Amma odu ki, narahat idi. Ha səhərin sübhünə kimi Əmrah yatmadı. Sübh çağı idi. Lələ gəldi genə Əmrahı ayıltsın, gördü Əmrah əli qoltuxda fikrə pesidədir.

– Oğul, Əmrah, genə niyə narahatsan? Genə niyə fikrin nacəmdi?

Dedi:

– Lələcan, qulaq as. Fələk diyəsən mənim daşımı qürbətə atacax.

Dedi:

– Necə-necə?

Dedi:

– Fələk mənim daşımı atıb, qürbətə getməliyəm. Qulaq as, bir neçə vəsiyyətim var.

Dusdar, bu "Şahsevəni" havasıdır. Bizim öz havalarımızdandır.

Dolannam başıva, Lələ,
Lələ, gedər oldum, gedər oldum.
Lələ, mənə halal eylə,
Lələ, gedər oldum, gedər oldum.

– Əmrah, bala, qurban olaydım, indiyəcən Sərvinaz dərdiynən məni çürütmüşdün, axırda Sərvinazı da aldın, biləyin dahı. İndi hara gedirsən?

Dedi:

– Lələ, qulaq as, sözüm var.

Lələ, ayrıldım xanimanımdan,
Sərvinaz tək, cənanımdan.
Bülbül təki gülşanımdan
Gedər oldum, gedər oldum.

Lələnin lap əshabları yatdı.

– Oğul, bir yol nəzərindədir?

– Qulaq as, görüm.

Dusdar, elə ki, sözdər tamam oldu. Lələ hirsinən qapıdan çıxdı eşigə.

– Əmrah, mən sənnən baş qutala bilmirəm.

O cür olanda Əmrah qaşdı, dalında tutdu.

– Lələcan, bə niyə narahand olursan? İşi özümnən deyil ahı. Gəl, sənə sözün sadəsin deyim.

– De, görüm nə diyəssən?

Dedi:

– İstirəm, bir can belə gedim qürbətə.

– Niyə gedirsən qürbətə?

Dedi:

– Buna görə gedirəm ki, Lələcan, gedəm bir toypulu qazanam, gətirəm, beduni minnət, belə minnətsiz özümü əlaqə, özümə bir toy eliyəm.

Dedi:

– Olur, məgər toyun qovlun Zinharxan qardaşdığın vermiyibdimi ki, o tuta? O kişi sənin toyunu tuta, day minnəti yoxdu, özü qovl verib.

Dedi:

– Məgər Zinharxan mənim dədəmə boşdu idi, mənə toy tuta? Rəhmədiyin nəvəsi, de görüm mənə nə olub ki, fələkzad dəyiləm ki, gedərəm, işdərəm, pulu qazanıb gətirrəm, toyu tutaram.

Lələ gördü bu bir dənə zad attı qabağa ki, bunun bahanası heş yol kəsilməz. Yaxçısı budur, qoy bunu aparım Sərvinazın yanına. Sərvinaz bunu bir az-maz dannasın, bəlkə o yolunnan sərf eliya.

– Əmrah.

Dedi:

– Bəli.

Dedi:

– Gəl, gedax görax əmqızın nə deyir bu məsələyə. Sənin mənim başıma oyun qaldı gətimiyəsən, oğul.

Bahəmlikdə indi gəlirlər Sərvinazın yanına. Amma Sərvinaz buları peşvaz elədi. Gülə-gülə qaşdı.

– Əmi canı.

Qolun saldı əmisinin boynuna. O üzündən, bu üzündən öpüb:

– Əmican, elə sən narahatsan.

Baxdı Əmrahın üzünə.

– Əmrah, məgər əmimə bir söz-zad demisən?

Dedi:

– Yox, əmiva heş söz-zad deməmişəm.

Əminin gözdərindən pır-pır yaş töküldü.

– Qızım, Sərvinaz.

Dedi:

– Bəli.

Dedi:

– Gör əmoğlun nə iş görür, xiyalın nədir?

– Əmoğlum, xiyalın nədir?

Əmoğlu üz tutub, götürüb görax, “Narıncı” havasıynan nə deyir, biz diyax ellər sağlığına:

Gedirəm qürbət ellərə,
Allah saxlasın, sevdiyim.
Al verim bu əmanati,
Yaradan saxlasın, sevdiyim.

Dusdar, hansı əmanət? Oydu ki, şumarə əvvəl navarda demişəm biləyinizə. Əlin atdı əmqızın boyunbağı qırıldı. Onnardan yeddi dənəsini Əmrah belə oğurrub, salmışdı cibinə. Həmin o əmanətdəri, çıxartdı belə mıncıxları.

– Əmqızı, bax belə buları da verirəm, yadigar saxla mənim üçün. Gə verim əmanəti. Bular mənim yanımda əmanətdi. Yadıgar saxla, sevdiyim.

Əmqızı belə hay-haynan ağladı.

– Əmoğlu, xiyalın nədir?

Dedi:

– Əmqızı, qulaq as.

Qurbanam, mərdin pirinə,
Əmqızı, bizi yetirər bir-birinə.
Əmanət mənim yerimə,
Yadlar girməsin, sevdiyim.

Dosdar, salam ərz eliyirıx xidmətizə. Allah ürəyizi həmişə şad və dilxoş eləsin. Şaddığınan bizim bu navarrarımıza baxıb istifadə eliyəsiz. Dosdar, maraxlı olmuşux, indi Əmrahın söhbətinnən üçüncü navarı oxuyax. Geçən sərmənzilim navada, söhbət o yerdən qalıpdı ki, Əmrah Ləlaynən gəliplər Sərvinazın yanına. Sərvinazdan xəbər alıp ki:

– Sərvinaz.

– Əmrah niyə narahatsız, Lələ niyə narahatsan?

Əmrah orda getməyin Sərvinaza iki bənd oxuyubdu, bir bəndi qaldı. Dusdar, indi söhbətimizin yerin bildıx. Söhbət burdan qalsın. Bi divan oxuyram, divannan sora ta gedəm görəm Əmrah dübarə nə deyir Sərvinaza. Oxudum elimizin sağlığına:

Xalq içində yatan səyyad, dur, şikar əldən gedər,
Bel bağlama nanəcibə, namus, ar əldən gedər.
(Allah heş nanəcibin əlin yeritməsin, inşallah.)
Bu cür insannar karvanı, gecə-gündüz köç eylər.
Bu dünya fəna dünyadır, hər nə var, əldən gedər,

Dahi birdə yaratmıyacağ, qadiri-sübhan bizi.

(Dusdar, belə insan bi dəfə gəlib dünyaya, bi dəfə da dünyadan gedacax.)

Qəhri-qəza eyliyacağ xakınan yeksan bizi.
Gah əndilər, gah mindilər gərdişi devran bizi,
Hökmüdarrar güvənməsin, ixtiyar əldən gedər.
(Hekkəsin çırağınnan yanmasın.)

Azaflı Mikayıl, gəl nanəcibə söz demə,
Yaxçı yaman nə biləcəy, qammıyanı bizdəmə.
Sür bu dünyada kefin, dadaş, o dünyanı gözdəmə,
Fələh vurar çanqalına, dövlət, var əldən gedər.

Sağ olun dusdar, indi bu da Azaflı Mikayıldan Divani idi, oxudum xidmətizə. Amma qəlb yazın ki, gedax söhbədin üsdünə, xidmətizə adresimizi diyax. İndi gedirix, söhbətin üstünə. Dosdar, indi o yerdən qalıb ki, söhbətimiz Əmrah iki bənd oxuyub, vəli, axır bəndin görax nə cür oxuyur. “Narıncı” ha-

vasıynan oxumuşdu, dusdar. Mən də oxuyum genə elimizin, dusdarımızın, navara baxıb, görüb istifadə eliyənnər sağlığına:

Əmrah deyər, qaldı vətən,
Doğru yollarınan ötən.
Nazənin, sərin qoyub sevgi tutan,
Hərgiz dönməsin söv deyib.

Qız belə hay-hayınan ağladı.

– Əmioğlu, hara gedisən, niyə gedisən? Getsən də harda ərz eləmişəm ki, dedi ki:

– Əmiqızı, mən gedirəm öz əlimin əməyinnən pul qazanam, gətirəm, belə toyumu eliyəm. Mənə heşkəsin minnəti olmuya, bi nəfər deyə ki, sənin toyunu mən elədim. Səhər belə dünya bilmə şəmadət elə və mən bidənə iyid olan özüm toyumu eliyə bilmiyəm.

Dedi:

– Əmioğlu, kim nə bilir, bir az-maz sərmayə mənim var, hələ gələn il toy eliyacağıx, gələn payız. O zamanacan bir az da artırırıx. Onnan da sora Zinharxannan ki qardaş olmusan, siğə qardaş. Zinharxan qol verib, sənin toyunu eliyacax.

Dedi:

– Belə, əmiqızı, belə mən sənə qutuları[1] deyim. Zinharxan mənim dədəmə toy pulu borşdu dəyildi ki. Mən istəmirəm Zinharxan mənə toy eliyə onnan sora. Sənnən belə, əmiqızı, acuğua gelməsin, səhər elə qab-qaba dəydi, ya mən bi bərhdən öskürdüm, ya bi bərhdən sənin üstüə acıxlandım, mənə deyəssən ki, get oğlan, belə toyuyacan mən elədim. Toy puluacan mən verdim, nə günüə şişələnirsən. Onda mənim dilim qalar qarnımda. Mən indi bir il zənciri çəkərəm, onda ta

[1] Gizlin məqamlar

bir ömmür gərəh zənciri çəkəm, sənin yanında mən başımı göyə qovzalıyam.

Qız dedi:

– Əmioğlu.

Dedi:

– Bəli.

Dedi:

– Əmioğlu, heç bilisən qürbətdə nə işlər, nə qəzavü-qədərrər vardı?

– Əmiqızı, inşallah, heş zad olmaz.

Elə də oldu.

– Qulax as. Qoy söz deyənə cavab deyim.

Mən deyim genə görüb baxannar, istifadə eliyənnər sağlığına.

Əmiqızı:

Əmioğlu, bir il qürbətdə qalsa,
Gör başına nələr gəlir.
Amma vətən yadına düşəndə,
Göz yaşına ələr, gəlir.

Əmioğlu:

Qarşımızda duran daşlar,
Gözdərimnən axan yaşlar,
O yuvasın itirən quşlar görərsən,
Qanad çalar, uçar, gəlir.

– Əmiqızı, inşallah, mən də gedirəm, tez qəyidərəm.

– Əmioğlu, qulax as, qoy dübarəsin də deyim.

Sərvinaz deyər, uca boylum,
Bir mələhdi mənim soyum,

Belə sürüdən ayrılan qoyun
Qəral tutmaz, mələr gəlir.

– Əmiqızı, gedirəm. İnşallah, elə bil az-maz toy pulumuzu qazana bilsəm, qəyidib xoflu gələcəyəm.

– Əmioğlu, bəs gedisən?

Əmioğlu istiyirdi getsin, əmiqızı:

– Əmioğlu, axı eləsən əti dırnaxdan ayırısan. Evi xarabın balası, axı əti dırnaxdan ayırısan. Elə bidəfəlih gedisən. Belə baxanda gördü dayələr Sərvinazın əhvalına dənəbədənə hammısı dəsmalı basıp gözünə, ağlıllar. Belə baxdı dayələrə gördü dayələrin vəzi qatışıb, ağlıllar. Bir baş dayəsi vardı, çağırdı yanına.

– Dayə.

Dedi:

– Bəli.

– Dayə, bə niyə siz ağlırsız? Qulax asın!

Amma götürüp burda "Misri" havasıynan nə deyir dayələrə, mən deyirəm genə tamaşaçılar sağlığına, ellər sağlığına:

Ala gözlü dayələrim,
Yar burdan getməli oldı.
Axı baş qoydum yar ətəyinə,
Gedibən ötməli oldı.

Dayə belə hay-hayınan ağladı. Amma qız dübarəsin belə deyir:

Bülbül kimi cəhdim cəfa,
Dayə, doyunca sürmədim səfa.
Əmoğlum olupdu bivəfa,
Neynim gedir qalmır,
Yar burdan getməli oldu.

Dayə gördi, elə qız ən qəribdi belə yıxılsın, səhmannan belə özün təkiyə verdi dayiyə. Dayə belə saxlıyıb qızı ayağ üsdə, amma Sərvinaz sözünün o birsin belə deyir.

Sərvinazam, buldum maya,
Çəhdiyim zəhməddər xub getdi zayə.
Sən iltimas eylə dayax,
Amma həqqi say itməli oldi.

Bir zaman sən deyirdin ki, mən nə desəm Əmrah mənim sözümnən çıxmaz. Öl desəm, Əmrah ölər, qal desəm, qalar. Bə bir sən deginən nalə. Axı görginən əmioğlum hara gedir ilin bu zamanında? Sən iltimas eylə, dayə, amma həqqi-say itməli oldı.

Dusdar, Əmrah gördi əmiqızı çox narahatdı. Belə gəldi qabağa, Ləlocan, üzr istiyirəm, qoy bu əmiqızımın mən belə bir dərdidilimi deyim, bunun dərdidilin xəbər alım. Ayə, görüm bu niyə belə narahatdı? Çəhdi əmiqızını bi tərəfə.

– Əmiqızı, axı belə çox narahatam. Mən məgər nəhax deyirəm sənə? Qoy gedim toypulumuzu qazanım gətirim, heş kəsə minnətiniz olmasın.

Dedi:

– Əmioğlu, onnan qorxmuram ki.

– Hə, nədən qorxusan bə?

Dedi:

– Əmioğlu, bunnan qorxuram ki, qurvan olaydım, gedisən diyaral qürbətə. Ellər, obalar, kəntdər, şəhərrər dolanassan. Dünyada gözəl-gözəl insannar vardı. Gözəl-gözəl, mənnən gözəl qızlar vardı. Qorxuram gedəsən ürəyin birinə bənd ala, məni elə yatdan çıxardasan, qalam, ömrüm nə qədəh var, əmioğlu yolu gözdüyəm.

– Həəəə, əmiqızı. Əmiqızı, qurban kəsəydim. O xiyalları eləmə. Qulax as, qoy deyim.

Amma götüdü, duslar, bunu belə. "Dübeyti" havasıynan oxuyacağam, əyləşənnər sağlığına:

Ala gözlüm, sənnən ötrü,
Ağlamasam, namərd olum.
Amma bağrım başın çallı-çarpaz,
Dağlamasam, namərd olum.

– Əmiqızı, sən ərxəyin olginən mənnən.
Amma dübarəsin belə deyir:

Yanax qoyum yanağına,
Ləbi bülur buxağına.
Qızılgülün, əmiqızı, yaprağına
Əgər xarı qoysam, namərd olum.

Övləri çaylara baxar,
Yaralarınnan qannar axar.
Behişdən beş üsulu baxa,
Əgər birin alsam, əmiqızı, namərd olum.

Əmrah deyər, bu dağları,
Gül bürüyüb bu dağları.
(Dusdar, burda bi çıkkana[1] sözü üstüörtülü dedim, söz ayrı cürdü.)
Sal qoynuva qolları,
Əgər doysam, namərd olum.

O idi ki, söz qutardı. Sərvinaz çağırdı Lələni:
– Lələcan!
Dedi:

[1] Bir balaca

– Bəli.

– Lələ, biz bunu saxlayammıyacıx. Əmrah gedacax, amma gə buna bi nəşxə çəkax.

Dedi:

– Qızım, nə cür nəxşə çəkax?

Dedi:

– Lələ, mənim bir az pəsəndazım vardı, əgər imkan olsa, yoluyuza bir az koka yapım, dayanın bir az koka yapım. Altdan qızılları tökərəm, o da dara çıxa, üstünə də koka yığaram. Gedərsiz, yolu bir cəng gedənnən sora, bir yerdə elə ki kokaları yediz, yetirdiz qızıla, onda deyərsən, oğul, Əmrah, pərvərdigar özü sənin toypulunu yetirip. Oğul, gəl day burdan qəyidax. Allah yetirip bu pulları, aparax bunnan, qəyidər gələr. toyuvu eliyax. Beduni minnəti olsun. Da indi burax dərdin, bu da var da. Onda Əmrah görsə pul vardı.

Amma dayandılar. İndi bir gün, iki gün də qaldılar. Sərvinaz buların yoluna vəznidə yüngül, yeməli qəzalardan bir neçəsini bişirib, amadə eliyip, bir qab altdan koka qoydu, o dağarcıx-dağarcıx kətdi qədimlər, qədim adamlar bilələr dağarcıx nədi. Çörəyi pambıx kimi saxlar. Çölçülər aparardılar. Bax, bir lay koka qoydu, üstünnən qızılları töhdü. Onun üstünnən o birsi qəzaları yığdı. Ağzın bağladı, verdi Ləliyə, bular rəvani-irağ oldular. O zaman gəlillər, dusdar, Alxatına sarı. Amma gəlhagəl söhbətdə mənzil olmaz. Gəlillər. O zaman, dusdar, Gelsulu yeylaxları vardı. O Gelsulu yeylaxları diqqətdi deyim biləsən haradı. Necə ki, Tehran yolunda gedəndə, otumanda Əbhərxorrəmdərə dövrəsində, belə baxsan sağ tərəfdə dağlar görsənir, olar Həmədan dağlarıdı. Alxatın dağları o zaman olardı adı Alxatın Həmədan dağlarıdı. Olar Gelsulu yeylaxlarıdı. O yeylaxlarda gəlillər, dusdar, indiki dəyilki maşınnan bir gündə, iki gündə gedip çatasan. O zaman piyada zaman idi. İndi neçə gün çəkib buların taa Səhəndidən gedib çıxıplar Ərzədinnən o Gelsulu yeylaxlarına. O yerlərə

yetirəndə yolu bir car[1] gedənnən sora, bular otdular xurdu-xörəh yeyələr. Yetirəndə o qızıllara, Lələ qah-qaha çəhdi, güldü. “Pərvərdigara, sənin kəramınə çox şükür”. Əmrah dedi:

– Lələ, nolub? Nəyə şükür eliyirsən?

Dedi:

– Oğul, buna şükür eliyirəm ki, Allah qoymadı sən gedip fəhləlihdən, filannan eliyəsən, pul qazanasan. Budu, Allah sənin toypuluvu öz qapımızda yetiripdi.

– Lələ, nə cür olup?

Əmrah belə baxdı o dağarcıxa, baxanda gördü, evi xarap, Sərvinaz bu nəxşəni çəkipdi. Əmrah bildi da Sərvinaz bu nəxşəni çəkip.

Dedi:

– Lələ.

Dedi:

– Hə.

Dedi:

– Bu nəxşələr hamısı Sərvinazındı.

Kişi, çoxu da toypulu dəyil ki. Burda Ləliyə ayıtdı ki, Lələ, mənim dərdim var, dərdimə gedirəm. Dərdimdən ötrü hara gedəydim, qurban olaydım, gözümün ağı-qarası bircə oğlum var.

Durdular, genə yola davam veriblər. Gəldilər o yerə yetişdilər ki, burda dahi buların qəzaları qurtuldu. Bir dənə bulax vardı belə, o bulağın üstündə bi nardan ağacı vardı. Dosdar, o bulağın başına yetirəndə bular bi əllərin-üzdərin yudular. Lələ gözün dolandırdı, acdı. Qoca adamdı, yol yorğunu, ayaxlarının altı yara olup. O qədər piyada gəlip. Bir müddət gəlip, belə göz dolandırdı. Belə baxanda gördü, oooo dağın üstündə, o yasdan yerdə tüsdü çıxır. Dusdar, tüsdü

---

[1] Bir miqdar

çıxan yerə bil ki, çobannan, elatdan, çuluxdan, hətmən ki bi nəfər var, biçinçidən-filannan.

Dedi:

– Oğul, Əmrah.

Dedi:

– Bəli.

Dedi:

– Bala, mən qoca bir adamam görürsən ki. Ağzımda dişim yoxdu. Çörəyimiz də yoxdu, dur yavaş-yavaş buraynan qalx, gör o dağın üsdündə, o tüsdü gələn yer nəmənədilər, kimdilər. Hər kəs olan surətdə bir az çörəhdən, qatıxdan al gəti. Burda, oğul, yeyax, içax, mənim qışdarım qüdrətdən sındırax gedax.

Dedi:

– Lələ.

Dedi:

– Hə.

Dedi:

– Lələ, rəhməddiyin balası, məni hara yolluyusan? Kim mənə çörəh verər, kim mənə qatıx verər?

Dedi:

– Niyə, oğul?

– Buna görə ki, məni olar görsələr, deyəllər, oğul, yekə bir cavansan, utanmısan, dilənirsən. Gə bizə qoyun-quzu yayginən, nə qədəh deyirsən qatıxdan-süddən verax. Olar mənə verməzdər, amma sən qocasan, sənə ellə bir sözdərdən demməzdər. Dur, mən elə burda gözdüyüm səni. Sən getginən, gör bəlkə sən tapıb gətirəsən. Sənə verəllər.

Əhməd Lələ gördü həx deyir da, cavan olanda nolur. Həx danışır. Durdu yavaş-yavaş əsiya dayana-dayana, dusdar, o dağı qalxdı üsdə. Elə ki dağı qalxdı üsdə, qalxanda üsdə baxdı, gördü dağın üsdü bi dənə yasdandı. O yasdanda bi dənə obadı düşüb, oba budu ki, beş-on öydülər, elatdılar. Belə

baxanda qırax çadırdan bir dənə gəlin xanım tulux çalxıydı, dusdar, tulux. Yetirdi bunun yanına.

– Salam, qızım.

– Əleykiməsalam, əmi. Əmi, yorulmuyasan, sözün?

Dedi:

– Qızım, mən bir qoca adamam, yol gəlmişəm, yorulmuşam. Əgər, imkan olsa, bir-iki dənə çöraxdan, bi də o tuluğunun eyranından verəsən, mən gedəm, bi tikə çörəh yeyəm.

Gəlin xanım elə bildi ki, güya bu təhdi. Dedi:

– Əmican, geç otu çadırda, tuluğum az qalır düşşün. Qoy tuluğu çalxıyım, qutarım, bunun həm kərəsinnən verim lova[1], həm eyranınnan, həmi də çörəh verim lova.

Lələ bir az dayandı. Tulux düzəldi, gəldi, kərəni çıxartdı. Bir bala kasa doldurdu. Gətdi sırfa aşdı, Ləliyə çörəh verə. Lələ dedi:

– Qızım, bellə dəyil ki...

Dedi:

– Hə.

Dedi:

– Bellə mənim yoldaşım da var.

Dedi:

– Yoldaşın nəmənədi?

Dedi:

– Oğlum var. Qalıb o bulax başında. Mənə əgər imkan olsa, bir kasada, böyüy kasada-zadda eyranınnan bir az versən, bir-iki çörəhnən gedərəm, oğlum da yeyər.

Oğlu eşidəndə, qız vardı yanında bidənə, o qız qulax asırdı. Gördü bunun bir oğlu var. Bax, gördü, bax. Deyipdilər, nənəsinə bax, qızını al, qırağına bax, bezin al. Odu ki, baxdı gördi bu kişi bu gözəlliyə, bu sindində[2], büllur üzündən

---

[1] Lova (d) – ağzına basmaq, yemək
[2] Yaşında

asimana bülənd olur, hətmən ki, bunun oğlu çox gözəl olar. Qız bu ehsas elədi. Tez sənəhini götürüb, gedim bulax başına, ayə, görüm bunun oğlu burda nə iş görür, nə cür bir oğlandı. Qız bu xiyalda sənəhləri götürər. Gəlin xanım tez bi dənə böyük bir kasa, ləyən deyarıx, dusdar, ləyəni doldurdu eyrannan, içinə bir çalxam yağ saldı, kərə saldı. Qaşdı getdi, köhlüdən buz gətdi. Dusdar, o zaman buz üçün qışdan qarı yığardılar, köhlüdə qalardı, yayda onnan indiki dəyildi, buz əvəzinə istifadə edərdilər. O qardan gətdi, bir belə də saldı içinə. Bir dəsdə də çörəh, qoydu bir sırfıya. Verdi Əhməd Ləliyə. Belə baxanda gördü qız gedir.

– Ay qız, hara gedisən?

Dedi:

– Gedirəm bulax başınnan su gətirəm.

Dedi:

– Bulax başınnan suya gedisənsə, mən də gedəcəydim, indiyə kimi tək idim, gedəmmirdim. Dayan, qoy mən də gəlim.

Ağa, indi Əhməd Lələ yavaş-yavaş, o qoca adamdı, bılarınan ayağ tuta bilməzdi ki, yavaş-yavaş, asiya dayana-dayana, eyran əlində, ənir dağdan aşağı, gələ bulax başına... Amma qıznan gəlin oooodu, bayax yetişdilər bulax başına. Belə baxanda, gördülər bi dənə cavan oğlandı. On üç-on dörd, belə bu mizanda sindi var. Bir dənə oğlandı, ruziqar nənəsi buyünə qədər belənçi bir oğlan dünyaya gətimiyib. Allah, yemə-işmə, dur bunun camalına tamaşa eləginən. Qız dedi:

– Ey, on səkkiz min aləmin sahibi, hayannandı, bax bunu mənə qismət eliyəssən ha.

Belə yetirdi, oğlanın otdu başı üsdə. Gəlin dedi:

– Nə iş görüsən?

Dedi:

– Nə iş görəciyəm? Bu, bir oğlandı, mən də bir qızam. İstirəm bunu ayıldam, mən gedəm buna. Hııı...

Dedi:

– Elə bu saat.

Dedi:

– Həə. Biz bunu ikimiz tapmışıx. Buna dədə malı kimi biz şəriyix.

Dedi:

– Necə ola bilər? Bir kişi məgər, düz gələ bilər, sənin bir ərin var, istiyirsən bir də buna necə ola bilər gedəsən? Mən deyən başıma çıxdı, bir qızam, gedəcəyəm buna. Sən nə deyirsən?

Dedi:

– O əri ötür, onnan ər çıxmaz. Mən əgər bu oğlanı ayılt-dım, məni alsa, mənə gəlsin, məni alsın, səni alır, səni alsın. Hansımızı sövsə, onu alacaq.

Dedi:

– Yox, ellə olmaz.

Qız dedi:

– O cürə dəyil.

Dedi:

– Hə.

Dedi:

– Elə səddərsəd oğlandı, dursa, məni alacaxdı.

Dedi:

– İndi ki səni alacaxdı, gə biz ikimiz şer diyax, söz diyax, hansımızın sözü bir-birinə zor gəlsə, bu oğlan onun olsun.

Qız dedi:

– Mənim başım üsdə.

Qız o yasəmən tellərdən ayırıb indi basdı bağrına.

Dedi:

– Mən düşürəm qabağa, ya sən düşüsən?

Gəlin dedi:

– Yox, yox, yox. Mən düşəciyəm qabağa.

Qız havadadı, dosdar, gəlin indi götürüb görax qızdan nə deyir. Gəlin diyən sözləri, bən də özüm diyəciyəm

xidmətizə. Aşıx Həşim kənarındadı. Qız deyən sözdəri də Aşıx Həşim oxusun sizin xidmətizə elimizin sağlığına, əyləşənnər sağlığına. Amma gəlin belə deyir, bax, dusdar:

Bir qızınan, bir gəlinin bəhsi var,
Gəlin diyər, yaşın üsdən alınmır.
Ağzım içi Abı-kovsər bulağı,
Belə yanağımda dənə-dənə xalım var.

Hə, qız güldi.

Dedi:

– Gəlin xanım, əvvəlki bilsə sorakı nə diyacax, heş əvvəlki ağzın aşmaz. O söz ki deyirsən, o, bir söz dəyil. Əsli sözdər məndədi.

Dedi:

– De görax, sən nə deyissən?

Amma bi yol şair Aşıx Həşim desin Həcidən.

Qız deyir:

Qız deyir, mən bənzərəm anama,
(Çün anam gözəldi sənnən. Səddərsəd mən də sənnən gözəl olaciyam.)
İnci, sədəf, dur düzərəm tanama.
Əl dəysə, qoynumda sınar şamama,
Belə yanağımda dəsdə-dəsdə gülüm var.

Gəlin dedi:

– Baba, olar bir söz dəyil. Qulax as, gör məndə nələr var. Amma dübarəsin götürdü görax gəlin nə cür dedi:

Gəlin deyər, tellərimi əsdirrəm,
Hökm eləsəm, qızı dağdan asdırram.
İşgə belə gümüş kəmər kəsdirrəm,
Mərd oğlan qujmağa incə belim var.

Qız dedi:

– Ay baba, nə var səndə, kopidi. Əslilər məndədi, bətdağ, amma götürür görax qız nə deyir:

Mən oxumuşam əhli-beyt, tənbəl qafili,
Nə vaxt olsa, mənə saat tapılır.

(Bədbəxt, mən bir qızam ki, pisdən yaxçıdan birin tapıb gedəciyəm. Amma, sən bihessab xanımsan, birinin xanımısan. Heş vədə bir əldə iki qarpız tutulmaz, biri düşər sınar.)

Bir qələm vardı, yeddi açar qapılı,
Şahnan danışmağa mənim dilim var.

Sən ki deyisən, hökm eləsəm, qızı dağdan asdırıram. Gedərəm obada şeytançılığ elərəm ki, ayə, bu qız bir oğlanın başıüsdə oxurdu. Dosdum, deyərsən-deyərsən məsələsi yoxdu. Mən bir qızam, bir ordu qurhan sərbazın içindən keşsəm, axırda azmamış olan qızam. Amma sən, sən bir gəlin xanımsan, bir qərənnıx damın dalınnan keşsən, bi yola yüz dənə böhdan yapışdırarlar, şüşü kimin də tutar biləyin.

Allahu-Əkbər, gəlin gördü qız belə sözdər deyir, heş yüz il burdan-buyana mən fikir eliyəm, buları tapa bilmərəm. Amma vəli, həx qızındı, həkkinin altına gedən kimdi.

– Mənim alnım açıxdı, xanım. Mən heç, bax bu, oğlandı. Əgər oğlan olsa, namizədi, xanımı olmasa, bu, oğlandı, mən bir qızam. Əgər lütf eləsən, mən buna gedəcəyəm.

Dedi:

– Belə oları ötürginən. Mən elə böyüyəm də, bu oğlana da gedəciyəm. Sənin də bu oğlanda həqqiyətin yoxdu, qulax as, qoy mən deyim.

Amma, indi götürdü gəlin, dahı görax nə dedi. Mən deyim əyləşənnər sağlığına:

Adım gəlin, özüm xanlar xanıyam,
Əl dəyməmiş Misri qılış qınıyam.
Ərim gəlsə, Ordubadın xanıyam,
Gəncəbaddan Ordubada elim var.

Qız dedi:

– Mənə bax, görüm.

Dedi:

– Hə.

Dedi:

– İndi de görax, həxx sənindi, ya mənimdi?

Gəlin xanım dedi:

– Həx mənimdi, dünənnən də mənimdi.

Dedi:

– Belə nə cür oldu, bu həx sənin oldu?

Dedi:

– Buna görə həx mənim oldu. Biz bunu burda ikimiz tapmışıx?

Dedi:

– Hə.

Dedi:

– Dədə malı kimi buna şərikik?

Dedi:

– Hə.

Dedi:

– Bunu vəsətdən böləciyix.

Xəncəri belə çıxartdı, dayadı Əmrahın belə göbəyinə.

Dedi:

– Xanım, belə indi bunu belləsi deyisən bölüm, belləsi deyisən bölüm. Yarısı mənimdi, yarısı sənindi.

Bu eynidə Əmrah ayılmışdı. Qulağı bularda idi, ayə, görüm buların bəhsinin axırı hara çıxacax. Gördü olar xanım

xəylağıdı, acığa düşər, xəncəri dəyiyip mənim göbəyimə, birdən ordan soxar xəncəri, biləyimi kəsər, qarnımı partdadar. Tez gözdərin aşdı. Gözün açanda, gördülər oğlan ayıldı. Ayıldı.

– Xanım, xanım.

Dedi:

– Bəli.

Dedi:

– Zalımın balası, məni niyə öldürüsən? Məni öldüməhdən heş birizə heş zad yapışmaz.

– Bə nə cür, mənimsən indi, – gəlin dedi, – ya bu qızınsan?

Dedi:

– Qulax as, axı siz sözüzün tovşurmasın deyəmmədiz, qoyun mən sizin sözüzə bir tovşurma deyim. Onnan sora görün sənin olacıyam, ya bu qızın olacıyam, ya heş birizin olmuyacıyam.

Amma Əmrah götürüb sözünün axırın birhessab tovşurma ilə bulara belə deyir.

Mən deyim, genə navara qulax asannar sağlığına. Ağayi Nazimi, ağayi Nüsrəti, ağayi Rüsdəmpur. Bu üş dənə istirio özdəri istiyənnəri bünörələri sağlığına, oların müşdərilərinin sağlığına. Bir də Aşıx Həşimin sağlığına ki, qızın sözdərin oxudu:

Əmrah deyər, hər ikiz də sonasız,
Yar deyibən, qol boynuma salasız.
Axı, xanım, mən ölsəm, hər ikiz də qalasız,
Heş demirsiz ayrılıx var, ölüm var.

Gəlin də başın saldı aşağa. Cavan, indi ixtiyar sənindi. “İxtiyar sənindi” deyəndə qız, gəlinxanım keşdi belə qızın dal tərəfinə, o üzünə, ordan barmağıynan işarə elədi. “Oğlan, aman-amannarın bir günüdü, məni isdə haa. O, qızdı birinə

gedacax da, məni istə məni”. “Məni isdə!” – deyəndə Əmrahın dünya gözündə tiri-tar oldu. Pərvərdigar, gör bir burda nə aləmdi. Axı bə bu birinə gedib, bə birinə kəbinnidi, mənə necə gəlir bu? Bu heyni[1] Əmrah üz tutdu, xanım, icazə versöz, mən bir qatar da oxuyum biləyizə. Amma bu sözdəri Əmrah belə deyir. Biz diyax əyləşənnər sağlığına:

Balduzda bir gözəl gördüm,
Sinəsi ağ qara bənzər.
Yanında bir qız gördüm,
Kəsilməmiş narə bənzər.

Gəlinnən oldum aşına,
Dolanaydım qız başına.
Gəlin Təbriz qumaşına,
Qız pətəhdə bala bənzər.

“Təbriz qumaşı” deyəndə, gəlin ordan işarə eliyir, təh məni de, məni təh de, məni təh de. Amma Əmrah götürüb bu sözü deyir:

– Xanım, sənin o qaş-göz atmağın...

İsdədi gəlinə bi toxansın. Gəlin dahi işarə eləməsin buna.

Sənin o qaş-göz atmağın,
Əmrahı aldatmağın.
Aparıb bazarda satmağın,
Xanım, bir köhnə dəllalə bənzər.

– Nə cür ola bilər sən axı birinə getmisən, birinə kəbinnisən. İndi də mənə gəlisən.

[1] Bu heyni (d) – bu an

Bunu deyəndə gəlinin rəngində qan qalmadı. Üzün tutdu Əmraha bir porsuyub[1] baxdı, çəkildi getdi durdu kənarda. Elə ki çəkilib duranda kənarda, Əmrah gördü, pərvərdigara, neynəməliyəm. Qabağa gedirəm, od yandırır, dalı çəkilirəm, su boğur. Ona deyirəm, onun acığın gəlir, həkkin deyirəm, qız da yapışıb yaxamnan, qopmur. Bunu da alan dəyil, dusdar. Odu ku, gəlinin ellə narahat olmağı Əmrahın çox qəlbinə gəldi, rəhmi gəldi gəlinə. Dedi: "Yaxçısı budu ki, qoy onu bi nəsihət eliyim".

Dusdar, belə işarə elədi gəlin xanıma:

– Gəlinxanım.

Dedi:

– Bəli.

Dedi:

– Sən qiyamət günü mənim bacımsan, amma gəl, bi yol sinəmə bi qatar söz gəldi. Deyim, bu cür olginən dünyada.

– Nə cür olum?

İndi gəlin gəlib qabağa, qız durub bir kənarda, Əmrah götürüb, dusdar, görax nə cür diyacaydı. Gəlini halı eliyacax, gəlin bu işinə peşiman olacax, ya olmuyacax. Bərnamə cəryanı daıstan nə gələcax qabağa, bu şumarrə navarımızda qutuldu. İnşallah, dusdar, dördümüncü navarda xidmətizdə varam. Diyəciyəm dusdarın, ellərin sağlığına, məjlisin sağlığına, əyləşənnər sağlığına, bu navara qulax asannar sağlığına. Dusdar, yadızdan da çıxmasın, navarrarımızı o üç istirio ki demişəm, olardan alıb istifadə eliyərsiz. Birinci çalıram, şad qalasız və şad yaşıyasız.

"Şah Xətai" Divanı oxuram.

Tapılmaz bu dünyada, ey göyli mərdanə dost,
Əl mənimdir, ətəh sənindir, hər insana dost.

---

[1] Porsuyub (d) – qəzəbli, narahat

Dost o dəyil ki, yeyə-içə, yaman gündə yad ola,
Salmalıdı bu dünyada natiqi, Qurana dost.

Bu zamanın dusdarı ya səni cəllad elər,
Ya hərəmxor, ya zinakar, ya da ki möhtac elər.
Həm əhliyal şərməndəsi, həm elinnən yad elər,
Mənnən olsa, deməginən bir belə insanə dost.

Dusdar, indi zaman bir cür olub. Şair elə lap sözün belə o anasın deyir:

Qardaş qardaşa yanmır, səhidir özgə yana,
Neçə görürsən oğul, dədəsi sərgərdan gəzir ona.
Bir zaman zahidi-ruzigar idi ol mürşüdi-meyxana,
İndi olub dost əliylə, indi necə biçar dost.

Xatir-hürmət, ədəb-ərkən biryollux gedib ərədan,
Günbəgün namərdə sarı dolanır çərxi-devran.
Ey cavan, mərdanəlixdən qalmayıb zərrə nişan,
Uymuşux nəfsin felinə, olmuşux şeytanə dost.

Bəli, dusdar, bəli dusdar. Allah qədim ustaddara rəhməd eləsin, gözəl sözdər qoyub gedip. Rəhməddiy Şəhnazi deyir:

Heş kəsə pis övlad verməsin Allah,
Dindirəndə qili-qaldan danışar.
Ədəbi-mərifətdən söhpət düşəndə,
Görərsən yalannan, yaddan danışar.

Danışar sözdərin, bilməz iradın,
Adını batırar qohum-övladın.
Verə bilməz cavabını arvadın,
Ama söz düşəndə Rüstəmi-Zaldan danışar.

Arifi annamaz, alimi qammaz,
Diyər sözdərini hədyan, utanmaz.
Şalvarı yırtılsa, yamax tapammaz,
Di gəl ki qumaşdan, aldan danışar.

Əzizin sözdəri həx barəsində,
İstir övladın əyləşəsən yasında.
Görərsən bi toyux yox qapısında,
Boz sürü köhlənnən, kəldən danışar.

Qədim kişilər elə sözün düz cöhəridir, deyiplər.

İndi söhbətimiz sərmənzilin navardan[1] hənuz o yerdən qalıbdı ki, geçən bərnamə xidmətizə demişəm. Əmrah bulax başında qıznan gəlinə, bir qatar qıznan, gəlin oxuyup Əmrahın başıüstə. Onnan sora Əmrah ayılıb görüb ki, cərəyan belədi, bular bunun üsdündə bəhs eliyillər, gəlinnən çox betər acığı gəldi. Bir qatar da Əmrah gəlinə oxudu. Amma, deyir:

Sənin o qaş-göz atmağın,
Müştərini allatmağın, (ya Əmrahı allatmağın)
Aparıb bazarda satmağın
Bir köhnə dəllalə bənzər.

Xanım bunu eşidəndə, yavaşcanama çəkildi, getdi durdu dalda. Aşıx, Allah ciyərivi yandırsın. Bə sən mənə bu sözü niyə dedin? Məyus, pərişan. O pərişan olan halda Əmrah gördü yerim də yandı, göyüm də yandı. Hər iki dünyada mən yandım, töküldüm. Çün bunun qəlbinə dəydim. Nə yaxçısı budu ki, mən buna nəsiyət eliyim. Əmrah genə sazı aldı sinəsinə.

[1] Sərmənzili navar – hekayənin kassetdə qaldığı natamam hissə

Götürüb görax burda bu xanımın göylün alır, ya nəsiyət eliyir. Nə cür nəsiyət eliyir? Mən deyim tamaşaçılarımızın sağlığına:

Ey ağalar, bu dünyada möhnət çoxdu,
Amma sürəm bir vəfalı yarınan.

Yar odu ki, ilqarında dayanan.
Başın qoya murad düz ilqarınan.

Gəlin xanım belə baxdı Əmrahın üzünə. Allahu-Əkbər, üzünnən mıncıx-mıncıx tər tökülür. İşarə elədi, aşıx, da bəsdi.

– Qulax as, dübarəsin deyim:

Gəl varax gülşanə, ey huri ilqar,
Eynimi eyninnən salma iraqə.
Amma, öz yarınnan varasan xəlvət otağa,
Düşmannarın ölə ahu-zarınan.

Gəlin xanım yenə işarə eylədi:

– Aşıx, təşəkkür eliyirəm. Da mənim bəsimdi.

Dedi:

– Xanım, qulax as, qoy dübarəsin deyim:

Sinən ağdı, Savalanda qar kimi,
Məmə kiçik Gürcüstannan nar kimi.
Züflər tökülüp dal gərdanə mar kimi,
Qoynun içi dopduludu narınan.

Xanım, maşallah çox gözəlsən, çox qəşəh bir gəlinsən. Amma, nə cür dedi:

Gözüm qaldı sənin kimi xanımda,
At oxların, peykan olsun canımda.

Əmrah deyər, daim qalam yanında,
Malınan, mülkünən, düz ilqarınan.

– Mən necə mucərrədəm, sən də elə mucərrad oleydin. Onda şəri peyğəmbərinən[1] mən səni alaydım, halalım olaydın, onda bi yol mən qalaydım sənin yanında. Amma, indi sən mənim bacımsan, mən sənin qardaşın. Mən burdan getməliyəm. Özümün diləyim var, istəyim var, gedirəm onun dalısıcan. O zaman idi qıznan gəlin ikisi də qəyitdilər. Kuzələrin doldurub getdilər, bu dəmdə Əhməd Lələ, dusdar, gəldi, yetirdi. Əmrahınan Əhməd Lələ onda çörəh getimişdi, eyranıdı, kərəydi. Otdular, yedilər, işdilər. Bir az istirahət elədilər, amma vəxdində durub hərəkət eliyiplər. İndi yavaş-yavaş mənzilbəmənzil, teki mən zail[2]. Süxənvərrikdə mənzil olmaz, dusdar. Vəxdində gəlip, Gelsulu yeylaxlarının bir məkanına yetişdilər. Orda ustaddar deyərrər, bir qəhrəman əcala rast gəldi. Dusdar, mən istəmirəm çox söhbətimizi uzadax ki, dusdar hösələdən düşsün. Baxıp-baxıp yorulsunnar. Mən elə uj-qulağınnan qırtıram ki, ta yetişax mətləb üstünə. Ta çox yubatmıyax daıstanı. Qəhrəman əcəlnən rətd olup gedip bir vəxt gəlirdi, yeylağın bu yerinə. Bir tərəfdə bir oba düşmüşdü. O obuya bir dənə xanım gedire. Əmrah aralıdan baxdı, gördü, evi yıxılmasın, bu xanım eynən mənim əmimin qızı Sərvinazdı. Dedi, bu burda neynir. Hətmən fikir elədi. Sən ölmüyə, əmiqızı bizi təqib eliyə-eliyə gəlirmiş. Bu hayannan gəlir? Bə niyə bu yannan gəlir? Bizə qabax gəlir. Dedi:

– Ləlcan.

Dedi:

– Bəli.

---

[1] Peyğəmbərin şəriətiylə
[2] Məndən başqa

– Sən burda dayan. Mən görüm, o xanım kimdi gedir.

Əmrah tovarax qaşdı. Bu xanıma bir-iki metr qədəm qala, xanım dayandı. Gördü bir nəfər qaça-qaça gəlir. Qorxdu, dih durdu. İstədi ağzın versin qaşsın bir tərəfə, Əmrah səsdəndi:

– Ay bacım, getmə.

Xanım dayandı. Əmrah bir az durdu, ahdan çəhdi. O xanım səsdəndi ki:

– Cavan, niyə gəldin, niyə orda dayandın? Mənə baxdın, niyə bir ax çəhdin?

Dedi:

– Xanım, icazə versən, deyim niyə ah çəhdim.

Ama dusdar, götürüp görax burda "Qürbəti" havasıynan nə deyip, biz diyax əziz eşidənnər sağlığına:

Büyün bir gözələ düçar olmuşam,
Aynan günü onda görmüşəm gəlir.
Leyli yanağında qızıl lalələr,
Məcnunam axtarmaxdan həvəsim gəlir.

Elə o xanım qalıb mətəl, avara ki, o ağa nə deyir? Ama, Əmrah dübarəsin deyir:

Tühman gözəlinən bir sən qalıbsan,
Şirin canım eşq oduna salıbsan.
Bir canım var, onu əldən alıbsan,
Quru qəfəsdən nəfəsim gəlir.

– Xanım, da səni gördüm, bi dəfə ixtiyar əldən getdi da.

Xanım güldü. Öz-özünə ehsas elədi. Ayə, bu kimdi? Öz-özünə nə deyip.

– Cavan, heş bilirsən nə danışırsan?

Dedi:

– Necə?

Dedi:

– Bi dənə özgə xanıın qabağını kəsmisən, burda öz-özünə nə deyirsən?

Dedi:

– Heş özüm də bilmirəm nə deyirəm.

Ama bir qulax as:

Leyli Məcnun körpüsünnən geşmişəm,
Eşqin camın dolu-dolu işmişəm
Əmrah deyər, buyün bir sövdaya düşmüşəm,
Xanım, özümün də özümə gülüşüm gəlir.

Dedi:

– Cavan, nə sövdasıdı?

Dedi:

– Vallah, Allahdan gizdin dəyil, sənnən nə gizdədim. Mənim əmqızım var, özüm gəlmişəm qürbət elə, o əmqızım qalıb vətəndə. Səni yerişinnən ona bənzətdim. Odu ki, ordan bura kimi qaşmışam. Ta görəm, əmqızımsan. Ama burda gördüm ki, əmqızım dəyilsan. Odu ki, özümün-özümə gülüşüm gəlir.

O xanım dedi:

– Cavan, Allah işi rast gətisin. Gedəh, qonağımız ol. Xoş gəldin.

İndi Əmrah, Lələ də gəldi, yetişdi. Bahəm rəvanı-rah olublar. İndi gəldilər, bir neçə günnən, gecə-gündüz yol gələnnən soraa, sübh işıxlanan vaxdıdı. Qarannıxdı. Bir dənə gördülər, su axır, gedir o bağın içinə. Kənar bağdı. Bağın dövrə-divarı vardı, amma bu qıraxdan bi dənə ağ su axır, gedir belə bağın içinə.

Əhməd Lələ dedi:

– Oğul, hava istir işıxlana. Burda qoy bir əl-əyağımızı yuyax, bir dincalax, durax gedax.

Əhməd Ləleynən Əmrah o suyun başında. Əmrah cavandı, yorulmuşdu. Necə elə basin qoydu yerə, yuxuladı. Əhməd Lələ gördi, Əmrah yuxuladı. Düşündü: "Qoca adamam, yol gəlmişəm. yorulmuşam. Əyaxlarımın altı yara olup. Otura bilmirəm". Bir çorapların çıxartdı, yudu. Əyaxların salladı o suya. Suyun başında belə oturup, öz-özünə fikir-xiyala geçdi: "Pərvərdigara, nəcür olacax? Hara gedacıx, bizim qismatımız nolacax?". Belə bir fikirrə hava da yavaş-yavaş işıxlaşdı. Otumuşdu elə, baxırdı, gözü sudaydı. Gördü suynan bına bir alma gəlir. Dusdar, yavaşca almanı tutdu. Təsmim tutdu ki, yarısın özü yesin, dədə-bala ürəyidi də, öyün yıxılmasın. Bala dediyin bal rəfidi. Yarısın da dedi, qoy saxlıyım Əmraha. Yarım yedi, gördü alma ağzına çox tamlı gəldi. Belə baxanda gördi, iki dənə də alma gəlir. Tez o yarımı da yedi. Sudan almanı tutdu. Birin yedi, dedi, birin saxlıyım Əmraha. Dusdar, almalar ağzına tatlı gəldi. Dedi, mənə bax görüm, birin də yeyim, bu alma hər nədi, bu bağdan gəlib daa. Dur yavaşcana, keş bu bağdan, düzgün dər gəti, qoy Əmrah yesin. Almanın onu da yedi, dusdar. Yavaşcana durdu, hava lap belə işıxlandı. Durdu yavaşcanama, bağın divarı alçaxdı. O alçax divardan belə aşdı, baba. Bağa aşanda, belə baxdı gördü, əcib bir bağdı. Bir bağdı deyim sənə, haa. Gül gülə salam verir, bülbüllər cəh-cəh vurur, sular qəltən-qəltən axır. Evin yıxılmasın, behiştdi da. Ona məgər bağ demax olur. Elə səfinən ağaşdarı əkiplər ki, vallah, adam həvəsiyir bağa. Belə dolana-dolana, yavaş-yavaş yeridi. O almalar qəlin[1] olan tərəfə. Baxdı gördi, elə betər almalar var: ağ alma var, qırmızı alma var. Hər nə cür gözün işdiyir, alma var. Başdadı bir tərəfdən bir az dərdi. Gördü yox, bellə olmaz. Dusdar, çox məzərət istiyirəm. Əynində bi dənə şalvar vardı, o belə kürdümanənd şalvar idi. Dedim, bağda səhərdi, heş kəs yoxdu, kim vardı, kim məni

---

[1] Qalın

görəcəh. Yavaşcanama o şalvarı çıxartdı, ayaxların belə bağladı. Oldu xurcun kimi, cəntə kimi. Aşırdı çiyninə, başdadı almalardan dərir, yığır bu cəntiyə ki, ayə, dərim, aparım verim o üzdə Əmrah yesin. Dusdar, baxdı gördü bu alma ki dərmişəm, o ağaş, bunnan yaxçıdı. Geşdi o ağaca. Burdan boşaltdı yerə, o ağaca baxdı, gördü, o bunnan da yaxçıdı. Almalar yaxçı yetişip. Boşaltdı yerə, getsin ona. Onda belə baxanda gördi, bi dənə qabaxda saxtuman var, ağaşdı bi dənə. O, saxtumanın qabağında bir ağaşdı. Dörd-beş cürə alması vardı. Dedi, yaxçısı budu elə, gedim, o alma qəşəydi, onnan dərim. O alma hansı almadı, dusdar? O alma Səyyad Pərinin əhdi-peyman almasıdı. O almanı çoxdandı peyvənd salmışdı, Əmrahı ki yuxuda gördü, dedi, pərvərdigara, mən əhd eliyirəm, ta Əmrah gəlmiyincə bu ağaşdan, bu almalardan bi dənə dərmiyiciyəm. Lələ yetirdi hənüz suala cavab. Baxdı, gördü bunda dörd-beş cürə, rəngbərəng alma var. Yavaşcanama o ki çəntəsinə dərmişdi, o şalvara doldurmuşdu, oları boşaltdı yerə. Başdadı bu almanın üç rənginnən dərdi, xurcunun doldurdu. Gördü biri qalır, ona yerim yoxdu. Ona da əlin atdı, butanı kim sındırdı, elə bunu da aparcıyam. Əmrahı dəbərtmiyəcəm, sancacam Əmrahın başı üstünə, Əmrahı çağıracayam. Gözün aça görə bə. Oxədə yatmışam, burda alma ağacı göyərip, sevinə dura, tez almalardan dərə yeyə. Amma, bu almanın butasın sındıran sahat, dusdar, qız yuxuda gördi. Yuxuda gördi, bir dənə qərə kəl girip bağa, öncəliyinən bu bağın hayan tərəfdən, xan çapacaq buynuzun salıp, çadır atır eşiyə. Yuxudan sərsəm qalxdı, çığırdı. Çığıranda, Nərgiz dayəsi vardı. Gəldi tez başıüstə.

– Xanım, nolup?

Dedi:

– Qız, ürəyin yanmasın. Bir yuxu gördüm, ürəyim üzüldü.

– De, nə yuxusu gördün?

Dedi:

– Yuxuda gördüm, Allah eləməsin, Allah eləməsin. Bağa bi dənə qərə bir kəl giripdi, hənsi ağaca buynuzun ilişdirir, on metr çıxardır, alma ağacın atır. Elə yetirdi mənim yar almama, buynuzun ona ilişdirəndə, çığırdım. Ondaydı qalxdım ayağa. Amandı, Nərgiz dayə, gör yar almasının başına bir qəzavü-qədərrər gələr. Gör o yuxum mənim nəmənədi?

Nərgiz dayə o zaman tovarax çıxdı mənzildən. vəxtində gəlir. Belə baxanda aralıdan gördü, ədə, bi dənə qoca kişidi. Bax, o dəri xurcunun doldurup, butanı da sındırıp, qoyup yanına. Oturup almalardan yeyir burda. Belə ki, vəziyyəti o cür görəndə, qaşdı:

– Xanım, xanım, xanım.

Dilə tutar:

– Bəli, bəli, qız, nolub? Nərgiz, nə olub?

Dedi:

– Xanım, nolacax? Evin yıxılmasın, bağı talıyıplare.

– Necə talıyıplar, qız?

– Qulax as, deyim necə talıyıplar.

Dolannam başına, alagöz xanım,
Bir qoca dəripdi yar almasını.
Həsrətin çəhməhdən çıxır bu canım,
Bir qoca dəripdi yar almasını.

– Qız, necə bir qoca dəripdi? Qoca kimdi?

Dedi:

– Xanım, qulax as, deyim daa.

Qoca yeyip, yar almasın doyupdu,
Xanım, dişi yoxdu, damağıynan soyupdu.

(Xanım, hələ bir çəntəsi var, onu doldurup, heç butanı da sındırıp qoyup bi tərəfə, onu da diyəm aparacaxdı.)

Sındırıp butasını yanə qoyupdu,

Amma bir qoca dəripdi, yar almasını.

– Qız, bə evin yıxılsın, neyniyax?

Dedi:

– Xanım, neyniyaceyıx? Qulax as. Xanım, bilisən neyniyacayıx?

Özün hökm eylə, qursunnar darı,
Onu heş cür mucazat eylamağ olmaz.
(Madam ki belədi, onu öldurax, canı qurtula.)
Salıpdı göylümə qəmi-qübarı,
Bir qoca dəripdi yar almasını.

O almanı sındırıp, məni sənnən betər yandırıre. Xanım, deyirsən ki, nə cür olup onu sındırıp? Bipərvaydı, dusdar, əynində bi dənə şalvarı varıydı, onu da çıxardıp, almeynən doldurmuşdu, lütüdü daa. Bipərvaydı, baxammadım yuxarı daa, başımı qaldırıp, diqqətdi baxammadım görüm. Bir qoca dəripdi, yar almasını.

– Qız, evin yıxılmasın, yaxuna gedəmmirdin. Baxammırdın, bir hay sala bilərdin.

Amma, dedi, bəlkə də hay salmışam, qulax as:

Sən eşitginən, mən Nərgizin sözünü,
Vırıbdı ürəyimə qəmin közünü,
Ha səslədim, eşitmədi sözümü,
(Qoca adamdı, qulağı da bir az ağır eşidirdi.)
Amma, bir qoca dəripdi yar almasını.

Ondaydı dedi:

– Bə, qız niyə dayanmısan? Hay ver kənizdərə.

Dusdar, qırx dənə qızın zərxərid kənizi vardı. Qırx kəniz, beş dayə. O vəx həm də elədilər, o saxtumanın qaba-

ğında yar almasına. Amma Əhməd Lələ elə istirdi ki, cəntəni götüsün, butanı götüsün, hərəkət eləsin, belə baxanda gördi, bir səs-səda gəlir. Əyildi almaların altınnan belə baxanda, dusdar, gördi bir dəstə qız-gəlin sürüsü gəliree. Allah, necə eliyim? Qoca bir adam. Tez cəntəni də atdı yerə, butanı da atdı yerə. Bi dənə alma ağacı vardı, top elə bir ağacdı. Ortası bihesabınan xaliydi. Ordan dırmaşdı, qalxdı getdi. O alma ağacının vəsətində otdu. Səyyad Pəri o zaman yetidi, baxdı, gördü, didi, bax o cəntə burdadı, buta da sınıp, burdadı, amma burda adamnan asar yoxdu.

– Qız, bə Nərgiz hanı, bə?

Dedi:

– Xanım, elə mən burda qoyup getmişəm. bax, budu, burdaydı. Elə budu burdaydı, belə baxırdı.

Gözün dolandırdı bağa. Belə sağ tərəfə baxanda, almıya baxanda, baxdı gördü, bəli, qoca burda oturup.

Ama heç özünnən xəbəri yoxdu, nə vəziyyətdə oturup. Tez başın saldı aşağa. Səsdəndi:

– Qoca.

Dedi:

– Qoca.

Dedi:

– Bəli.

– Qoca, niyə çıxmısan ora?

Dedi:

– Bə, xanım, neyniyim? Çıxmıyaydim, məni öldürəydiz?

Dedi:

– De, görüm, ora niyə çıxmısan axı? Düş aşağa görüm, düş.

Dedi:

– Xanım, düşəmmənəm.

Dedi:

– Niyə?

Dedi:

– Sizin bu bağızın bi belə mənzərəsi var, Allah o mühəndisi salamat eləsin ki, nəxşə çəkib bu qəşəh lətifnən lavaşdaşı qoyub gedin o başa, bu başa.

Qızın ürəyinnən yerə qannar axır. Buta sınıpdı. Hələ bu oturup qıza bağın nəxşəsin nişan verir. Xanım belə bu almalar mənə xoş gəlipdi. Dedi:

– Qoca, baxammıram yuxarı. Düş aşağa, görüm.

Dedi:

– Xanım, vallah, düşəmmənəm.

Bilir da, əgər düşsə, qırx dana kənizdi, bunu budar-bardax[1] doğruyacaxlar.

Dedi:

– İndi, qoca, düşmürsən?

Dedi:

– Vallah, xanım, belə düşəmmənəm.

Dedi:

– İndi mən səni düşürdərəm. Qız, o çər-çubuxçunu gətirin.

Qızdardan biri çər-çubuxçunu gətdi.

Əhməd Lələ gördü, bu, altdan ağacı kəsacax, mən burdan şappıltıynan düşacıyam, bunun döyüp öldürməsinnən də pis olacax.

Dedi:

– Xanım, kəsmə, alma hayıfdı, qoy mən düşüm aşağa.

İndi Əhməd Lələ yavaşcanama gəldi aşağa. Elə aşağa gələndə, qız dəsdur verdi:

– Qızdar, tutun görüm bunu. Evin yıxılmasın, qızdar.

Yeyib əsniyipdi, hamısı elə bil cöngədilər. O vaxt Əhməd Lələnin qılçaların tutdular.

– Xanım, neyniyax.

---

[1] Budar-bardax (d) – hissə-hissə, parçalanmış şəkildə

Dedi:

– Belə onun o köynəyini, üzqulu yıxın beləsi.

Üzüqulu yıxdılar.

Dedi:

– O köynəyin də qovzuyun, getsin başına sarı.

Qovzadılar.

Dedi:

– Qızılgüllərin o tikannısınnan bına üş, dört yannan bir kol vuracaysız ki, bunun qannı köpüh kürəhlərinnən qalxa göyə. Gör bu nə hesabınan gəlip almanı dərip. Dərməyi bəs dəyil, butanı da vırıp sındırıp.

Ağa, qızdar Əhməd Lələni az vırdılar, şirin vırdılar, Əhməd Lələnin əl hərey getdi göyə. Elə ki əl həray getdi göyə, əlin qovzadı.

– Xanım, xanım, məni öldürmə! Rəhmədiyin qızı, qoy sinəmə bir qatar söz gəlip onu deyim.

Dosdar, nə cür diyacax. İndi qızlar çəkilin dalı. Əhməd Lələ üzün tutup xanıma:

– Xanım, mən ölüm, qulax as, bax qulax asginən, almaynan da adam öldürəllər, evi xarap.

Dolannam başına, alagöz xanım,
Dərmişəm bağında bir neçə alma.
Əgər bağ sahabi özü bağda olsaydı,
İstəseydim, verərdi bi bağ almanı.

– Evin yıxılmasın, bağ sahibi özü burda olseydi, istəsəydin verərdi alma. Evin yıxılmasın, mənim bu ağsaqqalırmnan utan! Bə sən dört dənə almadan ötri məni öldürüsən?

Dedi:

– Qoca, qoca. Bu bağı görüsən? Bunun almasının şeşdəngin dərəydin, qoca, bu bağın almasınnan əlavə dənəbədənə kəsib yerə tökəydin. Evi yıxılsın əgər sənə bir çimdih

vuranın. Ama çün mənim bu yar almamdı, əhdi-peyman almamdı, onun da butasın sındırmısan. Sən öləsən o cür ömrü butasın sındıracıyam.

Dedi:

– Xanım, o butadan ötrü məni vurursan?

Dedi:

– Hə.

Dedi:

– Bir dəyqə qulax as da.

– Hələ, qoca, de görüm, sən nə bildin bu yekəlihdə bağda, burda bu alma var, gəldin çıxdın bura?

Dedi:

– Xanım.

Suda gözüm düşdü bir almasına,
Nəzərim işlədi bir almasına.
(Mənzurum bir alma dərmək idi.)
Əlimi atdım bir almasına,
Şaqqıldıyıb sındı budağı alma.

– Budax şakk idi, peyvənd idi, yaxud tutmamışdı. Elə mən bir almanı belə çəkəndə, yuxarı buta sındı. İndi mənim günahım nəmənədi.

Dedi:

– Qoca.

Dedi:

– Bəli.

– Əlacın yoxdu. Dilin kəs, atasan da. Elə axır ölümündü. Axır biləyə kötəhdi, vururam, kəlmeyi-şəadəti deginən.

Dedi:

– Xanım, ciddən məni öldürəcəysən bu almadan ötrü?

Dedi:

– Bəli, səni öldürəciyəm, sən mənim ömrümün butasın sındırmısan. Çün o mənim əhdi-peyman almam idi. Mən yarımnan o almadan dərib yeyəcəydim, sən də onu sındırdın, day mənim ömrümün butasın sındırdın. O cür gərəh ömrü butasın sındıram, sən öləsən.

Əhməd dedi:

– Xanım, elə də məni öldürəssən. Elə mən diyən kimi öldür də.

– Nə cür?

– Qulax as, deyim da.

Dedi:

– Xanım, qurbanı kəsəydim.

– Bəs mənim bu hissimi öldüginən.

Baxdi bir xanımın üzünə. Gördü Lələ ki, bu, elə məni öldüracax, öldürsə, başım elə bunun dizinin üsdünə dəysə, elə mən gedərəm behiştə.

Çox uzağa atma daşın Əhmədin,
Axıtma gözünnən yaşın Əhmədin.
Kəs dizin üstə başın Əhmədin,
Qoy, qan sel olsun alsın bu bağı alma.

Qız bir miləh güldü. Dedi:

– Qızdar, siz bu qocada eşq-həvəsə baxginən. Siz bu qocada hösəliyə baxın. Siz Allahız, ölüm bu vaxdında, deyir, başımı dizinin üsdündə kəsginən.

– Qızdar.

Dedi:

– Bəli.

Dedi:

– Uzadın yerəginən qocanı.

Allahu-Əkbər, Lələ gördü sən ölmüyəsən, day bu səfər uzatsalar, vursalar, day hətmən öləciyəm. Day məndə can qalmaz, qoca adamam.

Dedi:

– Xanım, xanım.

Dedi:

– Bəli.

Dedi:

– Xanım, səni and vermişəm Səməd Allaha. İnsaf eləginən. Qoy elədə sinəmə bir qatar da söz gəldi. Onu da deyim, onnan sora öldürsən də öldür day məni.

Amma götürüp görax nə cür deyir. Biz deyax ellərimizin sağlığına:

Bir ərzim var sənə, ay səyyar xanım,
Dərmişəm bir neçə alma bağınnan.
(Xanım, hər yana getsən, günahkar mənəm. Day elə bi də oğurruğa gələn günahkardı da.)
Hər yana getsəm, günahkar mənəm,
Məni qovhaqova salma bağında.

– Məni təxsirkar tutacaxlar. Amma bir mən ölüm, məni qovhaqova salma bağında. Xanım, insaf elə. Almadan ötrü adam öldürməzdər.

Səsdəndi:

– Qoca.

Dedi:

– Bəli.

Dedi:

– Qoca, özün bilirsən mən səni almadan ötrü öldürmürəm. çün, yar almamın butasın sındırmısane. Mən də ömrü butasın sındıracıyam. Amma de sözünü qutar.

Xanım, qışın çilləsində qar olur dağlar,
Kim mənim əhvalımı görsə, əhvalıma ağlar.
Çəkibsən sinəmə düyünnü dağlar,
Məni qovhaqova salma bağında.

Dedi:

– Qoca, tez ol, sözü qurtar. Qurtar sözü, verrəm boynunu vursunnar.

Dusdar, şair rəhməddih Hüseyn Cavan deyir:

– Ey ağalar, üş şey başa bəladı, yaman arvat, yaman övlat, yaman at. İstiyəsən ki, bunnan canın qurtula, birin boşa, birin boşla, birin sat.

Bədəsil arvat tez kişini qocaldar,
Əsil arvat bol dərdini azaldar,
Üş şey bu dünyada başı ucaldar,
Yaxçı səfa, açıx sırfa, təmiz ad.

Yaman qohum xəlqi adama güldürər,
Pis qardaşın dərdi adam öldürər.
Hüseyn deyər, yıxılsam da qaldırar,
Qəvi duşman, qeyrətdi dost, yaxçı yad.

Əvvəldə rəsmiyyət aşıxlığıdı, bi divan oxuram, onnan sora gedax söhbətin üstünə.

Bəslənibdir beşiyində can-ciyərim, ey vətən,
İliyim, sümüyüm, qanım, damarrarım, ey vətən.
Bir ləhcə zillətdə qalmam yəqin bir atam kimi,
Sənin yolunda ölməhdi......., ey vətən.

Həq sərgərdan alınmaz, əlində şəmşir olmasa,
Saxlamax olmasa dəliyini, gərçi zəncir olmasa,

Mustafanın məktəbi ilə məktəbin bir olmasa,
Zillət dusdağında geçər ruzigarın, ey vətən.

Mənsursayax gündə yüz yol gər çəkilsəm darə mən,
Bir qarış torpağımnan verməərəm əğyarə mən.
Cavannardə cavannarı çəkərəm məşarə mən,
Bir qətrə qanım qalınca ehtibarın, ey vətən.

Həmvətənnər sağlığına, vətənin istiyənnər sağlığına, vətən yolunda zəhməd çəkənnərin sağlığına. Dusdar, söhbət sərmənzili-navarda həmin o yerdən qalıb ki, demişam daa, Əhməd Lələni qızlar vurullar, nəcür vurullar, amma indi iş burasındadı ki:

Qışın çilləsində qar olu dağlar,
Məni görənnər əhvalıma oyanıb ağlar.
Çəkibsən sinəmə düyünnü dağlar,
Məni qohaqova salma bağında.

Öz-özünə əmi bi fikir eylədi. Dedi:

– Oğul, mənə bax görüm, elə mən Əmrahın üsdündə bu kötəyi yeyirəm. Aşmasaydım onu bağdan alıb aparam, ayə, mən kötəyi niyə rast gətidim, niyə yeyirdim? Onnan da sora mən bir qoca adamam, məni bi çıkkana vursalar, öllam daa. Olmasa, qoy Əmrahın adın verim, Əmrahı deyim gətisinnər bilaqa, kötəyə bir az da şərik o olsun. Bir ton da onu vursunnar.

O cür olanda, dusdar, qız işarə elədi:

– Qoca.

Dedi:

– Bəli.

– Qoca, belə qutar sözün, qurtulanı, belə verəciyəm boynuu vuralar.

– Xanım.

Dedi:

– Bəli.

Dedi:

– Xanım, insaf eylə, səni and vermişəm Səməd Allaha. Öldürmə məni, qulax as, qoy sözümün o birsin deyim.

Amma götürüp o birsin "Siyastapur" havasıynan oxuram. Görüb eşidənnər sağlığına:

Alma-alma deməyinən alma azalmaz,
Şamama dərməyinən bostan pozulmaz.
Xanım, sənallah, bir Əhməd ölməyinən aşıx az olmaz,
Əmrahı zindana salma bağında.

"Əmrah" adı gələndə qızın qulaxları səsdəndi.

– Qoca.

Dedi:

– Bəli.

Dedi:

– Qoca, Əmrah kimdi?

Dədə-baba ürəyidi, gördü bara qoymuşam, utuzdum Əmrahı deməhdən, amma qoy bəlkə altınnan çıxım.

Dedi:

– Xanım, belə "Əmrah" sözdü, ağzıma gəldi, dedim daa.

Dedi:

– Qoca, düzün de görüm, Əmrah kimdi?

Dedi:

– Xanım, vallah, Əmrah mənim vətənimizdə bir dənə nökərim vardı, adı Əmrah idi. Hərdən onu mən də bir bellə vurardım, siz məni vuran halda, o yadıma düşdü. Əmrah o idi.

Dedi:

– Qızlar çalın, bu yalan deyir. O qədər çalın ki, düzün desin görüm, Əmrah kimdi?

Elə ki qızdar istədilər Lələni vursunnar, Lələ əlin uzatdi, xanım, xanım, icazə verin, düzün deyim.

Dedi:

– Düzün de görüm, Əmrah kimdi?

Dedi:

– Xanım, vallah, mən öz mahalımızda, öz yerimizdə davara gedərdim. Çobanıydım, mənim bi dənə təkəm vardı, adın qoymuşdum Əmrah. O yadıma düşdü bu eyndə. Düşərdi davarın qabağına, hayana getsəydim, gələrdi o yana.

Dedi:

– Qızdar, deyəsən bu bizi məsxərə eliyir. Da bi yol vurun, qoyun ölsün.

Qızdar istədi həml eliyə.

Dedi:

– Xanım, xanım, sən allah, bir mən ölüm, dəyan, qoy mən bi yol düzün sənə deyim Əmrah kimdi. Da məni niyə öldürüsən?

Dedi:

– Düzün de görüm, Əmrah kimdi?

Dedi:

– Əmrah nökərimdi.

– Hardadı?

Dedi:

– Belə bu bağın odu, o üzündə, o çayın üstündə yatıpdı. Mən sakı girdim bağdan bir az alma dərəm, aparam, o, yuxudan ayıla yiyə, yorulup yatıp, bu bağın eşih üzündədi.

Qız dedi:

– Sən ölmüyəsən, elə bunacağı öz qıçıma vuraciyəm. Bu mənim qəynətəm olacaxdı ki, ilkin vaxtdan bu benavıya kötəh vurduram.

Dedi:

– Əmi, qoca.
Dedi:
– Bəli.
Dedi:
– Qoca, belə lap düzün deyisən, oğlunun neçə sindi ola?
Dedi:
– Xanım, indi on dörd-on beş sindi var.
– Yaxçı. Bax görüm, əgər düz deyisən, qızdarınan get, oğluyu gətiginən bura. Əgər mən diyən oğul olsa, mən diyən oğlan olsa, sənin başuya belə dolanaciyəm, qoca. Bax bu qızlardan hansınsa da istəsən, bax birin verəciyəm biləyinə. Amma, mən diyən oğlan olsa, mən diyən oğlan olmasa, genə dərüya saman təpəciyəm.
Əhməd Lələ dedi:
– Olsun, xanım. Sən icazə buyurginən, mən gedim oğlanı gətirim.
Dedi:
– Belə olmaz.
Dedi:
– Qızdar.
Dedi:
– Bəli.
Dedi:
– Qızdar, bu qocaynan gedəcəksiz, o oğlan hardadı, onu tapacaysız, oğlanı da götürüp gələsiz, o qocanı da gətirəssiz, navar kı ötürəsiz, qaça ha. Bunu da elə o oğlannan götürün gəlin, görüm kimdi.
Ondaydı dusdar, qızlar Əhməd Ləlȩni götürüplər. İndi bağdan çıxıllar eşiyə, gəlillər Əmraha sarı. Amma qız dəsdur verdi, belə bağın qapıdan tayda saxtumana kimi payandaz fərş döşəndi. Qızlar, Əhməd Ləlȩni bir bir yarımcan belə əllərində apardılar. O qədər vuruplar, Əhməd Lələdə hərəkət qalmıyıb ki, yerisin benava. Bir cardan sora qızlar elə oynamağ üçün,

məsğərə üçün bunu aldılar başlarına. Əhməd Lələni indi başlarında aparıllar. Əhməd gördü bir qilü-qal səs gəlir. Yuxudan ayıldı, gözlərin açanda gördi bi dəsdə qız-gəlindi, bir hay sala-sala gəliplər, sənə deyim, qazın sürüsü göldən çıxıb gəlib, səs salıblar. Bunnar nəmənədi, bu kimdi? Diqqətdi baxanda gördü, Əhməd Lələ bunnarın başında oynur. Tez yerinnən durdu əyağa.

– Lələ.

Dedi:

– Can, bala. Lələ, bə sən orda nə iş görürsən, kişi? Sən qızların başında neylirsən?

Qızlar yavaşca Əhməd Lələni qoydular yerə. Oğul baxdı gördü Əhməd Lələ bir ayrı övzadadı. Kişi niyə bu günə qalıb?

– Kişi, nolub sənə?

Dedi:

– Oğul, bir bax, qulax as, deyim nolup.

Amma götürüb burda görax Əhməd Lələ "Şahsevən" hayasıynan, dusdar, nə deyir. Mən deyim əziz eşidənnər sağlığına:

Dolannam başuya, bala,
Bala, gözəllər bağdadı, bağda.
Səni gördüm, daldım xiyala,
Oğul, can alan bağdadır, bağda.

Dedi:

– Nə gözəlləri, nə can alanı, ay Lələ? Sən hardan danışısan, kişi, bu vəzə niyə qalmısan?

Amma Lələ dübarəsin deyir:

Oğul, heç soruşmursan halımı,
Çıbıx yandırıp dalımı.

(O xədər şivit[1] çıbıxnan vırıplar ki, kürəhlərim şıntır şəhrə[2] yaradı.)
Xəbər alsan o zalımı,
Xan Səyyad bağdadı, bağda.

– Lələ.
Dedi:
– Bəli.
Dedi:
– Lələ, Səyyad kimdi, kişi, axı sən bağda neynirdin?
– Oğul, qulax as, qoy deyim.

Oğul, əyninə geyinip qırmızı,
Şoqu bürüyüpdü düzü.
Xəbər alsan əgər o, Alxatın şahının qızı,
Can alan bağdadı, bağda.

– Oğul, bir dənə əzrayıldı, heş demiyəsən.
Əmrah, "Alxatın şahının qızı Səyyad Pəri" deyəndə, dedi:
– Sən ölmüyəsən, iş düz yerindədi.
– Lələ.
Dedi:
– Qutar sözünü.

Oğul, dur, uşax durdu daha,
Üz döndarax qibləgaha.
Əhməd desin, xan Əmraha,
Bala, əzrayıl bağdadı, bağda.

---

[1] Şivit (d) – nazik
[2] Şəhrə (d) – bədənin yağı (piyi)

Əmrah, oğul, dur elə bu qızların əlinnən canı qutara bilsax, qaçax, amandı.

Bir də bu bağa sarı əslən dönüp baxmaginən də. Qızlar dedilər hara, sizi qərar budu ki, aparax, xanıma təhvil verəh.

İndi söhpətə çox tul vermiyəh. Ləleynən Əmrahı qızlar gətdilər, o yannan belə bağın qapısınnan. Elə qapıdan istirdilər varid olalar içəri, Əmrah bi ehsas eylədi. Dedi:

– Bi bura bax, görüm. Mən Ərzədinnən bura bir də bir qoca kişini götürüp, yola düşüp gəlmişəm bu bağının qapısınacan, görüm nə vax Pəri gəlacax, məni peşvaz elər, ya yox.

Belə baxanda gördi, saxtumanın ikinci təbəqədə pencərədən bellə durup, baxır Əmraha. Əmrah gördi can, can. Əmrah burda dusdar, götürüp görax nə dedi, biz diyax, gina hörmətdi eşidənnər sağlığına:

Gözüm bir gözələ düşdü,
Baxır cənnət sarayınnan.
Gözümün nuru qamaşdı,
Onun nuru didarınnan.

Alıb eşqin camın işdim,
Bir yaman oddara düşdüm.
Yarınan dedim, danışdım,
İnşallah, busə allam yanağınnan.

Qız ordan baxıp, ehsas eliyir ki, ayə, adam-adama bənzər də. Olmaz ki, elə hər yetən bi "Əmrah" desə, mən gedəm qolumu salam Əmrahın boynuna. Ama mən bunu bi diqqətdi imtahan eliyim. İmtahannan çıxsa, elə qəbul eylərəm ki Əmrahdı. Amma baxır ordan. Göz sataşdı Ləliyə, belə çönəndə gördi, Lələ bir gözü qızdardadı. Baxır dayələrə, kənizlərə. Amma kürəyinnən qan belə süzülür gəlir, tökülür ayağının üzünə. Ləlləni ellə görən, tutup üzü qıza, bellə deyib:

Bağın qapısı güldü,
Oxuyan şeyda bülbüldü.
Əmrah sövdüyünə quldu,
Geş Lələmin günahınnan.

Lələ bilmiyip aşıp bağa, bağda butamı sındırıp, neyliyip, Lələni də mənə güzəşt eylə. Qız ehsas eylədi, mən peşvazda, elə bu heyni diyəmməm ki, Əmrahdı. Belə xırıltıynan pərdəni çəkdi. Pərdəni çəkəndə Əmrah müntəzir oldı ki, dedi, xanım, pərdəni cəhdi, getdi aşağı, qapıdan ənə gələ. Ha durdu, gördü sorax yoxdı. Qız gəlmədi. Gəlmiyəndə, üz tutdu Ləliyə.

Dedi:

– Lələ.

Dedi:

– Bəli.

– Lələ, elə bilisən, biz bura iştibah gəlmişih?

– Necə oğul?

Dedi:

– Lələ, bə qız bizi saymadı, pərdəni də çəhdi. Məlum eliyən, qəyidib getməliyih.

Lələ dedi:

– Oğul, bəyəm onnan ötrü gəlməmisən, qurban kəsəydim?! Oğul, nə oldu təzdən peşimannadın, bırdan qəyidib getsən.

Belə baxanda, Əmrah o qədər narahat oldı.

Bir qazan suyu eləsən təpədən töhdün, dırnağınacan isdandı. Belə baxanda gördi, göydə bi dəsdə durna gedir. Özözünə dedi:

– Lələ.

Dedi:

– Bəli.

Dedi:

– Lələ, bu durnaları görürsən, gedillər Ərzədinə sarı. Mən olardan bi qatar ərz-hal yolluyum əmqızıma. Əmqızım çox insan, tamam məna insanmış. Əmqızım çox məhəbbətdi imiş. Mən işdibah elmişəm, əmqızımı ötürüp, bu çəpəldən ötrü düşüp gəlmişəm, bu çöllü-biyabanda səni də əsir eləmişəm.

– Oğul, noldu yenə peşimannadın? Dosdun qız indi gələr.

Dedi:

– Lələ, yox, yox. Lələ, qoy bunu oxuyum. Burdan çıxmalıyıx.

Bunnan gedər olsoz bizim ellərə,
Deynən Səlvim mənnən əlin üzməsin.
Axı qürbət eldəyəm, əlim çatmır əlinə,
Saralıban gül irəngi solmasın.

Əmrah deyir, gözlərinnən pır-pır yaş tökülür.

Lələ deyir:

– Oğul, qurban kəsəydim, bala, nolub? Hələ vax qoyax, qız bizi gəlmədi, peşvaz eyləmədi, dindirmədi. Eləməz ki, bizi bir gecə qonax eliyə, bırda biz qalax, dincalax, qəyidax gedah.

Dedi:

– Lələ, qalmam, qalmam. Bir çayın da işməm. Bir qulax as.

Doldurup, doldurup, xədəngin[1] atar,
Qanımın yerinə məzələr tutar.
Kişi namərhəm hesaplıyıp,
Pərdəni atar ..........

Xırıltıynan pərdəni çəhdi, istəmədi üzü-üzümüzə sataşsın. Namərhəm hesaplıyıp pərdəni çəkəndə, deyir namərhəmdi, gözüm görməsin. Lələ dedi:

[1] Xədəng (d) – oxun qabı

– Oğul, özün bilisən.

Əmrah belə baxanda, gördi, durnalar axdı getdi. Amma sözü belə deyir:

Əmrah deyər, əl Səyyada yetişdi,
Dəli göylüm havalandı, havadan uşdu.
Lələcan, bir ah çəhdim, ellər yadıma düşdü.
Amma heş kimsənə elinnən ayrı düşməsin.

Əmqızım nə mərifətdi insan imiş. Əmqızım nə gözəl bir insanmış, əmqızımın mən ərzişin bilmədim. Düşdüm bunun dalısınca gəldim bura.

Ağa, Əmrah burda yapışdı Lələnin əlinnən qəyitsin, amma qız pərdənin dalısınnan baxırdı. Belə baxanda gördi, sən ölmüyəsən Əmrahdı, getdi. Ordan səsdəndi:

– Qızdar, qoymuyun, getməsin, gəldim.

O qırx pilləni heş bilmədi nə cürə əndi. Qaşdı bağın qapısınnan, qızdar, Əmrahgili saxlıyıb. Vəxdində yetişdi səlam verdi.

– Qurbanın kəsərdim, Əmrah, bə hara gedisən?

Dedi:

– Xanım, biz bu uzaxlıxda yolu ordan bura sənnən ötrü gəlmişih. Axı, burda da sən bizi qovusan daa. Bellədə qonax saxlalar, belə də qonağa xidmət elələr?

Əmrah bir müşdəri gözüynən baxdı və yuxuda gördü-yüm qızdı.

Ala gözlüm, qəsd eyləmə, amandı,
Düzmə ürəyimin köz dövrəsinə,
O eşidər kirpihlərin çəh-çəkip durub,
Nə gözəl düzülüp göz dövrəsinə.

Öyrəşmisən cavan olmağın fəndini,
Öldüm, bağla ağ sinənin bəndini.

Gizdət zənəxdanda xalı-hindini,
O qarə tellərindən belə düz dövrəsinə.

Qaşın kaman, kiprihlərin oxdu,
Zalım fələh mənə bir toy toxudu.
Ay namərdin balası, indiyəcən dərdi-qəmim yoxdu,
Dahi indi yetidi yüz dövrəsinə.

Dərdin indiyə bir olseydi qızın məhəbbəti. Əmrahın ürəyində oldu min.

– Xanım, indi bizi təfil alısan?

Dedi:

– Sənin adın nədi?

Dedi:

– Mənim adım Əmrahdı.

Dedi:

– Mən səni yuxuda gördüğum oğlansan?

Dedi:

– Bəli.

Dedi:

– Olmaz ki, elə mən səni qəbul eliyəm. Adam-adama oxşar. Mən deyə bilməm ki sən osan. Gedəh bağa, saxtumana, orda bi ye, iş. Mən sənnən bir neçə imtahanım var. O imtahannarımnan çıxsan, qəbul eliyərəm ki, sən Əmrahsan.

Əmrah dedi:

– Xanım, nə cür deyirsən, elə eliyax.

İndi bax, birlihdə qəyitdilər saxtumana. Dusdar, o pillələri qəyitdilər saxtumana, üsdə indi yeyiplər-içiplər, yeyipiçənnən sora, qız üz tutdu:

– Əmrah, mən qəbul eliyirəm. Sən Əmrahsan, amma durup geçəssən o birsi otağa. Mən qızlardan biri aramızda qasid olacax. Mən nə hərakatdar eliyirəm, sən oları bilsən, lap mütməyin ollam ki, sən Əmrahsan.

Dedi:

– Xanım, gəl, qəbul eliyyəm.

İndi Əmrah keşip o birsi otağa. Qız bu üzdə durupdu, fikirdədi. Belə əlin qoyup iki qaşının arasına, xiyaldadı.

Dedi:

– Qız, get Əmrahdan xəbər al gör, mən nə iş görürəm.

Dusdar, "Qars" havasıynan gedirəm:

Qadir Allah bədr eyləmiş camalın,
İki qaşın təhri hilalə düşmüş.
Sən ənquştun qüdrəti ilə
Aşiqi giryanın xəyala düşmüş.

Gördü necə ki barmağımı qoymuşam iki qaşın arasına, Əmrah burda fikirdə.

– Əmrah, onu bildim, bu birsinə qulax as.

Dusdar, nə iş görür? Bir piyala şərbətdi, nəmənədi, doldurup belə, dayıyıp dodağına.

– Qız xəbər al gör, Əmrah desin, daha nə iş görürəm.

Alçaxdan ucaya "nun" düşən kimi,
"Lam" "əlif" üstünnən "sin" düşən kimi,
Dəmir günbəzdən gün düşən kimi,
Mübarəh ləbinə xanım, piyalə düşmüş.

Qız gördü Əmrah bunu da bildi.

– Əmrah, birdənəsi qaldı, onu da bilsən, tay ordan oyana itminan[1] eliyərəm ki, Əmrahsan.

Amma dusdar, götürüp, görax axır bəndin Əmrah nə cür deyip, izdiyax bu sidilərə qulax asannanar sağlığına.

Dusdar qız əlinə bir şaxə gül almışdı.

---

[1] Əmin olmaq

– Qızdar, deyin görüm, Əmrah biləcax bu gül mənim əlimdədir, ya yox?

Əmrah deyər, bağ adamının,
Tohəsi gül olar bağ adamının.
Cunun səhrasının, dağ adamının,
Gözü sənin kimi gözalə düşmüş.

Sözlər tamam oldu, ondaydı qapını aşdı:

– Dayə, buranı xəlvət elə.

Dayə xəlvət elədi, qol aşırdı bir-birinin boynuna.

O busənin sayı-hesabı olmadı, dusdar. Ondaydı bir gün, iki gün, üş gün, beş gün. Bular bahəm qalannan sora, amma, dusdar, elə əvvəlin mərhələdə bi dənə kənizdərinnən verdilər Əhməd Ləliyə, əğdin oxudular Əhməd Ləliyə yanı. O bağın tərəfinnən bi dənə saxtumannan o, orda Əhməd Ləliyə xidmət eliyir, həm də Əhməd Lələnin tababətdih eliyir o yaraların. Bax, bular burda bir neçə gün qaldılar. Bir neçə günnən sora Əhməd Lələni darıxma tutdu. Dusdar, Əmrah cavandı, başı qandı, heş bilmirdi ki, ruzigarın hansı aləmidi. Amma Əhməd Lələ elinnən, obasınnan, durdumanınan, əhli-əyalınnan əl çəkip gəlip, axı. Lələ darıxdı. Yavaşca gəldi, belə bi gün Əmrahın qapını tıkkıldatdı. Əmrah çıxdı:

– Lələ, nə var?

Dedi:

– Oğlan, bə neçə elə gündü başı salmısan aşagı, heş burda bilmirsən hansı şahın dövrüdü. Axı, oğul, bizim zindəgannığımız, əhli-əyalımız, xanı-badəmiz qalıp Azərbaycanda. Neynamalıyıx?

Səyyad Pəri dedi:

– Lələcan, neçə gündü, hələ burdan bu yana Əmrah günbəgün hərəkət eliyə, altı ay çəkə gedə. Niyə? Hələ heş mən dədəmə deməmişəm, xəbər verməmişəm, gələlər, məni

buna verələr, bizim toyumuzu tutalar, tədaruk cəlali-cəbbar, kəcavə-filannan yolluyalar, mən gedəm, gəlin gedəm. Hardan ola bilər, indi buyünnəri Əmrah burdan getsin?

Dedi:

– Qızım, elə də Əmrah getməsə, mən özüm gedim, Əmrahı da indi nə zaman gəlsəz, bahəmlihdə gəlin.

Səyyad Pəri dedi:

– İşgal yoxdu, sən Əmrahdan ərxayın olginən. Get, mən Əmrahı sənnən də yaxçı saxlaram.

Amma o pillələrdən ənir indi Əmrahnan Lələ. Əndilər indi bağda dolanıllar, dədə-bala söhpət eliyillər. Gəldilər Səyyad Pərinin yanına. Ordan istir ki, Əhməd Lələ aralaşa, üzün tutdu Səyyad Pəriyə.

– Səyyad Pəri.

Dedi:

– Bəli.

Dedi:

– Qızım, bir vəsiyətim var, bir ona qulax as.

Amma, gorax burda Əhməd Lələ nə deyir, biz diyax:

Bir ərzim var sənə, ay Səyyad Pəri,
Mən gedirəm, Əmrahı sənə tovşurdum.
Yolunda qoymuşam, canı mən sarı,
Mən gedirəm, Əmrahı sənə tovşurdum.

Qız dedi:

– Mən sənə dedim, Əhməd Lələ. Qorxma, sənnən yaxçı saxlaram Əmrahı.

Amma Lələ dübarəsini deyir:

Ayrılmışam vətənimnən, elimnən,
Bülbül kimi gülşanımnan, gülümnən.
Bir oğlum vardı, onu da aldın əlimnən,
Laəqəl mən gedirəm, Əmrahımı sənə tovşurram.

Dedi:

– Lələcan, mən demirəm ki, sən getginən. Kişi, sən tovlaşamırsan, öyün-eşiyin yadıya düşüp, gedisən. Mən neynim? Qal, bahəmlihdə gedax.

Dedi:

– Yox, qızım, gedirəm. Qulax as:

Mən Əhmədəm, düşəm yollara,
Axdı didar yaşı, döndü sellərə.
Axı indi nə cavap verəciyəm ellərə?
(Gedim nə deyim, deyim, Əmrah necoldu? Öz nəzərində deyir, axı bunu namizədinnən bir əmanət alıp gətimişəm. Bəs mən nə deyərəm ellərə?)
Mən gedirəm, Əmrahımı sənə tovşurdum.

O cür diyəndə, qız hay-hayınan ağladı, əmma üz tutdu:

– Ay Lələ, qulax as. Bəs qoy sözünə cavap birin də mən deyim.

Dusdar, nə deyip? Amma "Cəmşidi" havasıynan oxuyacağam elimizin, qonaxların sağlığına:

Bir ərzim var sənə, ay Əhməd Xacə,
Get, Əmrahı mən sənnən yaxçı saxlaram.
Qismət ola, gedəsən mehraca, haca,
Getginən, Əmrahı mən sənnən yaxşı saxlaram.

– Qızım, Allah sənnən razı olsun, mən də onu istiram da.

Qurban ollam gözdərinin məsdinə,
Düşməginən iki canın qəsdinə.
Darıxanda allam sinəm üsdünə,
Get, Əmrahı mən sənnən yaxcı saxlaram.

Amma, götürüp görax Səyyad Pəri sözünün axrın nə deyir? Amma belə məlum eliyan navarımız sona yetişir, düşman ömrü sona yetişsin. Cəmşidi dana eliyip, sözün axrın deyirəm. İnşallah, bağliyeh söhpəti, şumarə altıncı navarda xidmətizə ərz eliyəciyəm.

Səyyad deyər, dövlətimdi, varımdı,
Namusumdu, qeyrətimdi, arımdı.
Lələ, sənin oğlun olsa, mənim yarımdı,
Get, Əmrahı sənnən yaxçı saxlaram.

Xub, əziz dosdara salam ərz eliyirəm. Dosdar, buyunnərim Heşdəri[1] mahalında, Səhəndin ətəyində şair Aşıx Allahverdiynən toydaydıx. Xoşbəxt an. Eşitdim ki, o birsi şairim Aşıx Bahar dosdarıynan gəlillər Səhəndə. Bilmişdi mən orda toydayam. Toyun qurtulan günüdü. Gəlip ordan bizi də götürüp, gəlmişix Səhəndə. Səhənd o yerdədi ki, Əmrahın daıstanı Səhəndidəydi. Yanı Əmrah bağı, bular davarçıdılar. Yeylaxlar, bulaxlar, dağlar, sular, çöllər, daşlar, otdar, quşdar vaqiən tamaşalıdır. Amma rast gəldix, gördüm Əmrahın daıstanın danışıp, məni gördü dedi:

– Usta, sənən xahiş eliyəciyəm, burdan ki, bərnamə qalıp, burdan da sən danışasan.

Da mən də bir əz yorqun idim, ellərimiz bağışlasın, vəli. Rədd eliyəmmədim, sözü, çəşmi dedim. İndi həmin yerdayıx. Həmin Səhəndin dalındayıx. Həmin Əmrahın be istiro sakin olan yerdəyıx. Ərzədin bi çıkkana belə bir kənd idi. İndi köçüp gedip Kürdədehə. O kəndin adı Kürdədehdi. Həmin dağda əvvəl bi dana divan oxuram, sora daıstanı qalan yerdən başlıyam, ama oxumaxlarında cavan aşıxlar, olara indi doğru-

[1] Heşdəri – Şərqi Azərbaycan əyalətində şəhər

dan da şaird deməh olmaz. İkisi də mənnən zor, mənnən səsli, mənnən bilən, mənnən yaxçı çalan, mənnən yaxçı danışan, çün bular cavannıxdan mənim yanımda şaird oluplar. İndi maşallah, tanınan aşıxdılar. Oxumaxlarımızı da, inşəlləh, verəciyəm bular oxuyalar. Tənəvvü ola, eşidənnər şad ola. Amma divan:

Şeyda bülbül qan ağlıyır,
Gülüstanə toz qonup.
Ahının qubarı[1] qalxıp,
Asimana toz qonup.

Qoca sərhəddən soruşdum, mən ki ləl müştaqıyam. Bələdçılığın var, bilirsən harda olar? Dedi:

– Bihudə dolanma, hətda toz olar.

Yaşayış mənnən qaçır hey, mən də yaşayışdan hey,
Çün sadət qələsində, paslanıb çoxdandı ney.
Can verillər həsil üstadından əyalın hey,
Aşına gərdə məgər o vicdana toz qonup.

Od püsgürən bir dağ idim, indi qar üsdümdə var,
Daha görməm növbaharı, həmdəmim borandı, qar.
..........................................................................
Çünki zülfü-pərişana danə-danə toz qonup.

Şəmlər də yandı qurtuldu, çıxmadı dan ulduzu,
Səhər dərdinnən ölürəm, ey çıxan dan ulduzu.
Şəfəxlər[2] də görə bilmir bir dirəxşən ulduzu,
Camahat, bu gecə hətmən kəhkəşana toz qonup.

---

[1] Toz-torpaq
[2] Şəfəqlər

Sorsun eşidən ellərimiz, dosdarımız. Ama təcnis oxumuyacıyam. Onnan ötrü ki, Aşıx Bahar qabax şümarələrdə divan-təcnis oxuyup. Amma gedirəm daıstana tərəf. Daıstanımız o yerdə qalıp, qız, Alxat şahının qızı Səyyad Pəri, bu Səyyad Pəri şikarçıydı. Deyillər beləsinə Sədat Pəri. Sədat Pəri kəniz, dayələrə bihuş dərmanı verip. O vəxdi ki, bi nəfər ayığı yoxdu. O dəyqə atdar günüzdən hazırdı. Atdarın tərkində xurcunnar doludu. Qiymətdə ağır, vəzinidə yüngül. Gedip tərlanı götdü. Dedi:

– Əmrah gedəh?

Dedi:

– Xanım, icazə verisən, gedax.

Dedi:

– Əmrah, bi qızdara baxım görüm, Allah eləməsin ölüb eliyəni olmuya, dirildirərih. Ollara bi baxım gedəh.

Əmrahnan bahəm gəldilər otağa. Salona valir olanda, gördü belə, qızdar qəşəh belə davar kimi yatıplar. Heş birinin huşu başında dəyil. Orda qızın gözdəri doldu.

– Əmrah.

Dedi:

– Bəli.

Dedi:

– İcazə verisən, mən bu kənizdərimnən xudahafizdix eliyim gedax?

Üzün tutup kənizdərə, kənizdərinən istiyir xudahafizdih eliyə, amma sazınan, avazınan, şeyirnən. Həmin şeyirləri indi gena da Aşıx Bahar sizin üçün oxur. İnşəllah, ümidivaram ki, şad olasız. Onnan sora daıstan idamə verax.

Axşamnan başdadı, qar yağdı dizdən,
Kəsildi çeşmədən yolu qızdarın.
Doldurup kuzəni yana qoyalar,
Üşüyər barmağı, əli qızdarın.

Dosdar, neçə ki, usdad deyən kimi Əmrahınan Sədat Pəri gəldilər belə o salon karidorun qabağınnan, baxıllar qızlara ki, ayə ayığı var, hamısı bihuşdu, ya nə cür? Belə baxanda Sədat Pəri gördü, Allah-Allah, qızdar elə yatışıplar, eylərsən maral quzusudu. Bax, elə bir vəziyyətdədilər. Birinin kəməri açılıp, birinin başı açılıp, biri görüsən, başı dəyip birinə yatıp, biri tir uzanıp yatıp. Hərə bi yol bihuşdu, öz halında. Amma Əmrah səsdəndi ki:

– Xanım, qızdarınan xudahafizdəş, gedəx da.

Dedi:

– Axı, Əmrah, Allah dədənin tifağın dağıtmasın. Mən indi bir ömr idi bu qızdarınan zindagannıx eləmişəm. Mənə nənədən, bacıdan bu qızdar çox xidmət eliyiplər. Axı elə buları burda bu vəziyyətdə necə qoyum gedim?

– Xanım, bə deyirsən neyniyax?

Dedi:

– İcazə versən, qoy mən bularınan şeyirnən, söznən, saznan halallaşım, gedax. Halallıx alım bulardan.

Qız oydu ki, o yasəmən tellərdən ayırıp, bas-bağıra, amma götürüp bu sözdəri belə deyip.

Amma dübarəsin:

Səhəri durup, xanım, xanım diyəllər,
Ağları çıxardıp, qarə geyəllər.

(Əmrah, tüm bunlar səhər duracaxlar, görəcəhlər mən yoxam, hammısı o ağ libası çıxardıp, siyah ki olacaxlar, qarə geyəcəklər)

Hər birisi min tümənə dəyəllər,
Şad olar tayfası, eli qızdarın.

Dosdar, o zamanın min tüməni deyir ha, indinin milyardınnan da çoxdu. Kənizdərin bir neçəsi adın sayır.

Niyarınan, Nəzakət bənzər xanıma,

(Əmrah, huri qız bir od saldı canıma. Görürsən o kənarda, təkinə yıxılmışdı, o, bir dənə müqəyyəd qız idi. Ömründə mənim dörəmə gəlmədi)

Huri qızı bir od saldı canıma.
Bağdagül gəlməzdi mənim yanıma,
Gohərinən, Gülbahardı xanı qızdarı.

Əmrah belə baxanda gördü, əslən qızın əli qızdardan ayrı.

Dedi:

– Xanım.

Dedi:

– Bəli.

Dedi:

– Xanım, ya Xudanı isdə, ya Xurmanı isdə. Bax görüm, qadan alım, ya gə mənimnən gedəh, məni isdə, ya qal burda, kənizdəri isdə. Axı nə cür ola bilər ki, nə bulardan əlin olur, nə mənnən.

Dedi:

– Əmrah.

Dedi:

– Bəli.

– Əmrah, minnər dənə belə qızdan sənə qurban kəsərəm. Amma necə eliyim, bularınan da bir ömür keçirmişəm. Əlim da ola bilmir. Qulax as deyim, amma götürüp sözün axırını belə deyir. Biz diyax ustadımın sağlığıan və cənab ağayi Aşıx Allahverdinin sağlığına ki, burdan qürbət aşığı vardı.

Sədat qurban qaşdarının yayına,
Şükr eyliyirəm o xudayanın verdiyi payına.
Alagözdü Əmrahımın boyuna,
Əmrah, qurban eylərəm hamı qızdarı.

Bu qızdarın dənəbədənə, hətda şəhrin də qızdarı hammısı sənə qurbandı. Narahat olma, amma icazə versən, gidağın. Dosdar, nə cür gedcəaxlar, nə cür hərəkət eliyəcaxlar, genə usda biləyinizə söhbət eləsin. Şad olasız, inşallah.

Bəli, dosdar, Sədat Pəri qırx kənizi vardı. Gördü buların dənə-dənə hamısının adın desəm, vəxt çox aparar. Əmrah da narahand olur. Xudahafisdih elədi qızdarınan. Tərlanı götürüp, Əmrahınan bahəm savar oldular atdara. Qızdar bihuşdu. Səhərə qədər heş kim xəbər verməz ki, Sədat Pəri yoxdu. Bular gecəynən atdarı sürdülər, qız yolu tanırdı. Yavaş elə geydilər ki, gecə qərənquluxdu, at bular yıxmıya, göz görə bilər. Bir qədr gedənnən sora qız dedi:

– Əmrah, mümkündü day indi atdılar baş tutmayalar daldan.

Təsadüfən qulamlardan-zaddan ayrı yerdən vardı. Səhər gəldilər bağa. Gördülər qızdar bihuşdu. Buları huşa gətdilər. Xəbər verdilər Alxas ağanın qızına ki, qurban, qızıynan bir dənə aşıx gəlmişdi. Olar yoxdular. Kənizdər də bihuş idi. Hər dərvazadan yetdi dənə atdı saldı.

Dedi:

– Hər yerdə gördüz, tutun gətirin.

Qəral belə oldu. Əmrahınan Sədat Pərinin dalınca da yetdi dənə atdı gəldi. Bular mücəhhəz gəlirdilər, şikar varlarıydı. Amma bular ara açıp getmişdi Sədat Pəriynən Əmrah. Bir yerdə dürbinnən qız döndü. Baxdı, gördü ay dadi-bidad, dalımızca atdılar gəliplər.

– Əmrah.

Dedi:

– Bəli.

Dedi:

– Əmrah, dön bularınan dava eliyəh. Ya buları öldürəh, qəyterəh, sora gedəh.

Əmrah dedi:

– Xanım, vallah, mən dava adamı dəyiləm. Dava eliyəmmərəm.

Dedi:

– Bəs dava eliyə bilməsən, sən bu tərlanı saxla, mən bu bərədə dururam. Oları nəxşəynən, ya qeytərim, ya da öldürüm. Sən atı sür get, yolunnan ki gedisən, mən daldan gəlləm, gəlləm tutaram biləyinnən.

– Baş üstə, xanım.

– Əmrah.

Dedi:

– Bəli.

Dedi:

– Bu tərlannan muğayət ol!

Dedi:

– Müvazib ollam.

Əmrah tərlan quşun götürüp əlinə, atı sürür. Yeyin-yeyin sürür, gedir. Qız bir dərədə durdu. Atdılar gəlib yetişəndə çıxdı qabaxlarına.

– Salam əleyküm.

– Salam.

Ehtiram elədilər.

Dedi:

– Xanım, atayın dəsturudu. Biz hər yerdə sizi tapsax, qeytərəx dərbara.

Dedi:

– İndi mənim sözümə baxısız, ya baxmısız?

Dedilər:

– Şahzadə, bə niyə baxmırıx sənin sözünə?

Dedi:

– Atam, təh bu dərvazadan adam göndərip?

Dedilər:

– Yox, yetdi dərvazadan, Alxatınnan göndərip atdılardan. Hər dərvazadan yetdi atdı.

Dedi:

– Mənim sözümə baxsaz, diri qəyidəcəhsiz. Gedəsiz, balalarız yetim qalmıya. Mənim sözümə baxmasaz, qılıncı çəkəcəyəm, öldürəcəyəm, qəyidəm, çıxam gedəm.

– Xanım, necə?

– O birisi dərvazadan gələnnər necə tapmadılar, xub, siz də qayıdın, deyin, biz görmədih.

– Bu ola bilməz.

Fikirrəşdilər. Bir-birinin üzünə baxdılar.

Dedilər:

– Düz deyir da. Niyə öldürsün? Şahzadə qovlu verrix biləyinə, biz də diyəh, filən yerə kimi getdih, görmədix.

Dedi:

– Belə hə. Davasız-şavasız, ölməmiş, sağlam qəyidin.

Əlin saldı kəmərinə, buların hərəsinə bir çəngə qızıl ənam verdi. Bular sevinə-sevinə dilbir oldular, əlbir oldular, qəyitdilər Alxatına.

Vaxtında dedilər, qurban, biz tapammadıx, görmadıx. Atdıların hamısı dedi, biz görmadıx. İndi amma qız elə ki, olar qəyitdi Alxatına, qız dolu cilov atı saldı. Əmrah gördü, qızın atının səsi gəlir. Qorxudan atı qovdu. Qovanda tərlan bunun əlində idi. Qorxudan tərlanı əlində şallağ elədi. Atı bu tərlannan vururdu. Birdən gördü, ba belə tərlanı öldürmüşəm. Tez xurcunun ağzın aşdı. Tərlanı qoydu xurcuna. Bir qədərdən sora Sədat Pəri daldan yetişdi.

– Salam əleykim.

– Salam.

– Xanım, gəldin?

Dedi:

– Əmrah, narahand olma, olar qəyitdi, getdi. Dübarə bizim dalımızca gələnə, biz yetişirıx nigaha.

Oların bərnamələri belə oldu. İndi bir yol bərnamə ayırdı, gəlir qabağa. Nəmənədi? Qız deyir, Sərvinazın adını

demiyəcaxsan o, durnalarınan salam yolluyanda. Əmrah diyip deməræm. İndi bular gəlillər Ərzədinə. Ayə, Ərzədinə yetişdilər. Sərvinaz var axı. Əmrah gördü nə müddətdi qürbətə getmişəm, əmqızını kəbin atda qoymuşam. Bir dənəsin də gətirmişəm üsdünə. İndi bir yol bu yetişəndə də, Allah eləməsin, əmqızma bir iş görsə, onda necə olacax? Nə qılığ eliyim ki, əmqızımızın adın yavaş-yavaş bunun boynuna qoyum. Bu fikirdəydi. Qız səsdəndi:

– Əmrah.

Dedi:

– Bəli.

Dedi:

– Əmrah, bə tərlan hanı?

Dedi:

– Vallah, xanım, yuxusu gəlirdi, əlimdə gördüm hey gözdərin yumup. Qoymuşam xurcunuma.

Dedi:

– Əmrah, Allah eləməsin, ölər eliyər ha.

– Xanım, xurcunuma qoymuşam.

Bir az getdilər, bir də soruşdu. Bir az getdilər, qız atı döndərdi.

Dedi:

– Dayan, qoy xurcunnan çıxarım. Allah eləməmiş xətərrənər.

Xurcunnan çıxardanda, baba, gördü çoxdan tərlan ölüp.

– Əmrah, ölüp tərlan?

Dedi:

– Xanım, mənim xəbərim yoxdu ölsə də.

Qız gördü, tərlanı öldürüp qoyup buraya. Qorxudan mənə demirmiş.

Burda qızın yenə kiynəsi[1] çoxaldı. Dağların arasından gəlillər. Bir yerdə Əmrah gördü, dağların mayatı suları yığılıp, bir dənə böyük göl olup. Bir yarım dərya, dəryaça bir şeydi. Onun kənarıynan belə dağın ətəyində, dərənin qırağıynan gedillər. Əmrah gördü bir sona, bir yaşılbaş. Bu ördəhlərin belə ədası var. Üsdünə bir-birin qıjıllar. Qanatdarın vurullar bir-birinə, su səpillər, cumurlar, çıxırlar. Əmrah buları görəndə isdirdi bir yolunan Sərvinazı deyə. Amma nə cür deyə? Qızın da fikri orda dəyildi heç. Əmrah üzün tutdu:

– Xanım.

Dedi:

– Bəli.

Dedi:

– Bu ördəhlərin bu üzmağına, bu oynamağına bir qatar şey gəldi dilimə. İcazə versən, buları diyim.

Dedi:

– Əmrah, dediğini mən də yazıram.

Dedi:

– Xanım, xatirədir, burda deyirəm.

Dedi:

– Elə yadıgar yazıram, saxlıyam.

Həmun yerdə Əmrah üzün tutup o ördəhlərə, sonalara nə cür deyir? Dosdar, indi bu sözdərnən şahiddərdən Aşıx Allahverdi oxuyacax. Əziz eşidənnərin sağlığına, tamaşaçıların sağlığına, dostların. Məni eşidənnnərə təşəkkür elirəm.

Havamız "Yasdavul" havasıdı. Oxuram dosdarın sağlığına:

Nazənin, bizim göldə bir cüt sona dövr eylər,
Başı yaşıl, ayaxları qırmızı.
İncidən, sədəfdən düzüb ağzına,
Alma kimi yanaxları qırmızı.

---

[1] Kini, qəzəbi

Qız bilmədi ki, Əmrah nəmənə deyir, amma yazır dəqiqən. Qabaxdaki nə cür olacax, ustad buyuracax.

– Daha nə cür, Əmrah?

Əmrah belə baxıb göllərə, belə fəza səfaya, dübarə götürüb belə deyir:

Bu görsənən Savalan sultandı,
Halım yoxdu, yarə qurban bu candı.
İnci dəyil, sədəf dəyil, mərcandı,
Yal qoynunda qolbaxları qırmızı.

Ərz elədix, qız qulax asır, dənə-dənə Əmrah diyən sözdəri yazır. Amma Əmrah dübarə axır nə cür deyir, genə deyim tamam eşidənnər sağlığına, görən oğlannarın sağlığına. Amma dosdar, sizdən isdəyim budu ki, bu navarı ki, Səhəndin ətəyində yığırıx, Əmrahın dediklərində, o dosdar ki, buralara gəlmiyiplər, görmüyüplər. Gəlsinnər belə gözəl yerləri görsünnər ki, nə cür səfalı bir yerdi. Dübarə:

Nazənin, məni qurtar bu möhnətdən, bu qəmnən,
Ağlamaxdan yaş qutulmur didəmnən.
Əmrah deyər, çallı-çarpaz sinəmnən,
Səlvi çəhdi bu dağları qırmızı.

Bərnamə nə cür olacax? Genə ustad buyuracax, elimiz şad olsun, inşallah.

Bəli, dosdar, o cür ki Aşıq Allahverdi xidmətizdə oxudu və dedi, sözlər təmamə yetişdi. Əmrah dedihcən, dəqiqən qız qulax verirdi. Amma onan sora yazırdı Əmrahın ağzınnan çıxan sözdəri. Əmrah qurtulan dəyqə ki dedi:

“Məni qurtar bu möhnətdən, bu qəmnən,
Əmrah deyər çalı-çarpaz sinəmnən.
Səlvi çəhdi bu dağları qırmızı.”

Atı qovdu. Atı qovanda, qız dedi:

– Bə nə cür işdi? Atı niyə qabaxda? Şikar-mikar görübdü. Əmrah qeyrətdənib haa. Hətmən qabaxda bir ceyran-meyran gördü.

Qız diqqətinən baxdı, heş zad yoxdu. Yazqıya baxanda gördü burda "Səlvi", "Sərvinaz" deyəmmiyip, tək "Səlvi" deyip. Dedi:

– Əmrah, dur.

Dedi:

– Xanım, əmrin nəmənədi?

Dedi:

– Dur, sual soruşuram biləhdən.

Əmrah durdu.

Dedi:

– Bəli.

Dedi:

– Əmrah, qəlaldı sən Sərvinazın adını demiyəsən.

Dedi:

– Xanım, "Sərvinaz" demədim, "Səlvi" dedim da.

Dedi:

– Bura bax görüm, mən ölüm, bir söz soruşuram, düzgün de.

Dedi:

– Bəli.

Dedi:

– Əmqızın Sərvinaz gözəldi, ya mən?

Qorxudan deyəmmədi, baba, o, gözəldi sənnən. Dedi:

– Xanım, Allah eləməsin. Əmqızım hara, sən hara? Sən bir dənə gözəlsən, yer üzündə bərabərin yoxdu.

Xob, dedi:

– Əmqızın mərifətdidi, ya mən?

Dedi:

– Nazənin, onu Allah bilir, mən biləmmərəm. Amma elə ikiniz də yaxçısız.

Bir yerə yetişəndə qız qəzəbləndi. Dedi:

– Hey, bunu çəkirsən bizim üzərimizə.

Necə qılıncı çəhdi Əmrahın kəlləsinə. Gördü düz başını, boynuna kimi yara-yara gələcək. Sürətin qolun aldı, onnan sora şəmşirin şabbasın[1] döndərdi. Əmrahın necə dəydi başınnan, qan götdü Əmrahı. O cür atdan yıxıldı. Əmrah qaldı orda. Qız atı döndərdi, küsdü, getdi. Dedi, baba, çıxım gedim da. Hey dəqiqədəbir "Səlvi, Səlvi, ha Səlvi". Mən elə qəyidim, çıxım gedim da. Zərərin yarısınnan qəyitmağ yaxçıdı. Bərnaməsi boldu, qəyidə gedə. Qəyidib atı dağın o döşündə, gölün qırağında, indi Alxatına tərəf gedir. Amma Əmrahı qan apardı biləsiz. Qıçı cəngidə qalıp, yavaşca rədd olup. At durub başının üstündə. Bax hunda bir yol gözünü aşdı. Gözün açanda gördü, ordan Sədat Pəri atın o tərəfdə, gölün qırağında qəyidib gedir. Gördü bir dənə bərri-biyaban, qəzavu-qədər heş kəs yox. Çoban yox, yolçu yox, karivan yox. Heç kəs yox. Vurdu mənim başımı yaraladı. İndi mən qan apara, ölləm. Qoy buna yalvarım. Huşu gəlip başına. Üzün tutup qızın dalıca, isdiyir nə dillərinən qızı qəyterə ki, dolanım başına, qız, qəyit indi, qız, gə mənim başımı bağla. Əmrah nə dedi, qız nə fikirlər eliyir qəyidə. Onda da genə Aşıq Bahar oxusun, əziz ellərimizin, dosdarımızın sağlığına. Dedim də, bulara indi şaird deməh olmaz. Maşallah, mənnən çox zorba aşıqdılar. Eşidənnərin sağlığına, şad olasız.

Sərsəri eşqilim, boylu baxışlım,
Dolannam başıva, qız, qəyit indi.
O nazih barmaxlarınnan ipəh büzəllər,
Laqəl yaram üstünnən düz, qəyit indi.

---

[1] Şəmşirin şabbası (d) – qılıncın iti tərəfi

Əmrah gah key olur, gah huşa gəlirdi, gah huşdan gedirdi. O eynində ki ayıldı, gördü, qız gedir ee. Bu sözdəri dedi. Qız bunun səsin eşitdi. Əmrahın səsin eşidəndə, yavaşca atın cilovun yığdı, qulax asdı. Gördü Əmrah bu sözdəri deyir. Özözünə bir fikir elədi.

Dedi: “Oğlan, belə bax, görüm. Mən vətənnən ayrılmışam, elimnən ayrılmışam, tayfamnan ayrılmışam. Bax, dinimdən dönmüşəm. Dönmüşəm bunun dininə gəlmişəm. Bəlkə buların məsəbində, buların dinində elə var kişinin bir neçə arvadı olar. Mən vəli qəbul eləmərəm, eləmiyim. Mən qəyidip gedim. Bu bədbəxt niyə qalsın bərri-biyabanda, cavan adam ölsün? Gedim bunun yarasın bağlıyım, bu dursun, çıxsın getsin vətəninə, mən də qəyidim, çıxım gedim”. Bu əsasında dosdar, atın başın qəyterdi. Amma Əmrah görəndə ki qız atın başın qəytərdi, götürüp dübarəsin belə deyir:

Gözəllərdə olar haşa, səvdiyim,
Məgər ürəyin dönüb daşa, səvdiyim.?
Evi xarab, bənzəyirsən yaşılbaşa, səvdiyim,
Ördəyin yox, qız qəyit indi.

Qızın belə ürəhdən Əmraha ürəyi yandı. Yavaş-yavaş atın başın qəytərip gəlir Əmraha sarı, amma Əmrah sözünün axır cavabını belə deyir. Ginə qulaq asannar sağlığına:

Yaxçı olar meyvələrin narıncı,
Alması, heyvası, narı, turuncu.
Əmrahı qoyma bu yerrərdə zarıncı,
Laqəl yaran üsdünnən, qız, qəyit indi.

Sağolsun, dosdar. İnşallah, ustad söhbətin idaməsin versin, oxuyağ ellərimizin sağlığına.

Bəli, dosdar, Alxas şahının qızı Sədat Pəri atın başın döndərip, vəxtində yetişdi Əmrahın başın üsdə. Amma gördü vaqiyətdə qan aparıp Əmrahı. Baba, xəta eliyip, mənim dalımca gəlip. Mən xudapərəst olmuşam. Allah bunu göndərip mənnən ötrü, ayə, xalxın oğlunu mən vuram öldürəm? Şahzadə də Alxas şahının qızıdı. Kömək payı əvvəli ya varıdı, o dəyqə çıxardı xurcununnan, Əmrahın başın bəxyə eliyir. Elə bağlıyıp ki, Əmrah o zaman gözün aşdı gördü ki, başı qızın dizi üsdədi. Belə əlin atdı, baş bağlanıb.

Dedi:

– Xanım, mənim başıma müsibət nə olup?

Dedi:

– Əmrah, hey deyirəm atı çox qovma, yavaş qov, çox qovma, yavaş. O qədər şurtdun atı, at yıxdı, başın dəyip daşa, yaralanıpsan.

Dedi:

– Xanım, da bunnan mən yavaş qovaram.

Sözün üsdün pərdələdilər, geşdilər. Amma yol gəlillər, ha oracan dağları aşıllar, yollar kəsillər, damarların kəsiplər. Gəlirlər, bir yerə yetişiplər. Əmrah diqqətinən baxanda, gördü Səhənd dağı görsənir. Səhənd dağının belə üstlərinnən görsənir. Gördü hə, vətənə yoxunuram[1]. Səhənd dağı deyəndə, tamam elatdar Səhənd dağındadı. Onların qismət-qismət yayımları var məntəqə-məntəqə. Aşağıdan yaydılar, gedəllər üst yeylaxlar. Olarda elatdar, əlbəttə, bəzən elatdara şaqı da deyəllər. Çün şaqı da var içdərində. O elatdar yaylağa gələllər. At da var, dəvə, qatır, onları gətirirlər, yeylaxlarda yayallar. Görəsən, elə davar, ildə iki dəfə, üş dəfə doğar, yanı, quzu gətirər o yeylağın otunun gücünə. Allah yeylaxlarda şairlərin və elatdarın başını uca eləsin, onnan ötrü ki, ölümüzün imididirlər bular. Biz də indi həmin Səhənd dağındayıx. Görürsüz, Qırxbulax diyəllər,

---

[1] Yoxunuram (d) – yaxınlaşıram

buzdu bulaxdı. Hər yannan bulax suyudu, gəlir gedir. O da Səhəndin üstləridi. Burda çün Əmrahın bura məkanıydı. Ərzədin Səhəndin ətəyində. Bu daıstanı istədih, axırı burda ola ki, gəlmişkən mən də xidmətizə yetişmişəm. Amma gəlillər, Səhəndin dağın görəndə, sürdülər atdarı. Bir yerdə gördülər hə, odana, əmimin çobannarınnan dalda görsənir. Dedi:

– Xanım, gəlin gedəh çobannara tərəf.

Gəldilər çobannara tərəf. Əmrah bi dana namə yazdı. Namə yazdı, verdi çobana. Dedi:

– Çoban, bını apar əmqızım Sərvinaza ver. Mən Əmraham.

Dedi:

– Baş üsdə.

Çobannarın biri qalıp, ikisi qalıp, biri də atı mindi, naməni götdü. Bəs qız səsdəndi:

– Əmrah, ayə, bura sizin vətənizdi? Sizin yurdunuz, sizin yerizdi bu səfalılıxda dağlar.

Dedi:

– Xanım, ərz eliyim.

Bir yol üzün tutup həmin o naməni ki, yazıp çobana sarı, bu sözdəri də yazır.

“Əmqızı, gəldim vətənə, inşallah”. İnşallah, namə yazacıyəm qardaşıma da ki, “qardaş, gəldik”. Qardaş toyumuzu başdıyacax kim Həbipə Zinharxana, valiyi Azərbaycana. Əmrah üzün tutup burda nə deyir, nə yazır ki, gəldim vətənə-vətənə. Genə də ağayi Aşıq Allahverdi ellərimizçün oxur, eşitdıxca dosdarımız şad olsunnar. Davam eliyəciyix daıstana. Əmrah kimə yazır sözdəri. Ustad durdu, vali Azərbaycan Zinharxannan Əmrah qardaş olup ki, söhbətin qabaxların eşidipsiz. İndi Əmrah qəyidip isdiyir o başınnan geçən sərgüzəştləri yazsın ki, qardaşına, nə cür olup ki, gəlmişəm.

Kağız yazıram qardaşıma,
Gəldim vətənə-vətənə.

Qəzalar gəlip başıma,
Gəldim vətənə-vətənə.

Amma dübarə:

Gəlirəm dağ, düzüynən,
Kağız yazıram sözüynən.
Alxas şahının qızıynan,
Gəldim vətənə-vətənə.

Əmrah diyir, bir yannan vətən yadıma düşüp, gözdəri görür yanı, vətəni görür. Bir yannan vətənin sevgisinə baxsın, bir yannan Səhəndin yaylaxlarına. Az qalır Əmrahın bağrı çatdasın sevincəyinnən. Amma dübarə:

Əmraham, vətəndə qalam,
Molladan mətləbi alam.
Qardaş, naməd̶ə yazıram salam,
Gəldim vətənə-vətənə.

Dosdar, sağ olsun. Amma qatar qurtuldu, gəldim vətənə-vətənə. Namənin bu birisin də verdi çobana.

Dedi:

– Bu namə, çoban qardaş, gedəcax Təbrizdə Zinharxana, vali Azərbaycana. Bu namə əmqızıma veriləcax.

Çoban namələri alıp, ata minip getdi. Amma qız gördü Allahu-Əkbər, baba, Əmrah bir dəmdə əvəz oldu. Əmrah vətənə gəlip, çiçəhləri çıtdıyır. Nə qədər şaddu, nə qədər dilxoşdu. Necə göylərinən uçur.

– Əmrah.

– Bəli.

Dedi:

– Əmrah, bir-iki dənə sualım var sənə. İndi gedirıx sizin vətənə. Bax, əmqızın mənnən gözəl oldu, sənnən işim yoxdu, həkkin var imiş. Gözəllığınnan sora, ehtiramlı oldu, mərifətdi oldu, ləyaqətdi oldu, Əmrah, həkkin var imiş ki, bir belə əmqızın adın deyəsən. Amma gözəl olmasa, həm səni öldürəcəyəm, həm əmqızını. Qəyidəm gedəm vətənə, özümü də yolda öldürəm.

Bu təsbinnəri tutdu. İndi nə gələcax qabağa.

Bəli, dosdar, daıstanımız o yerdədi, Əmrah namə yazıp. “Kağız yazdım qardaşıma”. Bir namə yazıp əmqızısına. “Ərzəndinə ki, əmqızı gəlirəm, filan yerdəyəm. Layiqi peşvaz olsam, bağdan çıx, peşvaz elə. Amma əmqızı gəlirəm, Alxas şahının qızıynan gəlirəm. O şah qızıdı. Əgər mümkan olsa, məhəbbətiniz ola...”

Dosdar, namələr gedip. İndi bir yol gəlip oraya, Alxas şahının qızı Əmrahınan şərtdər kəsdi. Əmqızın gözəl ola mənnən, mənnən mərifətdi ola, mənnən ləyaqətdi ola, mənnən belə ola, mənnən helə ola, bəli, mən də onda onun da kəniziyəm, sənin də. Amma, Əmrah, Allah eləməsin, çirkin-zad olsa, səni də öldürərəm.

Dedi:

– Xanım, qəbulumdu.

– Əmrah, mən ölüm.

Dedi:

– Xanım, niyə də yox. Sən onnan gözəlsən.

– Amma olsun da, mənim də qəbulumdu.

Qız gördü, hə, bərəkəllah, Əmrah. O gözəllihdə əmqızı ola-ola, genə gəlip mənim dalımca. Bəs şükrü var, heç səsim çıxartmıyım, üstün vurmuyum. Laqəl bu vəzinən getsin elə. İndi bir yol bağda bulağın başında istirahətdix eliyiplər. Əmrah o dağın Səhəndində, bir təpənin üsdünə baxırdı ki, Ərzədin onun dalındadı. Belə baxanda gördü, qızlar təpənin üsdündə qovzandı. Amma dağdan gül dərə-dərə gəlirlər. Narıngül o

payızı güllərdən dərə-dərə gəlir. Fəsil odu ki, bahar dəyil gül ola. Belə baxanda Əmrah dedi:

– Xanım, dur gedax da yavaş-yavaş.

Dedi:

– Əmrah, gedax da.

Dedi:

– Əmrah.

– Bəli.

– Olar kimdi? Odu ba təpənin üsdünnən belə bi qədər qız-gəlin çıxıplar.

Dedi:

– Atdarı min gedağın.

Atdarı miniplər. Bular yol gəliplər. Belə toz-moz qonup Əmrahın başına. Qızlar danışıllar, dağdı, azad havadı, yeylaxdı. Səs gəlir Əmrahın qulağına. Gördi əmqızı deyir kənizlərə:

– Qızdar, əmoğlum qocalıp, başında ağ görsənir, ya toz-moz qonup?

Həmun yerdə Əmrah üzün tutup, Sədat Pərinin yanında Sərvinaza tərəf. Nə deyir Əmrah o qızların gəlmağına, Sərvinazın gəlmağına? Sədat Pəri tamaşa eliyirdi. Genə də həmin sözdəri Aşıx Bahar oxur sizin üçün.

Cənnət yaylaxdan, bağu-behişdən,
(Çün qızların əlində güllər gördü Əmrah)
Gül doldurup ənbər saçın, gəlayim.
Seçilmiş gözəllər çıxıp sehranə,
Allah, açılıpdı çarçı-bazar, gəlayim.

Bu heynidə Sərvinaz Əmrahın səsin eşitdi. Səsdəndi:

– Qızdar, dayanın, əmoğlum oxure.

Amma Əmrah dübarəsin belə deyir:

Mən səni söymüşdüm əzəl,
Şairtək şənində oxuram qəzəl.

Yusif də mah camallı Züleyxadan gözəl,
Eşqində mən ot almışdım, gəlayim.

Amma dübarə:

Yaxçı olar el içində ucalıx,
Heyif olsun, bühdü belim qocalıx,
Bədirlənmiş aydı on dört gecəlih,
Məğribdən-məşriqə dolmış, gəlayim.

Bəli, dosdar:

Cavannıxda oldum eşqə bəndivan,
Qocalanda bükər belimi natavan.
Səlvi deyir, qızlar, Əmrah nocavan,
Elə bil ki, qocalıpdı, gəlayim.

Söz təmama yetişdi. Amma, qızlar gəlillər Əmrahgilə tərəf. Əmrah Sədat Pəriynən gedir, Sərvinaza və kənizdərinə tərəf. Dağın bir yerində yetişdilər bir-birə. Sərvinaznan Əmrah atdan piyada olup. Alxas Şahının qızıynan Əmrah atdan piyada olup. Sərvinaznan, kənizdəri, hər kəs gəlir. Əvvəl Əmrahınan öpüşür, görüşür, sora Alxas şahının qızıynan, tamam kəniz, dayələrinnən. Az oldu ki, Sərvinaz Alxas şahının qızı Sədat Pərini qucaqlıyıp, basıp bağrına öpüb, görüşüp, gülüşə-gülüşə gəlillər hara, Sərvinazın bağına. Vəxdində yetişdilər Ərzədinə, az qalanda odu, o təpənin dalındadı Ərzədin kəndi. Əvvəl elə oraydı, burdan qəşəh soruşmuşam. İndi o Ərzədinnən yığılıp gəliplər Kürdədehə. O zaman kəndin yeri də qəşəh qalıp. Vəxdində yetişdilər Ərzədinə, bir az qalanda “Əmrah bağı” kı deyillər, o bağ Sərvinazınkıydı, “Əmrah bağı” deyillər, əmoğlu, əmqızınındı. Varid oldular həmən bağa. Bağa varid oldular, ehtiramat, xoşgəldin, məhəbbət, nə qədər ki Sərvinazın

əlinnən gəlirdi, üst tərəfdə çərəzin başında əyləşiplər. Əmrah vəsəddə, Sərvinaz sol tərəfdə, Sədat Pəri sağ tərəfdə, miyvədən, şərbətdən, çaydan, qəhvədən, olar ki yeməliydi, işməliydi, yeyillər-içillər. O dəyqə Sərvinaz dəsdur verdi qızlara:

– Qızlar, gülçınnığ elayın. Müntəha fəslimiz əladı. Bənövşə gülü bağımda çoxdu. Dərin gətirin, kənizlər.

Qırx kəniz, beş dayə, hammısı güllərdən dəripdi. Dənədənə dəsdə bağlıyıplar. Hara gətirillər? Gətirillər, tamam gülləri əvvəl verirlər kimə? Verillər Sərvinaza. Sərvinaz iyliyir verir Əmraha, Əmrah iylir verir kimə? Alxas şahının qızı Sədat Pəriyə. Bura yetişəndə tamam qızlar gülçinnığ elədi, səpdi buların başına. Əmrah döndü gördü, Sədat Pəri ağlıyır, gözdəri dolup. Əmrah narahand oldu.

– Xanım.

Dedi:

– Bəli.

Dedi:

– Sənə hardan kəmehtiramlıx oldu? Ayə, əmqızım tərəfinnən narahandsan?

Dedi:

– Yox, Əmrah. Əmqızı mən kəniziyəm. Bi belə mərifətdi insan az tapılar.

– Xanım, mənim tərəfimnən, Allah eləməmiş, söz dedim, qəlbə dəydi?

Dedi:

– Əmrah, yox. Sənin də tərəfinnən yox. İkizdən də razıyam və buranı da çox isdirəm.

Dedi:

– Bə ağlamağın nəmənədi?

Dedi:

– Əmrah, yadındadı mənim kənizdərimnən xudahafis eliyəndə? Mən olara bi şeyrinnən xudahafiz dedim.

Dedi:

– Bəli.

Dedi:

– Olar yadıma düşdü. Bir belə kəniz, dayə gül dərdilər, biri də dəsdə gülü mənə vermədi. Hamısı verdi Sərvinaza, o sənə, sən mənə. O mənim ürəyimə gəldi ki, xudaya, mənim də kənizdərimnən olsaydı, mənə də burda gül verərdilər.

Əmrah bunu görəndə, üzün döndərdi əmqızına:

– Əmqızı, xanən xarab olsun, axı bu qonaxdı. Sən gərəh bunun dilin, dərdin biləydin.

Dedi:

– Əmoğlu, axı mən necə eliyim? Mənim günahım nəbim nədi?

Dedi:

– Əmqızı, qulax ver bəs. Qəzavü-qədər belədi də.

Dilim lal olaydı, vay, belə xoryad,
Əmqızı, necə qıydın, dedin "üz bənövşəni"?
Gülü dərip, dəsdə-dəsdə tutginan,
Tər sinən üsdünnən düz bənövşəni.

Qız gördü, Allahu-Əkbər, axı kənizdər məni tanıllar, gülü mənə veriplər. Mən ki vermişəm bulara. Sərvinaz doluxsundu, amma Əmrah o biri sözü dedi.

Ağayi Vahidi mənim əziz dosdarımnandı. Onu görrəm burda, şadam. Onnan sora şagiddərim burda, onnan sora bəli, Səhəndi görmüşəm, ürəyim şaddı.

Bir dəsdə hurilər yatdılar bağa,
Qədəmi xeyir ola, bağa nur yağa.
Gülü dəsdə eylər, tıxar buxağa,
Bənövşə qızı iyləsin, qız bənövşəni.

Sərvinaz gördü, əmoğlum elə bil mənnən narahand oldu. Doluxsundu Sərvinaz. Əmrah o birsi sözü:

Bir dəstə hurilər bağa yatdılar,
Hökm edip Süleyman təxti götdülər.
Əmrah deyər, əmqızı, daha qızılgüllər satdılar,
Daha iylamarıx biz bənövşəni.

Ondaydı, Sərvinaz dedi, əmoğlumun bunnan əlaqəsi var. Hardan gedip gətirip, qürbətdən. Bu da dönüp xudapərəst olup. Mən buların arasında girmiyim. Yavaşca təxdin üsdünnən durdu, narın-narın kəhlih kimi başınnan yerir küsə gedə. Əmrah gördü, ay dadi-bidad, əmqızım isdir küsə gedə. Ondaydı, üzün tutdu əmqızısına tərəf.

– Əmqızıcan.

Belə çiyninnən belə bir əyri-əyri baxdı Əmraha.

– Əmqızı, ərzim var biləsinə.

Bəli, dosdar.

– Əmqızı, küsmüsən gedəsən?

Ondaydı, Əmrah sazı endirdi sinəsinə. Gördü, əmqızım qəzəplənip, gedəcax. Necə eliyim bunu qəyterim? Üzün tutdu əmqızıya, belə deyir ki, indi Aşıq Allahverdi oxur. Bəlkə bu söznən qəyterəm əmqızını. Belədi bax:

Ey nazənin, sənnən ötrü,
Ağlamasam, əmqızım, namərd olum.
Yüz yerdən bağrımın başın sənnən ötrü,
Dağlamasam, namərd olum.

Sərvinaz bir fikir elədi. Gördü bu qızın yanında məni bu boyda qovzadı göyə, bu boyda təşviq elədi, mən niyə küsüb, əmoğlumu narahand eliyim. Belə-belə ördəh kimi dayrə vurdu, kəhlih kimi yeriyip, durduğu yerində otdu. Küsmaxdan

yanı müztərip oldu. O oturanda, Alxas şahının qızı durdu. Küsdü yavaş-yavaş gedir. Gördü axı, mən buların işinə qatışıram, dolaşıram. Tikan kimi bulara əziyyət eliyən mənəm. Qoy mən gedim. Əmrah gördü, Allahu-Əkbər, axı bu getsə, bunun işi xətərdi. Bu dava eləsə, hamımızı öldürər. Üzün döndərip, Əmrah ona deyir. İndi onu da Aşıq Bahar:

Almaxatınnan getdim, gətirdim bu yerə,
Yolu gülşehli gülgəz Sədat Pəri yeridi.
Qurban olum gülşanında güllərə,
Gülü gülgəz Sədat Pəri yeridi.

Sədat Pəri gördü əhsən. Əmrah ona demişdi, mənə nə dedi. Düz deyir da, məni gətirip bu yerə. Niyə küsüm gedim? Belə dayrə vurdu həvizin o tayında, dolandı gəldi, otdu Əmrahın sağ tərəfində. O oturanda Sərvinaz durdu. Üzünü döndərip Sərvinaza:

– Əmqızı, qurban kəsəydim, hara gedirsən? Hara gedirsən axı, dayan?!

– Əmqızı, mən ölüm, getmə.

Yanax qoyum yanağına,
Ləbin, billur buxağına.
Qızılgülün budağına
Xarı qoysam, namərd olum.

Söz Sərvinaza əsər elədi. Onda dedi, əmoğlum məni istəməsəydi, niyə bi də paytaxdan, Alxatından gəlirdi bura. Bəs əmoğlum məni isdiyir. Görürsən nətər deyir. Belə kəhlih kimi dayrə vurdu, gəldi otdu Əmrahın solunda. O, oturanda Alxas şahının qızı durdu. Allah necə eliyim buları? Oturdamıram yerə, o oturur, bu durur. Necə olacax? Daha diyir:

Ayrılıpdı vətəninnən, elinnən,
Bülbül kimi gülşanınnan, gülünnən.

Çün təzədi, əlbət, dönə bilmir elinnən,
Eli gülgəz Sədat Pəri.

O qədər incidi Sədat Pəri. Hirsinnən dedi, dönəcəyəm, oturam, əgər məni elimdən eliyip, sənnən niyə gəlirdim. Elimin hamısını sənə qurban eləmişəm, indi də deyirəm. Bir dayrə vurdu, gəldi otdu sağ tərəfdə. O oturanda Sərvinaz durdu. Allahverdi deyir, Əmrah gördü, qız hirsdi gedir.

– Əmqızı, elə qurban kəsəydim, mən ölüm getmə, bax mənə. Evin yıxılmasın, dayan, Sərvinaz.

Sərvinaz çöndü Əmraha tərəf. Əmrah nəzər salanda buna, gördü Allahu-Əkbər, nazənin, bir dayan.

Əmrah deyər, bu dağları,
Gül bürüyüp budaxları.
Gözüm görür yanaxları,
Əgər doysam, namərd olum.

Ordan Sərvinaz gəldi otdu. Amma bu yannan Sədat Pəri genə çıxdı. Daha nə deyir:

Əmrah qurban olsun yarın elinə,
Tavus kimi bəzəh verip telinə.
İstir qayıtsın, getsin elinə,
Eli gülgəz Sədat Pəri yeridi.

Söz tamama yetişəndə, onda da o qız dayrəni vurdu, gəldi otdu. O oturanda, istirdi Sərvinaz dursun. Bərk-bərk yapışdı: "Əmqızı, qurban kəsəydim", tez bu qolun da saldı Sədat Pərinin qoluna. İksini də belə çəkdi özünə tərəf. Bunnan, onnan üzləşdi. görüşdü.

– Əmqızı, nəmənə eliyirsiz? Qulax verin, mənim də sinəmə söz gəldi, deyim. Gör nəmənə deyirəm.

Əmrah bir yerdə bir az Sərvinazı tərifliyir, Sədat Pəri durur. Sədat Pərini tərifliyir, Sərvinaz durur. Dözmüllər. Axırda Sədat Pəri dedi:

– Neynəməliyix?

Əmrah deyir:

– Deyim, neynəməliyix?

Camalın gözəldir, şəmisinən qəmər,
Əgər şölə salsa, çöldə gizdəni.
Bir əbrə, bir tirmə, bir də bir kəmər,
Bular üçü bir olsa, beldə gizdəni.

O necə quşdur, yaz gələr bağa,
Bülbüllər sarmaşar gülə, budağa.
Bir süsən, bir sünbül, bir də bir cığa,
Bular üçü bir olsa, teldə gizdəni.

O necə quşdur, qanadın çəkər,
Dimdiyi neştərtək qanımı tökər.
Bir noğul, bir nobat, bir də şəkər,
Bular üçü bir olsa, dildə gizdəni.

Dedim, gözəl, gəl eylə çaramı,
Təbibsən, bağla yaramı.
Bir əyri, bir oğru, bir də hərami,
Bular üçü bir olsa, kolda gizdəni.

Əmrah diyər, üzü xallı qız,
Ləbi qəndi-şəkər, dili ballı qız.
Bir qələm, bir davat, bir də kağız,
Bular üçü bir olsa, əldə gizdəni.

Əmrah deyir, əgər üçümüzün də nəzəri bir olsa, məsələ dəyil, geçinmax.

İndi Əmrah üzün tutup nə deyir, ərz eliyim, əziz tamaşaçıların, əziz ellərin, əziz dosdarın sağlığına. Amma Aşıq Allahverdi ilə bahəm deyillər. Gəraylıynan belə deyir bax.

– Əmqızı, mənə bax görüm. Allah eləməmiş, başıma bir iş gəlsə, sən neyniyəcaxsan?

Belə deyir həm Sərvinaza, həm Sədat Pəriyə.

Başı uca qarrı dağlar,
Başınnan yolu düşər bir gün.
Amma Rüstəm kimi pəhləvanın
Fələk qəddin bükər bir gün.

Hanı bəylərin paşası,
Qəşəng olar tamaşası.
Mənim göylümün şüşəsi,
Dəyər daşa, sınar bir gün.

Adəm oğlu, olmam əfrak,
Ağaşdan tökülər yaprax.
Ayax atda qalan toprax,
Gəlib sərdan aşar bir gün.

Sən bax bu fələyin işinə,
Axıtdı çeşmim yaşına.
Əmrah diyər, baş daşıma,
Gələr, bəyquş qonar bir gün.

## *DEYİŞMƏLƏR*

## DİRİLİ QURBANİNİN ƏHMƏD İLƏ DEYİŞMƏSİ

**Əhməd:**

Sənnən xəbər alım, ay cavan aşıq,
Mənasını bilsəm de: “bərəkallah”.
Nə qaladı dört tərəfi dəryadi,
Əsasını bilsən de: “bərəkallah”.

**Qurbani:**

Al sözün cəvabına, ay kamil usdad,
Mənasını deyir bil: “bərəkallah”.
Qala-bədən dört tərəfi dəryadi,
Yolu alınmazdı bil, bərəkallah.

**Əhməd:**

Arxamızda olan de necə yükdü?
Nədən xəlq olunup, bir qətrə tühdi.
Nə şəxsidi, hər şəxsidən böyükdi?
Sodasıni bilsən de, “bərəkallah.”

**Qurbani:**

O günahdı, arxanızda bir yükdü,
Uşaqdı yaranıp, bir qətrə tükdü.
Xalıq özü hər kimsədən böyükdi,
Qəlbinnən kədəri sil, bərəkallah.

**Əhməd:**

Necə beşdi gözəllərdə dəsdədi?
Necə güldü təmam güldən üsdədi?
Əhməd bu sözdərə cavap istədi,
Röyasını bilsən de, "bərəkallah".

**Qurbani:**

Ali-əba [1]gözəllərə dəsdədi,
Hüseyn şəhid şühədadan üsdədi.
Əhməd Qurbanidən cavab isdədi,
Sözə əhsən desin, el bərəkallah.

---

[1] Məhəmməd peyğəmbər və onun nəslinə mənsub dörd nəfərə (Məhəmməd, Fatimə, Əli, Həsən, Hüseyn) deyilir

## QURBANİNİN BİR QIFILBƏNDİNƏ ŞAİR İSMAYIL MAHİRDƏN CAVAB

**Qurbani:**

On iki gözəlin seyrinə vardım,
Gözüm düşdü gözəllərin dördünə.
Altısı bəd xislət, dindirməy olmaz,
İkisi mehriban, onun dördü nə?

**İsmayıl Mahir:**

Bir ilin içində on iki ay var,
Dörd fəsli də on ikinin dördüdü.
Bir ay payız qışdan, bir ay qışdan yaz,
İki ay mehriban onun dördüdü.

**Qurbani:**

Ay ağalar, dərdim yaman artıbdi,
Çərxi-fələy eldən daşın atıbdi.
Səkkiz şeydi bu dünyani tutubdu,
Abu atəş[1], xaki[2]-baddi[3], dördü nə ?

**İsmayıl Mahir:**

Canlı-cansız yaradıpdi təbiyət,
Abu atəş, xaki-baddı həqiqət.
İnsan-heyvan, nəbadatül həşarat,
Yaxşı düşün o, səkkizin dördüdü.

---

[1] Su və od
[2] Torpaq
[3] Külək

**Qurbani:**

Qurbani sözlərin eylədi təmam,
Evladi-Rəsula hezaran[1] salam.
Səkkiz şey gəlitdi insana ənam,
Əqil, mərfət, huşu-kamal, dördü nə?

**İsmayıl Mahir:**

İnsannığın səkkiz gözəlliyi var,
Dördü görünür, dördü görünməz aşgar.
Aşdı qıfılbəndi mahir sənətkar,
Səs, təlavət[2], bilik-qüvvət dördüdü.

---

[1] Minlərlə
[2] Oxumaq

# XƏSTƏ QASIMIN DEYİŞMƏLƏRİ

## CAN İLƏ CƏSƏDİN DEYİŞMƏSİ

**Can:**

Bir gün bəhs eylədi Can ilə Cəsəd,
Can dedi Cəsədə, iman yaxşıdı.
İsdiyirsən əgər arif olasan,
Zəbur, Tövrat, İncil, Quran yaxşıdı.

**Cəsəd:**

Cəsəd dedi Cana, doğru deyirsən,
Məndə ki bilmişəm iman yaxşıdı.
Qılıncım, qalxanım bir də bir atım,
Qolumda qüvvətim, meydan yaxşıdı.

**Can:**

Can dedi Cəsədə, isdəmə meydan,
Neçə sənin kimi getdi pəhləvan–
Rüstəm, Gərşasip, Samu Nəriman,
Daxı bu sovdadan usan yaxşıdı.

**Cəsəd:**

Cəsəd dedi Canə düşmüşəm haldan,
Hələm keyf eylərəm dövləti-maldan.
Nökərdən, nayıpdan, oğuldan, quldan,
Mən sürüm dünyada dövran yaxşıdı.

**Can:**

Can dedi Cəsədə, yoxuymuş arın,
Dövləti neylədi Harunu Qarun?
Məgər kim yadına düşmir Allahın,
Onun birliginə iman yaxşıdı.

**Cəsəd:**

Cəsəd dedi Canə, həqq olmaz razi,
Necə tərk eyliyim söhbəti sazi.
Giyərəm saxxuri[1] şab qırmızi
Görməyə dust ilə düşman yaxşıdı.

**Can:**

Can dedi Cəsədə, qılma bu sözü,
Qanmazdar təxdində geydi qırmızı.
Qırdı imamları, puç oldu özi,
Qıldı məhşərəcən pəşiman yaxşıdı.

**Cəsəd:**

Cəsət dedi Canə, pəşman olmaram,
Bir güləm ki, saralmanam, solmanam.
Heç kəsin nəsiyyətin almanam,
Hər kəsənin özü bilən yaxşıdı.

**Can:**

Can dedi Cəsədə, eylə əlaci,
Bir gün olur ayrılığın möhtaci.
Əzrayıl çəngəli zəhərdən aci,
Yatmısan qəflətdən oyan, yaxşıdı.

**Cəsəd:**

Cəsət dedi Canə, ölüm varıymış,
Mənnən başqa şəsdər[2] xəbərdarıymış.
Bu fahişə dünya biilqarıymış,
Mən elə bilmişəm cahan yaxşıdı.

---

[1] Dağıstan xalqlarından saxurlara məxsus geyim
[2] Şəxslər mənasında

**Can:**

Can dedi, həpsidə dayan arada,
Siratəl müstəqim vardı orada.
Naru cəhənnəmə yannıx əbəda[1],
Eyleyim "əstəxfur", küfran yaxşıdı.

**Cəsəd:**

Cəsət dedi Canə, "əstəxfürüllah"[2],
Bəxş eyləsin Allahü həqq, rəsulullah.
Əminəl muminin yavərul yullah,
Başım üsdə Şahi-Mərdan yaxşıdır.

**Can:**

Can dedi Cəsədə, gəldim imanə,
Səni götürmüşəm rahi ərkanə.
Xulusi[3] qəlb ilə girdin meydanə,
Gəl gedəh cənnəti- rizvan[4] yaxşıdi.

**Cəsəd:**

Cəsət dedi Cana, "Allahu əkbər"[5],
Qasım armağandı saqiyi-kövsər,
On iki kimsə var dilində əzbər,
Babadan onlara qurban yaxşıdı.

---

[1] Əbədən
[2] Təşəkkür mənasında
[3] Təmiz
[4] Cənnət mələyi
[5] Allah böyükdür

## ZƏMİN VƏ ASİMANIN DEYİŞMƏSİ

Zəmin ilə Asuman bəhsi qıldılar,
Asuman dedi, kulli-məkan məndədi.
Göydədi yaranıp ol dokkuz əflak,
Zati-mütlək[1] ol bir nişan məndədi.

Zəmin deyir, sözün özünnən söylə,
Əzəl başdan həx yaradan, məndədi.
O vahidi-yekta, bi misli- həmta,
Gahi aşgar, gahi pünhan məndədi.

Asuman deyir, sənin nəyin var Zəmin?
Səni sövən olmaz heç qəmnən əmin.
İsrafil, Mikayıl, Cəbrayıl, Əmin,
Dörd müqərrəp peyki-rəhman[2] məndədi.

Zəmin deyir, Asuman məndədir busat,
Hər bir anda gəlir neçə min ayat,
Zəbur ilə İncil, Sühufla Turat,
Dörd kitap əfsəli, Quran məndədi.

Asuman deyir, Zəmin məndə nəim var,
Şükr Allaha, həx yanında payım var.
Gah nuri-şəms[3], gah mükəmməl ayım var,
Şəb[4] içində mahi-taban məndədi.

Zəmin deyir, budur sözün kutahi,
Üstümə yığılıp əncüm sipahi[5].

---

[1] Allah mənasında
[2] Allahdan xəbər gətirən
[3] Günəşin işığı
[4] Gecə
[5] Ulduzlar ordusu

İşarə eylədi, şəqq etdi mahi,
Məhəmməd tək nuri-Yəzdan[1] məndədi.

Asuman deyir, Zəmin, sən eylə bavər[2],
Buyururam fələyə gərdənin avər.
Zərrin topun çəkip xurşudi-xavər[3],
Tərtövün üsdünə salam məndədi.

Zəmin deyir, Asuman gətirməzsən tap,
Çıxıpsan havıya manəndi-hübab[4].
Hayxırdı səmaya, döndü afitab[5],
Əli şimşiri Quran məndədi.

Asuman deyir, mənim sözdərim burzdi,
Mənnən sənə miras namaz, orucdi.
On iki ulduz, on iki də burcdi,
Şəmsi-qəmər[6], doli mizan məndədi.

Zəmin deyir, sözün eylədin təmam,
Evladi-Rəsula hizaran səlam.
Xəstə Qasım deyir, on iki imam,
Şahi-Məhdi, Sahip-Zəman məndədi.

---

[1] Allahın nuru
[2] İnam
[3] Şərq günəşi
[4] Qabarcıqlar kimi
[5] Günəş, nur
[6] Günəş-ay

## XƏSTƏ QASIMNAN TƏBRİZLİ MOLLA ƏLİNİN DEYİŞMƏSİ

### Müctəhidlər məclisində

**Molla Əli:**

Mənə cəvap söylə, ay Xəstə Qasım,
Kim idi gizdin gəzər insan içində?
De, kim idi qərq olmuşdi dəryayə?
Kim onu qurtardi ümman içində?

**Xəstə Qasım:**

Sənə cəvap verim, ay Molla Əli,
İblis gizdin gəzər insan içində.
Cəbrayıl qərq oldu bəhri-ümmana,
Movlamız qurtardı ümman içində.

**Molla Əli:**

Kim kimi öldürip eyliyip qani?
Hansı tufan idi tutdu dünyani?
Dörd kitap göndərip kərəmin kani,
Neçə “bismillah” var Quran içində?

**Xəstə Qasım:**

Qabildir Habildən axıtdı qanı,
Nuh tufanı tutdi küllü dünyanı.
Dört kitap göndərip kərəmin kanı,
Yüz on dört “bismillah” Quran içində.

**Molla Əli:**

Kim kimə yetirdi doğri xəbəri?
Kimin qulluğunda cinni-bəşəri?
Adım Molla Əlidi, sözümin səri[1],
Bir nəhəngəm mən də meydan içində.

**Xəstə Qasım:**

Cəbrayıl Adəmə verdi xəbəri,
Ya Süleyman hökmində cinni-bəşəri,
Qasiməm, çağırram Şahi-Heydəri,
Müsəlmanam, məndə iman içində.

[1] Sözümün sahibi

## PƏRİ XANIMLA XƏSTƏ QASIMIN DEYİŞMƏSİ

**Pəri xanım:**

Dad eyliyip gələn şayir,
Eşit bir kəlamat mənnən.
Firdovsudan dərs almışam,
Öyrən elmi-ayət mənnən.

**Xəstə Qasım:**

Sənə deyim, Pəri xanım,
Qonağam, naçaram sənnən.
Firdosu bil mən özüməm,
Bil əvəz açaram sənnən.

**Pəri xanım:**

İrəngini zərd eylərəm,
Əl-əyağın sərd eylərəm.
Səni əzip xurd eylərəm,
Qaçarsan bu sahat mənnən.

**Xəstə Qasım:**

Bir iş görrəm qalarsan ləng,
Dünya olar sənə çox təng.
Sən bir ovsan, mən bir pələng,
Sanma ki qaçaram sənnən.

**Pəri xanım:**

Pəriyəm, at qoyduraram,
Gözlərini oyduraram.
Bil, dərini soyduraram,
Sənə yoxdu nəcat mənnən.

**Xəstə Qasım:**

Mən Qasımnan xəbər alsan,
Yetişmiyip barın, kalsan.
Min budaxlı ağac olsan,
Quş olup uçaram sənnən.

## XƏSTƏ QASIMLA LƏZGİ ƏHMƏDİN DEYİŞMƏSİ (1)

**Ləzgi Əhməd:**

Əcəl səni tutup, ay dədə Qasım,
Bu gün dağısdanda meydan məndədi.
Xof səni basmasın, rəngin atmasın,
Qətlinə hökm edən fərman məndədi.

**Xəstə Qasım:**

Gəl sənə söyliyim, ay Ləzgi Əhməd,
Sərraf mənəm, ləli-mərcan məndədi.
Tütsaram[1] mən, bağlamışam yükümi,
Mədəniyəm, gohəri-kan[2] məndədi.

**Ləzgi Əhməd:**

Bəzirgansan səhmannı bazara,
Satginən matahın[3] sən xəridara.
Çəkərəm məhəngə[4], sallam aşkara,
Yəqut-yəmən, dürrü-qəltan[5] məndədi.

**Xəstə Qasım:**

Çəkərəm əbcəti[6] hesab üsdünə,
Murqi hücum edip niqab üsdünə.

---

[1] Tacirəm
[2] Qiymətli daş mədəni
[3] Dəyərli əşya
[4] Bir şeyin keyfiyyəti, dəyərini göstərən şey
[5] Yumuru inci, mirvari
[6] Qədim ərəb əlifbasında ilk dörd hərf

Endirrəm havadan turab[1] üsdünə,
Neçə ayə, hökmü Quran məndədi.

**Ləzgi Əhməd:**

Havalanma, əlin yetməz təngimə,
Qəza salıp səni mənim çəngimə.
Əhməd deyir, çıxanmazsan dəngimə,
Sirri-pünhan, təzə dasdan məndədi.

**Xəstə Qasım:**

Qasım yad eyliyir Şahi-Heydəri,
Yədullah dəsdiylə yıxdı Xeybəri.
Bir zərbətlə iki böldi əntəri[2],
Əli kimi Şiri-Yəzdan məndədi.

**Xəstə Qasım:**

Gəl sənə söylüyüm, ay Ləzgi Əhməd,
Salmışam hər yana səda, gəlmişəm,
Həqiqətdən yol-ərkana çatmışam,
Şah əlinnən içip bada, gəlmişəm.

**Ləzgi Əhməd:**

Al cəvabın deyim, ay dədə Qasım,
Yaxşı vaxda bu meydana gəlipsən.
Çəkərsən əlimnən aman əl həzər,
Yusif kimi sən zindanə gəlmisən.

---

[1] Torpaq, qum, toz
[2] Meymun cinsi

**Xəstə Qasım:**

Qurulanda məclis, başlananda bəhs,
Çəkərəm kamıma alanda nəfəs.
Vurulanda təbil, ucalanda səs,
Onda bil, canına qada gəlmişəm.

**Ləzgi Əhməd:**

Ovsuncuyam, nəfəs salam şahmara,
Bir duva oxuram, yanarsan nara.
Çaşdırram əqlini, düşərsən dara,
Dolanmazsan, mən ümmana gəlipsən.

**Xəstə Qasım:**

Qasım deyir, dərya mənəm, kül mənəm,
Divan təcnis mədəniyəm, dürr mənəm.
Nərə çəksəm gözü qızmış şir mənəm,
Sığınmışam min bir ada, gəlmişəm.

**Ləzgi Əhməd:**

Əhməd deyir, mənə atma top-tüfəng,
Gəmilər çevirən mənəm bir nəhəng.
Yetişməz dangıma[1] yüz şiri-pələng,
Gözlərinnən axan qana gəlipsən.

---

[1] Dadıma

## XƏSTƏ QASIMLA LƏZGİ ƏHMƏDİN DEYİŞMƏSİ (2)

**Ləzgi Əhməd:**

Səndən xəbər alım, ay dədə Qasım,
O nədir ki, saralıpdı solupdu?
Hansı işi xalix həram buyurup,
O nədir ki, həqiqətlə dolupdu?

**Xəstə Qasım:**

Sənə cəvap verim, ay Ləzgi Əhməd,
Mərd adamdı saralıpdı, solupdu.
Haram işdi, xalix həram buyurup,
O dünyamız həqiqətlə dolupdu.

**Ləzgi Əhməd:**

Nə "əlifdi" yoxdu onun həmtasi?
Hansı "bey"di, kimdi onun ağası?
Hansı "tey"di hardan gəlip binası,
Hansı "sey"di əmbər xuruş olupdu.

**Xəstə Qasım:**

"Əlif"– Allah yoxdu onun həmtası,
"Bey" Buraxdı, peyğəmbərdi ağası.
"Tey"– tazidi, göydən gəlip binası,
"Sey"– sənadı, ənbər xuruş olupdu.

**Ləzgi Əhməd:**

O nə "cim"dir, bu zahirdə yoxudu?
O nə "hey"di möcüzatı çoxudu?
O nə "xey"di onun misli yoxudu,
O nə "dal"dır, əl həcərdən olupdu?

**Xəstə Qasım:**

"Cim"– cənnətdir, bu zahirdə yox idi,
"Hey"– Heydərdi, möcüzatı çox idi.
"Xey"– Xalixdir, onun misli yox idi,
"Dal"– Düldürdür, əl həcərdən olupdu.

**Ləzgi Əhməd:**

O nə "zaldır", onun neçə başı var?
O nə "reydi", neçə min il yaşı var?
O nə "zeydi", neçə yerdən quşu var?
O nə "sindi", ona sultan olupdu?

**Xəstə Qasım:**

"Dal"– Zülfüqar[1] onun iki başı var,
"Rey"– Rəfrəfi[2], beş yüz min il yaşı var.
"Zey"– zəmindi, dörd tərəfdən quşu var,
"Sin– Süleyman ona sultan olupdu.

**Ləzgi Əhməd:**

Necə "şin"di kimə vermədi məva?
Necə "sat"dı, onla eylədi dəva?

---

[1] Həzrəti Əlinin qılıncının adı
[2] Məhəmməd peyğəmbərin merac zamanı mindiyi ikinci xəyali atın adı.

Necə “zat”di, yerdə qılıpdi məva,
Necə “ta”dır, nə yerdə xəlq olupdu?

**Xəstə Qasım:**

“Şin”– şahidi, küfrə vermədi məva,
“Sal”– Salsaldı, onla eylədi dəva.
“Zat” – Zöhakdı, yerdə qılıpdı məva,
“Ta” – tubdur, behişdə xəlq olupdu.

**Ləzgi Əhməd:**

Nə – “zad”ddı ki, daxil olmaz behişdə?
Nə “əyin”di yerdə-göydə firişdə[1]?
Nə “təy” di, tutup aləmi-gəşdə,
Nə “feyl” işi, dörd bir yanı alıpdi?

**Xəstə Qasım:**

“Ya”– zalimdı daxil olmaz behişdə,
“Əyil– Əli yerdə, göydə firişdə.
“Tey”in qovğadı, tutup aləmi gəşdə,
“Fey” fələhdi, dört bir yanı alıpdı.

**Ləzgi Əhməd:**

Nə “qaf”dı ki, hər yanda tutupdi qərar?
Necə “kaf”dı durmaz gedər, həşdi car?
Necə “lam”dı, daymı çəkər ahı-zar,
Necə “min”di harda məskən salıpdı?

[1] Mələk

**Xəstə Qasım:**

“Qaf” – Qurandi, heç yerdə tutmaz qərar,
“Kaf” – kövsərdi, olar inan həşdi car.
“Lam” – Leyladı, daymı çəkər ahı-zar,
“Mim” – Məcnundu, dağda məskən salıpdı.

**Ləzgi Əhməd:**

Necə “nun”du, hər bir yerin sərvəri?
Necə “vav”dı kimnən xitapdi vəli?
Necə “hey”, nə kəsiydi rəhbəri?
Necə “lam”dı, o kimə əmr olupdu?

**Xəstə Qasım:**

“Nun” – namazdı hər bir yerin sərvəri,
“Vav” – Vəlidi, haqdan xitapdır vəli.
“Hey” – hadidi, Məhəmməddi rəhbəri,
“Sin” – səcdədi, Adəmə əmr olupdu.

**Ləzgi Əhməd:**

Əhməd deyir, qəm etmərəm dünyada,
Dosdumu vəlidi, verməzlər bada.
Nə kimsədən şah olar uqbada[1],
O lə “yeydi” əvvəl əbzar olupdu.

**Xəstə Qasım:**

Qasım deyir, qəm etmərəm dünyada,
Dostumuz Əlidi, verməz bərbada.
Məhəmməddi, şafə olar uqbada,
“Yey”– Yəməndi, əvvəl əbzar olupdu.

[1] Axirətdə

## GÜLÜSTAN XANIMLA ƏLYARIN DEYİŞMƏSİ

**Gülüstan:**

Sənnən xəbər alım, aşıq Əlyar,
Gözümüzdən gələn nədən yaş oldi?
O kimiydi əl götirdi duaya?
Təmami xəlayiq təxtə puş oldi.

**Əlyar:**

Camalın şöləsi gözümə doldu,
Gözümüzdən daymi gələn yaş oldu.
Cəbrəyıldı, əl götürdü duaya,
Təmami xəlayix təxtə puş oldu.

**Gülüstan:**

Kimiydi başını quyuya tutdi?
Sözünü söylədi, orda nə bitdi?
İsgəndər sırrını nə aşgar etdi?
Deyirəm aləmə nədən xoş oldi?

**Əlyar:**

Süleyman başını quyuya tutdi,
Sözünü söylədi, bir bulax bitdi.
İsgəndər sırrını aşikar etdi,
Onunçün aləmə işi faş[1] oldu.

[1] Üstü açılmaq, ortaya çıxmaq

**Gülüstan:**

Gülüstanam, kimdi insan zatında?
O kimdir ki, səlavat var adında?
O nəydi gəldi at sifətində?
Neçə min il qanat çaldı, quş oldi.

**Əlyar:**

Əlyaram, Cəbrayıl insan zatında,
Məhəmmədi, salavat var adında.
Burax gəldi yerə at sifətində,
Yetmiş min il qanat çaldi, quş oldu.

## TİFLİSLİ AŞIQ ƏLİ İLƏ NURİKİN DEYİŞMƏSİ

**Nurik:**

Sənnən xəbər alım, ay Aşıq Əli,
Söylə Cəbrayılın neçə pəri var?
Göydəki xoruzun rəngini söylə,
Sədasında onun neçə sırrı var?

**Aşıq Əli:**

Nə qədər Quranda zir-zəbərpuş var,
Cəbrayılın o qədər də pəri var.
Göydəki xoruzun rəngi yaşıldı,
Sədasında onun yüz min sırrı var.

**Nurik:**

Nə ayda salındı cənnətin bağı?
Nə ayda alışdı Musanın dağı?
Necə tağdi yüz min tubi[1] budağı?
Onun budağının nədən barı var?

**Aşıq Əli:**

Rəcəpdə salındı cənnətin bağı,
Səhərdə alışdı Musanın dağı.
Tur dağıdı, yüz min tubi budağı,
Rəbbin qüdrətinnən onun barı var.

[1] Cənnətdə bitən gözəl, hündür bir ağac

**Nurik:**

Söylə, nə rəngə çalır Qərqayil[1] muyi[2]
Söylə, nə yerdədi zoqqumun[3] suyi?
Söylə, nə boy verər əzazil buyi?
Nurik deyir, ərşin neçə dəliyi var?

**Aşıq Əli:**

Rəngi yaşil çalır Qərqayil muyi,
Fin-nari[4] səqərdə[5] zuqumun suyi.
Müşgü ənbər verir, əzazil buyi[6],
Əli deyir, ərşin səkkiz dəliyi var.

---

[1] Bir növ quş, qırqovul
[2] Tük
[3] Cəhənnəmdə pis qoxulu, tikanlı ağac
[4] Odda
[5] Səqər odda yanmaq deməkdir. Səqr, odla yandırmaq və ya dağlamaq mənasındadır
[6] Şeytan qoxusu – burada nadinc uşaq, yaxud adam mənasında işlədilmişdir

## ULULU KƏRİM İLƏ SÜSƏN XANIMIN DEYİŞMƏSİ

**Süsən xanım:**

Əbəs yerə bu meydanə gəlmisən,
Kəsərəm nəslini, müsəlman qoca.
Sən özünü yalan aslan bilipsən,
Kəsərəm nəslini, müsəlman qoca.

**Ululu Kərim:**

Baş götürüp bu meydna gəlmişəm,
Əfsanə sözdərin söyləmə bica[1].
Mən yolunda başı cannan keçərəm,
Olmuşam dünyada mən sənnən uca.

**Süsən xanım:**

Şeyda bülbül bizim bağdan uçupdu,
Şikarını qaynağında biçibdi.
Qocalmısan, sənin sinnin keçipdi,
Kəsərəm nəslini, müsəlman qoca.

**Ululu Kərim:**

Mən cavan oğlanam, demə qocayam,
Həqqin xidmətində mən ki, ucuyam.
Sənin təh gözəlin vallah acıyam,
Halın xəbər allam bu gələn gecə.

[1] Mənasız, yersiz

**Süsən xanım:**

Səhər-səhər çıxan dan ulduzuyam,
Aşıxların söbətiyəm, sözüyəm.
Adım Süsən, Qara bəyin qızıyam,
Kəsərəm nəslini, müsəlman qoca.

**Ululu Kərim:**

Kərim dərsin alıp Şahı-Mərdannan,
Bu yolda geşmişəm baş ilə cannan.
Ölsəm də qaçmaram mən bu meydannan,
Təbrizdən gəlmişəm, şucuyam şuca[1].

**Süsən xanım:**

Sənnən xəbər alım, müsəlman qoca,
O nədir ki, bu dünyanı gəzər hey?
O nədir ki, nə əli var, nə dili?
Qələmsiz, davassız daymı yazar hey!

**Ululu Kərim:**

Al cavabın deyim, ay Süsən xanım,
Ay ilə Gün bu dünyanı gəzər hey!
O ürəhdi, nə əli var, nə dili,
Qələmsiz, davassız daymi yazar hey!

**Süsən xanım:**

O kimiydi dediyini isdədi?
O kimdi ki, həmişəlik xəsdədi?

---

[1] Qorxmaz, igid

Nə iydi qarnında insan bəslədi?
Söylə, nədi şükrü vardı hezar hey?

**Ululu Kərim:**

Süleymandı, dediyini isdədi,
O qocadı, həmişəlik xəsdədi.
O balıxdı, Həzrəti Yunis bəslədi,
Öldürmədi şükrü vardı hezar hey!

**Süsən xanım:**

Süsən deyir, gəl qayil ol sən mənə,
Hansı gündə gələcəklər mizana?
Hansı kəlmə vacip olup insana?
O kimdi ki, hər bir sırrı yozar hey!

**Ululu Kərim:**

Kərim deyir, gəl qayıl ol Qurana,
Məhşər günü yığılallar mizana.
Şəhadətdi, vacip olup insana,
O Allahdı, hər bir sırrı yozar hey!

# GÖYÇƏLİ AŞIQ BƏHMƏNİN AŞIQ ƏLƏSGƏRDƏN GÖTÜRDÜYÜ QIFILBƏNDİNƏ CAVABI

**Ələsgər:**

Məğrurruğ eyliyip, usduyam diyən,
O hansı ağaçdı tağı yeddidi?
O ağaçda bir quş yuva salıpdi,
Çarpaz sinəsinin daği yeddidi?

**Aşıq Bəhmən**:

Ustadam diyənnər məğrur olmasın,
Cəsət damarının sırrı yeddidi.
Sinə yuvasında məsgən salıpdi,
Ürəh bir quş olsa, pəri yeddidi,

**Aşıq Ələsgər:**

Bir hökumət görmüşəm xiyalım çaşıp,
Huş başımnan gedip, dilim dolaşıp.
Şahın qulluğunda bir qul əyləşip,
Bədən birdi, əl-əyağı yeddidi.

**Aşıq Bəhmən:**

Xudam qəhr eyləsə, xiyalım çaşar,
Suvali qəbirdə dilim dolaşar.
Ruzu şəb içində mömmün çalışar,
Şəcdə əzasının yeri yeddidi.

**Aşıq Ələsgər:**

Ələsgər sözlərindi müttəsildi,
Nə oldi dəhnədə suyun kəsildi.
İl uzunu ona bahar fəslidi,
O hansı bağbandı tağı yeddidi?

**Aşıq Bəhmən:**

Məclisdə var sözün isbatı, Bəhmən,
Əfsanə keçibdi həyatı, Bəhmən.
Dilində əzbərdi ayatı, Bəhmən,
Müqəddəmat sum[1] ləngəri yeddidi.

---

[1] Sum, əslində "soom" ərəbcədə oruc tutmaq deməkdir. Burada orucun əsas yeddi şərtlərinəndən üçünün önəmli olduğu vurğulanır.

## AŞIQ ƏLƏSGƏRİN XƏSTƏ QASIMIN QIFILBƏNDİNƏ CAVABI

**Xəstə Qasım:**

Bir çarsuda[1] o dörd rahat şoldum,
Onlar bir-biriynən eylər ixtilat.
Hər birinin dili ayrı, dini bir,
İkidə cüt gəldi oldux şeş-cahat,
Əli kayinat.

**Aşıq Ələsgər:**

Dörd kitap hər yana yolu gösdərər,
Nəfs ilə mərifət olur şeş cahat.
Belə əmr eyliyip qadir İlahi,
Bu əmrə qol qoyan tez tapar nəcat,
eylə eytiqat.

**Xəstə Qasım:**

Neçə ay qarışdı Nuhun tufanı?
Neçə il sərgərdan gəzdi dünyanı?
Neçə min cəm etdi insan, heyvanı?
İnsannar kim idi eylədi fəryat,
istədi imdat.

**Aşıq Ələsgər:**

Altı ay qarışdı Nuhun tufanı,
Bir ildə sərgərdan gəzdi dünyanı.
Altı min altı yüz insan, heyvanı,
İnsannar türkidi, ərəb, bir də tat,
eylədi fəryat.

[1] Dörd tərəfdə, dörd yanda

**Xəstə Qasım:**

Neçə müddət qərq oldular tufana?
Kimidi əmr etdi gəldi fərmana?
De, neçədə onnar tapdi bir dana?
Kimiydi gətirdi onnara sovqat,
 qıldı ibadat ?

**Aşıq Ələsgər:**

Altı ayda qərq oldular tufana,
Əmr oldu kəbutər[1] gəldi fərmana.
İki yüz otuzda tapdı bir dana,
Nuh üçün fəhmində gətirdi sovqat,
 qıldı ibadat.

**Xəstə Qasım:**

Kimiydi qalmışdı dağlar düzündə?
Kimiydi nur tökülər daymi sözündə?
Biçarə Qasımın şərhi-sözündə,
Bütün söz bilənnər deyim qaldı mat,
 bilməz kəramat.

**Aşıq Ələsgər:**

Məcnun gəşt[2] elədi dağlar düzündə,
Məhəmmədin irad yoxdu sözündə.
Aşıq Ələsgərin daymi özündə,
Düşünsən üqbanı bu dünyani at,
 ruhun olsun şat.

---

[1] Göyərçin
[2] Gəzmək, dolanmaq

## MƏZAHİR DAŞQINLA HÜSEYN CAVANIN DEYİŞMƏSİ

**Hüseyn Cavan:**

Talehi xoş insan gəlsə dünyayə,
Onun gətirdiyi dövran gülərmiş.
Loğman gəlsə bir Xəstənin yanına,
Xəstə sağalarmış, loğman gülərmiş.

**Məzahir Daşqın:**

Yaradan insanı gözdən salanda,
Arxasız iyidə mahal gülərmiş.
Yorulup, cərgədən dalı qalanda,
Halsız ixtiyara cahıl gülərmiş.

**Hüseyn Cavan:**

Hər kimin dünyada talehi gülsə,
Sinəsinə dürdən gövhər süzülsə,
Azat günlərinin qədrini bilsə,
Devran sevinərmiş, zaman gülərmiş.

**Məzahir:**

Namərtlər düşmandı həmişə mərdə,
Yaradan salmasın yaxşını dərdə.
Hərraç bazarında, sərrafsız yerdə,
Zər yonan zərgərə baqqal gülərmiş.

**Hüseyn Cavan:**

Sən heç vaxt dünyada gülmə bir kəsə,
Namərdlər istiyər yıxdığın kəsə.
Zaman bəd gətirsə, mərtlər büdrəsə,
Namərtlər əl çalıp, yaman gülərmiş.

**Məzahir:**

Fələyin dərdinə tapılmaz çara,
Sağalmaz dünyada dil vuran yara.
Bədbəxlix üz verip düşəndə dara,
Alimin elminə nakkal[1] gülərmiş.

**Hüseyn Cavan:**

Qafil olma könül, xoş günnər ara,
Əşqini verginən doğma diyara.
Bir ox ki, düzgün gedip dəysə şikara,
Səyyat şad olarmış, kaman gülərmiş.

**Daşqın:**

Kipriklər ağlıyır, göz çəkiləndə,
Əsaya yalvarır, bel büküləndə,
Buğ buruxdan düşüp, diş töküləndə,
Çənə çıtlak vurup, sakkal gülərmiş.

**Hüseyn Cavan:**

Hüseyn, sən dağların zirvəsinnən aş,
Döyüş meydanına hünərlə yanaş.
Köməy eyləməsə qardaşa qardaş,
Kənardan əl çalıp, düşman gülərmiş.

**Məzahir:**

Sərraf xəcil olar zər tunc olanda,
Daşqın fəxr eyləməsən ucalanda.
Pələng bəndə düşüp, şir qocalanda.
Pişik nərə çəkip, çakkal gülərmiş.

---

[1] Boş-boş danışmağı sevən, boşboğaz

## ABBAS TUFARQANLIDAN BİR NEÇƏ DEYİŞMƏ („ABBAS VƏ GÜLGƏZ" DASTANINDAN)

**Gülgəz:**

Başına dolanım, gül üzlü oğlan,
Bu güllü baxçıya kimlər yol verdi?
Sənə qurban olsun dövlət mülkü var,
Bu güllü baxçıya kimlər yol verdi?

**Abbas:**

Gəl sənə söyləyim, gül üzlü pəri,
Tərlan məni bu baxçıya gətirdi.
Yolunda qoymuşam can ilə səri,
Tərlan məni bu baxçıya gətirdi.

**Gülgəz:**

Düşman düşmannığın bizə bildirər,
Ağladıban gözüm yaşın sildirər.
Şah babam gəl bilsə səni öldürər,
Bu güllü baxçıya kimlər yol verdi?

**Abbas:**

Tərlanımı buraxmışam bu dağa,
Allah özi qüdrət verip oyağa.
Səni gördüm, gəldim düşdüm bu bağa,
Tərlan məni bu baxçıya gətirdi.

**Gülgəz:**

Səhərin süpündə dan ulduzuyam,
Aşıxların işvəsiyəm, nazıyam.
Adım Gülgəz, Əhməd paşa qızıyam,
Bu güllü baxçıya kimlər yol verdi?

**Abbas:**

Doğru desən, doğrulana doğruyam,
Qılıncım var qılafında soğluyam[1].
Mən Abbasam, Məhəmmədin oğluyam,
Tərlan məni bu baxçıya gətirdi.

---

[1] İtilətmək

## ABBASLA ŞİRAZLI MİRHÜSEYNİN DEYİŞMƏSİ

**Mirhüseyni:**

Gəldim gözəl şahı tərif eyliyim,
Salam olsun, gözəl Şaha keşakeş.
Sözlərimin düzün bəyan eyliyim,
Səlam olsun, gözəl Şaha şeşaşeş.

**Abbas:**

Mən də gözəl şahı tərif eyliyim,
Səlam olsun, gözəl Şaha şeşaşeş.
Həqiqəti burda əyan eyliyim,
Səlam olsun, gözəl Şaha şeşaşeş.

**Mir Hüseyni:**

Mənim ağam gözəllərin gözəli,
Gözəllərin yaranıpdi gözəli.
Darda qoymaz gözəllərin gözəli,
Salam olsun, gözəl Şaha şeşaşeş,

**Abbas:**

Mənim ağam qəni, həm də vəlidi,
Bir adı Yasindi, biri Əlidi.
Behiştin ətirli gözəl gülüdi,
Səlam olsun, gözəl Şaha şeşa-şeş.

**Mir Hüseyni:**

Mir Hüseyni, çağır o qiblagahi,
Onunçün daymi çəkərəm ahi.
Yetişsin dadıma şahların şahi,
Səlam olsun, gözəl Şaha şeşa-şeş,

**Abbas:**

Mənim ağam müsəlmana əmidi,
Müşgüldə qalanın o həmdəmidi.
Abbas, söylə sözdərinin dəmidi,
Səlam olsun, gözəl Şaha şeşaşeş.

## “ƏSLİ VƏ KƏRƏM” DASTANINDAN KƏRƏM VƏ VARANUŞUN DEYİŞMƏSİ

**Varanuş:**

Cavan oğlan, sən ağlama yarali,
Sənin yarın on gün olar gedipdi.
Mən bildim ki, oydu yardan yarali,
Sənin yarın on gün olar gedipdi.

**Kərəm:**

Qoy sənə söyləyim, Varanuş xanım,
Burdan ötüp nə diyara getdilər?
Mən bülbüləm, o da mənim gülümdi,
Məni salıp ahı-zara getdilər.

**Varanuş:**

Dərin dəryalara vara bilmədim,
Ağlıyırdı, xəbər ala bilmədim.
Əylənip, yanında qala bilmədim,
Sənin yarın on gün olar gedipdi.

**Kərəm:**

Lənət gəlsin o keşişin özünə!
Acı söhbətinə, acı sözünə.
Həsrət qaldım mən Əslinin üzünə,
Söylə görüm, de aşkara getdilər.

**Varanuş:**

Aşıq oldum mən o qızın təhrinə,
İsdədim ki, mən də düşəm qəhrinə.
Xəbər aldım getdi Qeysər şəhrinə,
Sənin yarın on gün olar gedipdi.

**Kərəm:**

Xaliqim yaradıp bir gözəl candı,
Adı dildə, özü mənnən pünhandı.
Kərəm deyir, canım ona qurbandı,
Ciyər oldu parə-parə, getdilər.

## MƏRƏNDLİ MƏHƏMMƏDLƏ HÜSEYN SAİNİN DEYİŞMƏSİ

**Mərəndli Aşıq Məhəmməd:**

Hökmü xuda əlindədir, yaranmışa can verir,
Qüdrətinnən peyvənd çalıb, dərtlərə dərman verir.
Həm yerləri, həm göyləri seyr eyləsən, görərsən,
Aləmin bir hakimi var, nəyin ki loğman verir.

**Aşıq Hüseyn Sai:**

Əzəlinnən yaradanım xəstələrə can verər,
Bütün dərtlərin dəvasın qadiri-sübhan verər.
İxtiyar onun əlindədir, naşərikdi, laməkan,
O sənə lütfün eyləsə, görərsən hər yan verər.

**Mərəndli Aşıq Məhəmməd:**

Bir bədəndə on iki qol yapışıpdı hey çəkir,
Bir başı var, otuz əyax gecə-gündüz hey qaçır.
Dörd tərəfə şaxə verib, həftədə bir gül açır,
Həm ölir, həm dirilir, ildə bir yol can verir.

**Aşıq Hüseyn Sai:**

On iki qol il olupdi insannarı hey çəkir,
Ayın əvvəli, axıri– otuz dört yaşi tökür.
Dört tərəfdə həftəsidi, yeddisində gül açır,
Ay qutara dübarədən Yaradan imkan verər.

**Mərəndli Aşıq Məhəmməd:**
Bir atanın on iki oğlu, qırx səkkizdə el gedir,
Otuzdan otuza bir də hər tərəfə qol gedir.
Üş yüz altmış altı qoşun, gecə-gündüz yol gedir,
O qoşunun fərmanını bir dana Sultan verir.

**Aşıq Hüseyn Sai:**

Qırx səkkizdi, həfdələrdi yığılıban il olur,
Otuz-otuz aylar gəlip bir-birinə qul olur.
Üş yüz altmış altı gündi, ilimizdi gün olur,
Onun hər gününə baxsan Yaradan fərman verər.

**Mərəndli Aşıq Məhəmməd:**

Bir ananın sinəsindən altmış uşax sallanır,
On beş, on beş süd əmillər, sızıldanır, səslənir.
Yaşı çatanda iyirmi dördə bir pəhləvan bəslənir,
Gecə-gündüz çərxi vurur, gör necə covlan[1] verir!

**Aşıq Hüseyn Sai:**

Altmış dəyqə bir saatda ona uşax dedilər,
On beş, on beş dört bölünüp, onu bir rup[2] etdilər.
Yaşı onun iyirmi dörtdə onda bir gün getdilər,
Gecə-gündüz gəşt edibən, ellərə covlan verillər.

**Mərəndli Aşıq Məhəmməd:**

Firon Allaha ox atdı, oxu qaldı kamanda,
Çoxları da cəht eylədi, özü qaldı amanda.
Mərəndli Aşıq Məhəmməd, nə qalmısan kənanda?
Bütün dərdlərin dəvasın o Şahı-Mərdan bilir.

**Aşıq Hüseyn Sai:**

Yaradana baxar olsan, rəhmi gələr insana,
Görürsən ki fürsət verir, Şəddad ilə Firona.
Hüseyn Sai, dərdini de, sığın Şahi-Mərdana,
Bütün dərddərin dəvasın ol Şahi-Mərdan verər.

---

[1] Dolanmaq, hərəkət etmək
[2] Rüb

## ŞAİR NƏBİ İLƏ HÜSEYN SAİNİN DEYİŞMƏSİ

**Şair Nəbi:**

Həqiqətdən dərs almışam, əlimdə haçardı bu,
Cismi-canda murğularım səf çəkip, uçardı bu.
Xiyalın cəvahiratdan dürdanə seçərdi bu,
Könlüm gəzir bu gülşəni, gülü xardan seçərdi bu.
Bu könlümün kəşgülünü[1] atmışam dəryalərə,
Bax, əcayip qəvvas olub, dəryadan keçərdi bu.

**Aşıq Hüseyn Sai:**

Ustadımnan düz dər salam, düz sözü seçərdi bu,
Həqiqətin çeşməsinnən su alıp, içərdi bu.
Cəmalı gün gözdər, şölə günəş təh saçardı bu,
Dildən təmiz, sudan duru sırrılar açardı bu.
Könlüm gəlip bağ gəşd edər, görginən əhvalini,
Məcnun kimi düşüp çölə, hər dərddən naçardı bu.

**Şair Nəbi:**

Arayıban yol-ərkanı, hər kəs ki gəlməz yola,
Əzrayıl xıjmınan gəlsə, cana düşər vəlvələ.
Mənkiri[2] sual edər, kəlmə gətirməz dilə,
Məqamı-mahi-əqrəp tamam qurşanıp bilə.
Çəkəllər bax bir mənzilə cadalar dönər sola,
O yerdə ki, şəfa bilməz, məhşərdə qaçardı bu.

---

[1] Qab
[2] Mələk adları

**Aşıq Hüseyn Sai:**

Həqiqətdən ayə gəzən tapar dərdin çarasın,
Leyli-Məcnun dərddən saldı ürəyinə yarasın.
Aşıq olan öz yarını gərək gəzip arasın,
Əzəlinnən mən söymüşəm ala gözüm qarasın.
Könlüm qoymaz uzax gəzsin ürəgimin parasın,
Çün yarına aşıq oluf, varınnan keçərdi bu.

**Şair Nəbi:**

Şair Nəbi göz dikipdi min Məhəmmədin nura,
Çün şəninə Quran endi, yazıldı kitaplara.
Sözlərində nəf eylərəm, çox Əhməd usdaddara,
Altı min altı yüz altış altı ayət, yüz on dört sura.
"La ilahə illallah" dedim şəhadətdə ilqara,
Əlimdə nameyi-amal behişti-açardı bu.

**Aşıq Hüseyn Sai:**

Əli vallah min Məhəmməd Əli Mərdandı,
Allah özü laşərikdi, bütün dərdə dərmandı.
Yar yarınnan ayrı düşə, onun bağrı al qandı,
Şeyda bülbül nalə edir, ona yanan bağbandı.
Yaradanın ədalətli verdiyi düz fərmandı,
Sai deyir, qayil olan deməsin naçardı bu.

## AŞIQ MANAFLA AŞIQ HÜSEYN SAİNİN DEYİŞMƏSİ

**Aşıq Hüseyn Sai:**

Arif olan, şair olan qulax ver,
Nadannar əlində qaldı bu sənət.
Neçə min il sabiqəsi[1] var əlbət,
Sən demə cavandı, saldı bu sənət.

**Aşıq Manaf:**

Arif məclisində qanan yanında,
Şərəfdi, şökətdi, şandı bu sənət.
Aşıq Qurbanidən, Dədəm Qorqutdan,
Bizlər üçün bir nişandı bu sənət.

**Aşıq Hüseyn Sai:**

Sənət unuduldu aşıq çox oldu,
Şair nişan oldu, yazı yox oldu.
Sənət də yox oldu, saz da yox oldu,
Zəhər oldu, nə ki qaldı sənət.

**Aşıq Manaf:**

Səslə Azaflını, ol kamandarı,
Hüseyn Saraçlını, Aşıq Xanları,
Səməd Vurğun sarı, Ələsgər sarı,
Ürəyi bir parça qandı bu sənət.

---

[1] Keçmişi

**Aşıq Hüseyn Sai:**

Ustadsız saz çaldım, aşıq– sənətkar,
Dedi ki, təh doğup məni ruziğar.
Hüseyn Sai, daha çəhmə ahi-zar,
Yaranannan qili-qaldı[1] bu sənət.

**Aşıq Manaf:**

Mən Manafam, bəsdi, bu qədər yetər,
Çox uzatma sözi, hədəfin itər.
Xan Əslidən bətər, Kərəmnən bətər,
Naşılar əlində yandı bu sənət.

---

[1] Dedi-qodu

## MUĞANLI ŞAİR BƏXTİYARLA AŞIQ HÜSEYN SAİNİN DEYİŞMƏSİ

**Şair Bəxtiyar:**

Dolandım dünyanı, gəzdim cahanı,
Ovçular ürküşüp, şikar azalıp.
Arvatlar hökm edir, kişilər baxır,
Qeyrətlər kütəlip, buxar azalıp.

**Aşıq Hüseyn Sai:**

Sənə cavap verim, şair Bəxtiyar,
Marallar bir daha bəriyə gəlməz.
Dağda gül yerinə qanqallar bitip,
Qızlar budaqlarda pəriyə gəlməz.

**Şair Bəxtiyar:**

Nadannar olupdu el ağsaqqalı,
Evlatlar atıya demillər "bəli".
Nökər keçip indi bəydən irəli,
Ehtiram pozulup, çıxar azalıp.

**Aşıq Hüseyn Sai:**

Duman-çiskin elə tutup dağlari,
Heç kəs görmür qan-yaş tökən ağlari.
Elə xəzan vurup güllü bağlari,
Bağbannar bu yerdə əriyər, gəlməz.

**Bəxtiyar:**

Aslannar gizlənip, girip dəriyə,
Tülkü şir donunda gəlip bəriyə.
Bəxtiyar az qalır buz tək əriyə,
Qızıl ayaq altda əyar azalıp.

**Aşıq Hüseyn Sai:**

Sai qərq olupdu əsrin sonunda,
Səkkizində, dokkuzunda, onunda.
Çoxu qurd olupdu insan donunda,
Daha canavarlar sürüyə gəlməz.

## AŞIQ GÜLƏHMƏDLƏ AŞIQ HÜSEYN SAİNİN DEYİŞMƏSİ

**Aşıq Hüseyn Sai:**

Bu dünyaya gələn günnən divanda əyləşmişəm,
Həqiqəti anlamışam, cahanda əyləşmişəm.
Gecə-günüz dərd əlinnən dadi-bidad eylərəm,
Məcnun mənəm, dalı gəzim pünhanda əyləşmişəm.

**Aşıq Güləhməd:**

Bir Allahım nəzər edip, amanda əyləşmişəm,
Şər işlərdən kənar durup, bu yanda əyləşmişəm.
Məcnun kimi Leyli deyip bulağ üsdə gözlüyüp,
Öz əhdimə vəfa edip, ənamda əyləşmişəm.

**Aşıq Hüseyn Sai:**

Sığınmışam min bir ada dildə dasdan olmuşam,
Ağamdan badə almışam, içip məsdan olmuşam.
Əğlim, huşum uçup gedip, yaxşı dosdan olmuşam
Nuh Nəbitək kəştə çıxıb ümmanda əyləşmişəm.

**Aşıq Güləhməd:**

Kəràminə baş əyirəm, odu işi düzəldən,
Bel bağlamam vəfası yox, dünya atlı gözəldən.
Min bir adın sahibinə inanmışam əzəldən,
Yaradanı kərəm eylər, sayəndə əyləşmişəm.

**Aşıq Hüseyn Sai:**

Sai deyir, hanı Səlman əli ola duada,
Hanı Əli Xeybər atan, adı ərşi-əlada.
Yazıx Fərhad dağı qazdı, çatanmadı murada,
Yusif kimi Misrə gedip, zindanda əyləşmişəm.

**Aşıq Güləhməd:**

Güləhmədəm, ha çalışdım yetənmədim murada,
Kərəm kimi oda yandım, əşk ucunnan dünyada.
Vəfasız yar atıp getdi, səsləmədim imdada,
Qar altında amanlıyam, boranda əyləşmişəm.

## AŞIQ SİRUSLA AŞIQ HÜSEYN SAİNİN DEYİŞMƏSİ (1)

**Aşıq Hüseyn Sai:**

Özünü baş bilip meydana varan,
Qartal kimi mən gəzərəm, sən nəsən?
Qırğı kimi qaynağımı çalaram,
Qoruğunu mən pozaram sən nəsən?

**Aşıq Sirus:**

Naşı qəvvas, girmə ümman bəhrinə,
Hər ümmanda üzəmməzsən, sən nəsən?
Elə zərbə çallam dura bilməzsən,
Ol zərbəmə dözəmməssən, sən nəsən ?

**Aşıq Hüseyn Sai:**

Sərraf meydanında sərraf ləl ala,
Ləl satana, ləl satasan, ləl ala.
Ləl alanda ləl alanda, ləl ala,
Hər ümmanda mən üzərəm, sən nəsən?

**Aşıq Sirus:**

Hər ləl satan qiymətinə ləl almaz,
Baş tapmasan, ləl alannar ləl almaz.
Hər bazarda ləl satanda ləl olmaz,
Qartal olup süzəmməssən, sən nəsən?

**Aşıq Hüseyn Sai:**

Hüseyn Sai bu meydanda dürr ala,
Əli istər Cəbrayıla pər ala.
Mərd yolunda sər qoyannar sər ala,
Şəhri kimi mən süzərəm, sən nəsən?

**Aşıq Sirus:**

Aşıq Sirus mərd meydanda mərt qala,
Mərd odur ki, mərd dolana, mərd qala.
Hər insana qismət deyil, mərd qala,
Hər bəlaya dözənməzsən, sən nəsən?

## AŞIQ HÜSEYN SAİ İLƏ AŞIQ SİRUSUN DEYİŞMƏSİ (2)

**Aşıq Sirus:**

Unut bu həyatda pis əməlləri,
El içində yaxşı dolan, yaxşı qal.
Bir söz var ki, düz gedənnər yorulmaz,
Ərəp tərik[1], farsi carrah, türki yol.

**Aşıq Hüseyn Sai:**

Üç dil ilə sənə cavap söylüyüm,
Bu dünyada namərtlərdən ayığ ol.
Apdal olup biyabanı dolannam,
Ərəp bərri[2], farsı səhra, türki çöl.

**Aşıq Sirus:**

Danışanda pişir söz, de sonra,
Arif məclisində düşmə sən tora.
Bir gündə insanı çəhdirər dara,
Ərəb lisan[3], farsi zəban[4], türkü dil.

**Aşıq Hüseyn Sai:**

Oyan bu qəflətdə sən eyləmə cəng[5],
Yetirən insana atma ox– xədəng.
Əzrayıl gələndə solacaq irəng,
Ərəb Əhməd, farsisi sor, türkü af.

---

[1] Yol
[2] Səhra, çöl
[3] Dil
[4] Dil
[5] Döyüş

**Aşıq Sirus:**

Sirus diyər, sırrı demə heç yada,
Cəhd elə, əməyin getməsin bada.
Nuhu qərq eylədi böyüh dəryada,
Ərəp riyəh, farsisi bab, türkü yel.

**Aşıq Hüseyn Sai:**

Hüseyn Sai dadə çağır movlanı,
Dünyada çox etmə səndə covlanı.
Üqbani unudup tutsan dünyanı,
Ərəp meyit, farsi mordə, türkü öl.

## AŞIQ HÜSEYN SAİ İLƏ AŞIQ SİRUSUN DEYİŞMƏSİ (3)

**Aşıq Hüseyn Sai:**

İstəyirəm, tərif edəm xoşdu bu çağı Təbrizin,
Qəhrəmannar məskənidir, eldi dayağı Təbrizin.
Lalə, nərgiz bürüyüp dərəsi daği Təbrizin,
Mahallara səda salıp, gülüsdan bağı Təbrizin,
Namərtlərə meydan verməz, vardı oyağı Təbrizin.

**Aşıq Sirus:**

Əldə telli saz deyirəm, vardı cəlalı Təbrizin,
İgitləri ad alıpdı, yoxdu məlalı Təbrizin.
Günnən günə ucalırıq göyə hilali Təbrizin,
Elləri var düz ilqarli, yoxdu xiyali Təbrizin,
Adı dayıma dildə gəzir, ismət xiyali Təbrizin.

**Aşıq Hüseyn Sai:**

Baxasan gözəllərinə misali-ceyran dolanır,
Onlara baxan cavannar oluplar heyran dolanır.
Qaşları yay, kiprigi ox, dişləri mərcan dolanır,
Elə yaradıp yaradan elə bil qılman dolanır,
Al-əlvana boyanıpdı, düzdü boyağı Təbrizin.

**Aşıq Sirus:**

Səttarxanı, o Babəki el-obıya haray salıp,
Bağırxanı, Xiyabanı azatlıx nəğməsin çalıp.
Qocaları qeyrətlidir, oğlannarı ilham alıp,
Dədə Qurqut, Qara Çoban inanma ki, darda qalıp,
Soruşsalar tarixlərdən, çoxdu sualı Təbrizin.

**Aşıq Hüseyn Sai:**

Hüseyn Sai əldə sazı, toy-düyündə onu çalır,
Ellərimiz qeyrətlidir, baxan onnan ilham alır.
Ona xayin olannarın, yaradan min dərdə salır,
Yaradan gözəl yaradıp, igitləri dildə qalır,
Düşmənnərə bac vermiyip, vardı oyağı Təbrizin.

**Aşıq Sirus:**

Aşıq Sirus söz söylədi, yazdı sözün ocağınnan,
Hələ sözdən belə keşdi dedi, onun bucağınnan.
Təbriz adi əzbəridi, düşməz onun dodağınnan,
Lalə rəngli, gül çiçəhli qan tökülür buxağınnan,
Min qasırqa gəlsə əgər, yoxdu zavalı Təbrizin.

## AŞIQ HÜSEYN SAİNİN GÖYÇƏLİ AŞIQ ƏLƏSGƏRİN BİR QIFILBƏNDİNƏ CAVABI

**Aşıq Ələsgər**:

Bu günnəri bir hikmətə tuş oldum,
Adı-sanı hər mahalda deyilir.
Şəriyət ətini haram buyurup,
Halal olan sümühləri yeyilir.

**Aşıq Hüseyn Sai:**

Ulu usda, mən də belə deyirəm,
O düyüdi, adı-sanı deyilir.
Ətini çıxarıp, çölə atıllar,
İçindəki sümühləri yeyilir.

**Aşıq Ələsgər:**

Mudam[1] əyağınnan çəkilməz abi,
Abi çəkiləndə heç olmaz tabi.
Çox əziz yaradıp kərəm sahibi,
Toxmağinnan, təpəsinnən döyülür.

**Aşıq Hüseyn Sai:**

Əgər ki, kəsilə düyünün abı,
Abi kəsiləndə, gətirməz tabi.
Gözəl xəlq eyliyip, kərəm sahibi,
Xərməndə toxmaxla başı döyülür.

---

[1] Daima, həmişə

**Aşıq Ələsgər:**

Ələsgər ərz eyləyər, ariflər qanar,
Üç ayda, dörd ayda o gələr cana.
Çox lətif xörəhdi, qarışar qana,
Dərmanı var, cəsədində yayılır.

**Aşıq Hüseyn Sai:**

Hüseyn Sai sözüm gətirdi sana,
Düyüdü, dörd ayda tez gələr cana.
Çox gözəl xörəhdi, qarışar qana,
Tez həzm olar, anı cana yayılar.

*******

**Ustad Ələsgər:**

Bizdən salam olsun arif olana,
Həx nə gündə xəlq elədi dünyanı?
Yer ilə göy nə saətdə bəhs etdi,
Yer nə üstəbəndi saldı asmanı?

**Aşıq Hüseyn Sai**:

Mənnən salam olsun böyük usdada,
Cümədə xəlq etdi xalix dünyanı.
Yer ilə göy yek şənbədə bəhs etdi,
Yetdi yerdə bəndi saldı asmani.

**Ustad Ələsgər:**

Asiman nə istədi barı xudadan?
Xuda nə əmr etdi ərşi-əladan?
Kimi gəldi, kimi aldı haradan,
Nə surətdə gördü məscüdül-Əksanı?

**Aşıq Hüseyn Sai:**

Göy durmax istədi barı xudadan,
Uda xəbər verdi ərşi-əladan.
Cəbrayıl Məhəmmədi aldı buradan,
Meracında gördü məscidül-Əksanı.

**Ustad Ələsgər:**

Nə ab ilə orda aldı dəsdamaz?
Neçə rükət əda eylədi nəmaz?
Neçə kimsəyinə oldu peş namaz?
Olar baqidimi olup ruhani.

**Aşıq Hüseyn Sai:**

Nuri-hidayətdən[1] aldı dəsdamaz,
İki rükət əda eylədi namaz.
(Nisa namazıdı, hacılar Məkkədə qılar).
Neçə peyqənbərə oldu peş namaz,
Gəlginən oları zənn etmə fani.

**Aşıq Ələsgər:**

Tez verəsən bu sözlərin isbatın,
Nədəndi binası abi-həyatın?
Hardadi məqami mələkən mutun?
Nə Tur ilə alır insannan canın?

---

[1] Hidayət nurundan

**Aşıq Hüseyn Sai:**

Sənə dedim bu sözlərin isbatın,
Nurdandı binası abi-həyatın.
Üçüncü göyləri mələkəl mutun,
Allahın əmriylə o alar canı.

**Ustad Ələsgər:**

Bu təzə kəlamdi olsun yəqini,
Kəbə qıblan, dini-Məhəmməd dini.
Atam Əlməmməddi, Göyçə sakini,
Adım Ələsgərdi, yaxşı bil, tani.

**Aşıq Hüseyn Sai:**

İslamın yolunda Hüseyndi şəhit,
Saiyəm, bəlada qaldı çox meyit.
Yerim Məhmudabat, atamdı Həmid,
Çalış on dört məsum kimsəni tani.

## AŞIQ ƏZİZ ŞƏHNAZİ İLƏ AŞIQ HÜSEYN SAİNİN DEYİŞMƏSİ

**Aşıq Əziz Şəhnazi:**

Ay ariflər, xəbər alsaz müxəmməsdi,
Ay ariflər, xəbər alsaz əbzəçi sanı görmüşəm.
Yaxşını yəmanı seçip, gəzip cəhanı görmüşəm,
Ümmətlərin süfrəsində nəməki nanı görmüşəm.
Çox gəzip dolanmışam, bu müəmmanı görmüşəm,
Bir-birinnən gözəl olan başda sovdanı görmüşəm.

**Aşıq Hüseyn Sai:**

Sənə cəvap verim, usda, mən də hər yani görmüşəm,
Hər bir sözə nəzər salıp, küllü dünyanı görmüşəm.
Namərd adam nan verəmməz, mətlərdə nanı görmüşəm,
Mən getmişəm hər diyara küllü usdanı görmüşəm,
Sözlərinə cəvabım var, bumu əmmanı görmüşəm.

**Aşıq Əziz Şəhnazi:**

Bir sərməz hərami gördüm, bax on iki qardaşınan,
Hərəsinin bir adı var, yanda otuz yoldaşınan.
Hər qardaşın dört gözü var, gözüylə atmış qaşınan,
Üş yüz altmış altı qaşi, on ikisi bu yaşınan,
Neçə yüz min fəsat salar, axıdar qanı görmüşəm.

**Aşıq Hüseyn Sai:**

Sərmaz həramı bir ildi bax, on iki qardaşınan,
Hər ayında bir adı var, otuz dana yoldaşınan.
Hər ayının dört həftəsi leyli-nəhardı, qaşınan gecə-gündüzü,

Üş yüz altmış altı gündü, on ikisi bu başınan bu yaşınan,
İstəsə min oyun salar, axıdar qanı görmüşəm.

**Aşıq Əziz Şəhnazi:**

Bir qarı, bir qoca gedir, nə əyləşir, nə dayanır,
İyirmi dört bülbülü var, oxuduqca olar qanır.
Hər bülbülün altmış gülü sayəsində daldalanır,
On beş, on beş şikufdədi, gülü dört yana paylanır,
Sırrıları saya gəlməz, aşkar bəyanı görmüşəm.

**Aşıq Hüseyn Sai:**

O qarıda bir saatdi, nə əyləşir nə dayanır,
İyirmi dört saətidi dolandıqca olar qanır.
Hər saatda altmış dəyqə sayəsində daldalanır,
Dörd on beş var hər saatda, olar dörd yerə paylanır,
Sırrıları saya gəlməz, mən də pünhanı görmüşəm.

**Aşıq Əziz Şəhnazi:**

Bir şahın sultanın gördüm başında var taci-zəri,
Vardı yüz on dört zərgəri, onun yaxşı olup yeri.
Altı min altı yüz altmış altı ayədi, xəzanədə var govhəri,
Doxsan min zəbərcəti var, dünya qiyməti hər biri,
Otuz sərrafa cəm olup, küllü təmamı görmüşəm.

**Aşıq Hüseyn Sai:**

Allahın Quranın gördüm "bismillahdı" tacı-zəri,
Yüz on dört də ayəsi var, gözəl yaranıp govhəri.
Altı min altı yüz almış altı ayə gözəldir, onun hər bir sirri,
Doxsan mində zikri vardı, olup mömінnər əzbəri,
Otuz cüzvə cəm olup, cümlə əyalı görmüşəm.

**Aşıq Əziz Şəhnazi:**

Bir padişah hökm eliyər, saya gəlməz qulu vardı,
Gündə beş yol baş əyəllər, yenə insan xətakardı.
Bir şah qırar öz qoşunun bu aləmə aşikardı,
Hər kəs tapsa bu sözdəri, ustalardan ustakardı,
Əziz deyir, bu sirriləri gəzip nə hanı görmüşəm.

**Aşıq Hüseyn Sai:**

Yaradanım hökm eliyər, saya gəlməz qulu vardı,
Mömün gündə beş vaxt durar, ona cün namazı yardı.
Allah qırar öz qoşunun bu aləmə aşikardı,
Hüseyn Sai açdı bunu ilqarına vəfadardı,
İndi gördün aşdın sözü, cümlə dasdanı görmüşəm.

## AŞIQ HÜSEYN SAİNİN "BABA NEYSAN" DASTANINDAN GÖTÜRDÜYÜ BİR QIFILBƏNDƏ CAVABI

**Baba Neysan:**

Mən sənnən xəbər alım, Pərizat xanım
Əzəl gündə xalix nəyi yaratdı?
Nəyi xəlq eylədi, gətdi hicaba,
Oları di, necə bir birə qatdı?

**Aşıq Hüseyn Sai:**

Al sözün cəvabın, ay baba Neysan,
Əzəl gündə xalıx nuru yaratdı.
Əzəl pənc təni gətdi nizama,
Sonra zəbərcəntdən insan çıxartdı.

**Baba Neysan:**

Adəm nə vaxt gördü ruhum bədəndə,
Nə günüydü ona şeşil[1] çəkəndə?
Peyqəmbərdi əvəl ol meraca gedəndə,
Hansı mələk idi Burağı gətdi?

**Aşıq Hüseyn Sai:**

Şənbədə Adəm ruh gördü bədəndə,
Cüməydi ona şəkil çəkəndə.
Məhəmmədə meracına gedəndə,
Cəbrayıl əlində Burağı gətdi.

---

[1] Şəkil

**Baba Neysan:**

Neysan deyər, sözlərinin əlasın,
Qəvvas olup, keçip elmin dəryasın.
O kim idi yıxdı Xeybər qalasın,
Təmam kafərləri imannı etdi?

**Aşıq Hüseyn Sai:**

Hüseyn Sai yazır, sözün mənasın,
Qəvvas kimi gəzir fikrin dəryasın.
Mövla Əli yıxdı Xeybər qalasın,
Təmam kafərləri imanlı etdi.

## AŞIQ HÜSEYN NƏCCAR İLƏ AŞIQ HÜSEYN SAİNİN DEYİŞMƏSİ

**Aşıq Hüseyn Nəccar:**

Əzəldən aşığam, el balasıyam,
Aşığın varlığı elə bağlıdi.
Sinəmdəki telli saz dillənəndə,
Barmaxlar pərdədə, telə bağlıdı.

**Aşıq Hüseyn Sai:**

Fikir ver, ay dosdum, sənə söylüyüm,
İndi din, imannar pula bağlıdı.
Ama düz yol gedən heç vax yorulmaz,
Həqiqət yol gedən yola bağlıdı.

**Aşıq Hüseyn Nəccar:**

Ürəyim darıxar ellər köçəndə,
Xiyalım yaylaxdan güllər biçəndə.
Yaz olanda qızılgüllər açanda,
Bülbülün nəğməsi gülə bağlıdı.

**Aşıq Hüseyn Sai:**

Mərd olan inanma yolunnan çaşı,
Namərtlər ölüncə naşıdı naşı.
Qartalın məkani qayalar başı,
Çünki qartal hər vax çölə bağlıdı.

**Aşıq Hüseyn Nəccar:**

Hüseyn Nətcarıda mahnı qoşanda,
Bu ürəyi od alanda coşanda.
Vəfalı yar yardan ayrı düşəndə,
Leylinin Məcnuni çölə bağlıdı.

**Aşıq Hüseyn Sai:**

Telli sazdan danış, könül gül aşsın,
Bu ara vətəndə qəm-kədər qaşsın.
Günəşdə nurunu bu yerə saşsın,
Sai diyər, mizrap telə bağlıdi.

# LÜĞƏT

## A

Ab (f) – su
Afitab (f) – günəş, nur
Ahı-fəqan (f) – ah-nalə
Ah-nahad (f) – köks
Ali-əba (ə) – Məhəmməd peyğəmbər və onun nəslinə mənsub dörd nəfərə (Məhəmməd, Fatimə, Əli, Həsən, Hüseyn) deyilir
Allahu Əkbər (ə) – Allah böyükdür
Amadə (f) – hazır
Aram (f) – sakitik, rahatlıq, dinclik

## B

Ba təəssob (f+ə) – təəssübkeşlik
Bab (f) – qapı
Bad (f) – yel, külək
Badi-səba (f) – səhər küləyi
Bal (f) – qanad
Baritaala (ə) – Uca Tanrı
Basəfa (ə) – səfalı
Bavər (f) – inam, etimad
Bazubənd (f) – qolbağ
Beduni minnət (ə) – minnətsiz
Bename (f) – adında deməkdir
Bepad (f) – dikəltmək
Beyar (d) – laqeyid
Bezənbekub, berəqs (f) – vur, əz oyna mənasında
Bəəd (ə) – sonra
Bəxyə (ə) – yaranı tikmək, bağlamaq
Bəxyə (ə) – yaranı tikmək, bağlamaq
Bəqiyyə (ə) – qalan
Bəlanisbət (ə) – sizdən iraq

Bəlto (f) – palto
Bəna elədi (ə) – başlamaq
Bəndə salmaq (ə) – tora salmaq, həbs eləmək
Bəndivan (f) – tutulmaq
Bəndivan (f) – tutulmaq
Bəng (f) – Toxumunda narkotik maddələr olan bitki; bəng otu
Bəraye inki zira (f) – bunun üçün ki, bu səbəbdən
Bəraye-inki (f) – bunun üçün
Bərnamə (f) – plan
Bərri (ə) – çöl, səhra
Bəzzac (ə) – parça, arşınmalı satan tacir
Bica (f) – mənasız, yersiz
Bidar (f) – oyaq, xəbərdar
Biləxərər (ə) – nəhayət
Bimar (f) – xəstə, naxoş
Bipərva (ə) – çəkinmədən
Bipərva (ə) – çəkinmədən
Bir dəmdə (f) – bir anda
Bitab (f) – dözümsüz
Börk  (d) – papaq
Bu heyni (d) – bu an
Budar-bardax (d) – hissə-hissə, parçalanmış şəkildə
Burz (f) – açıq-aydın
Busat (ə) – məclis, şənlik, bayram
Busə (f) – öpmək
Bünyad (ə) – bina, təməl
Bürhan (ə) – dəlil, sübut

**C**

Cada (f) –yol
Cəddi-abad (ə) – soy-kök
Cəlali-cəbbar (ə) – cah-cəlallı
Cəng (f) – döyüş
Cəngi-cidal (f) – dava-dalaş

Cənnəti-rizvan (ə) – cənnət mələyi
Cəvanmərd (f) – igid
Cida (d) – silah, mizraq
Cida (f) – ayrı, uzaq
Cövlan (ə) – dolanmaq, hərəkət etmək
Cümrüd (d) – igid

**Ç**

Çanqal (ə) – caynaq
Çarşu (f) – dörd yan, dörd tərəf
Çəpoçulux (t) – qarət, yağmalama, talançılıq
Çəpraz (f) – çarpaz
Çəşm (f) – gözüm üstə
Çikufə (f) – fidan
Çıqqılı (d) – balaca, kiçik

**D**

Damən (f) – ətək
Darayimi (f) – var-dövlətimi, malımı
Davat (f) – qələm boyası
Davat (f) – qələm boyası
Dəhan(f) – ağız
Dəqqəlbab (ə) – qapını çaldı, qapını döydü, taqqıldatdı
Dərdar (f) – qapıçıya, sarayın gözətçisinə
Dərəcə yek (f) – bir nömrəli, seçilmiş
Dərxanə (f) – padişahın xüsusi otağı
Dəsbes (f) – əlləri döşündə
Dəsgir etmək (f) – saxlamaq, tutmaq
Dəskir (d) – əldə tutan, yardımcı
Dəsmuzd (f) – əl haqqı mənasında
Didə (f) – göz
Dil (f) – dil
Dirəxşan (f) – parıldayan, işıq saçan

Dov etmək (t) – qızışdırmaq, meydanına çağırmaq
Dövrə (ə) –kənar
Dudurğu (f) – qarışıq millətdən olan şəxs mənasında
Dübarə (f) – dönə-dönə
Düldül (ə) – Həzrəti Əlinin atı
Dürri-gövhər (ə+f) – qiymətli inci
Dürrü-qəltan (ə) – yumuru inci, mirvari

**E**

Ehsas (ə) – hiss etmək

**Ə**

Əbcəd (ə) – qədim ərəb əlifbasında ilk dörd hərf
Əblaq (ə) – ağ-qara, ala-bula
Əbrişəm (d) – ipək
Ədəda (ə) – əbədən
Əflak (ə) – fələk
Əfsəl (ə) – fəzilətli, qiymətli
Əhliyal (ə) – əhlü əyal (ailə üzvləri deməkdir)
Əqəllən (ə) – heç olmasa, ən azı
Əlan (f) – indi, bu an
Əmud (ə) – toppuz
Ənbər (ə) – ətirli, qoxulu
Əncum sipahi (f) – ulduzlar ordusu
Əndazə (f) – ölçü
Ənkbut (ə) – hörümçək
Ənqərib (ə) – ən yaxın
Ənquşt (f) – barmaq
Əntər (ə) – meymun cinsi
Ərzani (d) – hədiyyə verilən əşya
Ərziş (f) – dəyər
Əşxas (f) – adamlar

## F

Faş (ə) – üstü açılmaq, ortaya çıxmaq
Fəqan (ə) – fəryad, nalə
Fərağətidi (ə) – ayrılığı, ərəbcədən türkcəyə şəkilçilə düzəlmiş mürəkkəb sözdür
Fəraq (ə) – ayrılıq, hicaran
Fərraş (ə) – xidmətçi
Fərzən (ə) – fərz, təxmin
Fərzənd (f) – övlad
Firiş (f) – mələk
Füruş (f) – satan, satış

## G

Gərdan (f) – boyun
Gərdənbənd (f) – boyunbağı
Gərdun (f) – dolanan, dönən
Gərm söhbətə başlamaq (f) – başı qızğın söhbətə qarışmaq
Gəşt (f) – gəzişmə, gəzinti
Giriftar (f) – əsir, tora düşən
Giriftar (f) – əsir, tora düşən
Gövhəri-kan (f) – qiymətli daş mədəni
Göyül (d) – könül, qəlb
Guşə (f) – bucaq, künc
Güdar (f) – güzar
Günə (f) – heç cür
Gürz (ə) – Müxtəlif işlərdə işlədilən çox ağır, iri çəkic

## H

Heydər (ə) – 1. aslan, şir; 2. Həzrət Əlinin adı
Həmdəm (f) – həyat yoldaşı, arvad
Həmsayə (f) – qonşu
Həmta (f) – yaşıd, həmyaş
Hənüz (f) – hələ ki

Hərami (ə) – yol kəsən, talançı, oğru
Hərcai (f) – avara, sərsəri, veyil, heç bir işlə məşğul olmayan
Hətmən (ə) – sözsüz-şübhəsiz
Həzəran (f) – minlərcə
Həzrəti Mövla (ə) – Allah
Hicran (ə) – ayrılıq
Höyül-bala (d) – tələm-tələsik
Huri (ə) – gözəl qız mənasında
Huri-qılman (ə) – mələklərin adları
Hüruf (ə) – hərf

**X**

Xak (f) – torpaq
Xakı-pay (f) – ayaq basılan yer
Xaktaraş (ə) – doğramaq, biçmək
Xaliq (ə) – Xəlq edən, Yaradan
Xaniman (f) – ev-eşik
Xar (f) – tikan
Xədəng (d) – oxun qabı
Xərix-furuşdar (f) – alqı-satqıdan
Xəsa (ə) – düşmən
Xiridar (f) – 1. alıcı, müştəri, 2. bir şeyin bilicisi; bir şeyi düzgün qiymətləndirməyi bacaran.
Xiri-xidəng (f) – ox, yay
Xiyaban (f) – iki tərəfinə ağac əkilmiş, uzun küçə və ya yol
Xub (f) – yaxşı
Xun (f) – qan
Xurd (f) – yedizdirmək
Xurşidi-xavər (f) – şərqdən doğan günəş

**İ**

İftizah (ə) – rüsvay olma, biabır olma, biabırçılıq
İxtilat (ə) – danışmaq, söhbət etmək

İltimas (ə) – xahiş
İştibah (ə) – səhv
İşvə (ə) – naz, qəmzə
İzaf (ə) – əlavə

**K**

Kar (f) – iş
Kəbutər (f) – göyərçin
Kəhkəşan (f) – qalaktika, süd yolu
Kəm (f) – pusqu
Kəman bağlar (f) – əymə, aypara
Kəmənd (f) – ovda və ya sürüdə heyvanları, döyüşdə isə düşməni tutmaq üçün uzaqdan atılan ucu ilməkli uzun ip
Kəsəddiy (ə) – kasıblığı, əksikliyi
Kəşgül (f) – Hind qozunun qabığından qayrılıb dərviş və qələndərlərin əllərində gəzdirdikləri və diləndikləri şeyləri içinə qoyduqları qab
Kif (f) – çanta
Kövsər (ə) – cənnətdə bulaq adı
Közəl (d) – çör-çöp
Küləfirəngi (f) – sarayda, qəsrdə böyük daş balkon
Külli-cahan (ə) – bütün dünya
Külli-ənam (ə) – hədiyyə, mükafat
Kürdümanənd (f) – gen şalvar
Küşti (f) – güləşmək
Kütah (f) – qısa, gödək

**Q**

Qalü-bəla (ə) – Yaradanın yaratdıqlarıyla; xüsusi ilə insanla olan anlaşmasına aid bir qisim sözlərdir ki, bu anlaşmada: "Mən sizin Rəbbiniz deyiləmmi?" deyə soruşular. Qarşılığında da: "Bəli, Rəbbimizsən" cavabı alınar.

Qəbləzin (ə+f) – öncədən
Qədd (ə) – boy, boy-buxun, qamət
Qəhr (ə) – qəzəb, hirs, hiddət
Qəmər (ə) – ay
Qəmnak (f) – qəmli
Qərğa bam (ə+f) – gur əsən sel
Qəvvas (ə) – üzgüçü
Qəza (d) – yemək
Qılman (ə) – behişt xidmətçiləri
Qilü-qal (ə) – dedi-qodu, söz, danışıq
Qondarmaq (d) – dayandırmaq
Qovul (d) – söz vermək, əhdi-peyman bağlamaq
Qovzamaq (f) – qaldırmaq
Qubar (ə) – toz-torpaq
Qurhan (f) – ordu, alay
Quş (f) – qulaq

**L**

Laəqəl (ə) – ən azı
Laşərik (ə) – şəriki olmayan
Leyli-nəhar (ə) – gecə-gündüz
Ləb (f) – dodaq
Ləli-göhər (ə) – qiymətli inci
Ləşgər (f) – qoşun
Libas (ə) – paltar
Lisan (ə) – dil
Lova (d) – ağzınabasmaq, yemək

**M**

Mabeyn (ə) – arasında
Madərzad (f) – anadangəlmə, lüt mənasında
Mah (f) – ay

Mah camal (ə+f) – ay üzlü
Mahi-taban (f) – ay işığı
Manəndi-hübab (f) – qabarcıqlar kimi
Mar (f) – ilan
Matah (ə) – dəyərli əşya
Mayeat (ə) – suyun maye halı
Mehman (f) – qonaq
Mədid (ə) – uzun, çox sürən
Məğrib (ə) – günbatan, qərb
Məhək (ə) – bir şeyin keyfiyyəti, dəyərini göstərən şey
Məhşər (ə) – qiyamət günü
Məlal (ə) – kədər, qəm, qüssə
Məlamət (ə) – danlaq, danlama, məzəmmət, töhmət
Məlik toccar (ə) – baş tacir, tacirlərin rəhbəri
Məlul (ə) – qəmgin-qəmgin
Mənkir (ə) – inkar edən
Mənzur (ə) – nəzərdə tutulmuş
Məratip (ə) – mərhələ
Mərdum (ə) –xalq
Məriz (ə) – xəstə, naxoş
Mərz (f) – sərhəd
Məşrik (ə) – Günəşin doğduğu tərəf, şərq
Mətləb-murad (ə) – arzu, istək, dilək, istənilən şey, məqsəd
Məvacib (ə) – payına düşən əmək haqqı
Məzərət (ə) – üzr diləmək
Miləh (ə) – təbbəsüm
Miri-sərhəng (f) – qoşunun başçısı
Morafeət (ə) – böyüklük, ucalıq
Mordeşur (f) – ölü yuyan
Mubəmu (f) – dəqiqliyi ilə
Mucazat (ə) – cəzalandırmaq
Munəzzəm (ə) – səliqəli, nizamlı
Munis (ə) – istiqanlı, mehriban
Munsərif (ə) – əl çəkmək

Musafirət (ə) – səfər, səyahət
Muş (f) – siçan
Muy (f) – saç, tel
Mübhəm (ə) – gizli
Mücəddə (ə) – yenidən, bir daha
Mücəhhəz (ə) – hazır
Mücərrəd (ə) – burada subay mənasında işlənilib
Müctəhid (ə) – ali dini rəhbər
Müdam (ə) – daima, həmişə
Müddəti-mədid (ə) – uzun müddət
Müxənnas (ə) – namərd
Müjgan (f) – kiprik
Müqərrəb (ə) – dost, yoldaş
Mülaqat (ə) – görüşmə, görüşüb danışma, əlaqə saxlama
Müntəha (ə) – nəhayət
Müntəzir (ə) – gözləmək
Mürəxəs (d) – azad olmaq, sərbəst olmaq
Mürəttəb (ə) – tərtib edilmiş
Müsafirət (ə) – səfər etmək, gəzinti, səyahət, yola çıxmaq
Müşgül güşa (ə+f) – çətinlikləri aradan qaldıran
Müşkü-ənbər (f) – gözəl qoxu
Müştaq (ə) – həsrətində olmaq
Mütməyin olmaq (ə) – əmin olmaq
Mütrüb (ə) – çalğıçı ilə oynayan, rəqqasə
Müvazibət (ə) – qorumaq
Müztərip olmaq (ə) – iztirablı olmaq

**N**

Nagahandan (f) – qəfildən
Naqqal (ə) – çox, boş-boş danışmağı sevən, lağlağı, boşboğaz, gəvəzə, çərənçi
Nan (f) – çörək
Nar (ə) – od, atəş
Nəccar (f) – dülgər

Nəqqaş (ə) – rəssam
Nəmək (f) – duz
Nəsəx (ə)– dərdi tapılmayan xəstə
Nəzdik (f) – yaxın
Nəzikri (f) – az qalmaq, yaxın mənasında
Nigahban (f) – gözətçi
Niqab (ə) – üz örtüsü, duvaq
Nisab (ə) – əsas, əsil
Nuri şəms (ə) – günəş işığı
Nuri-Yezdan (ə) – Allahın nuru

**O**

Osaf (ə) – vəsf

**Ö**

Övza (ə) – əhval

**P**

Peşvaz (pişvaz) (f) – qabaq, ön
Peyki-rəhman (f) – Allahdan xəbər gətirən
Peyman (f) – əhd, söz vermək
Pənç tən Ali əba (f) – Peyğəmbərin əbasında qoruduğu Əhli-beyt üzvləri
Pər (f) – qanad
Pərdə (f) pünhan (ə) – gizli
Pərtab elədi (f) – atmaq, tullamaq
Pərvaz (f) – uçmaq
Pəsənd (f) – bəyənmə, tərifəmək
Pəsəz (f) – bir müddətdən sonra
Pişaməd (f) – başa gəlmək, gözlənilməz hadisə
Pişvaz (f) – qaşılamaq
Porsuyub (d) – qəzəbli, narahat
Pünhan (f) – gizli, xəlvət

**R**

Rahdar (f) – yol gözətçisi
Rahi-ərkan (ə) – ədəb-ərkan yolu
Rəfix (ə) – dost
Rəfrəf (ə) – Məhəmməd peyğəmbərin (s.) merac zamanı mindiyi ikinci xəyali atın adı.
Rəh (f) – yol
Rəvan olmaq (f) – yola düşmək
Rifaqət (ə) – yoldaş, dost
Rikab (ə)– yanında (mərkəb)
Rubənd (f) – üz örtüyü
Ruyi-zəmin (f) – yer üzü, dünya
Rübənd (f) – üz örtüyü

**S**

Sabiqə (ə) – keşmişdə olmuş, əvvəlki
Saxtuman (d) – yaşayış yeri, bina
Saqi (ə) – şərab paylayan, qədəhlərə şərab tökən
Saqiyi-kövsər (ə) – cənnətin Kövsər adlı bulağının saqisi (su başçısı)
Salat (ə) – namaz
Sayə (ə) – kölgə
Səddarsəd (f) – yüzə-yüz
Səxt sillə (f) – bərk, möhkəm, sillə
Sər (f) – 1.baş, 2. başçı, rəsis
Sərbaz (f) – əsgər
Sərbəsər (f) – başdan-başa, bütünlüklə, tamamilə, bütöv, tamam
Sərd (f) – soyuq
Sərgərdan (f) – avara
Sərxab (f) – mürgüləmək
Sərşinas (f) – baş bilən
Sərvər (f) – rəhbər, başçı
Sərvi-rəvan (f) – uca-boy, düzgün yerişli

Sibili yoğun (f) – buğuburma
Sicillim (ə) – şəxsiyyət vəsiqəsi
Sidrətül-müntəha (ə) – son sərhəd. Yeddinci qat göydə qulların Allaha yaxın ola biləcəyi ən son sərhəd
Sixə (f) – şiş
Sin (ə) – yaş
Siratəl müstəqim (ə) – doğru yol
Sitarə (f) – ulduz
Siyahçal (f+t) – qara quyu, dərin quyu
Sübdü (ə+f) – səhərə yaxın
Süxənvərrik (ə) – yaxşı nitq qabiliyyəti olan şəxs
Sümmi (ə) – oruc
Sümmü (ə) – müəqəddəs, uca

## Ş

Şahap (ə) – parıldayan ulduz
Şahı-ətşan (f) – susayan şah, Həzrəti Əliyə işarə edir
Şahi-Mərdan (f) – Adamların şahı. Həzrəti Əliyə verilən ad
Şahsəvar (f) – şahın atlı qvardiyası
Şeşdəngin (t+f) – hamısı
Şeşpər (f) – Altıdilli toppuz (qədim silah)
Şəb (ə) – gecə
Şəcər (ə) – ağac
Şəhrə (d) – bədənin yağı (piyi)
Şəmadət (ə) – danlamaq
Şəms (ə) – günəş, gün
Şəmşir (f) – qılınc
Şəmşirin şabbası (d) – qılıncın iti tərəfi
Şərməndə (ə) – utanmaq
Şikəstlik (f) – məğlub etmək mənasında
Şivit (d) – nazik
Şuxluq (d) – zarafat etmək
Şum (ə) – nəs (nəhs)
Şum Sitarə (ə) – nəsh ulduz

Şur (f) – vəcd, şövq, cuşa gəlmə, coşqunluq
Şuru eliyək (ə) – başlamaq
Şüca (ə) – qorxmaz, igid
Şümşad (f) – cürbəcür alətlər, ev əşyalari və s. hazırlanan çox möhkəm oduncaqlı həmişəyaşıl ağac

## T

Tağət eləmir (ə+t) – tab gətirmir, dözmür
Təbər (f) – balta
Təğazə (ə) – ərizə, rica, xahiş
Təğyir (ə) – dəyişdirmə
Təğyiri-libas (ə) – libas dəyişdirmə
Təqaza etmək (ə) – rica etmək
Təlavət (ə) – oxumaq
Tənabbaz (ə+f) – ip üstündə yeriyən, göz bağlayıcı
Tənəvvü (ə) – çeşidli,rəngarəng
Təsadlıq (ə) – sədəqə vermək
Tifaqar (ə) – ittifaq, birlik
Tirə və tar (f) – qaranlıq
Tiri-xədəng (f) – ox
Tozih (ə) – izah vermək
Tubi (ə) – cənnətdə bitən gözəl, hündür bir ağac
Tul vermək (d) – uzatmaq
Türab (ə) – torpaq, qum, toz

## Ü

Üqaba (ə) – axirət
Üryan (ə) – çılpaq

## V

Vağiən (ə) – gerçəkdən, həqiqətən
Vaqiən (ə) – gerçəkdən, həqiqətən

Varid olmaq (ə) – çatmaq
Velləmək (d) – başını buraxmaq
Vəgərnə (f) – yoxsa, əks halda
Vəsət (ə) – arasında
Vəz (ə) –əhval, durum

**Y**

Yedurğu (f) – eyni millətdən olan şəxs mənasında
Yoxunuram (d) – yaxınlaşıram

**Z**

Zati-mütləq (ə) – Allah
Zəbərcəd (ə) – keçmişdə qiymətli daşlardan sayılan, zümrüdə bənzəyən yaşıl rəngli daş
Zənəxdan (f) – çənədə yaxud yanaqda çuxur
Zərxərid (f) – qızıl pul müqabilində alınmış kəniz
Ziba (f) – bəzəkli, zinətli
Zimistan (f) – qış fəsli
Zindəgan (f) – yaşayış
Zinəxdan (f) – çənə çuxuru
Ziyad (ə) – çox, artıq
Zöhak (ə) – Zöhhak – mifik qəhrəman
Zülf (f) – saç
Zülfiqar (ə) – Həzrət Əlinin qılıncının adı

## MÜNDƏRİCAT

***ÖN SÖZ*.................................................................3**
Əhməd və İbrahim..........................................................15
Gərgərli Məhəmməd .......................................................59
Koroğlunun Toqat səfəri...................................................85
Koroğlunun İstanbul səfəri..............................................152
Koroğlunun Ərzurum səfəri.............................................162
Əmrah və Səlvinaz...........................................................183
**Deyişmələr...................................................................293**
Dirili Qurbaninin Əhməd ilə deyişməsi..........................293
Qurbaninin bir qıfılbəndinə şair
İsmayıl Mahirdən cavab...................................................295
Xəstə Qasımın deyişmələri...............................................297
Can ilə Cəsədin deyişməsi................................................297
Zəmin və Asimanın deyişməsi.........................................300
Xəstə Qasımnan Təbrizli Molla Əlinin deyişməsi ..........302
Pəri xanımla Xəstə Qasımın deyişməsi............................304
Xəstə Qasımla Ləzgi Əhmədin deyişməsi (1)...................305
Xəstə Qasımla Ləzgi Əhmədin deyişməsi (2)...................308
Gülüstan xanımla Əlyarın deyişməsi...............................312
Tiflisli Aşıq Əli ilə Nurikin deyişməsi.............................314
Ululu Kərim ilə Süsən xanımın deyişməsi.......................316
Göyçəli Aşıq Bəhmənin Aşıq Ələsgərdən götürdüyü
qıfılbəndinə cavabı...........................................................319
Aşıq Ələsgərin Xəstə Qasımın qıfılbəndinə cavabı..........321
Məzahir Daşqınla Hüseyn Cavanın deyişməsi.................323
Abbas Tufarqanlıdan bir neçə deyişmə ("Abbas və
Gülgəz" dastanından)........................................................325
Abbasla Şirazlı Mirhüseynin deyişməsi..........................327
"Əsli və Kərəm" dastanından Kərəm və Varanuşun
deyişməsi...........................................................................329
Mərəndli Məhəmmədlə Hüseyn Sainin deyişməsi..........330

Şair Nəbi ilə Hüseyn Sainin deyişməsi............................332
Aşıq Manafla Aşıq Hüseyn Sainin deyişməsi.....................334
Muğanlı şair Bəxtiyarla Aşıq Hüseyn
Sainin deyişməsi...............................................................336
Aşıq Güləhmədlə Aşıq Hüseyn
Sainin deyişməsi ..............................................................338
Aşıq Sirusla Aşıq Hüseyn Sainin deyişməsi (1)...............340
Aşıq Hüseyn Sai ilə Aşıq Sirusun deyişməsi (2).............342
Aşıq Hüseyn Sai ilə Aşıq Sirusun deyişməsi (3).............344
Aşıq Hüseyn Sainin Göyçəli Aşıq Ələsgərin
bir qıfılbəndinə cavabı.....................................................346
Aşıq Əziz Şəhnazi ilə Aşıq Hüseyn Sainin deyişməsi......350
Aşıq Hüseyn Sainin "Baba Neysan" dastanından
götürdüyü bir qıfılbəndə cavabı.........................................353
Aşıq Hüseyn Nəccar ilə Aşıq Hüseyn
Sainin deyişməsi...............................................................355
Lüğət..................................................................................357

**Güney Azərbaycan folkloru**
**XVII kitab.**

Bakı, Elm və təhsil, 2024

Nəşriyyat direktoru:
*İnal MƏMMƏDLİ*

Kompüterdə yığan:
*Gülmira* MEHDIYEVA

Kompüter tərtibçisi və
texniki redaktoru:
*Səadət İBRAHIMLI*

Dizayn:
*Vildan MƏMMƏDOVA*

Korrektor:
*Lalə BƏDIROVA*

Kağız formatı: 60/84 1/32
Mətbəə kağızı: №1
Həcmi: səh 374, Tirajı: 150

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, səhifələnmiş,
"Elm və təhsil" NPM-də ofset üsulu ilə
Hazır deopozitivlərdən çap olunmuşdur.